VƏFADDİN İBAYEV
MİRHÜSEYN NƏBİYEV

# SUVERENLİK YOLÇULARI:
## ŞƏHİDLƏR –
## CİYƏRLİ VƏ CƏSUR İGİDLƏR

Təhsil
NƏŞRİYYAT-POLİQRAFİYA
BAKI–2025

Elmi redaktoru:

**İbrahim Quliyev**

*Hüquq elmləri doktoru, professor,*
*Əməkdar müəllim*

**Vəfaddin İbayev, Mirhüseyn Nəbiyev.**
**V55 Suverenlik yolçuları: şəhidlər – ciyərli və cəsur igidlər.**
Bakı, "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC, 2025, 296 səh.

Kitab Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərə həsr olunmuş, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi şəhidliyə aparan yol kimi səciyyələndirilmiş, şəhidliyin müqəddəslik zirvəsi müxtəlif müdriklərin fikirləri, "Qurani-Kərim"in ayələri, "Kitabi-Dədə Qorqud" və digər əsərlərin nümunəsində nəzərə çatdırılmışdır.

Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin münaqişəni şəhidlərsiz, sülh yolu ilə nizama salmaq sahəsindəki fəaliyyəti real misallar, konkret istinadlarla əsaslandırılmışdır.

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununa kommentariya kitabı hüquqi cəhətdən zənginləşdirmiş, ondan faydalana biləcək şəxslərin dairəsini genişləndirmişdir.

Kitab Azərbaycan Respublikasının azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olanların xatirəsini əziz tutan geniş oxucu kütləsi, hüquqşünaslar, xüsusən şəhid ailəsi üzvləri üçün faydalı hesab olunur.

**V $\frac{4603010000}{053}$ 2025**

**© "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC**

## AZƏRBAYCAN RESPUBLİKASINDA ANIM GÜNÜNÜN TƏSİS EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

## SƏRƏNCAMI

Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır.

Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirmişdir.

Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.

Həmvətənlərimizin bir çoxu şəhid olmuş, itkin düşmüş, yaralanaraq sağlamlığını itirmişdir. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir.

Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına

döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qərara alıram:

1. Hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 2 dekabr 2020-ci il*

“2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilsin”.

Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2024-cü il tarixli Sərəncamı

Kitab 2025 – Konstitusiya və suverenlik ili ilə əlaqədar keçirilən tədbirlər çərçivəsində hazırlanmış, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəhidlərə ithaf olunur.

# ÖN SÖZ

Müasir Azərbaycan tarixində ən önəmli hadisə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələrinin erməni işğalçılarını Azərbaycan torpaqlarından qovub çıxardaraq dövlətin ərazi bütövlüyünü və suverenliyini təmin etməsidir. Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunması ölkənin bütün ərazisi üzərində Azərbaycan hakimiyyətinin üstünlüyünü, Azərbaycan ərazilərində dövlətimiz tərəfindən müəyyən edilən idarəçilik üsulunun, Azərbaycan qanunvericiliyinin tətbiqi imkanının əldə edilməsidir. Bu, həmçinin xarici dövlətlərlə münasibətlərdə Azərbaycanın müstəqil qərar qəbul etməsində, heç bir xarici qüvvədən asılı olamamaqda təzahür edir.

Ərazi bütövlüyü və suverenliyin xalqın taleyində mühüm əhəmiyyəti, həm də onların müəyyən qurbanlar hesabına başa gəlməsi ilə şərtlənir. Torpaq uğrunda canından keçənlər olmadan, torpaq şəhid qanı ilə islanmadan dövlətin müstəqilliyinə, azadlığına, ərazi bütövlüyünə, suverenliyinə nail olmaq mümkün deyildir. Şəhidlər ona görə müqəddəsdir ki, onlar Vətənin, dövlətin müstəqilliyi, torpağın azadlığı, zülmə ədalətin qalib gəlməsi uğrunda vuruşmuş və bu yolda qurban getmişlər. Şəhidlik həyatdan məhrum olmaq, ölmək deyildir. Şəhidlər ölmürlər. Şəhidlərin fərqləndirici cəhəti elə onların ölməzliyində, əbədiyaşarlığında, şəhidlərin xalqın qəlbində, ruhunda, Vətən torpağının hər bir qarışında yaşamlarını davam etdirmələrindədir.

Azərbaycanın şəhidləri ölməyib, onlar hər yeni doğulan körpənin çöhrəsindəki təbəssümündə, anaların həsrət, yol çəkən gözlərində, qız-gəlinlərimizin sevgi dolu qəlblərində, ataların vüqarlı, mərd duruşunda, əsgər yoldaşlarının düşmənə zərbə

endirən qollarının gücündə, Vətənin havasında, suyunda, şəhidlərin şərəfinə salınmış bağların gülündə-çiçəyində, ölkəmizin hər bir uğurunda təzahür edir, bizimlə birgə addımlayırlar. Bir vaxtlar biz bu dünyadan köçsək də şəhidlər yenə yaşayacaq, onlar Vətən durduqca, onun əbədiyaşar övladı kimi xatırlanacaqlar.

Kitab "2025 – Konstitusiya və Suverenlik İli" çərçivəsində həyata keçirilən tədbirlərlə əlaqədar yazılmış, Vətənin azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda həlak olan şəhidlərə ithaf olunmuşdur.

Birinci yazı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi aspektləri və həmin münaqişənin 1992-ci ilin ortalarına kimi yaratdığı nəticələrə həsr olunmuşdur. Heç bir hüquqi əsası olmadan erməni təcavüzkarlarının "Böyük Ermənistan" yaratmaq xülyalarının doğurduğu nəticələr bir daha ona dəlalət edir ki, hər bir bəla hələ rüşeym halında müəyyən edilməli və onun qarşısı vaxtında almalıdır. Hadisənin qarşısını vaxtında almaq, onun doğurduiğu nəticələri aradan qaldırmaqdan daha asandır.

İkinci yazıda Ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan oğullarının şəhid olmasının qarşısını almaq məqsədilə uzun müddət ərzində münaqişəni sülh yolu ilə həll etmək sahəsində fəaliyyətlərinə həsr olunmuşdur. Həmin yazıda dövlət başçılarının çoxtərəfli fəaliyyəti, yəni həm ayrı-ayrı dövlət başçıları ilə görüşlərin keçirilməsi, Azərbaycanın haqlı tələblərini beynəlxalq təşkilatlar çərçivəsinə çıxarmaqla mövqeyinin dəstəklənməsinə nail olunması, strateji tərəfdaş ölkələri müəyyən edib, onlarla birgə fəaliyyətin təmin olunması, Ermənistan rəhbərləri ilə müxtəlif səviyyələrdə danışıqların aparılması ilə yanaşı, həm də ölkənin iqtisadi cəhətdən inkişafına nail olunmasını, ordu quruculuğunu, gənclərdə vətənpərvərlik hisslərinin yüksəldilməsi məsələləri öz əksini tapmışdır.

Üçüncü yazı gənclərdə, xüsusən orduda vətənpərvərlik hisslərinin yüksəldilməsinin zəruriliyi, bu sahədə dövlət başçılarının fəaliyyəti, vətənpərvərliyin Vətən sevgisi və şəhidliyin mənəvi

əsası kimi cəhətlərinə həsr olunmuş, bu sahədə Ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fikirlərinə mühüm yer verilmişdir.

Dördüncü yazıda şəhidliyin müqəddəsliyi həm müdriklərin deyimləri, "Qurani-Kərim"in ayələri, yazılı abidəmiz olan "Kitabi-Dədə Qorqud"un dastanları, şair və yazıçılarımızın əsərlərində ifadəsini tapması nəzərə çatdırılmaqla Azərbaycan dövlətinin şəhidlərə münasibəti də əks etdirilmişdir.

Beşinci yazıda "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu şərh edilmişdir. Həmin yazıda ölkəmizdə şəhidlərə verilən dəyər Qanunun normaları əsasında izah edilmiş, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinin sosial müdafiəsinin təmini ilə bağlı dövlət tərəfindən görülən tədbirlərə, onların qanuni əsasları və qaydalarına qanun normaları və Nazirlər Kabinetinin qərarları əsasında aydınlıq gətirilmişdir.

Kitab həm də şəhidlər qarşısında bir borc kimi yazılmışdır. Əlbəttə, heç bir yazı, heç bir kitab şəhidlər qarşısında borcumuzu ödəyə bilməz. Şəhid qarşısında borc ana qarşısında borc kimi müqəddəslər qarşısında borcdur. Yazdıqlarımız isə bu istiqamətdə fəaliyyət göstərməyimizin bir təzahürü, bir təsəllisi kimi dəyərləndirilməlidir.

Allah şəhidlərə rəhmət etsin!

# YAZI 1
# ERMƏNİSTAN–AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ:
# ŞƏHİDLİYƏ APARAN YOL

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi erməni separatçıları tərəfindən Azərbaycanın Dağlıq Qarabağ ərazisinin Ermənistana birləşdirilməsi məqsədilə başlanmışdı. Dağlıq Qarabağın əzəli Azərbaycan torpaqları olmasına baxmayaraq erməni millətçiləri tərəfindən həmin ərazilərin "Böyük Ermənistan" xülyasının bir hissəsi kimi nəzərdən keçirilməsi xalqlar arsında münaqişəni tədricən alovlandıraraq böyük faciələrə yol açdı.

Qarabağ xanlığının əsasını Pənahəli bəy 1748-ci ildə qoyaraq özünü xan elan etmiş. Xanlıq 1748-1805-ci illərdə Kür və Araz çayları arasındakı sahədə mövcudluğunu davam etdirmişdi. 1805-ci il mayın 14-də müstəqil Azərbaycan xanlığı olan Qarabağın xanı İbrahim xanla rus general Sisianov arasında imzalanmış Kürəkçay müqaviləsində xanlığın ərazisində ermənilərin yaşaması və ya onlarla bağlı hər hansı bir müddəanın yer almaması xanlığın azərbaycanlılara məxsusluğuna dəlalət edirdi. Qarabağ xanlığının Rusiya tərkibinə daxil edilməsi ərəfəsində Şimali Azərbaycanda əhalinin sayına görə Şirvan xanlığından (135.000) sonra ikinci yerdə Qarabağ xanlığı dururdu. Həmin dövrdə Qarabağda 1 şəhər, 638 kənd olmuş, əhali 90 min nəfər təşkil edirdi.

Ümumdünya tarixində həmin dövrdə çar Rusiyasının siyasəti ilə əlaqədar yazılır: "Çar Rusiyasının hakimiyyət dairələri özlərinin iqtisadi və siyasi maraqlarından çıxış edərək Zaqafqaziyanı birləşdirməyə çalışırdılar. Çarizm öz qarşısında müstəmləkəçilik

məqsədləri qoymuşdu"[1]. Çar Rusiyasının apardığı siyasət və təzyiqləri nəticəsində 1805-ci ildə Qarabağ xanlığı Rusiya ilə birləşdi. 1804-1813-cü illər Rusiya-İran müharibəsindən sonra bağlanmış Gülüstan sülh müqaviləsindən sonra da İran İrəvan və Naxçıvan xanlıqlarını öz hakimiyyəti altında saxlayırdı.

"Gülüstan" (1813-cü il) və "Türkmənçay" (1828-ci il) müqavilələrindən sonra Qarabağın taleyi ilə bağlı erməniləşdirmə prosesi üçün şərait yaradıldı. Həmin müqavilələr nəticəsində tarixi bir ədalətsizliklə Azərbaycan torpaqlarının iki dövlət – İran və Rusiya arasında bölüşdürülməsi rəsmiləşdirildi.

Ermənistan–Azərbayçan münaqişəsinin Türkmənçay müqaviləsi ilə bağlılığının digər bir cəhəti onda idi ki, müqavilənin 15-ci maddəsində İran vilayətindən əhalinin Rusiyaya sərbəst keçməsi üçün bir il vaxt verilmişdi. Müqavilənin bu maddəsindən əsasən İranda yaşayan erməni əhalisinin Zaqafqaziyaya köçürülməsi üçün istifadə edildi. 1828-ci ildən İran və Türkiyədən İrəvan və Qarabağa erməni əhalisinin kütləvi köçürülməsi başlanmış və bu müqavilədə nəzərdə tutulduğu kimi bir il deyil, uzun müddət davam etmişdi. Nəticədə Qarabağ ərazisində olan ermənilərin sayı kəskin surətdə artmış və 1897-ci ildə ermənilər əhalinin 53 faizini təşkil etmişdilər. A.S.Qriboyedov bu barədə yazırdı: "Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq və düşdükləri ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məsələsini biz dəfələrlə götür-qoy etmişik"[2].

Bu barədə N.N.Şavrovun fikirləri də maraq doğurur: "Biz müstəmləkəçilik fəaliyyətinə Zaqafqaziyada rus əhalisinin deyil, bizə yad olan xalqların... yerləşdirilməsindən başladıq... Müharibədən sonrakı iki il ərzində, 1828-1830-cu ilə kimi biz Zaqafqa-

---

[1] Всемирная история. В десяти томах. Том VI. Москва. 1959. с.102

[2] Грибоедов А.С. Записки о переселенит армян из Персии в наши области. Соч. Т.2. Москва. 1971. с. 314

ziyaya İrandan 40 mindən çox, Türkiyədən 84 mindən çox erməni köçürmüş və onları ermənin azlıq təşkil etdiyi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında yerləşdirmişik. Yerləşmək üçün onlara 200 min desyatindən artıq xəzinə torpağı ayırmışıq və onlar üçün müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdır. Yelizavetpol quberniyasının Dağlıq hissəsi və Göyçə gölünün sahili həmin ermənilər tərəfindən məskunlaşdırıldı... Qeyri-rəsmi köçənlərlə birlikdə köçüb gələnlərin ümumi sayı 200 mini ötüb keçdi". Bu köçürmələr nəticəsində XX əsrin başlanğıcında Zaqafqaziyada yaşayan 1,3 milyon ermənin bir milyondan çoxu "diyarın köklü sakinləri olmayıb bizim tərəfimizdən məskunlaşdırılmışdır"[3].

Ermənilərin Azərbaycan torpaqlarında məskunlaşdırılmasına "şərq məsələsi" də öz təsirini göstərmişdi. XVIII əsrin əvvəllərindən XIX əsrin ortalarına kimi olan dövrdə İngiltərə və Qərbi Avropa dövlətləri Şərqdə müstəmləkəçilik siyasətlərini davam etdirmək məqsədilə İran və Türkiyə dövlətlərinə hər cür yardım göstərir, onları Rusiya ilə müharibəyə qaldırmaqla Rusiyanın Qafqaz və oradan da Orta Asiya ölkələrinə doğru irəliləməsinin qarşısını alır, bu ərazidə öz hökmranlığını əldən vermək istəmirdilər.

XİX əsrin 20-ci illərinin axırlarında və xüsusən 30 və 40-cı illərdə şərqə aid olan məsələ yenidən kəskinləşdi. Onun əsas məzmununu Avropa dövlətlərinin Osmanlı imperiyasının torpaqlarını bölüşdürmək, İstanbul (Konstantinopol) və boğazları, Balkan ərazilərini, Misiri nəzarət altında saxlamaq üçün aparılan mübarizə təşkil edirdi. Bu məsələyə həmçinin Osmanlı imperiyasının əsarəti altında olan xalqların milli-azadlıq mübarizəsi də əlavə olunurdu. "Şərq məsələsi" diplomatiya və tarixi ədəbiyyatda XVIII əsrin sonundan XX əsrin əvvəllərinə kimi Osmanlı imperiyasının dağılması ilə planlaşdırılan balkan xalqlarının türk əsarə-

---

[3] Шавров Н.Н. Новая угроза русскому делу в Закафказье предстоящая заспродажа Мугани инородцам. Баку. 1990. с. 63-64

tindən azad olunması uğrunda mübarizəsi və iri dövlətlərin (Avstriya (1867-ci ildən Avstriya Macarıstan), Böyük Britaniya, Prussiya (1871-ci ildən Almaniya), Rusiya, İtaliya, Fransa, sonradan ABŞ) Türkiyə ərazilərini bölüşdürülməsinin şərti bildirişi kimi ifadəsini tapır.[4]

Yaxın Şərqdə XIX əsrin 30-40-cı illərində daha çox fəallığı Rusiya, İngiltərə və Fransa nümayiş etdirirdi. Çar Rusiyası fəth siyasətini Türkiyə və İran zülmü altında olan xalqlara azadlıq mübarizələrində yardımla, İngiltərə və Fransa isə özlərinin təcavüzkar siyasətini rus ekspansiyasına qarşı durmaqla əsaslandırırdı. Həqiqətdə isə qərb dövlətlərinin siyasəti də çarizm siyasəti kimi zəbt və tamah xarakteri daşıyırdı[5].

Tarixən məlumdur ki, "erməni məsələsi" şərq məsələsinin tərkib hissəsi kimi yaranmış və onun həyata keçirilməsi üçün vasitə rolunu oynamışdır.

XIX əsrin axırlarında baş vermiş tarixi hadisələr araşdırılarkən aydın olur ki, Rusiya Şərqə doğru öz təsirini gücləndirmək, İngiltərə isə Şərqdə müstəmləkələri üzərində hökmranlığını qoruyub saxlamaq üçün "erməni məsələsi"ndən mənafelərinə uyğun olaraq istifadə etmişlər.

Rusiya və Qərb dövlətləri tərəfindən öz mənafeləri üçün istifadə edilən ermənilər özlərinin "Böyük Ermənistan" barədə xülyalarını həyata keçirmək üçün gah Rusiyaya yaltaqlanır, gah da Rusiyanın rəqibləri olan Qərb dövlətləri tərəfinə keçirdilər. Onların ikiüzlü siyasəti isə son nəticədə istifadə olunduqdan sonra atılmış, yaddan çıxmış vəziyyətdə qalmalarına səbəb olurdu.

Qərb dövlətlərinin Osmanlı imperiyasının torpaqlarını ələ keçirmək, Şərqdə nüfuzlarını möhkəmləndirmək, müstəmləkə torpaqlarında hakimiyyətlərini mühafizə etmək üçün apardıqları

---

[4] Дипломатический словарь. В трех томах. Том I. А-И. Москва. 1985. с. 220
[5] Всемирная история. В десяти томах. Том VI. Москва. 1959. с. 276-277

mübarizədə meydana çıxan Şərq məsələsi artıq Türkiyədə "erməni məsələsi"ni doğurmuşdu. Ermənilər "erməni məsələsi"ni Qərb dövlətləri və Rusiyanın nüfuzundan, onlara verdikləri vədlərdən istifadə etmək, "Böyük Ermənistan" dövləti yaratmaqla öz xeyirlərinə həll etməyə çalışırdılar. Əlbəttə ki, Türkiyəyə öz torpaqları hesabına erməni dövlətinin yaradılması əlverişli deyildi. Türkiyə hər vasitə ilə "erməni məsələsi"nə son qoyulmasına çalışırdı. Türkiyədə "erməni məsələsi"nin həll edilməsinin yolunu Sultan Əbdülhəmidin obrazlı ifadəsi ilə – "erməni məsələsi"ni ermənilərin axırına çıxmaqla həll etmək olar" əlaqələndirənlər də vardır. Heç şübhəsizdir ki, ermənilərin Türkiyə dövləti ərazisində yaşadıqları vaxt dövlətə qarşı apardıqları siyasət, Türkiyə dövləti əraziləri hesabına "Böyük Ermənistan" yaratmaq istəyi dövlət tərəfindən müəyyən əks tədbirlərin görülməsinə səbəb olmaya bilməzdi. Lakin bunun heç də Türkiyə dövləti tərəfindən ermənilərin qırılmasına yönəldilmiş siyasətlə bağlamaq düz deyildir.

Erməni millətçilərinin "Qnçak" və "Daşnaksütyun" partiyası vasitəsilə təbliğatı həmin ərəfədə erməni və türklər arasında ədavətin qızışdırılmasına xidmət etməklə, milli zəmində toqquşmaları genişləndirirdi.

"Erməni əzabkeşliyi"nə dünya ictimaiyyətinin diqqətini cəlb etmək üçün daşnakların rəhbərləri ayrı-ayrı yerlərdə ermənilərin öldürülməsini təşkil edir, sonradan bu hadisələri türklərin adına yazmaqla milli ədavəti qızışdırırdılar. XIX əsrin sonu, XX əsrin əvvəllərində ermənilərin özləri tərəfindən qan qardaşlarının qətlə yetirilməsi ilə milli ədavəti qızışdırmaları Rusiyanın Türkiyənin Şərq hissəsində vitse konsulu Mayevskinin xatirələrində işıqlandırılmışdır. O, "Daşnaksütyun" partiyası liderlərinin "qan axıtmaq lazımdır ki, ermənilərin arzuladıqları hər şeyi onlara versinlər" şüarı altında dəhşətli faciələr törətdiklərini dəfələrlə qeyd etmişdir. Mayevski yazırdı: "Türkləri hər hansı bir vəhşilikdə ittiham edirlər etsinlər, lakin mən bir şeyi deyəcəyəm: Türkiyənin müxtəlif şəhərlərində ermənilər və müsəlmanlar arasında toq-

quşmalar barədə şəxsən mənim bildiklərim belə bir qənaətə gətirir ki, qanlı işlər hər yerdə məhz ermənilərin özlərinin təşəbbüsü ilə başlanmışdır”.[6]

Beləliklə, erməni millətçiləri Qərb dövlətlərinin diqqətini erməni millətinin cəfakeşliyinə cəlb etmək üçün 1890-cı ildən başlayaraq Türkiyənin müxtəlif vilayət və şəhərlərində milli zəmində silahlı toqquşmalar törədirdilər.[7]

1896-1899-cu illərdə Türkiyə hökuməti ermənilərlə sülh yaratmaq barədə təşəbbüslə çıxış etdi. Türklərin bu cəhdləri ermənilər, xüsusən də “Daşnaksütyun” liderləri tərəfindən rədd edildi. Belə halda türk hakim dairələri qərara gəldilər ki, ermənilər torpaqlarında yaşamaq, türk qanunlarına tabe olmaq istəmirlərsə Türkiyədən getməlidirlər. Bu da ermənilərin Zaqafqaziyaya köçməsini şərtləndirdi. Bir tərəfdən ermənilər türklərin planı əsasında Zaqafqaziyaya köçürülür, digər tərəfdən onlar ermənilərin özləri tərəfindən törədilən qırğınlardan yaxa qurtarmağa çalışırdılar. V.L.Veliçko bu barədə yazırdı: “..Türk qaçqın ermənilərindən çoxu açıq etiraf edirdilər ki, Rusiyaya türklərdən deyil, öz terrorçularından qurtarmaq üçün qaçmışlar”[8].

Türkiyədən Zaqafqaziyaya köçən ermənilər özləri ilə muxtar Ermənistan yaratmaq ideyasını da gətirmişdilər.[9]

Erməni inqilabi liderlərinin, xüsusən “Daşnaksütyun” partiyası liderlərinin Zaqafqaziyaya öz inqilabi ideyalarını yaydıqları dövrə qədər Zaqafqaziyada yaşayan xalqlar arasında milli zəmində toqquşmalar baş verməmiş, ermənilər, gürcülər və azərbaycanlılar mehriban qonşuluq şəraitində yaşamışlar. Lakin daşnaklar özlərinin ideyalarını Zaqafqaziyaya yaymağa başlamaqla bu xalqlar

---

[6] Mayevski V.F. Rusiyanın Van və Ərzurumdakı Baş Konsulu Mayevskinin xatirələri. Bakı. 1994. s. 7

[7] Qurko-Kryajin V. Erməni məsələsi. Bakı.1990. s. 11

[8] Величко В.А. Русское дело и междуплеменные вопросы. Баку. 1990. с. 159

[9] Кариби. Красная книга. В сб. История Азербайджана по документам и публикациям. Баку. 1990. с. 159

arasında milli düşmənçilik, qarşılıqlı nifrət hissləri də yayılmağa başlamışdı[10].

“Daşnaksütyun” partiyasının Zaqafqaziyada fəaliyyəti yalnız bir məqsədə – ermənilərin “azad olunması” və müstəqil erməni respublikasının yaradılmasına xidmət edirdi. Bu məqsədi həyata keçirmək yolları hər cür vasitələri – silahlı bandalar yaratmaq, milli ədavəti qızışdırmaq, terror, ölüm belə nəzərdə tuturdu.

XX əsrin əvvəllərində Türkiyə dövlətinin ərazisində erməni dövləti yaratmağa imkan verməməsi “Daşnaksütyun” partiyasının Türkiyə ərazisində fərari ermənilərdən ibarət könüllü dəstələr yaratmaları ilə nəticələndi. Artıq I Dünya müharibəsinə qoşulmuş Türkiyə həm Antanta qoşunları, həm də erməni könüllü dəstələri ilə vuruşmağa məcbur olurdu. 1915-ci ilin yazında silahlanmış ermənilər Van vilayətində üsyan qaldıraraq türkləri qırıb həmin ərazidən qovdular. Bundan başqa, ermənilər tərəfindən casusluq, düşmənlərə köməklik göstərilməsi, dinc türk əhalisinə qarşı terror faktları kütləvi şəkil aldığına görə Şərq vilayətlərindən ermənilərin köçürülməsi barədə Türkiyə hökuməti 30 may 1915-ci ildə qərar qəbul etdi. Ermənilər hal-hazıra kimi 1915-ci il hadisələrini deportasiya və genosid kimi qiymətləndirirlər. Ermənilərin bu mülahizələrinin əsassızlığı bir çox müəlliflər tərəfindən sübuta yetirilmişdir[11].

Bu hadisələrdən sonra ermənilər günahkarlar axtarmağa başladılar və rus hökuməti, onun yeritdiyi siyasətinin qurbanı olduqları qənaətinə gəldilər. Bu barədə “Daşnaksütyun” partiyasının rəhbəri O. Kaçaznuni yazırdı: “Biz siyasi partiya kimi unutduq ki, bizim məsələmiz ruslar üçün heç bir maraq doğurmur, ona görə də onlar hər hansı bir şəraitdə asanlıqla, şübhəsiz heç bir tərəddüd

---

[10] Кариби. Красная книга. В сб. История Азербайджана по документам и публикациям. Баку. 1990. с. 159

[11] Камуран Гюрюн. Армянское дщсье. Баку.1993. с.107-129; Наджафов Б. Лицо врага. История армянского национализма в Закафказье в конце Х1Х – начале ХХ в. Ч.1. Баку. 1993

etmədən bizim meyitlər üzərindən adlayıb keçəcəklər”[12]. Daha sonra O. açaznuni “Daşnaksütyun” partiyasının daim dəyişən mövqeyini belə izah edir: ”Ruslar hücuma keçəndə biz inanırdıq ki, onlar ermənilləri xilas etməyə gedirlər, onlar geri çəkiləndə isə deyirdik ki, geriyə çəkilirlər ki, türklər bizi doğrasınlar”[13].

Beləliklə, “Daşnaksütyun” partiyası liderləri özləri də başa düşdülər ki, onlar Türkiyədə erməni məsələsini uduzublar. Ona görə də “erməni məsələsi” 1917-ci ildən yenidən Zaqafqaziyaya keçdi.

24 iyul 1923-cü ildə imzalanmış Lozanna müqaviləsi ilə Türk dövlətinin müstəqilliyi qəbul edildi. Müqavilədə birbaşa ermənilərə aid heç bir maddə nəzərdə tutulmamışdı. Lakin müqavilənin 37–44-cü maddələri dini azlıqlara aid olduğuna görə onları ermənilərə də şamil etmək olardı. Sonralar ermənilər Türkiyədə milli azlıq kimi tanınmalarından imtina etdilər, onlar adi Türkiyə vətəndaşı kimi yaşamağa üstünlük verdilər[14]. Bu barədə O. Kaçaznuni yazırdı: “Artıq Türkiyə Ermənistanı yoxdur. Avropanın böyük dövlətləri bizim məsələni dəfn etdilər”. Daha sonra o “Daşnaksütyun” partiyasının rəhbəri kimi partiyanın fəaliyyətinə yekun vuraraq “Daşnaksütyun”a artıq heç nə qalmır, partiya özünün qərarı ilə şüurlu və qətiyyətli surətdə öz mövcudluğuna son qoymalıdır” qərarını vermişdi[15].

Lakin daşnaklar öz liderlərinin məsləhətinə əməl etmədilər, onların cinayətkar fəaliyyəti hələ də davam edir.

Ermənistan–Azərbaycan münaqişəsinin tarixinin tədqiqi nöqteyi-nəzərindən Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması ilə bağlı olan proseslər üzərində dayanmağı da lazım bilirik. Hələ 22 may 1919-cu ildə Mikoyan V.İ.Leninə məruzəsində yazırdı: “Daşnaklar – erməni hökumətinin agentləri Qarabağı Ermənistana bir-

---

[12] Качазнуни О. Дашнаксютун большеничего делать. Баку. 1990. с. 14-15
[13] Качазнуни О. Дашнаксютун большеничего делать. Баку. 1990. с.15
[14] Дипломатический словарь. В трех томах. Том II. К-Р. Москва. 1985. с. 152
[15] Качазнуни О. Дашнаксютун больше ничего делать. Баку. с. 60

ləşdirmək istəyirlər. Bu Qarabağ əhalisi üçün Bakıda özlərinin həyat üçün zəruri olan mənbələrindən məhrum olmaq, heç vaxt, heç nə ilə bağlı olmadıqları Yerevan ilə bağlanmaq deməkdir".

1919-cu ilin avqust ayında Qarabağ kommunistləri Azərbaycanın tərkibində qalmaq barədə qərar qəbul etdilər. 1920-ci ilin may ayında Qarabağda Sovet hakimiyyəti quruldu. 19 iyun 1920-ci ildə Orconikidze V.İ.Lenin və Q.B.Çiçerinə teleqramında göstərirdi ki, Qarabağ və Zəngəzurda Sovet hakimiyyəti elan olunub və hər iki ərazi özünü Azərbaycan SSR-in tərkib hissəsi hesab edir[16].

Ermənistanda Sovet hakimiyyətinin qalib gəlməsi qonşu respublika kimi Sovet Azərbaycanı rəhbərliyi üçün də mühüm əhəmiyyət kəsb edirdi. 1 dekabr 1920-ci ildə Azərbayçan hökumətinin başçısı N.Nərimanov Bakı Sovetinin iclasında bəyannamə elan etdi. Bəyannamədə göstərilirdi ki... indən belə heç bir ərazi məsələsi iki əbədi qonşu xalqın ermənilərin və azərbaycanlıların bir-birinin qanını tökməsinə səbəb ola bilməz[17].

27 iyun 1921-ci ildə AK(b)P- MK-nın Siyasi Bürosu və Təşkilat Bürosu Azərbaycan və Ermənistan sərhədləri haqqında məsələni müzakirə etdi. Qəbul olunmuş qərarda göstərilirdi ki, məsələnin həlli "iqtisadi cəhətdən Dağlıq Qarabağın Azərbaycana meyli şübhəsiz" nəzərə alınmalıdır. Bununla əlaqədar olaraq inzibati məqsədəmüvafiqlik nöqteyi-nəzərindən milli əlamətinə görə yerləri bir-birindən ayırmaq olmaz.

Məsələ 5 iyun 1921-ci ildə keçirilən RK(b)P MK-nın Qafqaz Bürosunun iclasında özünün prinsipial həllini tapdı. İclasın birinci günü Dağlıq Qarabağ ərazisinin hansı respublikaya məxsus olması məsələsi ciddi fikir ayrılığı doğurdu. Ona görə Qafqaz Bürosu məsələnin həllini RK(b)P MK-ya keçirilməsini zəruri hesab etdi. İyun ayının 5-də Qafqaz Bürosu MK Plenumu RK(b)P MK-nın

---

[16] Исмаилов М.Токаржевский Е. Необходимое уточнение. В книге Конфликт в Нагорном Карабахе. Сборник статьей. Баку. 1990. с. 23-30

[17] Kommunist qəzeti, №176. 2 dekabr 1920-ci il

fikrini nəzərə almaqla qərar qəbul etdi: “Müsəlmanlar və ermənilər arasında milli barışığın zəruriliyini, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqələrini, onun Azərbaycanla daimi əlaqəsini nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində saxlanılsın, inzibati mərkəzi Muxtar Vilayətin tərkibinə daxil olan Şuşa şəhəri olmaqla ona geniş vilayət muxtariyyəti verilsin”, həmin qərara müvafiq olaraq AK(b)P MK-ya tapşırıldı ki, Dağlıq Qarabağın muxtariyyətinin həcmini və sərhədlərini müəyyən edib öz mülahizələrini RK(b)P MK-nın Qafqaz Bürosunun təsdiqi üçün təqdim etsin[18].

Azərbaycan MİK-nın 7 iyul 1923-cü il tarixli dekreti ilə Dağlıq Qarabağın Azərbaycan SSR-nin Muxtar Vilayəti kimi statusu hüquqi cəhətdən təsbit edildi.

1923-cü ilin avqust ayında Dağlıq Qarabağda referendum keçirildi. Referendumun nəticələrinə görə yerli əhali Dağlıq Qarabağın Muxtar Vilayət kimi Azərbaycan Respublikası tərkibində qalmasını tələb etdi.

M.İsmayılov bu barədə yazır: “Zaqafqaziya Respublikalarının sərhədlərini müəyyən edərkən RK(b)P Qafqaz Bürosunun üzvləri yerliçilik və ya millətçilik mövqeyindən deyil, ümumi mənafe mövqeyindən çıxış etdilər. Belə ki, Azərbaycan Respublikası əsasən Azərbaycanlılarla məskunlaşmış cəmi 9 min kv. km-dən Zəngəzur və Qazax qəzasının xeyli hissəsini Ermənistana verməklə kompromisə getdi.

Dağlıq Qarabağa gəldikdə isə burada bütün aydınlığı ilə qeyd etmək lazımdır ki, bura Azərbaycan torpaqları əhatəsində olduğuna görə muxtariyyət almış erməni ərazisi deyil, ermənilərə muxtariyyət verilmiş əzəli Azərbaycan torpağıdır”[19].

T.Köçərli 1921-ci il iyulun 4-də Qafqaz Bürosu Plenumunun “Qarabağ məsələsi”ni müzakirə edərkən səsə qoyulmuş təkliflərə diqqəti cəlb etməyin zəruriliyini qeyd edərək göstərir ki, təkliflərin:

---

[18] Гулиев Д. С позиции интернационализма. В книге Конфликт в Нагорном Карабахе. Сборник статьей. Баку. 1990. с. 26-27

[19] Исмаил М. Правда об армянской агрессии. Баку. 1996. с. 23

a) Qarabağ Azərbaycanın tərkibində saxlanılsın;

b) Qarabağın dağlıq hissəsi Ermənistanın tərkib hissəsinə daxil edilsin məzmununda qoyuluşu bir daha göstərir ki, ermənilərin iddia etdiyi kimi Qarabağın Azərbaycanın tərkibində saxlanılmasını onun Ermənistandan zorla ayırıb Azərbaycana verilməsi kimi qiymətləndirmək olmaz”[20].

T.Köçərlinin fikirləri ilə tam razılaşmaqla, onu əlavə etmək istəyirik ki, ermənilərin RK(b)P MK Qafqaz bürosunun 4 iyul 1921-ci il tarixli qərarına əsaslanaraq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsinin iddia edilməsinin nə faktiki və nə də hüquqi əsası var. 5 iyul 1921-ci il tarixli iclasda Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR tərkibində saxlanılması barədə qərar çıxarılmışdır.

Qeyd etmək lazımdır ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin hansı respublikanın tərkibinə daxil olması barədə RK(b)P MK Qafqaz bürosunun qərarı hüquqi əhəmiyyət kəsb edə bilməz. Partiya orqanı ancaq istiqamətverici göstəriş verə bilərdi, hüquqi cəhətdən Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan Respublikası tərkibində yaradılması və saxlanılması 1923-cü il noyabr ayının 7-də Azərbaycan SSR MİK Rəyasət heyəti və XDS Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında əsasnaməni təsdiq etməklə qanuni ifadəsini tapdı. DQMV-nin tərkibinə Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının dağlıq hissəsi daxil edildi. 1923-cü il dekabr ayının 27-də DQMV-nin ilk Sovetlər qurultayı keçirildi.

Qarabağ probleminin həll edilməsi ilə əlaqədar olaraq 1924-cü ilin may ayında Azərbaycan KP-nin VI qurultayında MK-nın hesabat məruzəsində S.M.Kirov demişdi: “Bu məsələni biz, nəhayət, həll etdik və heç şübhəsiz ki, çox düzgün iş gördük. Bu məsələnin əsasən həll edilməsinə bir də qayıtmağın zəruriliyinin olmayacağı heç bir şübhə doğurmur”[21].

---

[20] Кочарли Т. Необходимое уточнение. В книге Конфликт в Нагорном Карабахе. Сборник статьей. Баку. 1990. с. 30-42

[21] Исмаилов М.Токаржевский Е. Необходимое уточнение. В книге Конфликт в Нагорном Карабахе. Сборник статьей. Баку. 1990. с. 27

Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ilə Azərbaycanda ermənilərin milli azlıqda olması probleminin öz həllini tapmasına baxmayaraq həmin dövrdə Ermənistan SSR ərazisində yaşayan Azərbaycanlılara muxtariyyət verilməməsi tarixi ədalətsizlik kimi qiymətləndirilməli idi. Qafqazın Dağlıq ərazisində yaşayan 80 minlik erməni əhalisinə muxtariyyət verildiyi halda, həmin dövrdə Ermənistanın 580 minlik Azərbaycanlı əhalisinə, həmçinin Gürcüstanda yaşayan 300 minlik Azərbaycanlı əhalisinə muxtariyyət verilmədi.

Bundan sonra ermənilərin Azərbaycana qarşı millətçi-separatçı siyasəti aşağıdakı istiqamətlərdə getmişdir:

a) Dağlıq Qarabağı Azərbaycan SSR-dən qoparmaq;

b) Azərbaycan SSR-in ərazilərinə yiyələnmək;

c) Ermənistan SSR-dən azərbaycanlıların köçürülməsinə nail olmaq.

Ermənistan–Azərbaycan münaqişəsinin tarixi, siyasi və hüquqi köklərini nəzərdən keçirdikdə bir daha belə bir qənaətə gəlirik ki, Dağlıq Qarabağ ilə bağlı hadisələr heç də 1987–1988-ci illərdə başlanmamışdır. Bu uzun illərdən bəri erməni millətçiləri tərəfindən hazırlanmış və məqam düşdükcə həyata keçirilməsinə səy göstərilən ərazi iddialarının yenidən alovlanması olmuşdur. Erməni millətçiləri bu iddiaların həyata keçirilməsi üçün nəinki Dağlıq Qarabağ, Ermənistan SSR, SSR İttifaqı, hətta dünya miqyasında hazırlaşmışlar. Hələ 1987-ci ilin əvvəllərində keçmiş ABŞ prezidentinin köməkçisi Zbiqnev Bjezinski "Vaşinqton Tayms" qəzetinə verdiyi bəyanatında deyirdi: "Gələcək 20–30 ildə dünyada milli və etnik münaqişələrin mərkəzi Sovet Ittifaqı olacaqdır. Burada millətçilik canlı dinamik qüvvəyə çevriləcəkdir. Sovetlər isə öz millətlərinin problemlərini nəzarətdə saxlaya bilməyəcəkdir. Bu fakt onu göstərir ki, artıq dünya miqyasında SSRİ ərazisində milli münaqişələrin qızışdırılmasına rəvac verilmiş, erməni millətçiləri SSRİ Ittifaqı daxilində öz məkrli planlarını həyata keçirməyə başlamışdılar. Həmin dövrdə erməni millətçilərinin məkrli planlarının

həyata keçirilməsi üçün ən real maneə SSRİ və dünyada böyük nüfuza malik olan Heydər Əliyev idi. "Şimşək yüksək palıdları vurur"[22]. Deyimini rəhbər tutaraq erməni millətçiləri planlarını həyata keçirmək üçün ilkin olaraq Azərbaycanın ən möhkəm palıdını – Heydər Əliyevi vurmağı qarşılarına məqsəd qoymuşdular.

Heydər Əliyev ermənilərin Qarabağ iddialarının qarşısını dəfələrlə almış və uzun müddət bu məsələnin gündəmə gəlməsinin qarşısına sipər çəkmişdi. Separatçı planın fəaliyyətə başlaması üçün Heydər Əliyevin vəzifədən kənarlaşdırılması bir nömrəli vəzifə kimi qarşıda dururdu. Erməni millətçilərinin SSRİ-nin xəyanətkar rəhbərləri ilə əlaqəyə girməsi 1987-ci ilin oktyabr ayının 21-də Sov. İKP MK-nın Plenumunun "səhhətinə görə pensiyaya çıxması ilə əlaqədar Sov. İKP MK-nın Siyasi Bürosunun üzvü vəzifəsindən azad edilməsi barədə Heydər Əliyevin xahişini" təmin etməsi ilə nəticələndi. Artıq heç kəsə sirr deyildir ki, həmin vaxt Heydər Əliyevin vəzifədən azad olunmasına səbəb onun "səhhəti" deyildi. O, vəzifədən azad olunandan sonra daha 26 il yaşadı. Həm də bu illər gərgin, mübarizə dolu, keşməkeşli illər idi. Heydər Əliyev bu keşməkeşli illərdən zəfərlə çıxdı, O, müstəqil, demokratik Azərbaycan dövlətinin qurucusu olmaqla on il müstəqil dövlətin prezidenti kimi çalışdı.

Heydər Əliyevin vəzifədən azad edilməsindən sonra fəaliyyəti üçün yaşıl işıq yandırılan akademik Abel Aqanbekyan 1987-ci il noyabr ayının ortalarında Fransanın erməni institutu və erməni veteranları Assosiasiyasının onun şərəfinə təşkil etdiyi mərasimdə o, "Qarabağın erməninin olduğunu eşitmək arzusunda olduğunu" bildirərək demişdi ki, "bir iqtisadçı kimi belə hesab edirəm ki, Dağlıq Qarabağ Azərbaycana nisbətən Ermənistanla daha sıx bağlıdır". Erməni millətçiləri tərəfindən uzun illərdən bəri hazırlanan plan artıq fəaliyyətə başladı.

---

[22] Никколо Макиавелли. Государь. История Флоренции. Москва. 2018. с. 9

Heydər Əliyevin istefasının ermənilərin planlarının həyata keçirilməsinə yol açması ilə bağlı İlham Əliyev deyirdi: "O vaxt Heydər Əliyev amili ermənilərin əl-qolunu bağlamışdı. Sovet dövründə – 1969-cu ilə qədər ermənilər dəfələrlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə əlaqədar sovet hökumətinə rəsmi səviyyədə müraciətlər etmişlər. Ancaq Heydər Əliyevin qətiyyəti və çox ciddi etirazı buna imkan verməmişdir. Ondan sonra Heydər Əliyevin sovet hakimiyyətində fəaliyyəti dövrü başlamışdır. O vaxt da, əlbəttə, ermənilərin təxribat etmək üçün heç bir imkanları olmamışdır. 1987-ci ilin noyabrında – ulu öndər Heydər Əliyev vəzifədən gedəndən 2 həftə sonra bu məsələ qaldırıldı və demək olar ki, o vaxtdan azərbaycanlılara qarşı növbəti soyqırımı prosesi başlandı"[23].

Ermənilər tərəfindən hazırlanmış və dünya miqyasında, SSRİ İttifaqında, Dağlıq Qarabağda fəaliyyətə başlamış ərazi iddiaları ilə bağlı planın Ermənistan SSR ərazisində də həyata keçirilməsinə başlanıldı. Həmin planın Ermənistan ərazisində həyata keçirilməli olan hissəsinə ərazidə yaşayan azərbaycanlıların bir nəfər kimi oradan, yəni dədə-baba yurdundan qovulması daxil idi.

Erməni planının Azərbaycan ərazisində həyata keçirilən hissəsinə onların uzun illərdən bəri sınaqdan keçirdikləri əməliyyatlar daxil idi. Bu əməliyyatlar dünya ictimaiyyətinin diqqətini "erməni xalqının əzabkeşliyinə, onun genosidinə cəlb etmək" idi. Bu sahədə isə ermənilərin topladıqları təcrübəyə şübhə ola bilməzdi. Ümumiyyətlə, müxtəlif iyrənc yollarla məqsədlərinə çatmaq üçün can atma erməni xislətinə xas olan xüsusiyyət idi.

Əvvəllər olduğu kimi ermənilər yenə də qan axıtmağı, qurban verməyi lazım bildilər. Nəticədə isə fevral ayının 27–28-də Sumqayıt təxribatı törədildi. Hadisələr zamanı 32 nəfər həlak oldu. Dünya ictimaiyyətinə təsir etmək, onları öz tərəfinə çəkmək üçün erməni təbliğatı işə başlaya bilərdi[24].

---

[23] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Əlli doqquzuncu kitab. s. 151

[24] Kommunist qəzeti. 5 mart 1988-ci il

Sumqayıt hadisələri yada düşdükdə isə "Mayevskinin xatirələri"ni xatırlamamaq olmur. Hələ o vaxtlar Sumqayıt hadisələri ilə əlaqədar mərhum akademikimiz Ziya Bünyadov yazırdı: "Sumqayıt faciəsi erməni millətçiləri tərəfindən qabaqcadan hazırlanmışdı. Onun başlanmasına bir neçə saat qalmış erməni tele və foto repartyorları gizlicə şəhərə daxil olmuşdular. Birinci beş cinayəti azərbaycanlı adı altında Qriqoryan adlı birisi törətmiş və şəxsən beş Sumqayıt ermənisini öldürmüşdü. Sonrakı hadisələr isə, necə deyərlər, "texnika" işi olmuşdur. Belə ki, böyük kütləni artıq saxlamaq mümkün olmamışdır"[25].

1988-ci ilin birinci yarısında Ermənistandan azərbaycanlıların qovulması, soydaşlarımızın yerindən-yurdundan didərgin salınması planauyğun surətdə həyata keçirilirdi. Get-gedə ev-eşiyindən qovulmuş minlərlə insan Bakıya üz tutur, ümidlərini Azərbaycanla bağlayırdılar.

1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan dövlət müstəqilliyi haqqında qanun qəbul etdikdən sonra Dağlıq Qarabağ münaqişəsi regional münaqişə kimi beynəlxalq miqyasa çıxdı.

Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından əvvəl Azərbaycan Respublikası daxili çəkişmələr səbəbindən vətəndaş müharibəsi astanasında idi. Bu həm də müxtəlif bölgələrdə ayrı-ayrı şəxslərə tabe olan silahlı dəstələrin mövcudluğunda, silahlı dəstələr arasında qarşıdurmada və ölkədə ümumi vahid rəhbərlik altında ordunun olmamasında özünü göstərirdi. Digər tərəfdən Ermənistan Respublikası Dağlıq Qarabağı (Xankəndi, Şuşa, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) və ətrafdakı Laçın və Kəlbəcər rayonlarını işğal etmiş və həmin rayonların işğalı nəticəsində Ermənistan Respublikası ilə Dağlıq Qarabağ arasında ikitərəfli dəhliz açılmış, erməni silahlı qüvvələri birləşərək vahid təchizat sistemi əldə etmişdi.

---

[25] Буниятов З. Почему Сумгаит? В книге. История Азербайджана по документам и публикациям. Баку. 1990. с. 89

Ermənistandan işgəncələr, ölüm hədəsi ilə çıxarılmış azərbaycanlı əhali ölkədə qaçqın axını yaratmış, Azərbaycan ərazilərində müharibə təhlükəsindən yaşayış yerlərindən didərgin salınan yerli köçkünlərlər də bu axına qoşularaq ölkədə onsuz da ağır olan vəziyyəti daha da çətinləşdirmişdi.

Ölkənin mövcudluğu üçün son dərəcə təhlükəli olan iki problemin – ölkə daxilində vətəndaş müharibəsi və xaricdən Ermənistanın Azərbaycan ərazilərinin işğalını davam etdirməsi, həmçinin yüzlərlə başqa çətinliklər – iqtisadi tənəzzül, qaçqınlar məsələsi, ordunun dağılması, mənəvi eniş və s. böhran vəziyyəti kəskinləşdirmişdi.

# YAZI 2
# SÜLHƏ DOĞRU MƏQSƏDYÖNLÜ FƏALİYYƏT

Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra hərtərəfli inkişafı arzulasa da, ilk növbədə, həll olunma tələb edən əsas məsələlər – ölkə daxilində vətəndaş müharibəsinə son qoymaq, xarici müdaxilə – Ermənistanın Azərbaycan ərazilərini işğal etməsini dayandırmaq və işğal olunmuş ərazilərin geri qaytarılmasını təmin etmək idi. Ölkə daxilində aparılan düşünülmüş və müdrik siyasət nəticəsində vətəndaş müharibəsinin qarşısının alınmasına addım-addım, demək olar ki, itkilərə yol verilmədən nail olundu.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin və bu münaqişənin doğurduğu müharibənin dayandırılması və həlli isə kifayət qədər çətin və ağrılı problem idi. Əvvəla, düşmən kifayət qədər əraziləri işğal etmiş və orada möhkəmlənmişdi, Ermənistan ordusu ilə Dağlıq Qarabağın silahlı birləşmələri Laçın və Kəlbəcərin işğalı nəticəsində birləşmək və vahid mənbədən təchiz olunmaq imkanı əldə etmişdi, Ermənistan Respublikasını dünyanın bir çox dövlətləri, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvləri olan ABŞ, Rusiya, Fransa kimi dövlətlər dətəkləyir, ona müxtəlif yardımlar göstərirdilər. Ermənistanın müharibədə uğur qazanmasının səbəblərindən biri də "Böyük Ermənistan" planının illər ərzində hazırlanması və bu planın həyata keçirilməsini dünyanın bir çox dövlətlərini əhatə edən erməni diasporunun ardıcıl dəstəkləməklə Ermənistanı maliyyə və siyasi yardımı təmin etmək üçün səmərəli fəaliyyət göstərməsi idi.

Heydər Əliyev real vəziyyəti təhlil edərək obyektiv qiymətləndirdi. Müharibəni davam etdirmək üçün Azərbaycan iqtisadiyyatı tələblərə cavab vermir, ölkədə valyuta ehtiyatı çatışmırdı.

Nizami ordu yaradılmamış, düşmənlə vuruşan silahlı dəstələrə xidmətə çağırılan gənclər döyüşə hazırlıqsız olmaqla səriştəsiz idarəçilik nəticəsində onların bir çoxunda vətənpərvərlik, torpaq təəssübkeşliyi hissləri zəifləmişdi. Azərbaycan tərəfində döyüşən silahlı dəstələr arasında birlik, nizam-intizam, vahid rəhbərlik mövcud deyildi. Müharibənin aparılması üçün xarici dövlətlərdən Azərbaycana dəstək göstərilmir və belə bir dəstəyə ümid yox idi.

Ermənistanla münaqişənin nizama salınmasında irəliləyişə nail olmaq üçün Heydər Əliyev xarici ölkələrə səfərlər edir, münaqişə ilə bağlı həqiqətləri xarici dövlət başçılarının, dünya ictimaiyyətinin nəzərinə çatdırır, danışıqlar aparır, irəliyə doğru addımlamaq üçün səylər göstərirdi.

Müharibə aparmaq təkcə üzbəüz dayanmış düşmənlə vuruşmaqla bitmir. Müharibənin görünməyən siyasi, iqtisadi, mənəvi-psixolji tərəfləri də vardır. Eyni zamanda faktiki olaraq müharibədə iştirak etməyən, lakin onun aparılması və nəticələrində maraqlı olan tərəflər həmişə mövcud olur. Qonşu dövlətlər və digər dövlətlərin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində maraqlarını müəyyən etməklə həmin dövlətlərlə əlaqələr qurmaq, onlar tərəfindən yol verilə biləcək neqativ halların qarşısını almaq, son nəticədə faydalı olana nail olmaq xüsusi bacarıq və təcrübə tələb edirdi.

Heydər Əliyev münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarı olsa da, bunun heç vəcdlə mümkün olmayacağı təqdirdə Azərbaycan Respublikasının nəyin bahasına olursa olsun, yəni güc tətbiq etməklə də olsa, öz ərazilərinin işğaldan azad edəcəyini bildirirdi. Bu isə işğal olunmuş torpaqların güzəştin, Azərbaycanla Ermənistan arasında aparılan danışıqların mövzusunu təşkil edə bilməyəcəyinə dəlalət edirdi: "Azərbaycan xalqı bundan sonra öz gücünü daha da toplayacaq və əgər bu müharibəni başqa yolla qurtarmaq mümkün olmasa, işğal edilmiş torpaqlarımız nəyin bahasına olursa olsun, erməni işğalçılarından təmizlənəcək, Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin ediləcəkdir"[26].

[26] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 435

Heydər Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün hər bir imkandan, xüsusilə də xarici ölkələrə səfərlərindən istifadə edir, hər bir auditoriya üçün münaqişənin səbəblərini və onun həlli ilə bağlı Azərbaycan dövlətinin mövqeyini şərh edirdi.

Mövcud vasitələrin axtarışı və reallıqlar əsasən iki istiqamətdə işin davam etdirilməsini tələb edirdi: sülhsevər siyasətin davam etdirilməsi və ölkənin müdafiə qüdrətinin gücləndirilməsi. Bu işlərin hər birinin özünün bir çox şaxələri, istiqamətləri var idi. Bu işləri yerinə yetirmək müdriklik, təcrübə, gündəlik və yorulmaz fəaliyyət, əzmkarlıq tələb edirdi: "Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa olsun, respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü, xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq"[27].

Danışıqlar aparmaq üçün, barışıq əldə etmək üçün, yəni məsələnin sülh yolu ilə həlli vasitəsini tapmaq üçün də müdafiə qüvvələrinin, ordunun möhkəmləndirilməsi əsas şərt idi: "Bizim birinci yolumuz məsələni sülh yolu ilə həll etmək üçün müxtəlif istiqamətlərdə danışıqlar aparmaqdır. Eyni zamanda ordunu lazımi səviyyədə təşkil etmək, möhkəmləndirmək, hissələri yüksək peşəkar səviyyədə qurmaq lazımdır ki, Azərbaycan bu gün də, sabah da, bundan beş il də, on il də sonra müdafiə oluna bilsin. Azərbaycan müstəqil dövlətdirsə, deməli o, daim müdafiə oluna bilməlidir"[28].

Heydər Əliyev üçün sülhün ilkin şərti Azərbaycanın işğal altında olan torpaqlarının işğaldan azad edilməsi idi. Bu məqsədlə atəşkəs dövründə düşmən üzərində tam üstünlüyə malik ordu yaradılmalı, ədalətli və möhkəm sülh üçün zəmin hazırlanmalı idi: "Sülhün başlıca şərti bundan əvvəl işğal olunmuş torpaqların

---

[27] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 206
[28] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 253

tamamilə azad edilməsidir. Təcavüzkarı cilovlamağa qadir döyüş qabiliyyətli ordu yaradılması sülhə doğru yolda eyni dərəcədə mühüm vəzifədir”[29].

Heydər Əliyev münaqişənin sülh yolu ilə nizama salınması sahəsindəki axtarışlarında, nəhayət ki, Bişkek protokolunun imzalanması ilə ilk addıma nail olundu. Bişkek Protokolu 4-5 may 1994-cü ildə MDB Parlamentlərarası Assambleyanın, Qırğızıstan Respublikası Parlamentinin, Rusiya Federasiyası Federal Məclisi və Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə Bişkekdə keçirilən müşavirəsi sənədi idi. Həmin sənəddə Dağlıq Qarabağ və onun ətrafında silahlı münaqişəyə son qoyulması barədə qərar ifadəsini tapırdı. Həmin qərara müvafiq olaraq mayın 8-dən 9-na keçən gecə atəşin dayandırılması, münaqişənin BMT və ATƏM-in prinsip, məqsəd və qərarları (hər şeydən əvvəl BMT-nin 822, 853, 874, 884 qətnamələrinə müvafiq olaraq) nizama salınmasına başlanılması öz əksini tapırdı. Sənəd Azərbaycan tərəfindən 8 may 1994-cü ildə imzalanmış, mayın 12-də qüvvəyə minmişdi. Bu sənəd nahaq qan tökülməsinin, şəhid, qurban verilməsinin, insanların şikəst olmasının qarşısının alınmasında mühüm addım olsa da, hələ sülh demək deyildi. Çünki imzalanan sənəd Azərbaycanın işğal altında olan torpaqlarının işğaldan azad edilməsi ilə bağlı müddəaları nəzərdə tutmurdu. Lakin atəşkəsin özü də mövcud reallıqda sülhə doğru addım kimi Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edirdi: ”müharibəni qurtarmaq, münaqişəni sülh yolu ilə aradan qaldırmaq üçün son vaxtlar bir çox siyasi, diplomatik addımlar atmışıq və bu fəaliyyətimizi davam etdiririk. Bizim bu fəaliyyətimiz nəticəsində mayın 12-dən cəbhədə atəşkəsə nail olmuşuq. Lakin bu o demək deyildir ki, müharibə qurtarmışdır.Yox. Biz, sadəcə olaraq, beynəlxalq təşkilatların – BMT-nin, ATƏM-in, onun Minsk qrupunun vasitəsilə bu məsələdə fəal vasitəçilik rolu oynayan Rusiyanın, başqa böyük dövlətlərin vasitəçiliyindən

[29] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 279

istifadə edərək atəşin dayandırılmasına nail ola bilmişik. İndi müharibəyə son qoymaq üçün ciddi sülh danışıqları aparırıq. Bu danışıqlarda isə bizim şərtlərimiz məlumdur: erməni işğalçıları zəbt olunmuş bütün torpaqlarımızdan çıxarılmalı, qaçqınlar öz yerlərinə qaytarılmalı, müstəqil dövlət kimi Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Biz danışıqları bu şərtlər daxilində aparır və çalışırıq ki, buna nail olaq"[30].

Azərbaycan tərəfi danışıqlar zamanı ədalətli sülhün reallığa çevrilməsi üçün zəruri razılaşmaların əldə olunmasına səy göstərir, keçmiş müharibələrin təcrübələrini nəzərə alır, hər iki xalqın gələcəkdə qonşu kimi yaşamalarını davam etdirmələri üçün zəmin hazırlanmasına çalışırdı. Lakin Ermənistanın xarici havadarlarının münaqişənin davam etməsi, nizama salma prosesinin uzanmasında öz maraqlarının olması özünü təzahür etdirirdi. Beynəlxalq təcrübə göstərir ki, silahlı münaqişələrin nizamasalma prosesində iştirak edən dövlətlər çox vaxt münaqişədə olan dövlətlərin maraqlarından daha çox öz maraqlarından çıxış edir, bəzən də münaqişənin davam etməsi, danışıqlar prosesinin uzadılmasında maraqlı olur və bundan öz mənafeləri üçün istifadə edirlər.

Müharibəni arzulamamaq əslində sülhsevərliyi nümayiş etdirən əlamətdir. Lakin bu sülhsevərlik və sülhün özü ədalətə əsaslanmalıdır. Məhz bu prinsipdən çıxış edərək Heydər Əliyev "biz ədalətli sülh istəyirik" – deyir, həyatının başlıca vəzifəsini "Azərbaycan xalqına onun layiq olduğu ədalətli sülhü gətirməkdə" görürdü[31.] Sülh ədalətlə müşayiət olunmursa, onu əsl sülh hesab etmək olmaz və ədalət naminə sülhün pozulması haqqa xidmət etmiş olar. V.Vilson Konqresə müraciətində deyirdi: "...ədalət sülhdən qiymətlidir və həmişə ürəyimizdə olan uğrunda biz mübarizə aparacağıq: demokratiya uğrunda, öz hökumətlərində öz səsinə malik olmaq məsələsində gücə tabe olanların hüququ uğrunda, kiçik

---

[30] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. s. 43
[31] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. s. 62-63

millətlərin hüquqları uğrunda, millətlərin hamısına sülh və təhlükəsizlik gətirəcək və bütün dünyanı, nəhayət, azad edəcək azad xalqların birgə hərəkətləri sayəsində hüququn ümumbəşəri miqyasda hökmranlığı uğrunda”[32].

Heydər Əliyev həyatının sonuna qədər haqqa, ədalətə inanır və bütün varlığı ilə Ermənistanla Azərbaycan arasında silahlı münaqişənin beynəlxalq hüququn prinsiplərinə əsasən Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll edilməsinə çalışır və hesab edirdi ki, Azərbaycan Ordusunun gücü, insanlarının vətənpərvərliyi bu haqq işində etibarlı təminat və səmərəli vasitə olacaqdır. 8 may 2003-cü il tarixdə faşizm üzərində qələbənin 58-ci ildönümü münasibətilə Azərbaycan xalqına müraciətində Heydər Əliyev yazırdı: “Biz inanırıq və İkinci Dünya müharibəsinin tarixi də göstərir ki, zora söykənən siyasət işğala və təcavüzə əsaslanan, başqa xalqlara nifrət və düşmənçilik təbliğ edən ideologiya gec-tez məhvə məhkumdur. Bu gün Azərbaycan xalqının güclü ordusu, müasir tələblərə cavab verən silahlı qüvvələri vardır. Xalqımız bilməlidir ki, Azərbaycan rəhbərliyi ərazilərimizin azad edilməsi üçün beynəlxalq hüququn və diplomatiyanın bütün imkanlarından istifadə edəcək. Ordumuzun gücü, insanlarımızın vətənpərvərliyi isə bu haqq işimizdə etibarlı təminat və səmərəli vasitə olacaqdır”[33].

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında ən düzgün, Azərbaycanın maraqlarına cavab verən yolu Heydər Əliyevin yolu, onun mövqeyi olmasını hesab edən İlham Əliyev deyirdi: “...bizim üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın tutduğu mövqe dəstəklənir. Bu mövqe Heydər Əliyevin mövqeyidir və yeganə düzgün bir mövqedir. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. İşğalçı qüvvələr

---

[32] Henri Kissincer. Diplomatiya. Bakı. 2015. s. 45

[33] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Qırx beşinci kitab. s. 7

torpaqlarımızdan çıxmalıdır. Çox şadam ki, keçirdiyim bütün ikitərəfli görüşlərdə, bütün rəsmi səfərlərdə, dövlət başçıları ilə apardığım söhbətlərdə bu mövqe dəstəklənir. Çünki bu, məntiqə, beynəlxalq hüquq normalarına əsaslanır... Əlbəttə, həyat yerində durmur, qarşımıza yeni tələblər çıxır. Amma prinsipial istiqamət, ideoloji istiqamət dəyişməz olaraq qalır. Bu, Heydər Əliyev fəlsəfəsidir, siyasətidir, ideologiyasıdır, biz hamımız ona sadiqik"[34].

Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə bağlı Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fikir və ideyaları, ilk növbədə, münaqişənin sülh yolu ilə ədalətli həllinə əsaslanırdı. Münaqişənin sülh yolu ilə həlli eyni zamanda ordu quruculuğunda yüksək standartlara çatmanı, ordunun yeni texnika və texnologiyalarla təchiz olunmasını, əsgər və zabitlərin yeni nəslinin vətənpərvərlik ruhunda yetişdirilməsini, ölkənin iqtisadi qüdrətinin artırılmasını, həqiqi müttəfiq və "qardaş" dövlətlərlə tərəfdaşlığın möhkəmləndirilməsini, Ermənistanın havadarlarının neytrallaşdırılmasını, Ermənistanın təcavüzkar dövlət olmasını təsdiq edən və işğal altında olan torpaqların güc tətbiq etməklə azad olunması üçün hüquqi əsasların mövcud olması barədə beynəlxalq təşkilatlar tərəfindən qərar və qətnamələrin qəbul olunmasına nail olmanı, iqtidarla xalqın vahidliyini tələb edirdi.

İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı İşıq yolu həqiqətlərinə söykənərək münaqişənin nizama salınmasında əsas prinsip kimi "mübahisənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması"nı irəli sürürdü: "Ermənistan öz işğalçı siyasətindən əl çəkməlidir. Biz, əlbəttə ki, sülhün tərəfdarıyıq. İstəmirik ki, yenidən müharibə başlasın, yenidən qan tökülsün. Ona görə bütün səylərimizi buna yönəltmişik ki, sülh danışıqlarında bir irəliləyiş əldə olunsun. Eyni zamanda əgər razılığa gələriksə, sülh müqaviləsi ancaq bir neçə

---

[34] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Üçüncü kitab. s. 93

prinsip əsasında imzalana bilər. O prinsiplər də ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa edilməlidir. İşğal edilmiş torpaqlar azad olunmalıdır”[35].

İlham Əliyev Ermənistan–Azərbaycan münaqişəsinin həllində haqq, ədalət və beynəlxalq hüquqa əsaslanırdı. İstər haqq, ədalət, istərsə də beynəlxalq hüquq zor gücünə ərazinin işğalını yolverilməz hesab edir, bu haqsızlığın isə zor gücünə bərpasına bəraət qazandırırdı. Həm haqq, ədalət, həm də beynəlxalq hüquq Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edirdi: “Ölkəmiz müharibə şəraitindədir. Bizim işimiz haqq işidir. Biz heç kəsin torpağını işğal etməmişik, heç kəsin də torpağında gözümüz yoxdur. Bizim ərazi bütövlüyümüz pozulubdur, torpaqlarımız işğal altındadır. Azərbaycan xalqı, Azərbaycan ordusu hər an öz ərazi bütövlüyünü bərpa etmək üçün lazımi addımlar ata bilər”[36].

Ermənistanla münaqişənin nizama salınmasında haqqa, ədalətə, beynəlxalq hüquq normalarına istinad olunması İlham Əliyevin özünün də qeyd etdiyi kimi insanlığı, mədəniyyəti, Tanrının yaratdıqlarına hörməti və Onun tövsiyələrini dəyərləndirən dövlət başçısına xas olan xüsusiyyət idi. İnsanlığı, ədalətli yanaşmanı isə bu keyfiyyətlərə malik olan şəxslər başa düşə və dəyərləndirə bilərlər. Azərbaycanın dövlət başçısının təkrar-təkrar münaqişənin sülh yolu ilə nizama salınması barədə çağırışlarını biganəliklə rədd olunması Ermənistan rəhbərlərinin niyyətlərinin ədalət və insanlıq deyil, özgələrə məxsus olanlara sahib çıxmaq istəyindən xəbər verirdi. Bu da İlham Əliyevə “Azərbaycanın tam haqqı var ki, öz doğma torpaqlarını istənilən yolla azad etsin” – deməyə əsas verirdi: “Xalqımızı ən çox narahat edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində haqq-ədalət bizim tərəfimizdədir. Bizim mövqeyimiz beynəlxalq hüquqa əsaslanır. Normal

[35] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Birinci kitab. s. 132
[36] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Dördüncü kitab. s. 55

insani davranışa əsaslanır. Biz bu məsələni həll edəcəyik. Sadəcə olaraq, bunu sülh yolu ilə həll etməyə çalışırıq ki, müharibə olmasın, qan tökülməsin. Ancaq bu vəziyyətlə də biz barışa bilmərik. Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Azərbaycanın tam haqqı var ki, öz doğma torpaqlarını istənilən yolla azad etsin. Siyasi, diplomatik, iqtisadi tədbirlər görülür. Azərbaycanın iqtisadiyyatı möhkəmlənir. Bu il bizim büdcəmiz 2 milyard dollardan çoxdur. Gələn il 3 milyard dollar olacaqdır"[37].

Azərbaycanın iqtisadi və hərbi cəhətdən güclənməsi onun özünə güvənərək problemlərini həll etmək üçün zəmin yaradırdı. Uzun illərin təcrübəsi göstərirdi ki, taleyüklü məsələlərin həllində Azərbaycan yalnız özünə, öz xalqına, onun gücü və qüdrətinə güvənməlidir: "...biz ancaq öz gücümüzə arxalanmalıyıq. O dövr bitdi. Biz müstəqilliyimizi əldə edəndə bəziləri düşünürdü ki, Azərbaycana kimsə gəlib yardım etməlidir. Biz dünyaya bu baxışlarla yanaşırdıq. Hesab edirik ki, bizim haqlı olmağımız dünya tərəfindən dərhal qəbul edilməlidir və təcavüzkar Ermənistan cəzalandırılacaqdır. Ümid edirdik ki, kimsə gəlib bizə yardım edəcək, kimsə bizim üçün nəsə tikəcək, nəsə edəcəkdir. Artıq bu yoxdur və lazım da deyil"[38].

İlham Əliyevin siyasətçi kimi üstün cəhətlərindən biri də reallığı düzgün qiymətləndirmək idi. Bu cəhəti o, İşıq yolu həqiqətlərindən əxz etmişdi. İşıq yolu həqiqətləri isə onu işıqlı gələcəyə aparırdı: "...ulu öndər Heydər Əliyev rəhbərliyə gələndən sonra çox uğurlu hərbi əməliyyatlar aparılmış, torpaqlarımızın bir hissəsi qaytarılmışdır. Ancaq o vaxt Azərbaycanın hərbi gücü və iqtisadi gücü imkan vermirdi ki, müharibə davam etsin. Bu, reallıq idi. O vaxt müharibə dayanmalı idi ki, biz güc toplayaq, möhkəmlənək, güclənək və daha da güclü mövqedən çıxış edək. Elə də oldu.1993–2003-cü illər inkişaf illəri oldu. Bu il, 2008-ci ildə biz artıq orduya 1 milyard 300 milyon dollar pul xərcləyirik. Gələcək

---

[37] İlham Əliyev. İnkişaf – məqsədimizdir. On birinci kitab. s. 227
[38] İlham Əliyev. İnkişaf – məqsədimizdir. On dördüncü kitab. s. 28

illərdə daha da çox olacaqdır. Texnika, təyyarələr, silah-sursat alırıq, nə lazımdır edirik ki, torpaqlarımızın hərb yolu ilə azad edilməsinə hər an hazır olaq və biz artıq buna hazırıq. Sadəcə olaraq, danışıqlar prosesində müəyyən ümidlər olduğuna görə, biz hələ ki, bu prosesə sadiqik və çalışacağıq ki, bunu sülh yolu ilə həll edək"[39].

İlham Əliyevin məqsədi bir idi – Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması. Bu məqsədin həyata keçirilməsini uzun illərin həsrəti əsasında reallaşdırılmış Azərbaycanın müstəqilliyi tələb edirdi. Torpaqların işğaldan azad edilməsinin yolları müxtəlif ola bilərdi. Hələlik iki yol arasında seçim etməkdə sülh yoluna üstünlük verilirdi: "Biz çalışırıq ki, məsələni müharibəsiz, sülh yolu ilə həll edək. Amma bununla bərabər, biz bütün başqa variantlara da hazırıq. Biz heç vaxt barışmayacağıq ki, torpaqlarımız işğal altında qalsın. Ya sülh yolu ilə, ya da hərbi yolla torpaqlarımızı azad edəcəyik"[40].

Reallığı sözdə deyil, işdə dəyərləndirmək, mövcud vəziyyəti analiz edərək qərar qəbul etmək İlham Əliyevə xas xüsusiyyət idi. O, təkcə özünə münasibətdə deyil, başqalarına münasibətdə də reallıqdan çıxış edir və rəqiblərindən də bunu gözləyirdi. Reallıq isə Ermənistan dövləti və onun rəhbərlərinə sağlam düşüncə ilə vəziyyətə yanaşmanı tələb edirdi: "Biz həmsədr ölkələrdən etimad tədbirləri haqqında dəfələrlə eşidirik. Ən gözəl etimad tədbiri erməni işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasıdır. Başqa etimad tədbiri ola bilməz. Nə qədər ki torpaqlarımız işğal altındadır, müharibə bitmiş hesab oluna bilməz. Mən dəfələrlə demişəm ki, müharibə davam edir. Müharibənin birinci mərhələsi başa çatıbdır. Əgər Ermənistan istəmirsə ki, ikinci mərhələ başlasın, onda düzgün nəticə çıxarsın, işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxsın"[41].

---

[39] İlham Əliyev. İnkişaf – məqsədimizdir. İyirmi doqquzuncu kitab. s. 110
[40] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Otuz üçüncü kitab. s. 130
[41] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Altmış üçüncü kitab. s. 85

Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasında vasitəçilik missiyasının üzvləri ilə Azərbaycanın mövqeyində fərqli cəhətlər məhz ədalət və ədalətli sülhün özünə olan münasibətdə idi. Vasitəçilər hər hansı formada olursa olsun, sülhün tərəfdarı idilərsə, Azərbaycan və onun dövlət başçısı ədalətli sülhü arzulayırdı: “Hazırda biz sülh şəraitində yaşamırıq, doğrudur, atəşkəs şəraitidir, ancaq müharibə vəziyyətində yaşayırıq. Bunu hamı bilməlidir. Müharibə bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Ancaq ikinci mərhələ də başlana bilər. Heç kim bunu istisna edə bilməz. Biz müharibə istəmirik, biz sülh istəyirik. Eyni zamanda biz torpaqlarımızı istəyirik. Ermənistan, əlbəttə, indiki vəziyyəti, status-kvonu saxlamaq istəyir. Vasitəçilərin də əsas istəyi və fəaliyyətinin əsas mahiyyəti ondan ibarətdir ki, müharibə başlamasın. Biz də müharibə istəmirik. Kim istəyər ki?! Ancaq biz onlardan fərqli olaraq torpağımızı istəyirik. Dədə-baba torpağımızı geri istəyirik. Biz bu istəkdə haqlıyıq”[42].

Güc tətbiqi ilə qələbənin əldə edilməsi üçün ordunun gücləndirilməsi, onun vaxtlı-vaxtında təlimlər keçməsi, orduda vətənpərvərlik ruhunun yüksəldilməsi, düşmənin bunu hiss etməsi kimi zəruri amillər aid edilir. Orduda vaxtlı-vaxtında təlimlərin keçirilməsi, əsgər və zabitlərin döyüş qabiliyyətinin təkmilləşdirməsi, müxtəlif silahlarla davranış vərdişlərinin əldə edilməsi uğurlu döyüş əməliyyatları üçün zəmin yaradır. Bu cür təlimlər tərtib olunmuş planlar əsasında keçirilir, mövcud çatışmazlıq və üstünlüklər müəyyən edilir, araşdırılır və müvafiq tədbirlər görülürdü. 26 iyun 2014-cü il tarixdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimlərini izlədikdən sonra hərbi təlimlərin cəmiyyətdə əhvali-ruhiyyəyə və gələcək döyüşlərdə roluna toxu-

---

[42] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Altımış dördüncü kitab. s. 114

naraq İlham Əliyev deyirdi: "Bugünkü təlimlərdə göstərilən peşəkarlıq, bizim texniki imkanlarımız, cəmiyyətdə yaşanan və güclənən vətənpərvərlik ruhu istənilən anda məsələnin tezliklə, hərbi yolla həll edilməsinə şərait yaradır. Düşmən bunu bilir və ona görə qorxu içindədir"[43].

Dünya Birliyi dövlətlərarası və beynəlxalq münasibətlərdə münaqişə və mübahisələrin həlli ilə bağlı "ədalət" və "ədalətli" anlayışlarını xarakterizə etmək üçün kifayət qədər təcrübə toplamışdır. Artıq bu cür həqiqətlər heç kəsdə şübhə doğurmur ki, hər bir dövlət və ya xalq xarici təcavüzə qarşı mübarizə aparmaqda ədalətlidir, hər bir dövlətin və ya xalqın təcavüzə son qoymaq, onun nəticələrini, o cümlədən işğalı aradan qaldırmaq tələbi ədalətlidir, münaqişə nəticəsində evindən-eşiyindən didərgin salınmış insanların öz evlərinə, dədə-baba yurdlarına qayıdıb orada yaşamaq tələbi ədalətlidir.

Ədalətlilik təcavüzkara özünün təcavüzünün nəticələrindən bəhrələnməyə, onları siyasi alış-veriş predmetinə çevirməyə, təcavüzə görə mükafat almağa imkan verməməyi tələb edir.

Münaqişələrin həlli zamanı ədalətin başqa bir meyarı münaqişə tərəflərinin beynəlxalq hüquqa müvafiq olaraq zəruri qanuni hüquq və maraqlarının nəzərə alınmasıdır. Münaqişənin ədalətli həlli hər iki tərəfin mənafeyinin kifayət qədər nəzərə alınmasını ehtiva edir.

Təcavüzə, özgə torpaqlarının zəbtinə, başqa xalqın hüquqlarının tapdalanmasına əsaslanan sülh ədalətli və deməli, möhkəm ola bilməz. Ermənistanla Azərbaycan arasında möhkəm sülhə nail olmaq üçün tərəflərin qarşılıqlı münasibətlərində ardıcıl olaraq bərabərlik, eyni cür təhlükəsizlik, biri-birinin daxili işlərinə qarışmama, biri-birinin suveren bərabərliyi, ərazi bütövlüyünə hörmət, mübahisəli məsələlərin həlli zamanı gücdən istifadə olunmaması prinsiplərinə riayət olunmasını tələb edirdi.

---

[43] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Altmış üçüncü kitab. s. 274

Ermənistanın yeni-yeni təxribatları, atəşkəsə baxmayaraq, mütəmadi olaraq Azərbaycan ərazilərini müxtəlif silahlardan atəşə tutması, mülki əhali və silahlı qüvvələrin heyətindən insan itkilərinin, minlərlə insan üçün sonu görünməyən məcburi köçkünlüyün davam etməsi, Ermənistanın iqtisadi, maliyyə, demoqrafik cəhətdən Azərbaycandan qat-qat zəifliyi, beynəlxalq təşkilatların qəbul etdiyi hüquqi sənədlərdə Ermənistanın işğalçılıq siyasətinin pisləndiyi, Azərbaycanın ərazi bütövlüyünün tanındığı halda, təcavüzün nəticələrini aradan qaldırılması üçün tədbirlərin görülməməsi, bunun perspektivə malik olmamasını 30 illik təcrübənin təsdiq etməsi, beynəlxalq aləmdə ikili standartların davam etməsi, dünyada "güc amilinin" beynəlxalq hüquqdan üstün mövqeyi belə nəticəyə gəlməyə əsas verirdi ki, Azərbaycan işğal altında olan torpaqlarını özünün gücü hesabına azad etməlidir. İlham Əliyev sanki son qərarı verməmişdən əvvəl yenə də hərbi hissələrə baş çəkir, verəcəyi qərarın müxtəlif aspektlərini yerində götür-qoy etməyə çalışırdı. Bu səfər və görüşlər bir neçə cəhətdən önəmli idi.

Əvvəla, yerində vəziyyəti yoxlamaq, ordunun silah-sursat, texniki təchizat baxımından hazırlığının qənaətbəxş olmasına inam yaradırdı. İkincisi, əsgər və zabitlərin döyüş əhvali-ruhiyyəsi, keçirilmiş hərbi təlimlərin, döyüş hazırlıqlarının nəticələri ordunun döyüşə hazırlığına dəlalət edirdi. Üçüncüsü, vətənpərvərlik və mənəvi ruhun oyanması və yüksəlişi tələb olunan səviyyəyə cavab verirdi. Dördüncüsü, Ali Baş Komandanın əsgər və zabitlərlə görüşü bir tərəfdən onlardan hər an döyüşə atılmağa hazır olmağı, sayıqlıq tələb edir, digər tərəfdən mənəvi ruhun yüksəlişinə xidmət edirdi. Beşincisi, Ali Baş Komandanın son illər ərzində Ermənistanın təxribatları nəticəsində başlanmış döyüşlərdə Azərbaycan Ordusunun qələbəsi və onların nəticələri barədə verdiyi məlumatlar əsgər və zabitlərdə qələbəyə inamı möhkəmlədirdi. Altıncısı, Ermənistanın təmas xəttindəki silahlı qüvvələri üzərində üstünlük əldə edilərək Azərbaycan əsgərinin Ermənistan ordusu tərəfindən itirilmiş yüksəkliklərə, onların səngər və istehkamlarına sahib

çıxması, ordumuzun erməni əsgərlərini vətən torpağından geri oturtması təcrübəsinin Ali Baş Komandanın əsgər və zabitlərlə müzakirəsi gələcək döyüşlərdə mənəvi üstünlüyü Azərbaycan ordusuna keçməsini təmin edirdi.

Ermənistanın rəhbərliyi 2016-cı ilin aprel döyüşlərində Azərbaycan ordusunun qüdrətini hiss etsə də, sağlam düşüncənin olmaması həmin döyüşlərdən dərs götürməyə imkan vermədi. Sonrakı dövlərdə İlham Əliyevin münaqişəni sülh yolu ilə həll etmək təkliflərinə Ermənistan tərəfindən göstərilən biganə münasibət isə tədricən yeni torpaqların işğalı kimi meyillərə yol açdı.

İlham Əliyev müharibənin faciə olmasını, Azərbaycanın müharibə istəməməsini Azərbaycan Respublikasının Prezidenti seçildiyi ilk gündən dəfələrlə səsləndirmiş və 17 illik prezidentlik fəaliyyəti müddətində münaqişənin məhz danışıqlar vasitəsilə nizama salınmasına çalışmış, Ermənistanın dövlət başçıları, Minsk qrupunun həmsədrləri, müxtəlif ölkələrin prezidentləri, beynəlxalq təşkilatların nümayəndələri ilə saysız-hesabsız danışıqlar aparmış, bu məsələnin müzakirəsini keçirmiş, sülh çağırışları etmiş, Ermənistanı qarşılıqlı iqtisadi əməkdaşlığa dəvət etmiş, Azərbaycanın iqtisadi gücünü artıraraq iqtisadi təzyiqlər vasitəsilə münaqişənin sülh yolu ilə həllinə nail olmağa çalışmışdı. Uzun illər ərzində Azərbaycan rəhbərini işğal olunmuş ərazilərin güc tətbiq etməklə azad edilməsindən çəkindirən məsələ məhz müharibənin qəddarlıq, zorakılıq, ölüm, şikəstliklə müşayiət olunacağı idi.

Azərbaycan otuz il danışıqlar aparmaqla, otuz il sülh yolu ilə haqqı, ədaləti bərpa etməyə çalışdı. Bu yolun adı sülh yolu olsa da, bu yol çox ağrılı, acılı yol idi. Bu yolun ağrısını, əzabını xalq, əsgər, zabit bəlkə də onlardan daha çox, təxminən 11 il Heydər Əliyev, 17 il isə İlham Əliyev çəkdi. Onlar bu müddət ərzində "petrosyanlar", "koçaryanlar", "sarkisyanlar", "paşinyanlar"ın cinayətkar olduqlarını bilə-bilə onlarla bir masada oturub müzakirə aparmalı, onların şıltaqlıqlarına dözməli, "torpaqlardan bir qarış qaytarmayacağıq", "Qarabağ Ermənistandır" demələrinə səbir etməli oldular.

Bu cür vəziyyətə dözmək böyük mənəvi və psixoloji hazırlığa malik olmaq tələb edirdi. Heydər Əliyev də, İlham Əliyev də Ermənistanın danışıqlar prosesini qəsdən uzatmaq, status-kvonu saxlamaq, sonra isə "baş vermiş reallığa" əsaslanaraq torpaqlardan çıxmamaq niyyətini hiss edirdi. Lakin mərhələ-mərhələ, addım-addım da olsa, sülh yolu ilə irəliləmək istəyirdilər. Bu həm mövcud reallıqların tələbi, həm də Vətən övladlarının qanının axıdılmasını qəbul etməməyin nəticəsi idi.

Əsas amalı yaratmaq, qurmaq, inkişaf və tərəqqi olan İlham Əliyev qəlbən müharibə və zorakılığın deyil, sülh və əmin-amanlığın tərəfdarı idi. Lakin ədalətə əsaslanmayan, özgə torpaqlarının silah gücünə işğal altında saxlanmasına söykənən sülh möhkəm və daimi ola bilməzdi. Azərbaycanın hərtərəfli inkişafı və son illər, xüsusən 2016-cı ildən sonra Ermənistanın təxribatları nəticəsində başlanmış silahlı toqquşmalarda Azərbaycan Ordusunun nümayiş etdirdiyi hərbi bacarıq və qətiyyət, əslində, Ermənistan tərəfini mövcud vəziyyəti obyektiv qiymətləndirib düzgün nəticə çıxarmağa vadar etməli idi. Lakin çətin məqamda havadarlarının ona qahmar çıxacağına arxayın olan Ermənistan mövcud vəziyyətdən düzgün nəticə çıxara bilmədi. Bütün bunlara baxmayaraq, münaqişənin son silahlı mərhələsi yenə də Ermənistanın təxribatları nəticəsində başlandı.

Təcrübə tarixi şəxsiyyətlərin təcavüzkarlıq siyasətinə, işğalçılığa son qoymaq, müharibələri dayandırmaq üçün gücə müraciət etməsini təsdiq edir. 1917-ci ilin əvvəllərində Vudro Vilson təkrar olaraq ABŞ-nin Prezidenti seçilmişdi. Onun əsas məqsədlərindən biri də bütün müharibələrə tezliklə son qoyulması və sülhün bərqərar olması idi. O, bu barədə özünün çıxışlarında dəfələrlə bəyanat vermişdi. Münaqişələrin sülh yolu ilə nizama salınmasında cəhdlərinə və "fundamental bəşəri qanunu beynəlxalq siyasətə gətirdiyinə" görə Vudro Vilson 1919-cu ildə Nobel sülh mükafatının laureatı olmuşdu.

"Bu müharibə bütün xalqlara qarşıdır" adlı 2 aprel 1917-ci il tarixli çıxışında V.Vilson deyirdi: "...Almaniyanın imperiya hökuməti

tərəfindən son zamanlar həyata keçirilən kurs, faktiki olaraq Birləşmiş Ştatların hökuməti və xalqına qarşı müharibədən başqa bir şey deyil və formal olaraq bizə zorla qəbul etdirilən döyüşən tərəf statusunu möhkəmləndirir, həmçinin ölkənin təhlükəsizliyini təmin etmək, Alman imperiyası hökumətini qanun çərçivəsinə qaytarmaq və müharibəni qurtarmaq üçün bizdən təxirəsalınmaz tədbirlər görməyimizi tələb edir...

Ola bilsin ki, bizi irəlidə odlu sınaq və qurbanların uzun ayları gözləyir... Lakin ədalət sülhdən daha mühümdür və biz həmişə ürəyimizə yaxın olan – demokratiya uğrunda, hakimiyyətə tabe və öz hökumətində səsə malik olanların hüquqları uğrunda, kiçik xalqların hüquq və azadlığı uğrunda, azad xalqların bir yerdə başqa xalqlara sülh və təhlükəsizlik apardığı vaxt ədalətin hər yerdə hökmranlığı və sonda bütün dünyanı azad etməsi uğrunda döyüşəcəyik”[44].

Sülh, həm də ədalətli sülh Heydər Əliyevin İşıq yolunun kəlamı idi. Heydər Əliyev bütün fəaliyyətində ədalətli sülhə can atır, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz ədalətli sülh əsasında nizama salınmasını arzulayırdı: “Biz qonşuların hamısı ilə, o cümlədən də qonşu Ermənistanla sülh şəraitində yaşamaq istəyirik. Qonşularımıza qarşı heç bir iddia tələbimiz yoxdur, hansısa qonşu respublikanın torpaqlarının bir hissəsini qəsb etməyi qarşımıza məqsəd qoymuruq. Bununla yanaşı, biz, şübhəsiz, razılaşa bilmərik ki, ərazimizin bir hissəsi ilhaq edilsin. Buna görə də biz, ATƏT-in Minsk qrupunun köməyi ilə sülhə, lakin ədalətli sülhə nail olmağa çalışırıq. Elə sülhə ki, Azərbaycanın ərazi bütövlüyünü, respublikamızın sərhədlərinin toxunulmazlığını tamamilə təmin etsin”[45].

---

[44] Вудро Вильсон. «Это война против всех народов». Вашингтон. 2 апреля 1917 года // Автор-составитель В.Апанасик. Речи изменившие мир. Москва-2018, с. 199-202

[45] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab, s. 57-58

İlham Əliyev də uzun illər ərzində Ermənistan rəhbərliyinə sülhlə bağlı, qonşu dövlətlər kimi sülh şəraitində yaşamaq, nahaq qan axıdılmasının qarşısını almaq üçün çox müraciətlər etmişdi. Müharibəni Azərbaycan başlamamış, Azərbaycan öz sərhədlərindən kənara çıxmamış və heç bir dövlətin torpaqlarına göz dikməmişdi. Azərbaycan müharibəyə zorla cəlb olunmuş və V.Vilson demişkən, ölkəyə "döyüşən tərəf statusu zorla qəbul etdirilmişdi".

İlham Əliyevin sülh və müharibə haqqında düşüncələri, onun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək üçün uzun müddət çalışması İşıq yolu həqiqətlərinə söykənirdi. Ermənistan tərəfinin sağlam düşüncəyə malik olmaması, sülh çağırışlarını dəyərləndirə bilməməsi, təcavüzkarlıq hərəkətlərini davam etdirməklə yeni ərazilərin işğalı siyasətini həyata keçirməsi 2020-ci ilin sentyabr ayının 27-də Azərbaycanla Ermənistan arasında müharibənin yenidən alovlanmasına səbəb olmuşdu. Bu müharibəni Azərbaycan arzulamasa da, haqqını qorumaq üçün zülmə qarşı durmalı, ədaləti bərpa etməli idi.

Təcavüzkarlara layiqli cavab verən Azərbaycan Ordusunun Ali Baş Komandanı İlham Əliyev 9 oktyabr 2020-ci il tarixdə xalqa müraciətində deyirdi: "Azərbaycan bütün istiqamətlər üzrə mövqelərini möhkəmləndirir və biz işğalçını, təcavüzkarı sülhə məcbur edirik. Bu əməliyyatın əsas məqsədi də budur. Biz onlara göstərdik ki, döyüş meydanında da, beynəlxalq müstəvidə də, siyasi meydanlarda da biz qalib gəlirik. Onlar bizim gücümüzü gördülər, bizim iradəmizi gördülər".

İşğalçıların Azərbaycan torpaqlarını tərk etməsi Azərbaycan Ordusunun müzəffər yürüşünü dayandırması üçün yeganə şərt idi. Əslində, döyüş meydanında baş verənlər uzun illər ərzində Azərbaycanın Ermənistana sülh yolu ilə həyata keçirilməsini təklif etdikləri idi. Ermənistan rəhbərliyinin tıxanmış qulaqları bu sülh təkliflərini eşitmək istəmir, işğal etdiyi torpaqlardan danışıqlarda üstünlük qazanmaq üçün vasitə kimi istifadə edir, Azərbaycana bu mövqedən təzyiqlər göstərirdi. Ermənistan rəhbərləri artıq hiss

etməyə başlayırdılar ki, Azərbaycan öz sözünü döyüş meydanlarında deyir, onların xoşluqla, sülh yolu ilə etmək istəmədiklərini onlara məcburən etdirir, onları qova-qova işğal etdikləri ərazilərdən çıxarır. İlham Əliyev inamla bildirirdi ki, Azərbaycanı öz məqsədlərinə çatmaqdan heç bir qüvvə yayındıra bilməz: "Biz haqq yolundayıq, biz qalib gəlirik, biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!"[46]

İlham Əliyevin status-kvonun davam etməsinin yolverilməzliyi və işğala son qoyulması tələbi beynəlxalq hüquqa əsaslanırdı. Uzun müddət status-kvoya Azərbaycanın riayət etməsinin yeganə məqsədi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə beynəlxalq hüquq normalarına əsasən nizama salınmasının tərəfdarı olmasında idi. Çünki sülh yolu hər iki tərəf üçün daha rahat, itkisiz, millətlər arasında ədavəti qızışdırmadan, gələcək üçün əməkdaşlıq perspektivləri açan bir yol idi. Lakin Ermənistan tərəfi Azərbaycanın sülhməramlı niyyətini başa düşmək istəmədi. Onlar münaqişənin sülh yolu ilə həll olunmasına lal, kar, kor münasibət nümayiş etdirərək erməni xalqı üçün yarana biləcək iqtisadi faydaları görə, hər iki tərəfdən minlərlə insanın həyatdan məhrum olma ehtimalını hiss edə bilmədilər.

44 günlük müharibə zamanı Azərbaycan öz torpaqlarının əsas hissəsini, o cümlədən Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərini işğaldan azad etdi. Azərbaycan ordusunun əldə etdiyi hərbi möve, cəbhədə qazandığı uğurlar, əsgər və zabitinin qəhrəmanlığı, həmçinin hərbi əməliyyatların yüksək səviyyədə planlaşdırılması və uğurla başa çatdırılması ona dəlalət edirdi ki, Azərbaycan Ordusu düşmənə münasibətdə istənilən hərbi qələbəni qazanmağa qadirdir. Lakin artıq itkilərə yol verilməməsi üçün Ermənistanın təslimolma qərarı və Laçın, Kəlbəcər və Ağdam rayonlarının qısa müddət ərzində döyüşsüz tərk etmələri barədə təkliflə razılaşdı.

---

[46] https://president.az/az/articles/view/42411

2021-ci il mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada "Xarıbülbül" musiqi festivalının açılışında İlham Əliyev deyirdi: "44 günlük müharibə Azərbaycanın tam Qələbəsi ilə nəticələndi. Azərbaycan tam Qələbə qazandı, işğalçıları qədim Azərbaycan torpaqlarından qovdu və azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağını ucaltdı. 44 günlük müharibə bizim şanlı tariximizdir. 44 günün hər bir günü qəhrəmanlıq dastanı idi, hər bir gündə biz şəhidlər verirdik, qan tökürdük və irəliyə gedirdik. Hər gün biz irəliyə gedirdik. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq irəli gedirdik, şəhidlər verərək, qan tökərək, xalqımız birləşərək və biz birləşib bu Qələbəni şərtləndirdik. 300-dən çox şəhər və kənd döyüş meydanında işğalçılardan azad edildi və Şuşanın – alınmaz qalanın alınması ayrıca bir qəhrəmanlıq dastanıdır. Şuşada olan hər bir insan və artıq Şuşaya gələn Azərbaycan vətəndaşları görürlər ki, Şuşanı götürmək, işğaldan azad etmək böyük qəhrəmanlıq, şücaət, fədakarlıq tələb edirdi. Bizim qəhrəman hərbçilərimiz bu sıldırım qayalara dırmaşaraq əlbəyaxa döyüşdə Şuşanı işğalçılardan azad etdi. Baxmayaraq ki, işğalçılar bizə qarşı tanklardan, toplardan atəş açırdılar. Biz Şuşa uğrunda gedən döyüşlərdə şəhidlər verdik. Ancaq bizi irəliyə aparan milli ruh bu Qələbəni təmin etdi. Şuşanın azad edilməsi faktiki olaraq Ermənistan ordusunun və Ermənistan dövlətinin çökməsi demək idi. Çünki ondan bir gün sonra Ermənistan məcbur olub bizim şərtlərimizə əsasən formalaşmış kapitulyasiya aktına imza atıb və biz bir güllə atmadan Laçın, Kəlbəcər və Ağdam rayonlarını geri qaytardıq. Təsadüfi deyil ki, Şuşanın azad edilməsi günü – 8 noyabr günü Azərbaycanda rəsmi dövlət bayramı elan edildi, Zəfər bayramı elan edildi və biz bu bayramı hər il qeyd edəcəyik"[47].

[47] https://president.az/articles/51466

## YAZI 3

# VƏTƏNPƏRVƏRLİK: VƏTƏN SEVGİSİ, ŞƏHİDLİK ÜÇÜN MƏNƏVİ ZƏMİN

İnsan ilkin olaraq vətənini, torpağını sevməlidir ki, vətənpərvər olsun, Vətəninin təəssübkeşliyini çəksin, Vətənini, torpağını qorumağı, ona xidmət etməyi özünə borc bilsin. Vətən sevgisi, torpaq sevgisi, vətənpərvərlik ana südü, ata qanı, doğulub boya başa çatdığın torpağın ətri, onun havası, nemətlərindən insanın canına, qanına, iliyinə hopan zərrələrdən, ana laylasından, ata öyüdündən, insanın böyüdüyü mühitin mənəvi ab-havasından, aldığı tərbiyədən yaranır. Vətən övladı məhz bu amillərin təsirindən Vətən sevgisinə qovuşur və bu sevgi onu vətənpərvər, torpağını sevən, onun üçün mübarizəyə hazır olan insana çevrir, vətənpərvərlik amalına qovuşdurur.

Vətənpərvərlik insanın doğulduğu, boya başa çatdığı torpağa, elinə-obasına, onun adət-ənənlərinə, yaşadığı cəmiyyətdəki insanlar arasındakı qarşılıqlı münasibət, davranış qaydalarına, milli-mənəvi dəyərlərə, öz dilinə, xalqın mədəni sərvətinə, vətən torpağına, bu torpaqda yaşayan insanlara sevgidə, vətənin çiçəklənməsi, inkişafı üçün fəaliyyətdə təzahür edir.

Vətənə, torpağa məhəbbət, vətənpərvərlik, vətənə, xalqa xidmət ideyaları Heydər Əliyev həyat və fəaliyyətinin əsas qayəsini təşkil edirdi: "Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik"[48].

---

[48] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. s. 319

Müstəqilliyin, milli azadlığın, dövlətçiliyin də əsasını vətənə sevgi, vətənpərvərlik təşkil edir. Heydər Əliyev ideyalarından biri də gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması idi. Əslində bu ideya özündə çox şeyi ehtiva edirdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kontekstində götürsək vətənpərvər insan heç vaxt Vətəninin, torpağının işğal altında qalması ilə barışmamalıdır. O canı ilə, qanı ilə mübarizəyə hazır olmalı, Vətəni azad etmək onun amalına çevrilməlidir. Heydər Əliyev gənclərin vətənpərlik ruhunda tərbiyə olunmasını tələb etməkdə, məhz bu amili nəzərdə tuturdu.

Vətənpərvərliyin digər cəhəti onda ifadə olunur ki, vətənpərvər insan öz amalını həyata keçirmək – Vətəni azad etmək üçün özü ilə eyni əqidədə, eyni fikirdə olan insanları tapır, onlar eyni amal uğrunda birgə mübürizəyə aparır və beləliklə də, vətənpərvər insanlar artıq eyni ideya ətrafında birləşərək milli birlik yaradırlar. Hər bir müharibədə milli birlik, əqidə birliyi qələbənin, zəfərin əsasını təşkil edir. Ona görə də Heydər Əliyev gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasını tövsiyə etdikdə, həm də gələcəkdə vətənpərvər insanların birliyi üçün zəmin yaranmasını arzulayırdı.

Heydər Əliyev vətəndaşın dövlətçiliyi inkişaf etdirən vətəndaşa çevrilməsi üçün onun vətənpərvər olmasını ilkin şərt hesab edirdi: “Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından – hər şeydən üstün tutsun. Milli vətənpərvərlik, milli qürur hissi bizim dövlətçiliyimizin yaşaması üçün ən böyük amillərdən biridir. Şübhəsiz ki, dövlət dövlətçiliyi möhkəmləndirir. Amma dövlət cəmiyyətə arxalanır. Cəmiyyət insanlardan ibarətdir. İnsanların isə hər biri gərək əsl vətəndaş olsun, vətənpərvər vətəndaş olsun, milli qürur hissi ilə yaşayan vətəndaş olsun. Onda bu vətəndaş dövlətçiliyi inkişaf etdirən vətəndaş olacaqdır”[49]. Dövlətçiliyi inkişaf etdirmək

[49] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab. s. 245

isə başqa cəhətləri ilə yanaşı dövlətin suverenliyinin, ərazi bütövlüyünün təmin olunmasında və əlbəttə ki, işğal olunmuş ərazilərinin azad olunmasında öz ifadəsini tapır.

Heydər Əliyev vətənpərvərliyin xalqın yaratdığı mədəniyyəti, adət-ənənələri ilə bağlı olduğunu, xalqın mədəniyyətinin dünyaya çatdırılmasının xalqın hər bir üzvünün vətənpərvərliyinin yüksəlməsinə təsir etməsini, bunu isə son nəticədə azərbaycançılıq hissini yüksəldərək Vətən torpaqlarının işğaldan azad edilməsi üçün stimul yaradacağını düşünərək deyirdi: "Azərbaycan müstəqil dövlət kimi, şübhəsiz ki, öz tarixi, adət-ənənələri və əsrlər boyu xalqın yaratdığı mədəniyyət əsərləri ilə fəxr edir. Xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən çatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, həqiqi vətəndaşlıq hissini, azərbaycançılıq hissini yüksəldərik. Müstəqillik dövründə torpaqlarımızı müdafiə etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bu, çox gərəklidir, lazımdır"[50].

Heydər Əliyevin həmin fikirləri ona əsaslanırdı ki, hər bir insan xalqının qədim mədəniyyəti ilə tanış olduqca, onu daha yaxından, dərindən mənimsədikcə özündə xalqına, onun yaratdıqlarına rəğbəti, sevgisi artır və tarixi köklərə malik olan xalqının dəyərlərinə – mədəniyyətinə, mədəni abidələrinə, torpağına sahib çıxmağa can atır. "Hər bir mədəniyyətin keçmişi, bu günü və gələcəyi vardır", – deyən filosof Səlahəddin Xəlilov da eyni mövedən çıxış edir: "Mədəniyyət öncəki nəsillərin fəaliyyətinin nəticəsi olaraq yaranmış mühitdə öz əksini tapmışdır. Yəni hər bir insan üçün mühit heç də təbii mühitdən ibarət olmayıb artıq müəyyən dərəcədə "mədəniləşmiş" mühitdir. Eləcə də müəyyən yaşa çatmış insan öz mütləq təbii halına qayıtmaq üçün gərək bütün əvvəlki nəsillərin əldə etdiyi nailiyyətlərdən imtina etsin. Halbuki bu

---

[50] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 157

nailiyyətlərin çoxu insan hələ şüurlu yaşına qədəm qoyana qədər ona təsir göstərir. Müasir insanın təməli təbiətlə yox, "mədəniləşmiş" mühitlə qoyulur. Bu mənada hər bir insan bütün əvvəlki insanların həyatının davamını yaşayır"[51].

Vətənpərvərlik hissi təkcə müharibədə, döyüşdə qələbə qazanmaq üçün deyil, ümumiyyətlə dövlətin, xalqın rifahı üçün zəruri amildir. Vətən sevgisi, vətənpərvərlik hissi olmadan insanın fəaliyyəti şəxsi mənafeyinə yönəlmiş olur, son nəticədə dövlətin inkişafı, ümumi mənafe üçün öz töhfəsini vermir. Bu cəhətdən Heydər Əliyev gənclərin vətənpərvərlik ruhunu dövlət üçün vacib məsələ kimi qəbul edirdi: "Əsas vəzifələrdən biri də gənclərimiz arasında vətənpərvərlik hissini geniş təbliğ etməkdir. Bu, təkcə ona görə deyil ki, biz indi müharibə aparırıq. Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, dünyada başqa şeyləri də qiymətləndirə bilməzsən. İndiki dövrümüzdə vətənpərvərlik ən aktual məsələdir"[52].

Azərbaycanlıların Azərbaycandan başqa vətəni yoxdur. Vətən isə özünün övladlarından onu qorumağı tələb edir. Ermənistan tərəfindən işğal olunmuş torpaqların işğaldan azad olunması üçün ilkin olaraq xalq bu vəzifənin onun üzərinə düşdüyünü dərk etməli, bu hiss xalqın övladlarında vətənpərvərlik əhvali-ruhiyyəsi doğurmalı və xalqda qələbəsinə inam yaranmalıdır. Səlahəddin Xəlilov yazır: "Dərk olunmuş vətənpərvərlik, təbii ki, daha dayanıqlı və daha faydalı olur... Vətənə şüurlu sevgi, milli özünüdərk və fərdi fəaliyyətlərin bu kontekstə salınması tələbi hər bir adamın üzərinə ağır yük qoyur"[53].

İnsanlarda dərk olunmuş vətənpərvərliyin yaranması, Vətənə şüurlu sevgi və qələbəyə inama malik olmaq isə fəaliyyət və xalqın

---

[51] Səlahəddin Xəlilov. Şərq zehniyyəti: mənəviyyatın prioritetliyi. Bakı. 2016. s. 40
[52] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 176
[53] Səlahəddin Xəlilov. Lider, dövlət, cəmiyyət. Bakı. 2001. s. 262

birilliyini tələb edir. Çünki yalnız birliyə malik olan xalq düşmənə qarşı mətin dayanmağa qadirdir: "Azərbaycan xalqında yeni əhval-ruhiyyə, vətənpərvərlik hissləri, vətənpərvərlik əhval-ruhiyyəsi yaradacaqdır. Bəzi adamlar indiyədək olan biganəlikdən əl çəkəcək və başa düşəcəklər ki, Azərbaycandan başqa Vətənimiz yoxdur. Azərbaycan torpaqlarını biz özümüz qorumalıyıq, özümüz saxlamalıyıq. Azərbaycanın müstəqilliyini biz özümüz qorumalıyıq, özümüz saxlamalıyıq. Bu onu göstərir ki, gücümüzü toplaya bilsək, adamlarda vətənpərvərlik hissini gücləndirə bilsək, inamı artıra bilsək, daha doğrusu, inam yarada bilsək, torpaqlarımızı müdafiə edə biləcəyik"[54].

Düşmənə qarşı mübarizədə birliyin zəruriliyi ilə əlaqədar Fukidid peloponneslilərin müraciətində yazırdı: "Lakin afinalılar gücdə ayrı-ayrılıqda bizim şəhərlərlədən üstün olsalar da, ittifaqdan geri qalırlar. Ona görə də bizim ittifaq, hər bir xalq və hər bir ayrıca şəhər birlikdə vahid kimi onlara müqavimət göstərməsə, onda onlar çox da çətinlik çəkmədən bizi ayrılıqda üstələyəcəklər. Bilin ki: məğlubiyyət (bunu güman etmək nə qədər acı olsa da) bizi həqiqi qul həyatına aparacaqdır. Bu barədə Peloponnesin düşünməsi belə utandırıcıdır... Əgər biz buna yol versək bizim haqqımızda düşünəcəklər ki, ya biz ədalətli olaraq cəzalandırılmışıq, ya da ki biz qul həyatına özümüz qorxaqlığımızın ucbatından düçar olmuşuq. Biz özümüz öz azadlığımızı təmin etməsək və bir şəhərin Elladanın hökmranı olmasına yol versək, Elladanı azad edən – öz atalarımıza layiq olmayacağıq... Sülhü müdafiə edən deyil, ilk dəfə hücum edən sülhü pozandır. Müharibə elan etməklə siz möhkəm sülhə daha tez nail olacaqsınız, sülhə sevgidən müharibədən imtina etmək təhlükəsiz deyildir"[55].

Əsgər və zabitlərdə vətənpərvərlik hissinin yüksəldilməsi yollarından biri də xalq, Vətən yolunda qəhrəmanlıq göstərərək canlarını

---

[54] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 284
[55] Фукидид. История. Санкт-Петербург. 2018. с. 77-79

fəda edənlərin yad edilməsi, onların xatirəsinin əbədiləşdirilməsidir. Heydər Əliyev Həzi Aslanovun adını daşıyan hərbi məktəbdə qəhrəmanın xatirə abidəsini açdıqdan sonra deyirdi: "Xalqımızın qəhrəman oğlu... Həzi Aslanov öz qəhrəmanlıq, cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyada tanıtmış bir şəxsiyyətdir. Həm döyüşçü, həm sərkərdə, general, həm də vətənpərvər bir insan, Vətəninə sədaqətlə son nəfəsinə qədər döyüşmüş, həlak olmuş həmvətənimiz Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır"[56].

Heydər Əliyev gənclərin milli vətənpərvərlik ruhunda tərbiyələndirilməsini dövlətin müstəqil yaşaması, müasir tələblərə cavab verən güclü ordusu, torpaqların işğal altında olması ilə əlaqələndirir və bildirmək istəyirdi ki, milli vətənpərvərlik ruhunda tərbiyələnmiş gənclər bir vaxtlar bu tərbiyəyə əsaslanaraq torpaqların azad edilməsini təmin etməlidirlər: "Gəncləri xüsusən milli vətənpərvərlik, hərbi vətənpərvərlik ruhunda tərbiyələndirmək lazımdır. Hər bir müstəqil dövlətin müstəqil yaşaması üçün onun güclü müasir tələblərə cavab verən ordusu olmalıdır. Azərbaycan Respublikası üçün bu ordu daha da güclü olmalıdır. Çünki respublikamız təcavüzə məruz qalmışdır, Azərbaycanın torpaqları işğal edilibdir, ərazi bütövlüyü pozulubdur. Biz respublikamızın ərazi bütövlüyünü bərpa etməliyik"[57].

Heydər Əliyev orduda peşəkarlıq ilə milli vətənpərvərlik tərbiyəsini biri-birindən ayırmır, əsgər və zabitlərdə həmin hər iki keyfiyyətin olmasını ordunun qüdrətinin əsası hesab edirdi: "Azərbaycanda bir tərəfdən ordumuzun peşəkarlığını artırmaq, ikinci tərəfdən də Azərbaycan gənclərini orduda xidmətə hazırlamaq lazımdır. Azərbaycanda milli vətənpərvərlik təbliğatını genişləndirmək, xalqımızın milli vətənpərvərlik ruhunu qaldırmaq, gənclər arasında milli vətənpərvərlik duyğularını inkişaf etdirmək

---

[56] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 565
[57] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. s. 390

lazımdır. Hər bir gənc ailəsindən, ata-anasının tutduğu vəzifədən, yaxud da maddi vəziyyətindən asılı olmayaraq Azərbaycan Milli Ordusunda xidmət etməlidir. Milli Ordumuzda xidmət etmək hər bir Azərbaycan vətəndaşının şərəfli borcu olmalıdır"[58].

"Orduda xidmət hər bir gəncin qəlbində böyük arzu kimi yaşamalıdır. Valideynlər öz övladlarını tərbiyə edərkən onlara verdikləri nəsihətlər içərisində ən birinci nəsihət, ən birinci valideyn tapşırığı oğlunun orduda xidmət etməsi olmalıdır. Hər bir Azərbaycan oğlu uşaqlıqdan orduda xidmət etməyi arzulamalıdır. O, bunun üçün çalışmalı, tələsməli, orduda xidmət yaşının çatmasını həsrətlə gözləməlidir və orduda xidmət edərək vətən, millət qarşısında öz şərəfli borcunu verməlidir"[59].

Milli vətənpərvərlikdən danışarkən Heydər Əliyev təkcə ölkənin çətin və ağır vəziyyətdə olduğu anları, günləri düşünmürdü. O, milli vətənpərvərlik tərbiyəsini çox vaxt gələcək ilə bağlayır, azərbaycanlı övladlarının anadan olduğu vaxtdan bu istiqamətdə tərbiyə almasını arzulayırdı: "...qadınlarda vətən, vətənpərvərlik hissi, vətəndaşlıq hissi çox yüksəkdir. Bu, çox sevindiricidir. Çünki qadınlar bu hissləri öz uşaqlarına, övladlarına, balalarına verirlər. Beləliklə də bizdə vətənpərvərlik hissləri günü-gündən inkişaf edir, artır. Bu, bizim üçün çox lazımdır. Biz müstəqil ölkəmizi, müstəqil dövlətimizi qurub yaradırıq, inkişaf etdiririk. Dövlət müstəqilliyimiz çətin və ağır şəraitdə yaranır və biz çalışırıq ki, dövlət müstəqilliyinin əsasını elə qoyaq ki, heç bir qüvvə onu yenidən tərpədə bilməsin. Biz buna nail oluruq və olacağıq. Buna görə də vətənpərvərlik, vətənə sədaqət, vətəni sevmək hissləri hər bir azərbaycanlı üçün ən yüksək anlayışdır. Bunlara nail olmaq üçün qadınlar bundan sonra da öz müqəddəs vəzifələrini yerinə yetirməlidirlər və əminəm ki, yerinə yetirəcəklər"[60].

---

[58] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Onuncu kitab. s. 25
[59] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Onuncu kitab. s. 200
[60] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On beşinci kitab. s. 44

Heydər Əliyevin gələcəyə ünvanlanmış bu ümidləri də reallaşdı. Azərbaycan qadınları vətəni müdafiə etmək, torpaqları azad etməyə qadir olan övladlar dünyaya gətirdi, onları milli vətənpərvərlik ruhunda tərbiyə edərək, Vətənin azadlığı üçün cəbhəyə yolladı. Bunu onlara Heydər Əliyev tövsiyə etmiş, onların bu keyfiyyətə qabil olmasını qabaqcadan müəyyən etmişdi: "Azərbaycan qadınları Azərbaycan ordusunu daha da gücləndirmək, inkişaf etdirmək, daha da qüdrətli etmək üçün bundan sonra da gözəl insanlar yetişdirəcəksiniz, o insanlar tərbiyəli, vətənpərvər olacaqlar, vətən yolunda həlak olmağa hazır övladlar olacaqlar. Mən əminəm ki, siz bu işdə də öz xidmətlərinizi göstərəcəksiniz"[61].

Belə bir inam öz xalqını, onun vətənpərvər övladlarını, o cümlədən analarını, qadınlarını tanımaqdan, onların mərdliyinə, mübarizliyinə, torpaqlarını işğal edən düşməninə qarşı nifrətinə bələd olmaqdan yaranırdı. Burada Heydər Əliyevlə şəhid anasının söhbətinin bir anını xatırlamaq yerinə düşür:

11 avqust 2002-ci il tarixdə Şahbuz rayon sakinləri ilə görüşdə şəhid anası Famil Məmmədova Heydər Əliyevə müraciət edərək demişdi: "Cənab Prezident, Kolanıda xəstəxana var, mən orada işləyirəm, insanların qayğısına qalır, onların sağlamlığını qoruyuram. 1993-cü il dekabrın 10-da mənim oğlum Beyləqanda şəhid olubdur. Vəziyyətimiz yaxşıdır. Əsas odur ki, müharibəni dayandırmısınız, atəşkəs əldə etmisiniz. Mənim böyük oğlum şəhid olubdur. Ondan başqa, iki oğlum da var. Sizin yolunuzda, Vətən yolunda qurban verməyə hazıram. Bu şərtlə ki, qara bulud üstümüzdən götürülsün, analar səksəkəli yatmasınlar. Qarabağ problemi həll olunsun".

Bəli, igid şəhidlərin anaları Vətən dərdini bala dərdindən üstün tuturdular. Onlar inanırdılar ki, Vətən torpaqları işğaldan azad olarsa, onlar igid oğullar yetişdirəcək və bu oğullar başlarını dik tutub həmin torpaqlarda fəxrlə gəzə bilərlər. Heydər Əliyev o vaxt

---

[61] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On yeddinci kitab. s.  323

Familə Məmmədovaya bu cür cavab vermişdi: “Allah sənin oğluna rəhmət eləsin. Oğlanlarını da yetişdir. Amma mən çalışacağam ki, müharibə olmasın, sülh olsun. Bizim gənclərimiz yaşasınlar, böyüsünlər. Onlar Azərbaycanın gələcəyi üçün lazımdır. Mən onları qırğına vermək istəmirəm, müharibə etmək istəmirəm. Məsələni sülh yolu ilə mütləq həll edəcəyik”[62].

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, Vətəninə, torpağına sədaqətli insanlar kimi yetişməsi şərtlərindən biri də onların müstəqil ölkənin vətəndaşları olması, müstəqil dövlətin, öz dövlətlərinin vətəndaşı kimi yetişmələri ilə bağlı idi. Müstəqillik gənclərdə milli şüurun formalaşmasına, milli mənliyin təzahürünə getdikcə öz təsirini göstərir, vətənpərvərlik hisslərini gücləndirirdi. 11 dekabr 1994-cü il tarixdə televiziya studiyasında uşaqlarla görüşdə Heydər Əliyev deyirdi: “Mən əminəm ki, bu ağır, çətin dövrdə dünyaya gəlib böyüyən uşaqlar cəsarətli, mətin, vətənpərvər olacaqlar. Azərbaycanın xoşbəxt gələcəyi naminə həm təhsil alıb böyüyəcəklər, həm də gələcəkdə cəmiyyətdə öz yerlərini tutacaqlar. Azərbaycanın gəncləri, uşaqları ölkəmizin, xalqımızın milli sərvətidir, gələcəyidir və ümididir. Ona görə də uşaqlara qayğı göstərmək hər bir vətəndaşın borcudur”[63].

Bəli, Heydər Əliyevin sözlərinə əməl edildi, həmin uşaqlara qayğı göstərildi və onlar müstəqil Azərbaycanın, azad xalqın vətənpərvər övladları kimi böyüdülər, xalqın milli sərvətinə çevrilərək torpaqlarının azadlığı uğrunda mübarizəyə qalxaraq ümidləri doğrultdular.

2021-ci il martın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Cıdır düzündə bayram tonqalı alovlandırdıqdan sonra İlham Əliyev xalqa müraciətində deyəcək: “Şuşada olarkən insan Azərbaycan xalqının böyüklüyünü bir daha dərk edir. Biz

---

[62] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Qırxıncı kitab. s. 233
[63] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. s. 5

Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq... Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi"[64].

Vətənpərvərlik hissləri həmçinin orduda tərbiyə olunmalı, əsgərlərə münasibətdə yanaşma məhz bu hisslər əsasında qurulmalıdır. Heydər Əliyev ordu quruculuğunda vətənpərvərlik hisslərinin tərbiyə olunmasına önəm verirdi: "Ordumuz peşəkar zabitlər, komandirlər tərəfindən idarə olunmalıdır. Onlar bir tərəfdən öz biliklərini, təcrübələrini təkmilləşdirməlidirlər. Bununla yanaşı olaraq, ordu hissələrində nizam-intizamı möhkəmləndirib, əsgərlərimizi, döyüşçülərimizi yüksək döyüş ruhunda tərbiyə etməlidirlər, hazırlamalıdırlar. Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər. Hər bir hərbi hissədə təlim-tərbiyə işləri yüksək səviyyəyə qaldırılmalıdır"[65].

---

[64] https://president.az/articles/all.
[65] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab. s. 378

Ordu gücünü xalqdan almalıdır. Ordu arxasında xalqın dayandığını bilməli və bunu real olaraq hiss etməli, bu birlik görünən olmalıdır. Birliyə malik olan xalq da, ordu da eyni məqsəd uğrunda müxtəlif yol və vasitələrlə fəaliyyət göstərir. Məqsəd eyniliyi isə onların birliyinin əsasını təşkil edir. Xalqla ordunun birliyi, həm real həyatda, həm də mənəviyyatda ifadə olunmaqla ordunun güc və qüdrəti üçün əsas amildir: "Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir"[66].

İlham Əliyev gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, orduda mənəvi mühitin yüksəldilməsində, hər bir əsgər və zabitin, vətənpərvərliyinə nail olunmasında işıq yolunun həqiqətlərini rəhbər göstərişlər kimi qəbul etmiş və bu istiqamətdə səmərəli fəaliyyət yolunu seçmişdi. O, 12 aprel 2004-cü il tarixdə Türkiyənin "Samanyolu" televiziyasına müsahibəsində deyirdi: "Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi bizim vəzifəmizdir. Mən bu istiqamətdə öz siyasətimi dəfələrlə bildirmişdim. Gənclərimiz vətənpərvərlik ruhunda böyüməli, öz tarixini bilməlidir, öz keçmişi ilə bağlı qürur hissləri keçirməlidir, mədəni-mənəvi irsimizi dünyada təbliğ etməlidir"[67].

İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başlayanda işıq yolunun həqiqəti kimi Ermənistan tərəfindən işğal olunmuş torpaqların azad edilməsini qarşısına məqsəd qoymuş, bu işin sülh yolu ilə həll olunmayacağı təqdirdə güclü ordu, xalqın birliyi, iradəsi ilə yanaşı əsgər və zabitlərin vətənpərvərlik ruhunu da əsas amil kimi nəzərdə tuturdu: "Biz ümid edirik ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar yolu ilə bərpa olunacaqdır. Biz buna çalışacağıq və sülh danışıqlarına sadiqik. Ancaq eyni zamanda – Azərbaycan

---

[66] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab. s. 379
[67] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Üçüncü kitab. s. 167

xalqı heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Əgər biz görsək ki, danışıqların heç bir nəticəsi yoxdur, bütün vasitələrdən istifadə edib torpaqlarımızı azad edəcəyik. Bunu etmək üçün güclü ordu lazımdır, vətənpərvərlik ruhu lazımdır, xalqın birliyi, iradəsi lazımdır. Bunların da hamısı var"[68].

Taleyüklü məsələlərin həllində xalqın, onun hər bir üzvünün iştirakı zəruri olduğu kimi, onların mənəvi hazırlığı, vətənpərvərliyi də lazımlı keyfiyyətdir. İlham Əliyev 29 mart 2008-ci il tarixdə imzaladığı "31 mart Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar Azərbaycan Xalqına Müraciətində soyqırım törədənlərin işfasına nail olunması üçün digər məsələlərlə yanaşı vətənpərvərliyi də vacib şərt hesab edirdi: "Sizi əmin edirəm ki, xalqımızın vətənpərvərliyi, birliyi və həmrəyliyi, Azərbaycan rəhbərliyinin siyasi iradəsi sayəsində qarşımıza qoyduğumuz bütün məqsədlərə, o cümlədən ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, soyqırımı həyata keçirənlərin, insanlar və xalqlar arasında nifaq və düşmənçilik salanların ifşasına nail olacağıq"[69].

Vətənpərvərlik, mənəvi ruhun yüksəkliyi həm də hər bir insanın həyata böyük ideyalar prizmasından baxmağı bacarmasından, bu ideyalar uğrunda mübarizəyə hazır olmasından asılıdır. İnsanın düşüncəsi yalnız maddi nemətləri əldə edib bolluqda, rahat yaşamağa deyil, mənəvi ideyalarla yaşamağa vərdiş etməli, hər kəs onun özünün mənəvi-intellektual imkanları çərçivəsində insani keyfiyyətini nümayiş etdirməyə çalışmalıdır. Səlahəddin Xəlilov "min illər boyu ata-babalarımızdan bizə həm də genetik olaraq miras qalmış böyük mənəvi sərvətləri kənardan öyrənməklə yanaşı, öz daxilimizdə necə aşkar edə bilərik?" sualının cavabını axtara-axtara belə qənaətə gəlir ki, "Fəlsəfi düşüncə tərzi fərdi-mənəvi inkişaf üçün, insanın kamilləşməsi üçün nə dərəcədə lazımdırsa, fəlsəfi biliklər sistemi, elmi-fəlsəfi tədqiqatlar da cəmiyyət üçün,

---

[68] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Dördüncü kitab. s. 56
[69] İlham Əliyev. İnkişaf – məqsədimizdir. İyirmi doqquzuncu kitab. s. 212

dövlət quruculuğu üçün, ictimai-siyasi və sosial-mədəni təşkilatlanma üçün bir o qədər vacibdir.

Ölkə miqyasında subyekt kimi ayrı-ayrı fərdlər deyil, dövlət çıxış edir. Başqa sözlə, dövlət sadəcə müəyyən inzibati funksiyaları həyata keçirən siyasi qurum olmayıb, həm də düşünən, öz fəaliyyətini müəyyən bir ideya əsasında quran və bu ideyanın müəllifi, daşıyıcısı və icraçısı olan bir qurumdur. Yəni, dövlət sadəcə siyasi subyekt olmayıb, həm də fəlsəfi subyektdir. Xalqın, millətin strateji inkişaf konsepsiyasının hazırlanması, milli maraqların beynəlxalq miqyasda təmsil olunması və qorunması, bundan öncə isə milli maraqların məhz nədən ibarət olduğunun müəyyənləşdirilməsi bu fəlsəfi subyektin əsas funksiyalarıdır”[70].

Milli maraqların müəyyən edilməsi, xalqın, millətin strateji inkişaf konsepsiyasının əsas istiqamətləri ilə bağlı ideyalar, milli maraqların beynəlxalq miqyasda təmsil olunması isə ilkin olaraq ölkə başçısı İlham Əliyev ilə bağlı idi. O, mənəvi ruhun və vətənpərvərliyin yüksəldilməsi ilə bağlı fikirlərini belə ifadə edirdi: “Gələcək ilk növbədə insanın sırf mənəvi keyfiyyətləri müstəvisində olacaqdır. Tərəqqiyə, texnologiyalara, qloballaşmaya, insan amilinin müəyyən dərəcədə nivelirlənməsinə baxmayaraq, mənəvi dəyərlər olmasa, bəşəriyyət inkişaf edə bilməz. Biz robotların gələcəyinə doğru getmirik. Daha çox inkişaf etmiş və daha müasir bəşəriyyətin gələcəyinə doğru gedirik. Minilliklər boyu dünyanı dəyərlər idarə etmişdir. Elə belə də olmalıdır. Buna görə də heç bir şəraitdə ləyaqət hissini keçmişdə qoymaq olmaz. Abır-həya və insanlara xeyirxah münasibət hissi həmişə olmalıdır. Sözün yaxşı mənasında vətənpərvərlik hissi inkişaf üçün əsas motivlərdən biri kimi daim olmalıdır. Mən vətənpərvərlik hissini ölkəmizin inkişafı üçün əsas motivlərdən biri hesab edirəm. Heç bir halda öz Vətənini sevməmək olmaz. Vətəni həmişə sevmək

---

[70] Səlahəddin Xəlilov. Şərq zehniyyəti: mənəviyyatın prioritetliyi. Bakı. 2016. s. 377-378

lazımdır. Mənim fikrimcə, hər kəs bu əsas məqamları həmişə özü ilə irəli aparmalıdır”[71].

İnsanda ruh yüksəkliyi yaradan, onu fəaliyyətə, igidliyə səsləyən cəhətlərdən biri də əməyinə, zəhmətinə layiqli dəyərin verilməsidir. Bu cür hallar mənəvi ruhu yüksəltməklə yanaşı, əzmkarlığı artırır, daha inamlı fəaliyyət üçün stimul yaradır. Dövlət başçısının təmas xəttində xidmət edən əsgər və zabitlərlə görüşü isə bu cür mükafatların dəyərini və onun doğurduğu nəticələri qat-qat yüksəldirdi. 21 yanvar 2012-ci ildə Goranboy rayonuna səfəri zamanı təmas xəttindəki “N” saylı hərbi hissədə xidmətdə fərqlənənlərə təltiflərin verilməsi də məhz ordu quruculuğunun inkişaf etdirilməsinə, ordudakı əsgər və zabitlərin vətənpərvərliyinin yüksəldilməsinə xidmət edirdi: **“**Bu gün xidmətdə fərqlənən döyüşçülərə təltiflər də verildi. Siz bu təltiflərə layiqsiniz. Xidmətdə biliklərinizi, peşəkarlığınızı, Vətənə sədaqətinizi göstərmisiniz və bu ağır, çətin şəraitdə düşmənlə üzbəüz, ön cəbhədə, təmas xəttində xidmət edirsiniz. Bütün hərbi hissələrdə xidmət edən əsgərlər, zabitlər böyük qiymətə layiqdirlər. Amma xüsusilə ön cəbhədə, düşmənlə üz-üzə olan mövqelərdə olan döyüşçülərə xüsusi diqqət göstərilməlidir və onların fəaliyyəti xüsusilə qiymətləndirilməlidir”[72].

İşğal altında olan torpaqların azad edilməsinin həm beynəlxalq hüquqa, həm BMT Nizamnaməsinə və BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə əsasən Azərbaycanın suveren hüquqlarına aid olması ordunun da döyüş qabiliyyəti və gücünün artırılmasını şərtləndirirdi. İlham Əliyev üçün ordunun gücləndirilməsi daimi və prioritet kəsb edən məsələ idi. Bunlarla yanaşı o, əsgər və zabitin rəşadətini, Vətənə bağlılığını, sədaqətini, döyüş hazırlığını, ruh yüksəkliyini, döyüş meydanında öz sözünü demək bacarığını da əsas amil hesab edirdi: “Müasir dövrdə döyüş mey-

---

[71] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Qırx doqquzuncu kitab. s.140
[72] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Qırx doqquzuncu kitab. s. 241

danında nəticəni həm rəşadət, Vətənə bağlılıq, sədaqət, həm də texnologiyalar müəyyən edir. Yeni texnologiyalar müasir dövrdə döyüş meydanında həlledici rol oynayır. Biz müasir texnologiyaları tətbiq edirik. Bu gün burada da mənə göstərildi. Biz düşmənin mövqelərini çox yaxşı görürük, onların hərəkətlərini də görürük. Bunu onlar da bilirlər. Çalışırıq ki, ərazi bütövlüyümüzü qan tökülmədən bərpa edək. Bu məqsədlə danışıqlar aparılır. Hələ ki, bu danışıqların heç bir nəticəsi olmayıb. Bununla bərabər, ərazi bütövlüyümüzü istənilən yolla, o cümlədən hərbi yolla həll etmək bizim suveren hüququmuzdur. Bu hüququ bizə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi verir. Hər bir dövlət özünü müdafiə etmək üçün bütün imkanlardan istifadə edə bilər və etməlidir. Ona görə biz hərbi gücümüzün artırılmasına əlavə vəsait ayıracağıq. Hərbi potensialın gücləndirilməsi üçün əlavə tədbirlər görəcəyik. Görülən bütün bu tədbirlərlə yanaşı, döyüş hazırlığı, ruh yüksəkliyi döyüş meydanında öz sözünü deməlidir və deyəcəkdir”[73].

Hər dəfə əsgər və zabitlərlə, xüsusən cəbhə bölgəsindəki əsgər və zabitlərlə görüşlərdən nikbinliklə ayrılan İlham Əliyev bu nikbinliyini Ordunun döyüş hazırlığı, əsgər və zabitlərin çətin və ağır zəhmət tələb edən xidmətlərinə baxmayaraq, mənəvi ruh yüksəkliyinə, mənəvi gücə malik olmasında tapırdı: “Çox şadam ki, Azərbaycan gəncləri vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Hər bir Azərbaycan vətəndaşı Qarabağ ağrısı ilə yaşayır. Bu bizim böyük yaramızdır və bu yara sağalmayana qədər Azərbaycan xalqı rahat yaşaya bilməz. Mən bir daha demək istəyirəm ki, bugünkü reallıq, bölgədə gedən proseslər və Ermənistan ilə Azərbaycan arasındakı qüvvələr nisbəti bizim nikbinliyimizi artırır. Sizin bu ağır dağlıq şəraitində, şaxtada, soyuqda uğurlu xidmət aparmağınız nikbinliyimizi daha da artırır”[74].

13 mart 2012-ci il tarixdə Masallı rayonuna səfər zamanı İlham Əliyev Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovdan

---

[73] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Qırx doqquzuncu kitab. s. 244
[74] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Qırx doqquzuncu kitab. s. 244-245

söhbət açaraq bir neçə məqam üzərində dayandı: "Əvvəla, Mübarizin qəhrəmanlığı ədalətsizliyə dözməməsində idi. İkincisi o, ölümə getdiyini qabaqcadan bilirdi. Bilirdi ki, çoxsaylı düşmənin üzərinə getməklə həyatla vidalaşmalıdır. Üçüncüsü, o, düşmənin üzərinə getməklə Azərbaycan əsgərinin ölümdən qorxmadığını nümayiş etdirdi. Dördüncüsü, o düşmənə sübut etdi ki, Azərbaycan əsgəri torpaqlarının işğalına görə onlardan qisas alacaqdır. Beşincisi, o, bir neçə düşməni məhv edib qəhrəmancasına həlak oldu. Altıncısı, o, düşməni məhv etmək, ölümdən qorxmadan işğalçını əzmək nümunəsini göstərdi. Nəhayət, Mübariz İbrahimov əməlləri ilə şəhidlik və Azərbaycan Respublikasının Milli Qəhrəmanı adını qazandı...

Bu gün Mübariz kimi oğullarımız çoxdur. Mübariz kimi Vətəni sevən, Vətən üçün canından keçməyə hazır olan minlərlə, on minlərlə gənclərimiz vardır.

Mən də istəmirəm ki, qan tökülsün, müharibə olsun. Kim istəyər ki?! Bizim görüləcək işlərimiz çoxdur. Ölkəmiz inkişafdadır. Hər bir Azərbaycan vətəndaşının həyatı bizim üçün əzizdir və doğmadır. Ancaq işğal ilə də barışmaq mümkün olmur. Prezident kimi, çalışıram ki, bu məsələ öz həllini siyasi yollarla tapsın. Mübariz döyüşçü kimi, başqa yolla öz qəhrəmanlığını göstərdi və mən onun hərəkətlərinə böyük hörmətlə yanaşıram. O, düşmən əsgərlərini məhv etdi. Ermənilərdən fərqli olaraq dinc əhaliyə əl qaldırmadı. O, başqa ölkənin ərazisinə gedib döyüş aparmadı. Budur fərq"[75].

9 fevral 2017-ci il tarixdə İlham Əliyev Azərbaycan Milli Qəhrəmanı Çingiz Qurbanovun ailə üzvləri ilə görüş zamanı da eyni fikirləri səsləndirərək Azərbaycanın Milli Qəhrəmanı "Qızıl Ulduz"unu şəhidin atası Salman Qurbanova təqdim etdi: "Bütün Azərbaycan Çingizlə fəxr edir. Mən sizə minnətdaram ki, belə vətənpərvər, qeyrətli övlad böyütmüsünüz, Azərbaycana bəxş et-

[75] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Əllinci kitab. s. 154-155

misiniz. Çingiz ölməyib, o bizim ürəyimizdə yaşayır və yaşayacaqdır. O, hərbçi üçün ən yüksək mükafatla təltif olunub, ona Milli Qəhrəman adı verilib. Onun adı əbədiləşdiriləcək və həmişə bizim ürəyimizdə yaşayacaqdır"[76].

Murad Adcı "Qıpçaq çölünün yovşanı" əsərində yazırdı: "Çar Attilanın döyüşçülərini təkcə kamil silahlar və avropalılar üçün sirr olan döyüş taktikaları səciyyələndirmir. Onların əsas gücü təchizatlarında, xarici görünüşlərində yox, mənəvi-ruhi aləmlərində idi"[77].

Əsgər və zabitlərin mənəvi ruh yüksəkliyi gələcək qələbənin əsas amilini təşkil edir. Məhz bu baxımdan İlham Əliyev gənclərdə Vətənə bağlılıq hisslərinin yüksəldilməsini vacib hesab edirdi: "...gənclər üçün bilik, savad, peşəkarlıq, əlbəttə ki, çox vacibdir, eyni dərəcədə vətənpərvərlik vacibdir. Vətənə bağlılıq, Vətənə sədaqət – bunlar bizim cəmiyyətdə var və bütün bu amillər qələbəmizi şərtləndirəcəkdir"[78].

Hər bir Azərbaycan vətəndaşının vətənə sevgisi, torpağa məhəbbəti, vətənpərvərlik duyğularının yüksəldilməsi və son nəticədə "xalqın, Vətənin taleyinin hər bir insanın taleyinə çevrilməsi" məqsədilə İşıq yolundan başlayaraq məqsədyönlü şəkildə aparılan və İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti dövründə xüsusi diqqətlə davam etdirilən iş həyatın başqa sahələrində – iqtisadiyyatda, sosial həyatda, mədəni inkişafda, beynəlxalq aləmdə və xarici siyasətdə olduğu kimi vətənpərvərliyin, mənəvi ruhun yüksəldilməsi sahəsində də öz bəhrəsini verirdi. Qeyd etdiyimiz kimi bu işin orduda uğur qazanmasının bir cəhətini də İlham Əliyevin Ali Baş Komandan kimi cəbhə bölgələrinə səfər edərək müxtəlif hərbi hissələrdə əsgər və zabitlərlə görüşməsi, hərbi xidmətdə fərqlənənlərin mükafatlandırması, onların qarşısında çıxış

---

[76] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Yetmiş səkkizinci kitab. s. 212
[77] Murad Adcı. Qıpçaq çölünün yovşanı. Bakı. 2016. s.122
[78] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Əlli üçüncü kitab. s. 170

edərək mənəvi dəstək verməsi idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2014-cü ilin avqust ayının 6-da Ağdam rayonuna səfər edərək Ağdamdakı "N" saylı hərbi hissəsində əsgər və zabitlərin xidməti üçün yaradılmış şəraitlə hərtərəfli tanış olduqdan, komanda müşahidə məntəqəsindən düşmənin mövqelərini izlədikdən sonra döyüş tapşırığını yerinə yetirərkən xüsusilə fərqlənmiş bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim edib döyüşdə fərqlənmiş hərbi qulluqçular qarşısında çıxış edərək deyirdi: "Amma bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir. Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir. Son hadisələr də bunu göstərir. Hətta hərb işindən kənarda olan insanlar da öz fikirlərini, istəklərini bildirirlər, könüllü olaraq cəbhə bölgəsinə getmək istəyirlər. Bu məni çox sevindirir və onu göstərir ki, Azərbaycanda vətənpərvərlik ruhu yüksəkdir. Mənəvi üstünlük bizim tərəfimizdədir"[79].

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlanandan Azərbaycan çox itkilərə məruz qalmış, minlərlə vətənpərvər övladını itirmiş, Xocalı soyqırımını yaşamışdı. Özlərinin çirkin niyyətindən əl çəkməyən Ermənistan Silahlı qüvvələri vaxtaşırı atəşkəsi pozur, müxtəlif təxribatlara əl atır, mülki əhali, əsgər və zabitlərin həyatdan köçməsinə səbəb olan hərəkətlər törədirdilər. Azərbaycan Ordusu düşmənin layiqli cavabını versə də, hər bir insan itkisi ağır bir faciə ilə müşayiət olunurdu. Lakin bu itkilər xalqı sarsıtmır, əksinə, düşmənə qarşı nifrəti, qəzəbi daha da artırır, ordunu və xalqı savaşda yumruq kimi birləşməyə çağırırdı. Artıq vətənpərvərlik duyğuları yüksəlmiş, düşmənə qarşı döyüşə hazır olmaqla bağlı çağırışlar səslənməkdə idi. Düşmən bilirdi ki, Azərbaycan xalqı torpaq yolunda, vətən yolunda şəhid verməyi bacaran xalqdır. Ermənilər dərk edirdi ki, azərbaycan xalqının hiss və duyğuları hansısa siyasi-hərbi havadardan gəlmir, babalarından,

[79] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Altmış dördüncü kitab. s. 105

onların qeyrətindən, qanından qidalanır. Düşmən başa düşməli idi ki, bir gün bu xalq ayağa qalxıb güclənmiş, cəsurlaşmış, mətinləşmiş dəmir yumruğunu onun başına endirəcəkdir.

Səlahəddin Xəlilov yazır: "Ənənəvi Şərq dəyərləri, əxlaqi-mənəvi prioritetlər müasir dövr üçün də xüsusi əhəmiyyətə malikdir. Amma ictimai praktikanın əsasını təşkil edə bilməsi üçün Şərq zehniyyətinin müasir Qərb fəlsəfi sistemləri ilə optimal sintezinə ehtiyac vardır.

Yüksək mənəviyyat müvafiq maddi mühit və sosial reallıqla tamamlanmalı, daha çox dərəcədə praktik həyati missiyaya malik olmalıdır. Klassik Şərqin yüksək mədəni-mənəvi dəyərləri də müasir Qərbin rasionalizmi ilə vəhdət halında olmaqla, ilk növbədə müasir insana, onun real həyati problemlərinə xidmət etməlidir"[80].

İlham Əliyev ixtisasca filosof olmasa da, onun düşüncələri və fikirləri fəlsəfi mahiyyətə malik idi. O, praktiki fəaliyyətini fəlsəfi düşüncə tərzi əsasında qürur, mövcud reallığı qiymətləndirə bilir, hər bir vəziyyətdə Azərbaycan maraqları üçün faydalı olan yolu axtarıb tapmağa nail olurdu: "Azərbaycanın dəyərləri bizim üçün əsas dəyərlərdir. Əlbəttə ki, biz ümumbəşəri dəyərləri bölüşürük. Azərbaycan dəyərləri ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Ancaq bizim xalqımızın özünə xas olan dəyərləri var. Biz onları qoruyuruq, qorumalıyıq. Əlbəttə ki, gənclər Vətənə bağlı olmalıdırlar. Bu gün Azərbaycan o qədər sürətlə inkişaf edir ki, Vətəni sevən hər bir insan qürur hissi ilə deyir: "mən Azərbaycan vətəndaşıyam! Ümumiyyətlə, hər bir insan öz Vətənini sevməlidir. Ancaq daha çox inkişaf etmiş ölkələrdə təbii ki, bu özünü daha da yüksək səviyyədə büruzə verir. Hesab edirəm ki, vətənpərvərlik, bilik, savad, fiziki hazırlıq, öz keçmişinə bağlılıq, milli ruhda tərbiyə bizim üçün əsas amillər olmalıdır"[81].

---

[80] Səlahəddin Xəlilov. Şərq zehniyyəti: mənəviyyatın prioritetliyi. Bakı. 2016. s. 10

[81] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Altmış dördüncü kitab. s. 182

İlham Əliyev özü həqiqətin, haqqın qalib gələcəyinə inanır və xalqın nümayəndələri ilə görüşlərində xalqı da buna inandırmağa çalışırdı. 28 avqust 2014-cü il tarixdə Füzuli rayonuna səfəri zamanı ictimaiyyət nümayəndələri qarşısında çıxışında deyirdi: "İndi ordumuz daha güclüdür. İndi imkanlar daha da genişdir. Ruh yüksəkliyi isə Azərbaycan xalqında həmişə olub. Həmişə də yüksək səviyyədə olub. Bu gün də belədir. Vətənpərvərlik ruhu, milli ruh. Bizim iqtisadi, hərbi gücümüz, bu amillər məsələni həll edəcək. Biz nəinki Füzuliyə, Şuşaya da qayıdacağıq"[82].

Vətənpərvərlik hissi, Vətən məhəbbəti, torpaq təşnəsi, el-obaya dönmək istəyi uzun illərdən bəri Azərbaycan xalqının beyninə, qanına, iliyinə keçərək onu mübarizəyə, döyüşə hazırlamışdı. İşıq yolu bu fikirlərin möhkəmliyini təmin etmək üçün bir həqiqəti də müəyyən etmişdi. Bu azərbaycançılıq ideologiyası idi. Bu ideologiya əsasında bir amal uğrunda birləşən azərbaycan xalqı güclü iqtisadiyyat, güclü ordu və yüksəklik zirvəsinə çatmış vətənpərvərlik duyğularına söykənərək torpaqları azad etməyə, qələbəyə hazır idi. Bunun real təcəssümü 2016-cı ilin aprel döyüşləri idi.

Təfəkkür, milli düşüncə, milli ruh müstəqilliyin qorunmasının əsas şərti hesab edirdi: "Biz əsrlər boyu başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq, ancaq öz milli mənliyimizi qorumuşuq. Halbuki bu, çətin idi. Nəyin hesabına? İlk növbədə, ona görə ki, biz həmişə milli-mənəvi dəyərlərə sadiq olmuşuq, həmişə Azərbaycan dəyərlərini ən əlverişsiz mühitdə belə, qorumuşuq və bu gün də qorumalıyıq. Bunu qoruyan nəsillərdir – yaşlı nəsil, gənc nəsil. Bu gün biz bunu qoruyuruq və Azərbaycanın müstəqilliyinin, xalqımızın milli maraqlarının keşiyində durmuşuq. Bax, bu gün yetişən gənclər gələcəkdə eyni addımları atmalıdırlar. Bunu etmək üçün onlarda milli təfəkkür, milli düşüncə, milli ruh olmalıdır. Biz çalışırıq gəncləri bu istiqamətə yönləndirək ki, onlar böyüyəndə həmişə Azərbaycanın dövlət müstəqilliyinin keşiyində

---

[82] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Altmış dördüncü kitab. s. 208

dursunlar. Hesab edirəm ki, bilik, savad, müasirlik, vətənpərvərlik, milli ruh gənclərimizin əsas prinsipləri olmalıdır. Mən şadam ki, Azərbaycan gəncləri məhz bu meyarlara cavab verirlər"[83].

Azərbaycanda islam düşüncə tərzi həmişə sülhə, birgəyaşayışa, dözümlülüyə mənəvi dəyərlərin üstünlüyünə çağırmış, haqqı və ədaləti dəstəkləmişdir. Təfriqə və ayrı-seçkilikdən uzaq olan, xalqları və millətləri bir araya gətirən, mənəvi və insani dəyərləri üstün tutan vahid qardaşlıq dünyası naminə birgə çalışmaq Azərbaycanda dini liderlərin əsas şüarı olmuşdur. 13 noyabr 2019-cu il tarixdə Dünya Dini Liderlərinin II sammitində Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə deyirdi: "Biz, Azərbaycan heç vaxt söz azadlığının və demokratiyanın əleyhinə olmamışıq. Biz söz azadlığını nifrət çağırışlarına çevirənlərin əleyhinəyik. Söz – Yaradanın insana əmanətidir, insan hər sözü üçün Allah qarşısında məsuliyyət və cavabdehlik daşıyır. Söz – ana, vətən, nur, məhəbbət, cənnət də ola bilər, söz – savaş, müharibə, ölüm, cəhənnəm də ola bilər. Bizim məqsədimiz təfriqə və ayrı-seçkilikdən uzaq olan, xalqları və millətləri bir araya gətirən, mənəvi və insani dəyərləri üstün tutan vahid qardaşlıq dünyası naminə birgə çalışmaq, İlahi Nurun ardınca getməyi sözlə təbliğ etməkdir. Çünki bütün dini kitablarda deyildiyi kimi, iman gətirənlər qardaşdırlar! Hamımız babamız Adəmdən, Adəm isə torpaqdan yaranmışdır. Torpaq qardaşlarını birləşdirən cəhətlər isə onları ayıran və yadlaşdıran cəhətlərdən qat-qat üstün və dəyərlidir"[84].

İşıq yolunun həqiqətlərindən biri də hər bir Azərbaycan vətəndaşının düşmənin həmin əraziyə hücumu məqamında yaşadığı ərazinin müdafiəçisinə çevrilməsi, düşmənə müqavimət göstərməsi ilə bağlı idi. Canı və qanı ilə torpağına bağlı olan azərbaycanlılar artıq düşmənə bunu təcrübədə nümayiş etdirir, Vətənin

---

[83] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Doxsanıncı kitab. s. 319
[84] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Doxsan yeddinci kitab. s. 297

müdafiəsində sona qədər duracaqlarını sübut edirdilər. 19 dekabr 2019-cu il tarixdə pambıqçılığın inkişafı ilə bölgəyə səfərə çıxmış İlham Əliyev tərtərlilərin düşmənlə üz-üzə dayanıb mətanət nümayiş etdirmələrindən söhbət açaraq deyirdi: "Tərtər düşmənlə üz-üzə yerləşən rayondur və tərtərlilər həmişə öz qəhrəmanlıqlarını, Vətənə bağlılıqlarını göstərmişlər. 2016-cı ilin aprel döyüşləri zamanı tərtərlilərin hamısı bir nəfər kimi, öz torpağını müdafiə etməyə qalxmışdılar. Bir nəfər də yaşadığı yerindən tərpənmədi. Bu, böyük qəhrəmanlıqdır və Vətənə olan bağlılıqdır"[15].

Beləliklə, vətənpərvərlik bir tərəfdən vətən sevgisi, bir tərəfdən də şəhidliyin mənəvi zəmini kimi azərbaycanlıların, xüsusən də gənclərin canına və qanına hopmuşdu.

---

[85] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Doxsan doqquzuncu kitab. s. 43-44

# YAZI 4

# ŞƏHİDLƏR:
# "CİYƏRLİ, CƏSUR İGİDLƏR"

Vətən dedikdə, insanın anadan olduğu, valideynlərinin, dədə-babalarının, qohum-əqrəbalarının yaşadığı, soykökü ilə bağlı olduğu yer, yurd, ölkəni başa düşürük. Vətən insanın doğulduğu evin kandarından başlayır. İnsan iməkləyə-iməkləyə, yıxıla-dura, addımlaya-addımlaya kəndi, eli-obanı, mahalı, ölkəni dolaşır, Vətənin ağuşunda ömür sürür. Ana laylası, ata öyüdü, el nəsihəti, aldığı tərbiyə ilə başa düşür ki, Vətən özündə daha bir məna, daha bir dəyəri ehtiva edir. Bu dəyər – insanın doğulduğu, boya-başa çatdığı, ömür-gün sürdüyün torpağı, eli, mahalı, diyarı, ölkəni Vətənə çevirmək üçün onu yağı düşməndən qorumaq vəzifəsi, öhdəliyidir.

Bir vaxtlar – yeniyetməlik, yaxud ilk gənclik çağlarımda "Dədə Qorqud" filminə tamaşa edəndə yadımda qalan kəlamlardan biri də "Torpağı qorumasan onu əkib-becərməyə, əkib-becərməsən onu qorumağa dəyməz" ifadəsi idi. Bu tarixən sınanmış, özündə həqiqəti əks etdirən bir kəlamdır. Bu kəlam bizim qədim yazılı abidəmiz "Kitabi-Dədə Qorqud"un ruhundan süzülüb gələn həqiqətdir. Dastanın boylarında torpağı yağılardan qorumaq, düşmən hücumuna məruz qalan, düşmən tərəfindən zəbt olunan torpaqların azad olunması üçün mübarizə aparmaqla bağlı olan müddəalar ifadəsini tapıb:

– düşmənlə döyüşə başlamaq təhlükəsi olanda oğuz ellərini xəbərdar etmək;
– qısa zamanda toplaşıb oğuz elinin birliyini yaratmaq;
– bir yerdə namaz qılıb Allah-taaladan güc, qüvvət, uğur diləmək;

– döyüşə cəsarətlə girib düşmənin üstünə at salmaq;
– hər döyüşdə ən ciyərli, cəsur igidləri fərqləndirmək;
– şəhid vermək;
– düşmən üzərində qələbə qazanmaq;
– aman diləyəni əfv etmək və s.

Dastanın boylarında bu proses adətən bu cür təsvir olunur: Düşmənin hücumuna məruz qalan eli azad etmək, qorumaq üçün oğuz tayfası dağların zirvəsində ocaq qalamaqla digər oğuz ellərini köməyə çağırır, oğuz ellərinin igidləri bir-bir yetişərək toplanır – birlik yaradır. Sonra bir yerdə yuyunaraq iki rükət namaz qılır, daha sonra döyüşə başlayır. Döyüşdə ən cəsarətlilər məlum olur. Düşmən məhv edilir, Oğuz tayfaları da itkisiz ötüşmür. Düşməndən qat-qat az olsa da şəhidlər verir. Məhz bundan – şəhid qanı ilə suvarıldıqdan sonra düşməndən qorunan torpaq Vətən olmaqda davam edir: “Salur Qazanın evi yağmalandığı boyı bəyan edər”: “Bu məhəldə Qalın Oğuz bəyləri yetdi, ... “Çal qılıcın, qardaş Qazan, yetdim!” dedi... Sayılmaqla Oğuz bəgləri tükənsə olmaz. Həb yetdilər. Ari sudan abdəst aldılar. Ağ alınların yerə qodılar. İki rükət namaz qıldılar... qılıc çaldılar ... Ol gün cigərində olan ər yigitlər bəlürdi... qiyamət savaş oldu... On iki bin kafər qılıcdan keçdi. Beş yüz Oğuz yigitləri şəhid oldı. Qaçanını Qazan bəg qomadı, aman deyəni öldürmədi”[86].

“Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”: “Qazanın bütün bəyləri yetdi, ətrafına yığıldılar. Təmiz suda yuyundular. İki rükət namaz qıldılar... Cəsarətlə kafirin üstünə at saldılar, qılınc çaldılar. O, gün ciyərli, cəsur igidlər bəlli oldu. O gün namərdlər gizlənməyə yer axtardı. Bir qiyamət savaş oldu, meydan dolu baş oldu... Boyu uzun Burla xatun kafirin qara bayrağını qılıncladı, yerə saldı... On beş min kafirdən kimi qırıldı, kimisi tutuldu... Oğuzların üç yüz igid şəhid oldu”[87]. Qeyd olunanlar

[86] “Kitabi-Dədə Qorqud”. Bakı. 1988. s. 50
[87] “Kitabi-Dədə Qorqud”. Bakı. 1988. s.175

sübut edir ki, Vətəni müdafiə etmək üçün şəhidlik bizə dədə-baba əmanətidir.

Hər bir xalqın tarixində vətən, xalq qarşısında taleyüklü məsələlərin həllində xüsusi rol oynayan şəxsiyyətlər, cəsarətli insanlar, xalqı, Vətəni yolunda həyatdan məhrum olanlar vardır. Hələ Qədim Roma şairi Kvint Flakk Horatsi "Vətən uğrunda ölüm qədər dadlı və şərəfli ölüm varmı?", – deyə soruşurdu. Azərbaycanın tarixi onun övladlarının qəhrəmanlıq tarixidir. İkinci Dünya Müharibəsində Sovet qoşunlarının tərkibində göstərdikləri igidliyə görə 42 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. General-mayor Həzi Aslanov isə iki dəfə Sovet İttifaqı Qəhrəmanı olmaqla, bütün İttifaq üzrə bu adı qazanmış 154 nəfərdən biri idi. Müharibə zamanı Vətən yolunda şəhid oldu.

Azərbaycan dilinin izahlı lüğətində şəhid – yüksək amal, məslək, əqidə yolunda ölən, həlak olan, canını fəda edən adam kimi izah edilmişdir[88].

"Şəhid", cəm halda "şühəda" ərəb mənşəli söz olub xəbər verən, bildiyini söyləyən, hazır olan və hadisəyə şahidlik edən anlamı verir. Onlar yaşamaqda davam edən "qanlı şahidlər"dir. Vətəni, xalqı, onların müstəqilliyini, yaşadığı torpağın bütövlüyünü, şərəf və namusunu müdafiə zamanı canını fəda edənlər şəhiddirlər. Tanrı dərgahında şəhidlik ən yüksək zirvədir.

"Torpağı qorumasan onu əkib-becərməyə, əkib-becərməsən onu qorumağa dəyməz" ifadəsində torpaqla onu qorumaq, əkib becərmək arasında bağlılıq Vətənlə şəhid arasında da özünü təzahür etdirir. Torpaq uğrunda ölən varsa, torpaq şəhidin qanı ilə suvarılırsa Vətən olur, Vətən şəhidi ən uca zirvəyə qaldırırsa, şəhidi müqəddəsləşdirirsə, Vətən olaraq yaşayır, əbədi Vətənə çevrilir.

Şəhidliklə bağlı mənəvi dəyərlərimizdən olan "Qurani-Kərim"də bir sıra ayələr ifadəsini tapmışdır. "Məhəmməd" surəsində buyurulur:

---

[88] Azərbaycan dilinin izahlı lüğəti. IV cild. Bakı. 1987.s. 520)

“4. ...Allah Öz yolunda öldürənlərin əməllərini əsla puç etməz.

5. (Allah) onları doğru yola müvəffəq edəcək, onların əhvalını (dünyada və axirətdə) yaxşılaşdıracaqdır.

6. Və onları (dünyada) özlərinə tanıtmış olduğu cənnətə daxil edəcəkdir”.

Şəhidlərin işi əbəs getmir. Onlar ölümündən sonra da yaşayır, Allah onların ruhunun cənnətə təmiz və xoşbəxt daxil olmaları üçün qayğılarına qalır. Şəhidlərə altı imtiyaz verilir: “birinci damla qan axıdılan kimi onun bütün günahları bağışlanır, o öz yerini cənnətdə görür, o cənnətin qəşəng qadınları ilə evlənir, dəhşətli qiyamət günü o ruhən sakit qalır, o qəbirdə əzabın nə olduğunu bilmir və möhkəm inam paltarı ilə bəzənir”[89].

“Əl-Hədid” surəsinin 19-cu ayəsində buyurulur: “Allaha və peyğəmbərlərinə iman gətirənlər – məhz onlar öz Rəbbi dərgahında olan siddiqlər (özündə-sözündə doğru olanlar) və şəhidlərdir. Onların (qiyamət günü) öz mükafatları və (qıl körpüsü üstündə onlara yol göstərəcək) öz hurları vardır...”

“Buxari və Müslimdə deyilir: “Allah onlara (şəhidlərin ruhuna) baxdı. Və dedi: “Siz nə istəyirsiniz?”

– Onlar dedilər: “Biz çox istəyirik ki, bir daha Yerə qayıdaq və bizi yenidən Sənə görə yenidən şəhid olaq”.

– O dedi: “Mən qərara aldım ki, ruhlar yerdəki həyata qayıtmırlar”. Etiqad edənlər bu Vəhyi eşidib cənnətdəki möcüzəli dərəcə naminə yerdəki həyatı fərəhlə qurban verməyə hazır idilər. (Kutb)”[90].

Hz.Peyğəmbər tərəfindən şəhid sözünün Allah yolunda canından keçən mənası da işlədilmişdir: “Mən onların (şəhidlərin) Allah

---

[89] Значение и смысл Корана. 5-я том. Сура 42-114. Сура Аш-шура до сура Ан-нас.Copyright by SKD Bavaria Verlag & Handel GmbH. Auflage. 1999. с. 2420)

[90] Значение и смысл Корана. 5-я том. Сура 42-114. Сура Аш-шура до сура Ан-нас.Copyright by SKD Bavaria Verlag & Handel GmbH. Auflage. 1999. с. 2602)

yolunda canlarından keçdiklərinə şahid və şəfaətçiyəm". Vətən, xalq, dövlət, millət, haqq, ədalət yolunda canından keçmək, özünü haqq işə fəda etmək şəhidliyin əsas əlamətidir. Bu zirvəyə o insanlar yüksəlir, ucalırlar ki, onlar vətən, millət, dövlət yolunda ölümün üzərinə yürüyə, ölümün gözlərinin içinə dik baxa bilirlər. Şəhidlər xalqın, millətin milli qürur mənbəyi, milli iftixar hissi, and, namus yeri, baş tacı hesab olunur.

O torpaqlar Vətən hesab olunur ki, onların uğrunda canından keçən, canını fəda edən vətən övladları, şəhidləri var. O dövlətlər müstəqil yaşaya, o xalqlar məğrur gəzə bilirlər ki, onların uğrunda şəhid gedə bilən övladları var. Vətən övladının dünyadan arzuları, diləkləri gözlərində, ürəklərində qalmış, nakam getməsi nə qədər ağrılı olsa da, xalqın müstəqil, azad, hürr yaşaması üçün onun yolu həm də şəhidlikdən keçməlidir.

Heydər Əliyev Vətən, onun azadlığı, müstəqilliyi yolunda şəhid verilməsini xalqın müstəqillik yolunda səfərbər olması üçün təsirli amil kimi dəyərləndirirdi: "Azərbaycanın suverenliyinin və milli azadlığının qorunması yolunda xalqımız qurbanlar, şəhidlər veribdir... bu qurbanlar, itkilər Azərbaycanın bugünkü müstəqil, qüdrətli bir dövlət olması üçün verilibdir... onların müstəqillik yolunda şəhid olması xalqımızı bundan sonra müstəqillik uğrunda mübarizəyə daha da səfərbər edəcəkdir"[91].

Heydər Əliyevin "onların müstəqillik yolunda şəhid olması xalqımızı bundan sonra müstəqillik uğrunda mübarizəyə daha da səfərbər edəcəkdir" fikri "Qurani-Kərim"in müddəalarına əsaslanır.

Hacı Mirməhəmməd Kazım əl-Bakuvi yazır: "Bədir Məkkə ilə Mədinə arasında bir yerin adıdır. Orada müsəlmanlarla məkkəli müşriklərin arasında savaş oldu. O savaşda müsəlmanlar qalib gəldilər. O savaş islamda ilk savaşdır... Müsəlmanlardan 14 nəfər o savaşda şəhidliyə qovuşdu. O, 14 nəfərin qanlarının tökülməsi islamın ucalmasına səbəb oldu. ...Onlar şəhid olandan sonra bəzi

[91] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. s. 191

müsəlmanlar dedilər: “Heyf ki, onlar ölüb dünyadan getdilər. Dünya ləzzətindən məhrum oldular”. Allah-taala növbəti ayədə onların bu kəlamını rədd edib buyurur: “Allah yolunda öldürülənlərə (şəhid olanlara) “ölü” deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz” (“Bəqərə” surəsi, ayə 154)[92].

Allah yolunda şəhid olanlar və savaşda düşməni öldürənlərlə bağlı buyurulur: “Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş cənnət müqabilində satın almışdır. Allahdan daha çox əhdə vəfa edən kimdir? Etdiyiniz sövdəyə görə sevinin. Bu, Böyük qurtuluşdur (uğurdur)! Peyğəmbərimiz buyurmuşdur ki, gələn təhlükəni görüb qapanmayan gözün sahibi Allah yolunda bu təhlükəni aradan götürürsə, o bəndə, bütün insanlardan daha xeyirli iş görmüş olur.

Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsil həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur. (“Ali-İmran” surəsi, ayə 169).

Onlar Allahın öz mərhəmətindən onlara bəxş etdiyi nemətə (şəhidlik rütbəsinə) sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış (şəhidlik səadətinə hələ nail olmamış) kəslərin (axirətdə) heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər (Ali-İmran surəsi, ayə170).

Allah-taalanın kəlamlarına görə şəhidlərin “xalqımızı bundan sonra müstəqillik uğrunda mübarizəyə daha da səfərbər etməsi” ifadəsini onda tapır ki, Allah-taala şəhidləri “ölü deyil, diri təqdim edir”, onlara cənnət – “Böyük qurtuluş bəxş edir”, “Onlara Rəbləri yanında ruzi əta olunur”, “arxalarınca gəlib hələ özlərinə çatmamış kəslərin axirətdə heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər”.

---

[92] Hacı Mirməhəmməd Kazım əl-Bakuvi Kəşfül-Həqayiq. I cild. Bakı. 2014. s. 94-95)

Müdrik insanlar və tanınmış sərkərdələr də şəhidlər, onların xatırlanılması zəruriliyi ilə bağlı dəyərli fikirlər söyləmişlər:

Atatürk deyirdi: "Ən böyük şəxslər özündən çox, mənsub olduqları xalqı düşünən, onun xoşbəxtliyi yolunda həyatını verən insanlardır"[93].

Uinston Çörcill (Winston Churchill) II Dünya Müharibəsində Britaniya Hərbi Hava Qüvvələrinin şəhid olan pilotları haqqında 20 avqust 1940-cı il tarixində Britaniya Parlamentinin Aşağı Palatasında məşhur "The Few" (Çox Az) çıxışında demişdi: "İnsanlıq tarixində bu qədər çox insan, bu qədər az insana bu qədər çox şey borclu olmamışdı" ("Never in the field of human conflict was so much owed by so many to so few")[94].

Tomas Ceferson Thomas Jefferson13 noyabr 1787-ci ildə William Stephens Smith-ə məktubunda azadlıq və mübarizə naminə canını fəda edənləri xatırlayaraq "Azadlıq ağacı zaman-zaman vətənpərvərlərin və zalımların qanı ilə sulanmalıdır" ("The tree of liberty must be refreshed from time to time with the blood of patriots and tyrants") yazmışdı[95].

Mahatma Qandi (Mahatma Gandhi) 1931-ci ildəki çıxışında şəhidlərin yad olunmasına böyük dəyər verərək deyirdi: "Bir millətin böyüklüyü onun zəiflərini necə qoruması və şəhidlərini necə yad etməsi ilə ölçülür" ("A nation's greatness is measured by how it treats its weakest members, and how it remembers its martyrs")[96].

Con Kennedi (John F. Kennedy), 26 oktyabr 1963-cü ildə Amherst College-dəki çıxışında Mahatma Qandi ilə eyni fikirləri bölüşərək demişdi: "Bir millət yalnız yetişdirdiyi insanlarla deyil,

---

[93] Atatürkün kəlamları // https://www.sozler.im/authors/mustafa-kamal-ataturk.

[94] Churchill: Hansard, 20 Avqust 1940, vol. 364, cc1132 27; englishhistory.net+4en.wikipedia.org+4bonmots.com+4

[95] Jefferson: Letter to William Stephens Smith, Paris, 13 Noy, 1787 (The Papers of Thomas Jefferson, Vol.12, p. 356; loc.gov+5snopes.com+5bartleby.com+5

[96] (reddit.com)

həm də kimləri şərəfləndirdiyi və xatırladığı ilə tanınır" ("A nation reveals itself not only by the men it produces but also by the men it honors, the men it remembers")[97].

Nelson Mandela 1996-cı ildə demişdi: "Bir insan öz xalqı və vətəni qarşısında borcunu yerinə yetirdiyini düşünürsə, o, rahatlıqla əbədi istirahətə çəkilə bilər" ("When a man has done what he considers to be his duty to his people and his country, he can rest in peace")[98].

Albert Enşteyn (Albert Einstein şəhidliyə, fədakarlığa mənəvi yüksəklik kimi yanaşaraq "Yalnız özünü bütün gücü və ruhu ilə bir amal uğrunda fəda edən insan əsl ustad ola bilər" ("Only the person who devotes himself to a cause with his whole strength and soul can be a true master") – deyirdi[99].

Yuli Sezarın (Julius Caesar) döyüşçülərinə və ölən əsgərlərinə yanaşması çox insani və dəyərlidir. O, öz ordusunu ailəsi kimi sevirdi. "Ən böyük qəhrəmanlıq ölümdən qorxmamaqdır." "Mən əsgərlərimlə fəxr edirəm. Onların şərəflə ölməsi Roma tarixinin şərəfidir"[100].

Gənclərdə vətənpərvərlik hisslərinin formalaşması üçün əsas yaradan cəhətlərdən biri də Vətən yolunda həyatını qurban verənlərin – şəhidlərin xatirələrinin əbədiləşdirilməsi, dövlətin və xalqın onları daim anması, onlara dəyər verməsidir. Dövlət, xalq, Vətən üçün çalışanları, həyatını milli azadlıq, torpaqların azadlığı uğrunda qurban verənləri Heydər Əliyev daim səmimi hisslərlə yada salır, onları böyük hörmətlə xatırlayırdı. O, şəhidlərin anma mərasimində deyirdi: "bu dərdi, bu qəmi daim qəlbimizdə saxlayacağıq.

---

97 (libquotes.com+1azquotes.com+1)

98 jfklibrary.orgvanityfair.com

99 "The Ultimate Quotable Einstein" (Princeton University Press, 2010libquotes.com.; azquotes.com+3brainyquote.com+3brainyquote.com+3

100 "Commentarii de Bello Gallico" reddit.com+3bookey.app+3darlingtonwrites.com +3reddit.com.; movietranscript.blogspot.com+14internetshakespeare.uvic.ca+ 14reddit.com+14reddit.com

Ancaq eyni zamanda bu şəhidlərin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnək olub. Bundan sonra da örnək olacaqdır. Mən tam əminəm ki, Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, respublikamızın müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərlik nümunələri göstərəcəklər. Ona görə də bu şəhidlərin həlak olması bizim üçün nə qədər qəm-qüssə doğurursa, nə qədər ağır itkidirsə, o qədər də xalqımız üçün, qəhrəmanlıq nümunəsi kimi, örnək kimi bizim milli sərvətimizdir, milli iftixarımızdır. Biz bu gün buraya həm qəm hissi ilə, həm də böyük iftixar hissi ilə gəlmişik. Biz fəxr edirik ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı öz milli mənliyini, öz milli azadlığını qorumaq üçün həlak olmağa, şəhid olmağa hazırdır. Biz fəxr edirik ki, bizim qəhrəmanlarımız var, biz fəxr edirik ki, bu azadlıq yolunda özünü qurban etmiş şəhidlərimiz var, onların qəhrəmanlığı, onların ruhu bizim qəlbimizdə daim yaşayacaq. Onlar əbədiyyətə qovuşublar. Onların xatirəsi bizim üçün əbədidir[101].

Heydər Əliyev Vətən, torpaq uğrunda qurban getməyi şəhidin özü üçün də, onun ailə üzvləri üçün də ucalıq, zirvə hesab edir, şəhidliyi ən böyük sərvət kimi dəyərləndirirdi: “Bu, böyük sərvətdir. Bu, bütün dünyada olan sərvətlərin hamısından böyük sərvətdir. Hamımız bilməliyik ki, məhz bu cür sərvətlərə malik olan adamlar daim cəmiyyətimizin hörmət və ehtiramını qazanacaqlar. Bizim cəmiyyətdə məhz bu cür sərvətə malik olanlar ən zəngin adamlardır”[102].

Bir qayda olaraq şəhidin yaşadığı ömür qısa olsa da, əslində şəhid başqalarından daha çox, əbədi bir ömür yaşayır. Şəhid ölmür, Vətəni, torpağı yaşadıqca özü də onlarla birgə yaşayır. Ömrün,

[101] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. s. 140
[102] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. s. 469-470

həyatın dəyəri onun uzun illər davam etməsində deyil, yaşanan illərin mənalı, dəyərli, xalq üçün, Vətən üçün faydalı yaşanmasındadır. Bəxtiyar Vahabzadə deyirdi:

*“Bir ömrü illərlə ölçmək düz deyil,*
*Ömürlə illəri ölçəsən gərək”.*

Ömrünü Vətən yolunda qurban verənlər, Vətən yaşadıqca yaşadıqlarına görə ömür yolları da bitib tükənmir. Yaşatdıqları Vətən əbədi olduğundan şəhidlərin həyatı Vətənlərinin həyatında davam edir. Torpağı Vətən edən, onu Vətənə çevirən, ona yaşamaq üçün can və nəfəs verən məhz şəhidlərin canı, qanı və nəfəsidir. Şəhidlərin nəfəsi və qanı Vətənin nəfəsi və qanına çevrilib yaşamını davam etdirir. Şəhidlərin torpağa verdiyi nəfəs, can, qan, ruh olmasa torpaq Vətənə çevrilə, Vətənə dönüb yaşaya bilməz. Şəhid nəfəsi, şəhid ruhu, şəhid qanı ilə yaşadığına görə Vətən canlıdır, yaşayır, özü yaşadıqca şəhidləri də yaşadır. 30 iyun 2001-ci il tarixdə şəhid ailələrinin üzvləri ilə görüşündə Heydər Əliyev deyirdi: “Bu dünyada heç kəs daimi deyil. Bizim xalqda belə bir məlum deyim var: dünya gəldi-gedərdir. Ancaq əsası odur ki, bu həyatı kim nə cür, hansı amallarla yaşayır, hansı mənəvi keyfiyyətlər daşıyır. Vətən yolunda, torpaq yolunda, xalq yolunda şəhid olmaq, bir tərəfdən, ailə üçün, insanın özü üçün vaxtsız bir itkidirsə, ikinci tərəfdən, bu, insanlığın və insan mənəviyyatının ən yüksək zirvəsinə çatmaq deməkdir. Bunlar hamısı bizim dövlətimizə, hökumətimizə, xalqımıza, şəhid ailələrinə, müharibə əlillərinə xüsusi diqqət və qayğı göstərmək istiqaməti vermiş, bizim qarşımızda bu vəzifələri qoymuşdur. Biz hamımız bu vəzifələri yerinə yetirməliyik. Əgər bu məsələyə bir az dərin fəlsəfi nöqteyi-nəzərdən baxsan, yəqin edərsən ki, şəhid olan insan öz vətənpərvərliyi ilə, öz arzusu ilə, öz yüksək mənəviyyatı ilə torpaqlarımızı, vətənimizi qorumaq üçün döyüşlərə giribdir, şəhid olubdur. Yəni bu onun özünün mənəvi istəyidir, özünün vətənpərvərlik hissiyyatlarıdır. Amma eyni zamanda biz bunu yüksək qiymətləndiririk.

Baxmayaraq ki, döyüşlərə gedərkən o bildirdi ki, şəhid də ola bilər, əlil də ola bilər, xəsarət də ala bilər, onun ailəsi başsız da qala bilər. Ancaq vətəni, torpağı qorumaq və şəhidliyi gözünün önünə alıb vuruşa getmək – bunlar hamısı onun daxili mənəviyyatının bəhrəsidir. Biz bunları qiymətləndirməliyik.

Hər bir şəhid millətin mənəvi ucalığıdır. Şəhidlik milləti yüksəldən, milləti millət edən amillərdən biridir. Biz bunu yüksək qiymətləndirərək, şəhid olan insanların xatirəsini qəlbimizdə daim yaşatmalıyıq və eyni zamanda onun ailəsinə yardımımızı göstərməliyik"[103].

İslam dininin tövsiyə etdiyi xeyirxah işlərdən biri də yetim və kimsəsizlərin qayğısına qalmaq və onları himayəyə götürməkdir. Allah-taala "Qurani-Kərim"də Peyğəmbərə xitab edərək buyurur: "Məgər o səni yetim ikən tapıb sığınacaq vermədimi?!" Sonra Peyğəmbərə (s) tövsiyə edərək buyurur: "Elə isə yetimə zülm etmə!"

Allah-taala "Qurani-Kərim"də xeyirxah işlərdən biri yetim və yaxın qohum-əqrəbaya maddi yardımın göstərilməsini bildirir. Bir şərtlə ki, bu yardım yalnız Allahın razılığı xatirinə olmalı və başqa heç bir məqsəd nəzərdə tutulmamalıdır.

"Bizim borcumuz şəhidlərin qəhrəmanlığını əbədiləşdirmək, şəhid ailələrinə qayğı göstərmək və onların bütün problemlərini həll etməkdən ibarətdir"[104].

Vətənin müdafiəsi uğrunda canlarından keçərək şəhid olanların ailələrinə qayğı göstərilməsi daim Heydər Əliyevin diqqət mərkəzində idi. O, müntəzəm olaraq bu işlə məşğul olur və hamıdan tələb edirdi ki, şəhid ailələrinə qayğı ilə bağlı borclarını unutmasın, onları yerinə yetirsinlər:

"Bizim borcumuz şəhidlərin ruhuna sadiq olmaqdır. Bizim borcumuz əcdadlarımızın vəsiyyətinə sadiq olmaqdır – milli azad-

[103] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz beşinci kitab. s. 83-84
[104] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. s. 375

lığımızı qorumaq, dövlət müstəqilliyimizi qoruyub saxlamaqdır. Borcumuz bütün şəhidlərin ailələrinə qayğı göstərməkdir, yaralılara qayğılan artırmaqdır. Şübhəsiz ki, görülən işlər görüləcək işlərin bir hissəsidir. Mən bu gün bir daha bütün dövlət orqanlarına, təşkilatlara, xeyirxah insanlara müraciət edirəm. Şəhidlərin ailələrinə qayğı, diqqət, 20 Yanvar hadisələrində xəsarət alanlara, müharibə əlillərinə qayğı, diqqət bizim borcumuzdur və borcumuzu yerinə yetirməliyik. Hər bir kəs bu borcunu yerinə yetirməyə çalışmalıdır və heç vaxt bunu unutmamalıdır"[105].

Şəhid ailələrinə qayğının dövlətin borcu kimi qiymətləndirilməsini Heydər Əliyev təkcə sözdə ifadə etmir, imkan dərəcəsində bunu reallığa çevirməyə çalışırdı:

"Azərbaycanın suverenliyi, milli azadlığı, müstəqilliyi, torpaqlarının müdafiəsi yolunda şəhid olmuş insanlar bizim ən əziz insanlarımızdır. Onların qəhrəmanlıqları, onların Azərbaycan xalqı qarşısındakı böyük xidmətləri heç vaxt unudulmayacaqdır və Azərbaycan xalqının qəlbində onların xatirəsi daim yaşayacaqdır. Vətən yolunda, torpaq uğrunda şəhid olanların ailələri fəxr edə bilərlər ki, onlar müstəqil Azərbaycan üçün belə gözəl, qəhrəman övladlar yetişdiriblər. Eyni zamanda şəhid ailələrinə daim diqqət hər bir vətəndaşın borcudur, dövlətin borcudur, hökumətin borcudur, mənim borcumdur, sizin borcunuzdur. Biz bu borcumuzu heç vaxt unutmamalıyıq və çalışmalıyıq ki, nə qədər mümkündürsə o qədər də borcumuzu yerinə yetirək. Məhz bugünkü mərasim, inşa olunmuş bu ev – şəhid ailələrinə, Qarabağ əlillərinə təqdim olunan ev həmin borcumuzun yerinə yetirilməsinin parlaq bir nümunəsidir"[106].

Şəhid ailələrinə daim diqqət və qayğı göstərilməsi, orduda xidmət zamanı sağlamlığını itirmiş şəxslərə yardım göstərilməsi, həmçinin hərbi xidmətdə fərqlənənlərin dövlət tərəfindən mükafat-

---

[105] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. s. 297
[106] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirminci kitab. s. 396-397

landırılması ordunun döyüş qüdrətinin yüksək səviyyədə saxlanılmasının əsasıdır. Heydər Əliyev ordu quruculuğunu həmin məsələlərlə paralel şəkildə davam etdirir, bu da orduda sağlam mənəvi mühitin qorunmasına öz töhfəsini verirdi: "müstəqil Azərbaycan dövləti hər bir vətəndaşının xidmətini qiymətləndirir. Əmin ola bilərsiniz ki, heç kəsin xidməti heç vaxt unudulmayacaqdır.

... Vətən yolunda şəhid olanların qəhrəmanlıq nümunələri heç vaxt unudulmayacadır. Onlar bizim qəlbimizdə əbədi yaşayacaqlar. Onların valideynləri, ailə üzvləri əmin ola bilərlər ki, şəhid ailələrinə diqqət, qayğı dövlət, Azərbaycan prezidenti tərəfindən daim göstəriləcəkdir. Əmin edirəm ki, bu diqqət, qayğı bundan sonra daha da artacaqdır... təqdim olunan yüksək dövlət mükafatları və torpaq, Vətən yolunda şəhid olanlar Azərbaycan ordusunun şərəfli, uğurlu yol getməsini nümayiş etdirir"[107].

Vətənin müdafiəsi uğrunda həyatını qurban verənləri Heydər Əliyev xüsusi bir hisslə – həm onların həyatda yoxluğunun qəm, kədər hissi ilə, həm də əməllərini iftixar hissi ilə xatırlayır, xalqın qəlbində onların daim yaşamasına əminliyini ifadə edirdi. Heydər Əliyev düşüncəsində şəhidlik, dövlətin, Vətənin varlığı, inkişafı, çiçəklənməsinə təminat əlamətidir. Vətən uğrunda qurban getməyə hazır insanlar varsa, o vətən yaşayacaq, azad olacaq, inkişaf edəcək və şəhidləri ilə daim fəxr edəcəkdir. Vətən uğrunda şəhid olmaq istəyən övladlara sahib olan xalq xoşbəxtdir: "bu gün bizdə qəm, kədər hissi də vardır. Çünki biz döyüşlərdə çox qurbanlar, şəhidlər, itkilər vermişik. Şəhidlərin valideynləri, ailə üzvləri də bu gün bu salondadırlar. Mən onların hissiyyatları ilə şərikəm, övladlarının, ailə üzvlərinin itirilməsinə görə onlar qədər kədərlənirəm, eyni zamanda onlar qədər qürur hissi keçirirəm ki, şəhidlərimiz Vətən yolunda, müstəqil Azərbaycan yolunda, torpaqlarımızın müdafiəsi yolunda şəhid olublar[108].

[107] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On yeddinci kitab. s. 343
[108] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On yeddinci kitab. s. 345

Milli vətənpərvərlik ruhunun təkcə orduda xidmətdə olan əsgər və zabitlərdə deyil, yaşından asılı olmayaraq hər bir Vətən övladında, o cümlədən övladları cəbhədə, səngərdə şəhid olan analarda, şəhid atalarında özünü biruzə verməsi ona dəlalət edirdi ki, xalq gec-tez ayağa qalxıb öz arzularını gerçəkləşdirəcəkdir. Müstəqil Azərbaycanın valideynləri vətən torpağını azad edəcək övladlar dünyaya gətirməli və onları Vətən sevgisi ilə böyütməli idilər: "Valideynlərin çoxu dedi, – biz övladımızı böyütmüşük ki, Vətəni müdafiə etsinlər. Onlar övladları Vətən yolunda şəhid olduqlarına görə iftixar hissi keçirirlər. Bu, həqiqətən böyük vətəndaşlıq, vətənpərvərlik nümunəsidir. Mən şəhid valideynlərinə, şəhid ailələrinin üzvlərinə bu sözlərə görə təşəkkür edirəm. Ancaq hamımız eyni zamanda sevinməliyik ki, biz Vətənimizi, torpağımızı, dövlətimizi qorumağa artıq qadirik. ...Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqların azad edilməsi... təkcə sizin – Vətən yolunda şəhidlər vermiş Azərbaycan vətəndaşlarının, təkcə Azərbaycan Silahlı Qüvvələrində xidmət edənlərin arzusu deyildir. Bu, Azərbaycanın bütün vətəndaşlarının arzusudur. Bu, bizim hamımızın arzusudur. Bu, Azərbaycan dövlətinin, şəxsən mənim arzumdur. ...biz hamımız birlikdə nəyin bahasına olursa-olsun, işğal edilmiş torpaqlarımızı azad edəcəyik, Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyik, gedib şəhidlərimizin işğal olunmuş torpaqlarda qalan qəbirlərinin hamısını ziyarət edəcəyik. Biz bu günü hamımız birlikdə görəcəyik[109].

Heydər Əliyev Azərbaycan övladı kimi hər bir şəhidə görə təəssüflənir, əzab çəkir, onun ailə üzvlərinin dərdini öz dərdi sayır, lakin bununla belə Azərbaycanın müstəqilliyi, dövlətçiliyi, ərazi bütövlüyünü şəhidin, özünün həyatından belə yüksək hesab edərək bu yolda şəhidlərin verilməsini mümkün hesab edirdi: "Azərbaycanın müstəqilliyi yolunda biz çox şəhidlər vermişik. Ola bilər, bundan sonra da verək, Azərbaycanın müstəqilliyi, dövlətçiliyi,

---

[109] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab. s. 346

Azərbaycan Respublikasının bütövlüyü hər bir adamın həyatından qat-qat yüksəkdir, mənim də həyatımdan yüksəkdir”[110].

Əsrlər boyu torpaq, Vətən onun övladlarının canı və qanı hesabına qorunub. Torpağını qoruyan, torpaq üçün qan axıdan xalq onu Vətənə çevirib, qoruya bilməyənlər isə özlərinə başqa Vətən axtarmaq məcburiyyətində qalıblar. Azərbaycan xalqı zaman-zaman torpağını qorumaq üçün cəngə, döyüşə girmiş, qurban versə də, şəhid olsa da, torpağını qorumuş, Vətənini yaşatmışdır: “Azərbaycan xalqı əsrlər boyu torpağını qoruduğu kimi, indi də Azərbaycanın qeyrətli, namuslu, cəsarətli oğulları Vətəni qoruyaraq şəhid olurlar, canlarını qurban verirlər. Bu müddətdə minlərlə həmvətənimiz həlak olub. Onların çoxu döyüşərək, cəsarət, qəhrəmanlıq göstərərək, xalqına, torpağına sədaqətli olaraq dünyasını tərk edib. Bu, bizim üçün bir tərəfdən faciədirsə, digər tərəfdən Azərbaycan xalqının qüdrətini, mətanətini, cəsarətini bir daha nümayiş etdirən amildir”[111].

Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə gəldiyi dövr Azərbaycan üçün olduqca üzücü, məşəqqətli, əzab-əziyyətli bir dövr idi: “Azərbaycan torpaqlarının bir qismi işğal olunub, o torpaqlarda yaşayan bacı-qardaşlarımız – Azərbaycan vətəndaşları qaçqın vəziyyətinə düşüblər, ağır həyat şəraitində, çox əzab-əziyyət içindədirlər. Həm də təkcə onlar yox, bu müharibəyə görə, verdiyimiz qurbanlara görə, şəhidlərə görə, Azərbaycan torpaqlarının bir qisminin əldən getməsinə görə hamımız əzab-əziyyət çəkirik. Biz böyük sıxıntı içərisindəyik, ağır dövr keçiririk. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının mərd və igid oğulları, qəhrəman döyüşçüləri torpaqlarımızın müdafiə olunmasında şücaət nümunələri göstəriblər, canlarını fəda ediblər, şəhid olublar” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 187). Belə bir dövrdə ölkəni idarə etmək, onu tənəzzüldən

---

[110] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 117
[111] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 150

çıxarmaq böyük təcrübə, fədakarlıq, dözüm, xalqı ayağa qaldırıb ona dəyanət vermək iqtidarına malik əzm tələb edirdi. Bunun üçün Heydər Əliyev şəhidlərin sücaətinə, onların göstərdiyi qəhrəmanlıq nümunəsinə istinad edərək Azərbaycan xalqının qamətini düzəldib ayağa qalxacağına inanırdı: "Mən bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmayacaq, onların xatirəsi qəlbimizdə əbədi yaşayacaq, gənclərimiz və gələcək nəsillər onların qəhrəmanlıqlarından nümunə götürəcəklər. Azərbaycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq, gücünü birləşdirəcək, müasir ordusunu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaqdır"[112].

Müstəqil dövləti, onun ərazisini qorumaq xalqın hər bir övladından canından keçməyə hazır olmağı tələb edirdi. Şəhidlərin nakam həyatı hər kəsi ağrıtsa da, onların ruhu göz önündən çəkinməsə də torpağın, Vətənin müdafiəsi buna dözməyi, yeni şəhid verməkdən çəkinməməyi tələb edirdi: "Qanlı döyüşlərdə qəhrəman oğullarımız həlak olurlar. Bu da təbii haldır: bir halda ki, müharibə gedir, biz Vətənimizi qorumağa çalışırıq və qorumalıyıq, deməli, bu yolda hər birimiz canımızdan keçməyə hazır olmalıyıq. Şəhidlərin ruhu məni ağrıdır. Həlak olan Azərbaycan vətəndaşlarının surəti hər gün gözümün qarşısına gəlir. Lakin torpağın, Vətənin müdafiəsi hər birimiz üçün ən ülvi, ən uca, ən müqəddəs vəzifədir. Bu müqəddəs vəzifənin yerinə yetirilməsində şəhid olanlar cənnətə gedirlər, onların qəhrəmanlığı xalqın xatirəsində daim yaşayacaqdır"[113].

Vətənin çağırışı ilə övladlarını cəbhəyə yola salmış valideynlər – ata-analar min bir arzu ilə boya-başa çatdırdıqları övladları üçün narahat olsalar da vicdanı, qəlbi pak insanlar torpaq, Vətən dərdini üstün bilir, şəhid övladları ilə öyünür, onların Vətənin müdafiəsi yolunda şəhid olmaları ilə fəxr edirdilər. Əslində torpaq belə insanların hesabına Vətən olur, dünya onların çiyinləri

---

[112] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 204
[113] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 302

üstündə duruş gətirir: "Burada şəhidlərin, qəhrəmanların ata-anaları çıxış etdilər. Onların sözləri hər bir vətəndaşın ürəyində, şəxsən mənim qəlbimdə böyük həyəcan hissi, dərin ehtiram, hörmət hissi doğurur. Həm şəhid olanlar, həm də onların valideynləri nə qədər pak, nə qədər vicdanlı insanlardır! Əsrlər boyu Azərbaycanı məhz belə insanlar, belə oğullar qoruyub saxlayıb, yaşadıb və bu günə gətirib çıxarıblar. Məhz belə insanlar Azərbaycanı bu bəladan qurtaracaq, Vətənimizin yüksəlişini təmin edəcək, Azərbaycanı xoşbəxt gələcəyə aparacaqlar"[114].

Xalq şairi Məmməd Araz Vətənin daşına, torpağına, zərrəsinə çevrilməyə hazır olmayanlardan "ölkə vətəndaşı" olmayacağını deyirdi. Vətənin övladına oğul deməsi üçün mamır olub qayasında bitməsi lazımdır. Şəhidlər düşmənin qarşısında daşa, qayaya çevrilərək onların yolunu kəsir, Vətən torpağını qoruyur, "mamıra dönüb qayasında bitir ki, onu möhkəmləndirsin, qorusun, sərt küləklərin, fırtınaların ondan bir parça belə qoparıb aparmasına imkan verməsin. Heydər Əliyev vətəndaşı bu cür görür, onun daşa, qayaya dönməsini, düşmənin yolunu kəsməsini arzulayırdı: "Vətəndaş" sözü böyük sözdür, müqəddəs sözdür. "Vətəndaş" sözü o deməkdir ki, hər bir vətəndaş öz vətəninə sadiq olmalıdır, onu göz bəbəyi kimi qorumalıdır və vətəninin uğrunda, torpağının uğrunda, anasının, atasının müdafiəsi yolunda şəhid olmağa hazır olmalıdır. "Vətəndaş" sözünün mənası bax, budur! Mən istərdim ki, Azərbaycan torpağında yaşayan hər bir vətəndaş bu sözün yüksək və ülvi mənasına layiq olsun"[115].

Azərbaycanın xalq şairi, şəhid atası Xəlil Rza Ulutürk Heydər Əliyevin "vətəndaş" anlayışı ilə bağlı fikirlərini şeir dilində ifadə edərək yazırdı:

*"Vətəndaş olmasa boş şeydir Vətən!*
*Beş günlük, on günlük güney qarıdır.*

---

[114] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 304
[115] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 305

*Vətən məfhumunun özəyindəki*
*Vətənin vüqarlı oğullarıdır!"*

Müharibə, torpaqların işğaldan azad olunması Vətən sevgisi, cəsarət, güc, səfərbər olunma, inamlı rəhbərlik, yorulmadan çalışmaq, şəhidlik, əlillik tələb edir. Heydər Əliyev 9 yanvar 1994-cü il tarixdə xaricdə yaşayan soydaşlarımızın bir qrupu ilə görüşü zamanı çıxışında deyirdi: "İranla sərhədimizin 170 kilometri ermənilərin əlinə keçmişdi. İndi onun 40 kilometri artıq öz əlimizdədir. Ola bilsin ki, bu gün-sabah biz daha yeni nailiyyətlər əldə edəcəyik. Qoşunlarımız Ağdam istiqamətində də çox cəsarətlə vuruşur, xeyli irəliləyiblər. Ordumuz Ağdərə tərəfdə də cəsarətlə vuruşur. Kəlbəcərdə də cəsarət göstərir, irəliyə gedir. Qoşunlarımız artıq bu rayonun ərazisindədirlər. Bu güc göydən gəlməyib. Azərbaycan xalqı həmişə güclü olub. Amma bu xalqı qaldırmaq, səfərbər etmək lazım idi. Mən cəbhə bölgəsi ilə daim əlaqə saxlayıram, hər bir komandirlə danışıram. Özüm cəbhə bölgələrində olmuşam. Bu gecə saat 3-dək zabitlərlə danışmışam. Cəsarətli oğlanlar var. Düzdür, döyüşlərdə şəhid olanlar da var. Axı, müharibə şəhidsiz ola bilməz. Bir halda ki, Vətənimizi qoruyuruq, müdafiə edirik, torpaqlarımızı geri qaytarırıq, sözsüz ki, qurbanlar da olacaq". Burada təəccüblü heç nə yoxdur[116].

Heydər Əliyev eyni fikirləri 12 yanvar 1994-cü il tarixdə Dövlət Komissiyasının iclasında çıxışı zamanı davam etdirərək deyirdi: "Mən məmnuniyyət hissi ilə deyə bilərəm ki, indi xalqımız oyanır, ayağa qalxır. Cəbhədə vuruşan gəncləri, komandirləri xüsusi qeyd etmək istəyirəm. Deməliyəm ki, çox bacarıqlı komandirlərimiz var. Mən onlarla daim telefon əlaqəsi saxlayıram. Cəbhə bölgələrində, Beyləqanda, Ağcabədidə, Gəncədə və başqa yerlərdə onlarla görüşdüm. Dəyərli adamlardır, cəsarətlə vuruşurlar. Hər gün şəhid olanlar, həlak olanlar var. Bu da təbiidir, – axı müharibə gedir"[117].

---

[116] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 325
[117] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 333

Şəhid olanlar əbəs yerə deyil, məqsəd, amal uğrunda vuruşur, bilə-bilə, ölümlərini göz önündə tuta-tuta düşmən üzərinə gedirlər. Onlar üçün Azərbaycan torpaqlarının azad olunması, onun tərəqqisi və inkişafı həyatlarından daha önəmli idi. 20 mart 1994-cü il tarixdə Novruz Bayramı münasibətilə xalqa müraciətində Heydər Əliyev yazırdı: "Onların böyük bir hissəsi torpaqlarımızı erməni işğalçılarından qorumaq üçün, işğal olunmuş ərazilərimizi azad etmək üçün cəbhələrdə vuruşur, şəhid olur, müstəqil Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, müstəqilliyini möhkəmləndirmək üçün canlarından keçirlər. Onlar sizin qardaşlarınızdır. Unutmayın ki, qanı tökülən, döyüşlərdə qəhrəmanlıq göstərən o gənclər müstəqil Azərbaycanın tərəqqisi və inkişafı uğrunda vuruşur və şəhid olurlar"[118].

Şəhidlər əbədiyyət qazanmaqla yanaşı ailəsinə, diyarına, Vətəninə başucalığı gətirir, xalqın mübarizliyini, cəsarətini torpaq uğrunda canından keçməyə hazır olduğunu düşmənə sübut edir, xalqına mənəvi üstünlük qazandırırdı: "Ordu xalqımızın bir hissəsidir. Döyüşçülərimiz bizi müdafiə edən, özünü şəhid edən, özünü güllə qabağına verən adamlardır. Şübhəsiz ki, onlara xüsusi hörmət, xüsusi ehtiram, xüsusi qayğı lazımdır. Məsələn, dekabr ayından bu vaxtadək bir briqadada 160 adam həlak olub, bir neçə yüz nəfər yaralanıb və indi müalicədədir. Axı bu insanların qanı tökülüb, onlar sizi, bizi, bu vətəni, bu torpağı qoruyarkən həlak olublar. Bəziləri şikəst olub, bəzilərinin isə yarası yüngüldür. Onlar müalicədən sonra ya orduya qayıdacaq, ya da başqa sahələrdə çalışacaqlar. Amma gedən gedibdir. Dediyim kimi, bir hissədən 160 nəfər həlak olubdur. Düzdür, o tərəfdə erməni quldurlardan, erməni silahlı qüvvələrindən 3-4 dəfə çox qırılıb. Lakin bizim üçün hər bir şəhidimiz, vətən yolunda can qoyan hər bir adam əzizdir. Əgər adamlarımız səngərdə ağır şəraitdə vuruşursa, özünü şəhid edirsə, qanını tökürsə,

[118] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 482

həlak olursa, demək bu, bizim Azərbaycan xalqının başucalığıdır"[119].

27 may 1994-cü ildə Azərbaycanın İstiqlal Bayramına – Respublika Gününə həsr olunmuş təntənəli yığıncaqda Heydər Əliyev istiqlalın ən şirin nemət kimi şəhidlərin qanı hesabına əldə olunduğunu, onu qorumaq üçün bu qanı axıtmağa həmişə hazır olmağın zəruriliyini qeyd edərək şəhidləri yada salır və deyirdi: "Azərbaycan müstəqilliyini təmin etmək üçün gərək öz daxili imkanlarını möhkəmləndirsin. Gərək Azərbaycan xalqı daha da sıx birləşsin, Azərbaycan xalqının vətənpərvərlik hissi yüksəlsin. Vətənini müdafiə etmək, Vətən yolunda şəhid olmaq, Vətən naminə özünü fəda etmək duyğuları, hissləri indi bütün Azərbaycanda hökm sürməlidir… Bu bayram günündə şəhid ailələrinə üzümü tuturam. Onların dərd-qəmi bütün xalqın dərd-qəmidir, bizim dərd-qəmimizdir. Əziz həmvətənlər, bayram münasibətilə sizi təbrik edirəm. Biz sizinlə həmişə birik və bir olacağıq. Sizin şəhid olmuş övladlarınız, qardaşlarınız, atalarınız Vətən yolunda, Azərbaycanın müstəqilliyi yolunda canlarından keçmişlər. Onlar özlərinə əbədi abidə qoymuşlar"[120].

Milli-mənəvi dəyərləri daim yüksək tutan, xalqın məhz bu dəyərlər üzərində inkişaf etməli olduğunu işıq yolunun həqiqəti kimi müəyyən edən Heydər Əliyev milli-dini dəyərlərdə şəhidliklə bağlı məqamları xalq, Vətən övladı üçün bir nümunə kimi dəyərləndirir, bu sahədə də milli-dini dəyərlərə sadiq olmağı tövsiyə edir, 20 iyun 1994-cü il tarixdə Təzəpir məscidində Aşura günü mərasimində çıxışında deyirdi: "Əziz bacılar və qardaşlar, əziz müsəlmanlar! Müsəlman aləmində faciəli, müqəddəs bir günün əziz xatirəsi qeyd olunur. Bu gün Həzrəti Məhəmməd peyğəmbərin nəvəsi Həzrəti imam Hüseynin qətlə yetirildiyi gündür. Biz ulu babalarımızın Vətən, torpaq, haqq, ədalət yolunda şəhid olduğu

[119] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 502
[120] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. s. 12-13

günü yad edirik. Bu münasibətlə mən bütün Azərbaycan müsəlmanlarına dərin hüznlə başsağlığı verirəm. Bütün müsəlmanlar, o cümlədən biz azərbaycanlılar həmin faciəli günü hər il yada salmaqla Vətənə, torpağa, dinimizə, məsləkimizə sədaqətimizi bir daha nümayiş etdiririk. Biz bundan sonra da "Qurani-Şərif"in, Həzrəti Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedəcək və haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş Həzrəti imam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq. İndi Vətənimiz faciəli bir dövr keçirir. Yağı düşmən torpaqlarımıza hücum edir. Azərbaycanın cəsarətli oğulları Vətənimizi müdafiə edir və bu yolda Həzrəti imam Hüseyn kimi şəhid olurlar. Biz Vətən, torpaq, din yolunda canından keçmiş bütün şəhidlərin şücaəti qarşısında Kərbəla müsibətilə əlaqədar keçirilən bu mərasimdə bir daha baş əyir, onların xatirəsini qəlbimizdə daim yaşatmağa söz veririk"[121].

Heydər Əliyev işğal olunmuş torpaqların azadlığı, işğal olunmuş ərazilərdə qalan milli abidələr, islam abidələri, müqəddəs məbədlər, qəbirlər, ocaqlar uğrunda aparılan mübarizəni, bu müqəddəs dəyərlər üçün şəhid verilməsini xalqın öz milli dəyərlərinə, dininə, mənəviyyatına sədaqətinin nümunəsi kimi qiymətləndirir, bu yolda şəhidliyin milli-dini dəyərlərə söykəndiyini iddia edirdi: "İşğal olunmuş torpaqlarda Azərbaycan xalqının varidatı viran olub, dağılıb, bizə böyük zərbələr dəyibdir. İşğal edilmiş torpaqlarımızda milli abidələrimiz, islam abidələri, müqəddəs məbədlərimiz, qəbirlərimiz, ocaqlarımız dağıdılıbdır, viran olunubdur. Bunlar xalqımıza vurulan böyük mənəvi zərbələrdir. Şəhidlər vermişik, Azərbaycanın qəhrəman övladları Vətənimizin, torpağımızın müdafiəsi yolunda özlərini qurban veriblər. Onlar əbədiyyətə qovuşublar. Onlar milli-mənəvi dəyərlərimizə sadiq qalaraq, həyatlarını qurban verərək özlərinə behiştdə daim yer tapıblar. Bunlar hamısı bizim itkilərimizdir. Eyni zamanda xalqımızın öz

[121] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. s. 28

milli dəyərlərinə, dininə, mənəviyyatına sədaqətinin nümunəsidir”[122].

Heydər Əliyevin şəhidlərlə bağlı müəyyən etdiyi işıq yolu həqiqətlərindən biri də şəhidlərin xatirəsinin daim əziz tutulması, onların unudulmaması və dövlətin, xalqın imkanlı adamlarının şəhid ailələrinə daim qayğı göstərməsi, mənəvi dayaq verilməsinin zəruriliyi ilə əlaqədar idi: “Altı illik müharibə dövründə itkilərimiz az olmamışdır. Buna görə də həyatımızın, ölkəmizin müdafiəsində özünü qurban vermiş hər bir adamın xatirəsini daim qəlbimizdə saxlamalı, şəhid ailələrinə xüsusi qayğı göstərməli, onların problemlərinin həlli ilə müntəzəm məşğul olmalıyıq. Mən bunu dəfələrlə demişəm və prezident kimi bu gün sizin qarşınızda da deyirəm ki, bu barədə bütün dövlət və hökumət orqanlarına lazımi göstərişlər və sərəncamlar vermişəm və həmin məsələlərin həllini indən belə də nəzarətdə saxlayacağam. İndi həyatımızın, dolanışığın çətin dövrüdür. Ancaq bütün bunlara baxmayaraq, şəhid ailələrinə, Vətəni müdafiə edərkən əlil olmuş, xəsarət almış adamlara, ordumuza xüsusi qayğı göstərilməlidir. Əmin ola bilərsiniz ki, biz bu tədbirləri həyata keçirəcəyik. Şəhid ailələrinin problemləri ilə yanaşı, onlara daim mənəvi qayğı da göstərilməli, bu ailələr hörmət və ehtiramla əhatə olunmalıdırlar. Bakıdakı Şəhidlər xiyabanı ziyarətgaha çevrilmişdir. Bu, həyatımızın gerçəkliyidir və həmin Şəhidlər xiyabanı Azərbaycan xalqının tarixində daim qalacaqdır …şəhid ailələrinə qəlbən, mənəvi dayaq olmağımız hamısından üstündür. Hamınız, o cümlədən bu gün buraya toplaşmış şəhid anaları əmin ola bilərsiniz ki, prezident kimi mən həmişə sizinləyəm, mənəvi dayağınızam və sizin dərdiniz mənim dərdimdir, Azərbaycan xalqının dərdidir. Əmin ola bilərsiniz ki, biz bu ağır, dərdli günləri keçib gedəcəyik[123].

---

[122] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. s. 158
[123] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. s. 185-186

Ölkənin sabit, firəvan həyatı torpaq uğrunda canından, qanından keçən şəhidlərin, bu yolda sağlamlıqlarını itirənlərin, torpaq uğrunda vuruşanların əməyi, zəhməti igidliyi ilə sıx bağlıdır. Şəhidlərin qəhrəmanlığını əbədiləşdirmək, şəhid ailələrinə qayğı göstərmək, mənəvi dəstək vermək, onların problemlərini vaxtında aşkara çıxarıb həll etmək dövlətin vəzifəsi olmaqla yanaşı, həm də vəzifəli şəxslərin, xalqın hər bir nümayəndəsinin mənəvi borcudur: "Bizim borcumuz şəhidlərin qəhrəmanlığını əbədiləşdirmək, şəhid ailələrinə qayğı göstərmək və onların bütün problemlərini həll etməkdən ibarətdir"[124].

Dövlət başçısı ölkənin bütövlüyünün, təhlükəsizliyinin təminatçısıdır. Dövlətçiliyin təşkili, onun qorunması və inkişafı bilavasitə dövlət başçısının həyata keçirdiyi fəaliyyət ilə bağlıdır. Ona görə Heydər Əliyev dövlət başçısı kimi hər zaman dövlətə, dövlətçiliyə qarşı çıxanlara qarşı mübarizə aparır, Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi məğrur dayanaraq bu yolda şəhid olmağa belə hazır olmaq nümunəsini nümayiş etdirirdi: "...əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər onunla mübarizə aparacağam. Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram. Ona görə bu söz-söhbət, bu danışıqlar məni nə o vaxt qorxudurdu, nə də bu gün qorxudur"[125].

Ölkənin gələcəyi kimi dəyərləndirdiyi uşaqlara sevgisi daimi və əbədi olan Heydər Əliyev şəhid uşaqlarının, müharibə nəticəsində yaralanmış, əlil olmuş şəxslərin uşaqlarının, qaçqın və məcburi köçkünlərin uşaqlarının daha çətin durumunu nəzərə alır, onların həmin vəziyyətlə bağlı sıxıntılarını aradan qaldırmağı ümummilli bir vəzifə, borc kimi müəyyən edirdi: "borcumuz,

---

[124] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. s. 374
[125] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. s. 561

vəzifəmiz... şəhid uşaqlarına, xəstə uşaqlara, müharibə nəticəsində yaralanmış, əlil olmuş şəxslərin uşaqlarına, qaçqın uşaqlarına, ağır vəziyyətdə yaşayan ailələrin uşaqlarına yardım etməkdir. Bu, bizim ümummilli, ümumxalq borcumuzdur"[126].

Şəhidlik adi ölümdən çox fərqlənir. Şəhidlik adətən adi ölümdən gəncdir. Şəhidlik könüllü, bilə-bilə üzərinə gedilən, arzulanan ölümdür. Şəhidlik məqsədli ölümdür. Şəhidlik cismani ölüm olsa da, ruhən əbədi yaşamasıdır. Şəhidlik bir tərəfdən ölümdürsə, digər tərəfdən mənəvi yüksəlişdir, qürurdur. Şəhid cismən ölürsə də, bu ölümü ilə adını, ailəsinin şərəfini ucaldır. Şəhidlik ananı "şəhid anasına" çevirir. O anaya ki, o övladını Vətən üçün böyütmüş, Vətənin, torpağın azadlığı üçün bəsləmiş və bu yolda qurban vermişdir. Şəhid anası fəxr edir ki, övladı Vətən torpağını "torpaqdan" Vətənə çevirmişdir. Vətən torpağını qanı ilə suvarmaqla onu müqəddəsləşdirmişdir: "Biz müstəqil Azərbaycan Respublikası qururuq. Dövlətimizi, torpaqlarımızı qorumaq lazımdır. Torpaqlarımızı qorumaq üçün şübhəsiz ki, şəhid də verməliyik. Əgər qan tökülməsə o Vətən vətən deyil. Şəhid olmasa o Vətən müstəqil dövlət ola bilməyəcək. Bunlar təbiidir. Hər bir itki, hər bir vətəndaşımızın şəhid olması qəlbimizi sıxır, bizdə kədər hissi doğurur. Eyni zamanda şəhidlik səviyyəsinə çatmış insanların qəhrəmanlığı bizdə qürur hissi, iftixar hissi doğurur"[127].

Ona görə də Məmməd Araz şəhid üçün ağlamağı rəva bilmirdi:

*"Bu torpağın son qurbanı mən olsam,*
*Öz odumda yanıb külə tən olsam,*
*Eldən ötən güllələrə dən olsam,*
*Ata millət, oğul deyib ağlama,*
*Ağlamağın yeri deyil, ağlama!"*

[126] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. s. 8
[127] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. s.472

Şəhidlik özündə təzadı əks etdirir. Onda həm itki, qurbanlıq, həm igidlik, qəhrəmanlıq, həm kədər, nisgil, həm də fəxr etmə, öyünmə özünü təzahür etdirir: “Biz fəxr edirik ki, Azərbaycan xalqının qəhrəman oğulları şəhid olmağa hazırdırlar və siz – bu şəhidlərin valideynləri, ailələri fəxr edirsiniz və daim fəxr edə bilərsiniz ki, Vətənimizi qorumaq üçün siz qurbanlar vermisiniz, Azərbaycan xalqı qurbanlar veribdir”[128].

Hər bir şəhid xalqdan ötrü böyük itkidir. Onların xatirəsi xalqın qəlbində daim yaşayır. Şəhidlər Azərbaycan xalqının milli azadlığı, torpaqların bütövlüyünün təmin olunması yolunda əbədiyyətə qovuşduqlarına görə şəhidlik zirvəsinə ucalmışlar. Şəhidlik fədakarlıqdır. Bu Vətən, başqalarının xoş yaşayışı üçün canından keçməkdir. Buna hamı hazır olmalıdır. Burada nizam pozulanda ədalətsizlik yaranır. Frenk Edkok yunan şəhər-dövlətlərinin apardığı döyüşlər üçün xarakterik cəhətlərdən bəhs edərkən yazır: “Döyüş zamanı cərgəni qoruyub saxlamaq son dərəcə mühüm idi. Sırada dayanan hər bir əsgər başa düşürdü ki, onun həyatı sırada onunla yanaşı duran əsgərin nə dərəcədə yorulmadan, bacarıqla və cəsarətlə döyüşdüyündən asılıdır və nəticədə o, özü də qonşusu kimi vuruşurdu. Yunan şəhər-dövlətləri üçün xarakterik olan döyüş əməliyyatlarının aparılması üsulu ümumi həmrəyliyin ifadəsinin parlaq nümunəsi idi. Bu cür döyüşlərdə fərdi igidlik üçün yer yox idi”[129].

Döyüş zamanı şəhidliyin ümumi həmrəylik tələb etməsi ilə bağlı Heydər Əliyev deyirdi: “Hər bir şəhidin tökülən qanı Azərbaycanın müstəqilliyini təmin edibdir. İndi Azərbaycan müstəqil dövlətdir. Siz bu müstəqil dövlətin azad vətəndaşlarısınız. Bu azadlıq bizim üçün hər şeydən üstündür, bizim böyük nailiyyətimizdir, böyük qələbəmizdir və bu azadlıq naminə, bu müstəqillik naminə biz qurbanlar vermişik. Bundan sonra da verəcəyik. Hər

---

[128] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. s.101

[129] Френк Эдкок. Военное искуство греков, римлян, македонцев. Москва. 2012. с. 116

bir adam şəhid olmağa hazır olmalıdır ki, xalqımız daim azad olsun, daim müstəqil olsun”[130].

Tarix uzun minillər ərzində xalqların biri-biri ilə müharibəsi, döyüşləri, çəkişmələrinə şahidlik edən bir tarixdir. Müharibələr isə daim ölüm, şikəstlik, şəhidlik, qələbə, məğlubiyyətlər ilə müşahidə olunub. Tarixin lap ilk dövrlərindən müharibələrin müəyyən qaydalar əsasında aparılması ilə bağlı ideyalar yaranmış, inkişaf etmiş və tədricən dövlətlərarası beynəlxalq müqavilələrdə beynəlxalq adət hüququnda ifadəsini tapmaqla beynəlxalq hüquq normalarına çevrilmişdir. Müasir beynəlxalq humanitar hüquq (silahlı münaqişələr hüququ) həm müqavilələrdə, həm də beynəlxalq adətlərdə ifadəsini tapan norma kimi mülki əhaliyə qarşı müharibə aparılmasını, soyqırımı qadağan edir. Ermənistan silahlı qüvvələri öz xislətlərinə xas olan vəhşiliklə bu normalara əməl etməyərək Azərbaycan millətindən olan mülki əhalinin hər cür imkandan istifadə edərək məhz azərbaycanlı olduqlarına görə məhv etməyə çalışırdılar. Bunun ən bariz ifadəsi isə Xocalı soyqırımı idi. Lakin bu vəhşiliklər Azərbaycan xalqını ruhdan sala, onun mübarizə əzmini qıra bilməzdi. Xalqın mübarizə əzminin mətinləşməsinə təsir edən amillərdən biri də Vətən torpaqlarının müdafiəsi zamanı həyatdan köçən şəhidlərimizin müqəddəs ruhu idi: “Əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımı erməni qəsbkarlarının vəhşiliklərini bütün dünyaya bir daha nümayiş etdirdi. Xocalı faciəsi xalqımızı sarsıtsa da, onun dözümünü, iradəsini qıra bilmədi. Bu müsibət müqəddəs Vətənimizin müstəqilliyi, torpaqlarımızın bütövlüyü, sərhədlərimizin toxunulmazlığı uğrunda mübarizədə bizi daha da mətinləşdirdi və birləşdirdi. Bu gün şəhidlərimizin müqəddəs ruhu işğal olunmuş torpaqlarımızın azad edilməsi və qaçqın soydaşlarımızın öz yurdlarına qaytarılması uğrunda mübarizədə hər birimizi daha böyük əzmkarlıq göstərməyə səsləyir”[131].

---

130 Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. s.138
131 Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. s. 356

Şəhid ailəsi üzvlərinin dövlətin onlara göstərdiyi qayğıya görə minnətdarlığı, xüsusən də dövlətin, Vətənin yolunda yeni şücaətlərə hazır olmaları barədə çıxışları Heydər Əliyevdə Azərbaycanın gələcəyinə böyük ümidlər yaradır, dövlət başçısı kimi şəhid ailələrinə və əlillərə qayğı göstərməyi özünün borcu hesab edirdi: "Şəhid ailəsi, gənc bir qadın burada çıxış etdi. Bilirsiniz, onun çıxışı məni nə qədər həyəcanlandırdı. Onun həyat yoldaşı, əri mənim çağırışımla, yəni Vətənin, dövlətin çağırışı ilə cəbhəyə gedib, vuruşub, həlak olub, canını qurban veribdir. Onun balaca uşağı var. Özü gənc qadındır, ərsiz qalıbdır. Şübhəsiz ki, biz onun həyatı ilə daim maraqlanmalıyıq, ona kömək, yardım etməliyik. Ancaq mənim bu bacım, qızım da, onun o kiçik balası da fəxr etməlidir ki, bu balaca uşağın atası, bu gəlinin əri Vətən yolunda həlak olubdur. Vətən yolunda həlak olmaqdan şərəfli bir həyat ola bilməz. Biz bu insanlara, onların xatirəsinə daim hörmət etməliyik. Onların ailələrinə hörmət etməliyik, qayğı göstərməliyik. Yenə də deyirəm, biz cəmiyyətimizdə Vətən, torpaq yolunda, torpaqlarımızın müdafiəsi yolunda vuruşan insanların hamısına hörmət və ehtiramla yanaşmalıyıq. Bu, bizim borcumuz, vəzifəmizdir. Dövlət başçısı kimi mən bu gün bir daha deyirəm ki, bu, mənim üçün böyük bir vəzifədir. Mən bunu özüm üçün borc hesab edirəm və bu borcumu da sona qədər yerinə yetirəcəyəm"[132].

İşıq yolu həqiqətləri həmçinin ona şəhadət verirdi ki, şəhidlik xalqın dəyərlilik keyfiyyətlərindəndir. Şəhidi olan, torpaqları, amalları uğrunda həyatından keçməyə hazır olan övladları olan xalq ölməzdir. Onu övladlarının qəhrəmanlığı ölməzliyə yüksəldir. Şəhid olan övladlarının özləri ölməz olduğu kimi xalq da ölməzlik qazanır: "Bu gün, bu bayram günü mən torpaqlarımızın müdafiəsi uğrunda canlarından keçmiş, həlak olmuş şəhidlərimizi böyük minnətdarlıq hissi ilə xatırlayıram. Onların şəhidliyi, qəhrəmanlığı bizim xalqımızın qəhrəmanlığını nümayiş etdirir. Şəhidi olan xalq

---

[132] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On üçüncü kitab. s. 211

qəhrəman xalqdır. Biz şəhidlərimizin qəm-qüssəsini çəkirik, ancaq onların şəhidliyə getməsi ilə fəxr edirik. Çünki onlar vətən, ana torpaq, millət, Azərbaycan yolunda həlak olublar"[133].

Heydər Əliyev müdrik bir insan kimi bilirdi ki, dünyada heç bir nemət övlad dərdini, Vətəndən, yurd-yuvadan zorla didərgin salınma dərdini əvəz edə bilməz. Dövlət də, ictimaiyyət də bu dərdlərin ağırlığında əziyyət çəksə də, yenə də ən böyük dərd-kədər övladı şəhid olan ata və anaların, bacı-qardaşların, ailə üzvlərinin üzərinə düşür. İnsan başqa yerdə özünə nə qədər yaxşı həyat şəraiti qursa da o, zorla didərgin salındığı elin, obanın həsrəti ilə yaşayır. Doğma ocağın tüstüsü, doğma yerlərin ab-havası, torpağının ətri, çiçəklərinin qoxusu, doğma ev-eşiyin rahatlığı heç nə ilə əvəz oluna bilməz. Ona görə bəzən Heydər Əliyev sadəcə bu dərdlərin daşıyıcıları olan insanlarla görüşməyi, onların dərdini bölüşməyi, onlara həmdərd olmağı bir vəzifəsi kimi yerinə yetirirdi. O, 27 iyun 1998-ci il tarixdə Qaçqınların və məcburi köçkünlərin məsələlərinə həsr olunmuş ümumrespublika müşavirəsindəki nitqində deyirdi: "Azərbaycan torpaqlarının işğal olunması və sizin yerinizdən-yurdunuzdan didərgin düşməyiniz bizim hamımız üçün dərddir. Bu, bütün xalqın, bizim millətimizin, dövlətimizin dərdidir. Bu, sizin dərdinizdir, amma bu dərdi hamımız çəkirik. Siz hamıdan çox çəkirsiniz. Çünki əgər biz ölkəmizin ərazi bütövlüyünün pozulmasının, əhalimizin bir qisminin yerindən-yurdundan didərgin düşməsinin dərdini çəkiriksə, şəhidlərin, itkilərin dərdini bir yerdə çəkiriksə, amma siz bütün xalqın, vətənimizin dərdini çəkməklə yanaşı, hərəniz öz dərdinizi, ailənizin, evinizin dərdini də çəkirsiniz. Ona görə mən sizi anlayıram. Kim desə ki, hamının dərdi sizin dərdiniz kimidir, bu, doğru, düz olmazdı. Mən bir dövlət başçısı kimi sizin – yerindən, obasından didərgin düşmüş hər bir ailənin, evin dərdini çəkirəm. Amma hər bir ailə öz dərdini daha da əziyyət içində çəkir. Ona görə bu dərdi hamımız bir yerdə çəkirik.

[133] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On beşinci kitab. s. 76

Bilirsiniz, mən də sizin nə qədər əziyyət içində olduğunuzu, nə qədər problemlər içində olduğunuzu yaxşı bilirəm. Bilin, əmin olun ki, hər birinizin dərdi mənim şəxsi dərdimdir, qəlbimi incidir. Mən sizin, xalqımızın hamısının bu dərddən qurtarmasını özüm üçün ən böyük xoşbəxtlik hesab edirəm.

Bizim hamımızı incidən və yaralarımızı sızıldadan verdiyimiz şəhidlərdir. Azərbaycan xalqı 1988-ci ildən indiyə qədər çox şəhidlər veribdir. Bu, bizim xalqımızın şəhidləridir. Amma sizlərin, əziz bacılar, qardaşlar, hər birinizin öz ailənizin, evinizin, kəndinizin, qəsəbənizin, rayonunuzun şəhidi vardır. Ona görə də deyirəm ki, sizin dərdiniz hamının dərdindən ağırdır"[134].

"Azərbaycanın suverenliyi, milli azadlığı, müstəqilliyi, torpaqlarının müdafiəsi yolunda şəhid olmuş insanlar bizim ən əziz insanlarımızdır. Onların qəhrəmanlıqları, onların Azərbaycan xalqı qarşısındakı böyük xidmətləri heç vaxt unudulmayacaqdır və Azərbaycan xalqının qəlbində onların xatirəsi daim yaşayacaqdır. Vətən yolunda, torpaq uğrunda şəhid olanların ailələri fəxr edə bilərlər ki, onlar müstəqil Azərbaycan üçün belə gözəl, qəhrəman övladlar yetişdiriblər. Eyni zamanda şəhid ailələrinə daim diqqət hər bir vətəndaşın borcudur, dövlətin borcudur, hökumətin borcudur, mənim borcumdur, sizin borcunuzdur. Biz bu borcumuzu heç vaxt unutmamalıyıq və çalışmalıyıq ki, nə qədər mümkündürsə o qədər də borcumuzu yerinə yetirək. Məhz bugünkü mərasim, inşa olunmuş bu ev – şəhid ailələrinə, Qarabağ əlillərinə təqdim olunan ev həmin borcumuzun yerinə yetirilməsinin parlaq bir nümunəsidir"[135.]

Doğma insanın – həyat yoldaşının şəhid olmasına baxmayaraq, iki oğlunun torpaqların azad edilməsi üçün cəbhəyə göndərməyə hazır olan ananın hərəkəti yalnız mənəvi yüksəklikdən, Vətəni hər şeydən əziz tutmaqdan xəbər verirdi. Özü mənəviyyata həmişə və hər yerdə böyük dəyər verən Heydər Əliyev mənəvi təmizliyə,

---

[134] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On altıncı kitab. 114
[135] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirminci kitab. 396-397

ruhi paklığa malik olan insanlarla rastlaşdıqda qürur duyur, xalqı məhz bu cür insanların ucaltdığını düşünürdü. 3 iyun 2000-ci il tarixdə növbəti dəfə şəhid ailələri üzvləri ilə görüşü zamanı aldığı təsürat altında deyirdi: "Burada şəhid ailəsinin üzvü, gözəl bir xanım çıxış etdi, Füzuli rayonundan didərgin düşmüş soydaşımız çıxış etdi. Təkcə onlar yox, hamımız üçün Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi, ərazi bütövlüyünün bərpa olunması əsas problemdir, əsas məsələdir. Bilirsiniz ki, bu sahədə biz gecə-gündüz çalışırıq, əlimizdən gələni edirik və bundan sonra da edəcəyik. Mən çox məmnunam ki, o şəhid ailəsinin üzvü burada çox dəyərli sözlər dedi. Birincisi, onu dedi ki, müharibə görməyənlər indi müharibəyə çağırırlar. Onlar müharibə nədir bilmirlər. Çünki onun həyat yoldaşı şəhid olubdur. İkincisi də, onu dedi ki, əgər lazım olsa, mən iki oğlumu da torpaqlarımızın müdafiəsi üçün döyüşlərə göndərməyə hazıram. Azərbaycan xalqını yaşadan, Azərbaycan xalqını yüksəldən bax, bu cür yüksək mənəviyyata malik olan insanlardır. Bunlardır, bunlardır!"[136]

Heydər Əliyev Azərbaycan əsgərinin, Azərbaycan zabitinin yüksək mənəviyyata malik olmasını, Azərbaycan xalqının yüksək mənəvi dəyərləri ilə yaşamasını, vətənpərvər olaraq, vətəni sevməsini, vətən yolunda şəhid olmağı daim göz önündə saxlamasını arzulasa da, əsgər və zabitin şəhid olmasını istəmir, bu cür hallarda əzab, əziyyət çəkirdi. Onsuz da Azərbaycan xalqı Ermənistan silahlı qüvvələrinin qarşısını almaq məqsədi ilə aparılan döyüşlərdə kifayət qədər şəhidlər vermiş, böyük məhrumiyyətlərə məruz qalmışdı. Şəhidlərin xatirəsini həmişə əziz tutan Heydər Əliyev, eyni zamanda torpaqların azad olunması uğrunda mübarizədə şəhidliyi, qəhrəmanlığı hər bir Azərbaycan gənci, hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan əsgəri üçün nümunə hesab edərək 18 avqust 2001-ci il tarixdə Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının 82-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda

---

[136] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi səkkizinci kitab. s. 14-15

deyirdi: “Mən istəmirəm ki, bizim əsgərlərimiz şəhid olsunlar. Amma istəyirəm ki, bizim əsgərlərimiz, zabitlərimiz Azərbaycanın sərhədlərinin keşiyində möhkəm dursunlar, öz vəzifələrini yerinə yetirsinlər. Onda onlar Azərbaycan sərhədlərini pozanların əksəriyyətinin qarşısını alarlar. Amma əgər hansı bir şəraitdə hadisə baş vermiş olsa, onlar xalq, vətən yolunda şəhid olacaqlar. Şəhidsiz vətən yoxdur, şəhidsiz millət yoxdur, şəhidsiz xalq yoxdur”[137].

Xalq şairi Zəlimxan Yaqub həmin fikirləri bədii dildə bu cür ifadə edirdi:

*“Vətən, bir də başın üstə qara bayraq taxılmasın,*
*Dədəm Qorqud dayaq olsun, qara dağın yıxılmasın.*
*Şəhidləri verən xalqım, qoy ürəyin sıxılmasın,*
*Şəhid olmayan torpaqlar tapdaqlar altında!”*[138]

İşıq yolunun həqiqətləri milli mənəvi dəyərlərdən, müdriklikdən, təcrübədən, istedaddan, insanlıqdan, saflıqdan, ədalətdən, haqdan süzülüb gəldiyinə görə onlar yaşamalı idi. Onlar yaşamağı haqq etdiyinə görə İlham Əliyev bu həqiqətləri yaşatdı: “Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, zamanənin tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir... Azərbaycan xalqı ölkəmiz üçün həlledici məqamda bir yumruq kimi birləşdi və Heydər Əliyevin ideyalarına, onun siyasətinə, onun dünyabaxışlarına, onun fəlsəfəsinə sadiqliyini bir daha göstərdi. Bu çox vacib məsələdir. Heydər Əliyev bu gün bizimlə deyil, amma onun siyasəti yaşayır, onun fəlsəfəsi yaşayır, onun yaratdığı müasir, müstəqil Azərbaycan yaşayır və bundan sonra da yaşayacaqdır”[139].

---

137 Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz beşinci kitab. s. 376
138 Zəlimxan Yaqub. Ziyarətin qəbul olsun. (Şerlər və poemalar) Bakı. 1991. s. 16
139 İlham Əliyev. İnkişaf – məqsədimizdir. Doqquzuncu kitab. s. 36-37

“Şəhidsiz vətən yoxdur, şəhidsiz millət yoxdur, şəhidsiz xalq yoxdur” kəlamı İşıq yolu həqiqəti idi. Bu həqiqətdə kədər, qəm ünsürü olsa da, bu həqiqət idi və ondan qaçmaq mümkün deyildi. İlham Əliyev Vətən övladının hərbi xidmət, Vətən torpaqlarının müdafiəsi zamanı şəhid olmasına bir faciə kimi yanaşsa da, Azərbaycan torpaqlarının işğal altında olduğu vəziyyətdə bu cür qurbanların qaçılmazlığını qəbul edir, burada yeganə təsəllini qurbanın torpaqlarımızın azadlığı uğrunda mübarizədə verilməsində tapırdı: “Onların övladları Vətən uğrunda şəhid olublar. Əlbəttə, bu, böyük faciədir. Hər bir ailə üçün öz övladını itirmək böyük dərddir, böyük faciədir. Amma bu müharibədir və müharibədə də hər şey ola bilər. Onlara təsəlli arzulayıram. Onlar səbirli olsunlar. Onların övladları Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olublar. Ola bilsin ki, onlar üçün bu, təsəlli ola bilər. Mən istəyirəm ki, sülh olsun, mən müharibə istəmirəm. Amma eyni zamanda, biz torpaqlarımızı da işğal altında qoya bilmərik. Biz hər şeyə hazır olmalıyıq”[140].

V.Yan Batı xanın müharibəyə, əsgərə, döyüşdə həlak olanlara münasibəti təsvir edərkən yazır: “Batı xan qıpçaqlı qocanı dinləyərkən onun oğlunun döyüşdə həlak olmasını eşidəndə “oğlunun döyüşdə həlak olması ilə fəxr et. Mən səni necə mükafatlandıra bilərəm?” – deyə soruşur”[141].

İlham Əliyevin şəhid ailələrinə qayğısı real faktlara söykənir və ölkənin hər tərəfində ucalan binalarda təcəssümünü tapırdı: “...bu binalar Vətənimiz üçün, dövlətimiz üçün ən böyük iş görən, fədakarlıq göstərən insanlar üçün tikilir. İlk növbədə, bu insanlar üçün daha da gözəl binalar tikilməlidir, daha da gözəl şərait olmalıdır. Bu bizim mənəvi borcumuzdur, eyni zamanda, bu bizim dövlət siyasətimizdir”[142].

---

[140] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Doqquzuncu kitab. s. 16
[141] Ян В. Собрание сочинений в четырех томах. Батый. К «Последнему морю». Рассказы. Том 3. Москва. 1989. с. 56
[142] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Əlli dördüncü kitab. s.215

28 yanvar 2019-cu il tarixdə şəhid ailələri ilə növbəti görüşündə onların sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı məsələlərə toxunan İlham Əliyev deyirdi: “Bu günə qədər 6650 şəhid ailəsinə dövlət tərəfindən mənzillər, evlər, 6000-dən çox şəhid ailəsinə minik avtomobilləri verilibdir. Bu, dövlətimizin şəhid ailələrinə olan münasibətinin təzahürüdür. Mən bilmirəm, hansı başqa ölkədə ağır vəziyyətdə yaşayan, yaxınlarını itirmiş vətəndaşlara bu qədər diqqət, bu qədər qayğı göstərilir?! Mənim fəaliyyətimdə bu məsələ daim prioritet təşkil edir. Son illər ərzində şəhid ailələri ilə çoxsaylı görüşlərim bunu bir daha sübut edir. Biz sizinlə birlikdə bir çox evlərin açılışlarında iştirak etmişik. Mən şəhid ailələrinə mənzillərin, avtomobillərin açarlarını şəxsən təqdim etmişəm və bunu özüm üçün borc bilirəm. Bu mənim borcumdur, xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün böyük şərəfdir ki, sizə bu istiqamətdə xidmətimi göstərim.

Şəhid ailələrinə diqqət eyni zamanda, keçən il özünü bir daha göstərdi. Keçən ilin aprel ayında Azərbaycan xalqı bir daha mənə etimad, inam göstərdi, məni Prezident vəzifəsinə seçdi. Mənim birinci fərmanım şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı idi. Təbii ki, bu, təsadüfi deyil. Mən istənilən sahə üzrə fərman imzalaya bilərdim – iqtisadi sahə üzrə, xarici siyasət, sosial məsələlərlə bağlı. Ancaq mən hesab etdim ki, birinci fərman şəhid ailələri ilə bağlı olmalıdır. Bu fərman əsasında 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulur”[143].

24 dekabr 2019-cu il tarixdə şəhid ailələri və müharibə veteranları ilə növbəti görüşündə İlham Əliyev sosial siyasət sahəsində irəliləyişləri nəzərə çatdıraraq deyirdi: “Son illər ərzində şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 7500-dən çox mənzil və fərdi ev, 7000-ə yaxın minik avtomobili verilib. Bu, deyə bilərəm ki, çox nadir hallarda dünya miqyasında baş verir. Hesab edirəm

[143] İlham Əliyev. İnkişaf məqsədimizdir. Doxsan ikinci kitab. s. 158-159

ki, Azərbaycan bu sahədə ən düzgün siyasət aparır. Çünki bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə o vətəndaşlar ki, öz həyatını Vətən uğrunda qurban vermiş və sağlamlığını itirmişdir. Bundan sonra da bu siyasət davam etdiriləcək. Gələn il ən azı 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulur, yəni bu ildən fərqli olaraq, iki dəfə çox... Azərbaycan dövləti sosial təminat sahəsində çox genişmiqyaslı və düzgün siyasət aparır. İlk növbədə, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranları dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunurlar... Şəhid ailələri arasında təqribən 2000-dən çox vətəndaş növbədə dayanır. Onların da problemləri yaxın 2-3 ildə həllini tapacaqdır ”[144].

Frenk Edkok Roma Respublikası dövrünün hərb sənətindən bəhs edərkən yazır: “Adamlar müharibədə özlərini müxtəlif cür aparırlar. Jomini ispan atalar sözünü misal gətirir: ”Həmin gün o, cəsur insan idi”. Bu ifadənin mənası odur ki, yalnız adamların bəziləri həmişə cəsur ola bilər”[145]. Əslində oxşar ifadə azərbaycanlıları qədim yazılı abidəsi olan “Kitabi-Dədə Qorqud”da da öz əksini tapıb: “O, gün ciyərli, cəsur igidlər bəlli oldu. O gün namərdlər gizlənməyə yer axtardı”[146].

18 iyun 2010-cu ildə Mübariz İbrahimov da “ciyərli, cəsur igid” kimi bəlli oldu. Bu cəsurluq onun içində, qanında, varlığında kök salmış mərdliyin, təpərin, vətən sevgisinin püskürən təcəssümü idi. Ölümdən qorxmamaq, bilə-bilə ölümün üstünə getmək, ölümün gözlərinin içinə dik baxaraq qisas almaq hər kəsin deyil, məhz mübariz, qəhrəman insanın işi idi. İlham Əliyevin şəhid ailələrinə, şəhidlərin valideynlərinə xüsusi qayğı ilə yanaşması, vətən uğrunda qurban getməyə hazır olan qəhrəman övlad yetişdirdiklərinə görə onlarla görüşüb minnətdarlığını bildirməsi son nəti-

---

144 İlham Əliyev. İnkişaf – məqsədimizdir. Doxsan doqquzuncu kitab. s.153-154
145 Френк Эдкок. Военное искуство греков, римлян, македонцев. Москва. 2012. с. 85
146 “Kitabi-Dədə Qorqud”. Bakı. 1988. s. 50; 175

cədə gənclərdə vətənpərvərlik tərbiyəsinə müsbət təsir göstərir, xalqla iqtidarın, xalqla ordunun birliyinin möhkəmlənməsinə səbəb olur, şəhid valideynləri üçün təsəlliyə çevrilir, onların övladları ilə qürur duymaq hissini artırırdı.

İlham Əliyevin 18 sentyabr 2018-ci il tarixdə Biləsuvar rayonu ərazisində avtomobil yolunun acılışı zamanı Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun atası ilə görüşməsi, onun oğlunun göstərdiyi qəhrəmanlıqdan söhbət açması həm qəhrəmanın atasında, həm açılışda iştirak edən rayon ictimaiyyətində, həm tədbiri izləyən televiziya tamaşaçılarında, bu barədə qəzet və digər informasiya vasitələrində məlumat alan insanlarda qəhrəmanları daim xatırlamasına görə dövlət başçısına rəğbət, gənclərdə qəhrəmanın yolunu davam etdirmək həvəsi yaradır, xalqda ordu ilə birlik ideyalarının daha da möhkəmlənməsinə yol açırdı: "Bu gün bizim tədbirdə Milli Qəhrəman Mübariz İbrahimovun atası iştirak edir. Mən ona xüsusi minnətdarlığımı bildirmək istəyirəm ki, onun ailəsində Milli Qəhrəman, bizim unudulmaz əsgərimiz, qəhrəmanımız Mübariz böyüyüb, tərbiyə alıb, Vətən uğrunda döyüşüb, Vətən uğrunda həlak olub, şəhid olubdur. Təkbaşına bir çox işğalçını məhv edərək, şəhidlik zirvəsinə ucalıbdır. O bilirdi ki, ölümə gedir, bilirdi ki, o döyüşdən sağ-salamat çıxmayacaq. Buna baxmayaraq, canından keçdi və düşmənə Azərbaycan əsgərinin hansı keyfiyyətə malik olduğunu nümayiş etdirdi. Biləsuvar rayonu fəxr edə bilər ki, belə gözəl övlad yetişdirib. Bu gün Azərbaycan Ordusunda vətənpərvərlik ruhunun yüksək səviyyədə olması Mübariz kimi övladlarımızın addımları, qəhrəmanlığı nəticəsində olubdur"[147].

28 yanvar 2019-cu il tarixdə şəhid ailələri ilə görüş zamanı İbadət Əliyeva şəhid anası kimi İlham Əliyevə müraciət etdi: "Deyirlər, dərdin kiçiyi, böyüyü olmur. Amma elə deyil, dərdin ən böyüyü Vətən, torpaq, azadlıq dərdidir. Bu dərdin yolunda bizim

[147] İlham Əliyev. İnkişaf məqsədimizdir. Səksən beşinci kitab. s. 148

balalarımız şəhid oldular. Vətən yaşasın deyə, onlar şəhid oldular və düşmənə qaya kimi sipər oldular, qaya kimi dayandılar onların qabağında. Mən inanıram ki, xalqımız çox vətənpərvər, qəhrəman xalqdır. Bu xalqın əli silah tutan hər bir nümayəndəsi şəhidlərin yolunu davam etdirmək üçün bir nəfər kimi, Vətənimizi qorumağa hazırdır"[148].

Vətən yolunda övladını qurban vermiş ananın Vətən dərdini övlad dərdindən yüksək tutması Vətənə bağlılığın, anaların övladlarını məhz Vətən üçün, onu qorumaq üçün böyütməsini təsdiq edirdi. Bu Azərbaycan analarına xas xüsusiyyət idi. Vaxtilə Heydər Əliyev Azərbaycanın əsgər analarından söhbət açaraq deyirdi: "Mən bu gün xüsusi olaraq şəhid analarını, əsgər analarını qeyd etmək istəyirəm. Demək olar ki, ana həyatda hər bir şeyin başlanğıcıdır. Ana Vətəni, ölkəni qorumaq üçün əsgər böyüdür, igidlər, qəhrəmanlar böyüdür. Ana cəmiyyətimizə zəkalı, istedadlı insanlar böyüdür, bəxş edir. Ana ailənin dayağıdır. Hər bir ailənin səadəti, əmin-amanlığı birinci növbədə ananın rolundan və onun fəaliyyətindən çox asılıdır. Hər birimiz anaya borcluyuq və hər bir qadın da ana olmaqla xoşbəxt olur. İnsanın həyatında vəziyyət cürbəcür ola bilər – çətinliklər də, məhdudiyyətlər də ola bilər. Amma hesab edirəm, analığa nail olan hər bir qadın dünyada ən xoşbəxt insandır. Bizim də borcumuz ananın hörmətini qaldırmaqdır. Cəmiyyətdə anaya münasibəti daim yüksəltmək qadına hörmətdir"[149].

İlham Əliyev Vətəni, ölkəni qorumaq üçün əsgər, igid, qəhrəman böyütmüş şəhid anasının bu cür mənəvi üstünlüyünə, paklığına, qüruruna cavab olaraq deyirdi: "Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Biz istəmirik ki, şəhidlər olsun, istəmirik ki, gənclərimiz şəhid olsun. Münaqişəni sülh yolu ilə həll etmək üçün həm siyasi, həm iqtisadi, həm də hərbi güc olmalıdır. Bu gün bu üç amil var və ölkəmizi gələcəyə aparır.

---

[148] İlham Əliyev. İnkişaf məqsədimizdir. Doxsan ikinci kitab. s. 161-162
[149] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On beşinci kitab. s. 41

Əziz bacılar, qardaşlar, nənələr, babalar, mən bir daha sizə öz dərin hörmətimi bildirmək istəyirəm. Siz Vətən üçün gözəl övladlar yetişdirmisiniz. Siz öz yaxınlarınıza arxa-dayaq olmusunuz. Siz öz şəhid olmuş övladlarınızla fəxr edə bilərsiniz. Bütün Azərbaycan xalqı şəhidlərimizlə fəxr edir. Şəhidlərimiz daim bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaqdır”[150].

1 iyul 2020-ci il tarixdə Bakıda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimindəki çıxışında İlham Əliyev deyirdi: “Bilirsiniz ki, şəhid ailələrinin, müharibə əlillərinin problemləri daim diqqət mərkəzindədir və son illər ərzində bu istiqamətdə çox böyük işlər görülüb. Təkcə onu demək kifayətdir ki, 8 mindən çox şəhid ailəsi, müharibə əlili mənzillərlə təmin edilib və 7 minə yaxın avtomobil verilibdir. Hesab edirəm ki, biz bu il də bu sahədə rekord göstəriciyə nail olacağıq, buna şübhə yoxdur. Bu il 1500 şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilir və ediləcəkdir. Bütün mənzillər ən yüksək keyfiyyətlə tikilən yeni evlərdəndir. Eyni zamanda, sizin üçün 400 avtomobil də nəzərdə tutulur və beləliklə, biz bu il bu sahədə ən böyük göstəriciyə nail ola bilmişik.

Müqayisə üçün deyə bilərəm ki, keçən il 934 mənzil verilmişdir, bu il isə 1500, ondan əvvəlki illərdə təqribən ildə 500-600-700. Yəni, bu, onu göstərir ki, bu problemi həll etmək və şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən nəzərdə tutulmuş evlərin təqdim edilməsi üçün çox fəal iş aparılır. Mən istəyirəm ki, biz bu proqramı tezliklə başa çatdıraq və buna nail olacağıq. Sirr deyil ki, bu məqsədlər üçün böyük vəsait nəzərdə tutulur və bildiyiniz kimi, dövlət büdcəsinin böyük hissəsi sosial məsələlərin həllinə xərclənir. Bu sosial xərclərin içində şəhid ailələrini, müharibə əlillərini, müharibə veteranlarını, məcburi köçkünləri əhatə edən çox böyük proqramlar icra olunur”[151].

---

[150] İlham Əliyev. İnkişaf məqsədimizdir. Doxsan ikinci kitab. s. 170
[151] https://president.az/articles/39923

Müharibədə həyatını Vətən yolunda qurban vermiş insanlar barəsində çox sözlər deyilmiş, bu barədə çöx nitqlər söylənmişdir. Yəqin ki, hələ bundan sonra da bununla bağlı çox fikirlər səslənəcək. Şəhidlərin məzarı üstündə söylənən nitqlər arasında afinalı Periklin və ABŞ-ın sabiq prezidenti Abraham Linkolnun çıxışları ən möhtəşəmlərdən hesab olunur.

Heydər Əliyevin nitq və çışıxlarında öz əksini tapmış fikir və ideyalar, istər Periklin, istərsə də A.Linkolnun nitqlərinin məzmunu, onların əsas ideyasından bəlkə də daha güclü, daha təsirli və daha əhatəlidir. Onların hamısında əsas ideyalar aşağıdakılarda ifadəsini tapır:

– Biz itkilər vermişik;
– Verdiyimiz qurbanlar igidlik, şücaət, qəhrəmanlıq nümayiş etdirib;
– Onlar torpaq, Vətən, demokratiya, azadlıq, uğrunda həlak olub;
– Onların qəhrəmanlığı, bizim itkilərimiz əbəs deyil, bu itkilər, onların göstərdiyi şücaət Vətən üçün, xalq, birlik üçün zəruri olub;
– Onların qurban getməsi nəticəsində biz azadlıq, demokratiya, sülh əldə etmişik, dövlətimiz əzəmətli və qüdrətli olub;
– Səhidlərin qəhrəmanlığı bizim üçün örnəkdir;
– Biz şəhidlərdən nümunə götürməli və şərəfli işlərini davam etdirməliyik;
– Vətən uğrunda canlarından keçənlər unudulmayacaq;
– Dövlət şəhidlərin xatirəsini əbədiləşdirib, onların ailələrinin uşaqlarının qayğısına qalmalıdır;
– Biz şəhidlərdən nümunə götürüb, Vətən yolunda yenə şəhid verməyə hazır olmalıyıq.

Abraham Linkolnun Gettisberq müraciəti:

Gettisberq müraciəti XIX əsrin ortalarında Amerika Birləşmiş Ştatlarının Cənub Ştatları ilə Şimal Ştatları arasında gedən Vətəndaş müharibəsi qurbanlarının şərəfinə səslənmişdi.

O vaxtlar Cənub ştatlarının ictimai və iqtisadi quruluşunun əsasını pambıq və tütün plantasiyalarında zənci qulların məcburi əməyi təşkil edirdi. Həmin dövrdə Şimal ştatlarının inkişaf edən sənayesi azad işçi qüvvəsinə möhtac idi. Amerikalıların xeyli hissəsi qul sahibkarlığının insanlığa yaraşmayan və ədalətsiz olduğuna inanır və onun ləğvinə tərəfdar idilər.

Əksəriyyət ABŞ-da Vətəndaş müharibəsinin səbəbini sənaye cəhətdən inkişaf etmiş Şimalla geridə qalmış aqrar Cənub arasında qul sahibliyi məsələsi ilə bağlı ziddiyyətlərlə izah edirdi. Lakin 1861-ci ildə çoxsaylı insan tələfatı və maddi ziyanla nəticələnən Vətəndaş müharibəsinin başlanmasının yeganə səbəbi qul sahibliyi ilə bağlı ziddiyyətlər deyildi. Köləliyin ləğvi məsələsi münaqişənin kəskinləşməsi səbəblərindən biri olsa da, yeganə səbəbi deyildi.

Münaqişənin səbəblərindən biri də cənub və şimalın fərqli dəyərlərə söykənib və fərqli siyasi qüvvələr tərəfindən dəstəklənməsi idi. Vətəndaş müharibəsinin əsas səbəbləri daha çox iki fərqli iqtisadi sistemin, iki həyat tərzinin və iki düşüncə növünün toqquşmasında təzahür edirdi.

Şimallılar azadlığı, yeniliyi və təşəbbüskarlığı dəstəkləyir, qanuna tabe olmağa üstünlük verirdilər. Əhalinin ənənəvi təməlləri ilə yaşadığı Cənubda isə vəziyyət tamamilə fərqli idi. Böyük əkinçilərin çoxu köhnə Avropa aristokratiyasından gəlmiş insanlar torpağı ən yüksək sərvət göstəricisi hesab edir, səs-küylü şəhərlərdən uzaq bir sakit, ölçülü bir həyatı üstün tuturdular. Cənub ilə şimal arasında iqtisadi ziddiyyətlər də mövcud idi.

9 noyabr 1860-cı ildə Respublikaçılar partiyasının namizədi, qul sahibkarlığının ləğv edilməsinin tərəfdarı Abraham Linkoln ABŞ prezidenti seçildikdən bilavasitə sonra Cənubi Karolina ittifaqdan çıxmasını elan etdi. Sonrakı altı həftə ərzində Missisipi, Florida, Alabama, Corciya, Luiziana və Texas ştatları onun yolu ilə getdilər. Ayrılan ştatlar Konfederasiya əmələ gətirdilər və 1862-ci ilin başlanğıcında Müvəqqəti hökumət qurdular. Cefferson Devis

Konfederasiyanın prezidenti seçildi. Yeni "dövlətin" konstitusiyası qul sahibkarlığının qanuni olduğunu təsdiq etdi. Silahlı mübarizənin başlanması ilə Virciniya, Arkanzas, Tennessi və Şimali Karolina ştatları da Konfederasiyaya qoşuldu.

Fevralın 7-də yeddi ştat Amerika Konfederasiyası Ştatları üçün müvəqqəti konstitusiya qəbul etdi. Qalan Cənub ştatları hələ də olduğu kimi, Birliyin tərkibində qaldı. Bir ay keçmədi ki, 1861-ci il martın 4-də Abraham Linkoln Birləşmiş Ştatların prezidenti kimi and içdi. Özünün vəzifəyə başlamaq üçün təntənəli müraciətində o, bu ayrılmanı "qanundan kənar" hesab edərək, onu qəbul etmədi. Onun nitqi birliklərini bərpa etmək üçün təkliflə qurtardı. Lakin Cənub bu təklifi eşitmək istəmədi, aprelin 12-də Cənubi Karolina ştatının Çariston limanında Fort Samterdə yerləşən federal hərbi qüvvələrinə tüfənglərdən atəş açıldı və Vətəndaş müharibəsi başladı. Müharibənin başlandığı bir vaxtda, 11 ştatın olduğu cənub artıq özünü Konfederasiya adlandırmışdı.

İttifaqın tərəfdarlarının Gettisberq döyüşündəki qələbəsi (iyul, 1863) onun və Amerika Quldarlıq Konfederasiyasının tərəfdarları arasında gedən vətəndaş müharibəsində dönüş nöqtəsi oldu. Təxminən 45.000 adamın həlak olduğu bu qardaş qırğınında Konfederasiya öz ordusunun üçdə birini itirdi. Bu, Konfederasiyanın sonu və köləliyin ümumən ləğv edilməsi demək idi.

1863-cü ilin noyabrın 19-da şimal ştatlarının nümayəndələri Gettisberq döyüşündə həlak olmuş əsgərlərin abidəsi önünə qəhrəmanların xatirəsini yad etməyə toplaşmışdılar. Mərasimdə prezident Abraham Linkoln da iştirak edirdi. Buna baxmayaraq, əsas məruzəni etmək keçmiş dövlət katibi, Harvard Universitetinin rektoru, ölkənin ən mahir natiqlərindən sayılan Edvard Everettə tapşırılmışdı.

Everett təmtəraqlı, bəlağətlə dolu uzun bir nitq söylədi. Everettdən sonar A.Linkolnun yekun çıxışı cəmi iki dəqiqə çəkdi, amma o bu iki dəqiqədə Everettdən daha çox şey deyə bildi.

Gettisberq müraciəti mənasına və onda ifadə olunan hisslərə görə məşhurlaşdı. Natiq vətəndaş müharibəsini – bir ştatın digəri

ilə döyüşü deyil, "azadlığın dirçəlişi" adlandırır, dövlətdə bütün adamların həqiqi bərabərlikdə olmasına hamını əmin edirdi. Sonradan nitqi yerində dinləyənlərin şahidliyinə görə çıxış o qədər inamlı, parlaq, güclü və yaddaqalan olmuşdu ki, oraya toplaşanlarda qurbanların əbəs olmadığı, bir qədər əvvəl Amerikanın müstəqilliyi uğrunda döyüşənlərin gələcək nəsillərə miras qoyduğu vahid dövlət və dəyərlərin qorunması zərurəti üçün qiymətinin çox böyük olması barədə heç bir şübhə qalmamışdı.

19 noyabr 1863-cü ildə prezident həmin nitq ilə İttifaq uğrunda mübarizədə həlak olmuş mindən artıq şəhidin dəfn olunduğu Gettisberq qəbristanlığında çıxış edərkən Vətəndaş müharibəsi hələ davam edirdi və adamların geri çəkilməməsi üçün gücə və inama ehtiyacları var idi. Çünki Gettisberq döyüşündən sonra adamların çoxu dövlətin əsasını qoyanların gələcək nəsillərə ötürdüyü vahid dövlətin və həmin dəyərlərin mühafizəsi üçün ödənilməli olanlar barədə düşünməli olmuşdu.

Linkolnun nitqinin bütöv mətni belə idi:

"Səksən üç il öncə bizim dövlətin əsasını qoyan atalarımız bu qitədə azadlığın rüşeymini səpib və bütün insanların bərabər doğulmasına inamla yeni millət yaratmışlar. İndi biz, bizim milləti və ya hər hansı başqa milləti eyni tərzdə mayası qoyulmuş və eyni ideyalara ibadət edən dözüm qabiliyyətini sınağa çəkən böyük Vətəndaş müharibəsi aparırıq. Bu gün biz həmin müharibənin böyük meydanında görüşürük. Görüşürük ona görə ki, bizim millətin yaşaması naminə canlarını fəda etmiş şəxslər üçün bu meydanın bir hissəsini əbədi məkana çevirək. Bütün nöqteyi-nəzərlərdən bu ağıllı və tamamilə düzgün addımdır. Biz, bundan daha böyük mənada bu torpağa baş çəkə, bu torpağa xeyir-dua verə, bu torpağa sitayiş edə bilmərik. Burada döyüşən igid adamlar, dirilər və ölülər, artıq bu cür ithaf ayinini həyata keçirmişlər və nəyisə artırmaq və ya azaltmaq bizim zəif gücümüzdən kənardadır. Dünya çətin ki, bu gün bizim burada dediklərimizi uzun müddət xatırlasın və ya yada salsın, lakin onların burada nümayiş etdirdiklərini yaddan

çıxara bilməz. Yəqin ki, biz, həyatda yaşayanlar burada döyüşənlərin başladıqları, bizə kimi böyük şərəflə üzərində işlədikləri işi başa çatdırmağa özümüzü həsr etməliyik. Yəqin ki, biz, həyatda yaşayanlar hələ ki, bizim qarşımızda duran böyük vəzifələrə – bu hörmətli həlak olanların özlərini tamamilə həsr edib və axıradək sədaqət nümayiş etdirdikləri işə böyük sadiqliyimizi göstərməklə, əmin olmalıyıq ki, onlar əbəs yerə ölməmiş və bizim millət Tanrının köməyi ilə azadlıqda dirçələcək və xalqın hakimiyyəti, xalqın idarəsi ilə və xalq üçün yer üzündən silinməyəcək”[152].

Linkoln özünün çıxışında xalqı əmin edə bildi ki, heç kəs əbəs yerə həlak olmayıb, bütün əsgərlər azadlıq və demokratiya, millətin vahidliyi uğrunda vuruşub və deməli onların işini davam etdirmək və axıradək mübarizə aparmaq lazımdır. O bütün adamlara bərabər hüquq və azadlıqların verilməsinə, bütün ştatların bərabərliyinə inanırdı və öz inamı, sözləri ilə başqlarının da buna inanmasına yardım etdi. A.Linkoln özü də, demək olar ki, bütün ömrü boyu idealları uğrunda, o cümlədən qullara azadlıq verilməsi üçün mübarizə aparmışdır. “Bölünmüş ev davam gətirə bilməz” ifadəsi məhz bu prezidentə məxsusdur. Demək olar ki, A.Linkoln öz idealları uğrunda həyatını qurban vermişdir. Linkolnun şübhələrinə baxmayaraq, onun nitqi indiyəcən yaddaşlardan silinməyib.

Gettisberq müraciəti ilə bağlı belə fərziyyə irəli sürülür ki, A.Linkoln müraciətin məzmununu Periklin Peloponnes müharibəsi qurbanlarının qəbirüstü çıxışı əsasında hazırlamışdır. Həqiqətən də həmin nitqlərin məzmununda oxşar cəhətlər, əsasən də verilmiş qurbanların zəruriliyi, bu qurbanların əbəs yerə olmayıb müəyyən ideyalara xidmət etməsi, məhz bu qurbanların nəticəsində dövlətdə azadlıq, demokratiya, xoş rifahın bərqərar olması, qurban gedənlərin qəhrəmanlığının unudulmayacağı və onların rəşadətli əməllərinin gələcək nəsillər üçün nümunə təşkil edəcəyi kimi oxşar fikirlər öz əksini tapmışdır.

---

[152] https://4brain.ru/blog

Demokratik idarəçilik forması demokratiyanın beşiyi sayılan Afinada yaranmış, onun qızıl əsri və mədəni inkişafın ən yüksək həddə çatdığı dövr b.e.ə. V əsrin ortalarına təsadüf edən Periklin idarəçilik zamanına aiddir. Əzəldən afinalıların rəqibləri spartalılar hesab olunurdu. Onların yaratdıqları ittifaqlar arasında ziddiyyətlər siyasi quruluşlarındakı fərqə və müxtəlif xalqlara mənsubluqlarına əsaslanırdı. Sparta və onun ittifaqına daxil olan şəhərlərdə oliqarxiya idarəçilik forması hökm sürürdü. B.e.ə. 431-ci ildə spartalılar növbəti dəfə Attikaya daxil olub Afinanın ətraflarını talamağa başladılar. Buna cavab olaraq Perikl Peloponnes sahillərinə donanma çıxararaq rəqib ərazilərinə daxil olub spartalılardan qisas aldı. Bir il sonra həmin müddət ərzində döyüşlərdə həlak olanların xatirəsinə matəm mərasimi keçirildi.

Heredotla yanaşı tarix elminin banilərindən hesab olunan Fukidid (b.e.ə.460 – b.e.ə.390) e.ə. 424-cü ildə yunanlarla spartalılar arasında "Peloponnes müharibəsi"ndə iştirak etmiş və yazdığı "Tarix" əsəri həmin uzaq illərin hadisələrinin ən yaxşı şahidi hesab olunur.

Periklin Fukidid tərəfindən qələmə alınmış məzarüstü nitqinin Heydər Əliyevin çıxışları ilə müqayisəli şəkildə təqdim olunması həmin nitqlər arasında mahiyyət yaxınlığını, eyni məsələləri ifadə etməsini göstərməyə xidmət edir.

Fukidid yazır: "Elə həmin qışı afinalılar bu müharibədə ilk ölənlərin dəfnini dövlət işlərində atalarından qalma adətə uyğun olaraq təşkil etdilər. Bu dəfnlər belə təşkil edilirdi: onlar ölənlərin sümüklərini xüsusi çadırda üç gün boyu saxlayırdılar və hər kəs, əgər istəsə idi, əzizinə bir vida hədiyyəsi gətirirdi. Dəfn zamanı yetişəndə isə sərv ağacından olan tabutlar hər qəbilə üçün biri olmaqla on arabada dəfn yerinə aparılırdı; həlak olanların sümükləri onların aid olduğu qəbiləyə görə müvafiq tabuta qoyulurdu. Döyüşlərdə itkin düşüb cəsədləri tapılmayanlar üçün isə üstü örtüklü boş bir mafə aparılırdı. Vətəndaşlardan və gəlmələrdən kim istəsəydi, dəfn mərasiminə qatılırdı; yaxınlarını itirmiş qadınlar qəbir

üstündə ağı söyləmək üçün mərasimdə iştirak edirdilər. Ölənlərin sümükləri şəhər ətrafının ən gözəl yerində – ictimai məzarlıqda dəfn olunurdu; müharibədə həlak olanları afinalılar həmişə burada dəfn edirdilər. Marafon döyüşündə həlak olanlar isə istisna idi: onların şücaəti elə misilsiz idi ki, onları birbaşa döyüş meydanında dəfn etmişdilər”[153].

Heydər Əliyev Vətənin azadlığı ərazilərinin bütövlüyü uğrunda şəhid olunanların dəfn yeri ilə bağlı deyirdi: “Azərbaycan xalqı qurbanlar verdi. O gün faciəli gün oldu, biz şəhidlər verdik, qan töküldü. Azərbaycanın torpağı, Bakı şəhəri qana bələndi. Ancaq eyni zamanda bizim qəhrəman övladlarımız özünü qurban verərək Azərbaycan xalqının milli azadlığı üçün, Azərbaycanın müstəqilliyi üçün yol açdılar. O şəhidlər burada – Azərbaycanın, Bakının ən mötəbər, gözəl guşəsində əbədiyyətə qovuşublar. Biz onların məzarları qarşısındayıq. Biz bu məzarları daim yad edəcəyik. Bura Azərbaycan xalqı üçün böyük bir ziyarətgaha çevrilibdir. Xalqımızın tarixində çox əzəmətli, qiymətli abidələr var. Ancaq Şəhidlər Xiyabanı, XX əsrin sonunda Azərbaycan xalqının milli azadlıq uğrunda özünü qurban vermiş şəhidlərinin məzarları, Azərbaycan Respublikasının, Azərbaycan torpağının ən müqəddəs yeridir və ən qiymətli abidəsidir. Biz bu gün bu abidəyə, bu məzarların qarşısına gəlmişik. Bu gün biz bu qəhrəman, cəsur, rəşadətli Azərbaycan övladlarının məzarı qarşısındayıq. Onların qəhrəmanlığının əbədi yaşayacağını bir də bəyan edirik və onlara deyirik ki, sizin qəhrəmanlığınız nəticəsində, şəhidliyiniz nəticəsində indi xalqımız öz milli azadlığına nail olubdur. Azərbaycan müstəqil dövlətdir, öz ərazi bütövlüyünü qorumağa çalışır, öz müstəqilliyini möhkəmlətməyə çalışır. Bu şəhidlərdən sonra Azərbaycan öz torpaqlarını qorumaq üçün bir çox şəhidlər veribdir. Ona görə də 20 Yanvar şəhidləri ilə yanaşı, Azərbaycanı erməni təcavüzündən qorumaq uğrunda mübarizəyə qalxan, döyüşlərə gedən Azərbaycanın

---

[153] Фукидид. История. Санкт-Петербург. 2018. с. 117-118

qəhrəman oğulları, şəhid olanlar da burada, bu Şəhidlər Xiyabanındadır. Şəhidlər şəhidlərlə yan-yanadır. Bu da təbiidir. Çünki hamısı Azərbaycanın xoşbəxt gələcəyi uğrunda həlak olublar, şəhid olublar və bu məzarlarda uyuyurlar”[154].

Fukidid davam edərək yazır: “Həlak olanlar torpağa tapşırılandan sonra, şəhər sakinləri tərəfindən seçilmiş, fövqəladə ağıl və ictimai nüfuza malik olan bir şəxs ölənlərin şərəfinə nitq söyləyirdi, daha sonra hər kəs dağılışırdı. Afinalıların dəfn mərasimi belə idi və bütün müharibə boyu, hər dəfə məqamı çatanda, onlar bu qədim adətə riayət edirdilər. İndi, müharibədə ilk ölənlərin dəfnində nitq söyləmək üçün Ksantippin oğlu Perikl seçilmişdi. Çıxışın zamanı yetişəndə o, məzarın önündən bir qədər irəli çıxdı və toplaşanlar arasında mümkün qədər çox insanın eşidə bilməsi üçün yüksək kürsüyə çıxaraq belə söylədi:

“Əvvəllər burada çıxış etmiş natiqlərin çoxu ilk olaraq bu adəti köhnə qanunlara əlavə etmiş şəxsə tərif deyib, çünki müharibədə həlak olanların dəfni zamanı belə bir nitqin söylənməsi onlara ehtiramın əlaməti sayılır. Mənə isə elə gəlir ki, öz rəşadətlərini əməlləri ilə sübut etmiş şəxslərə şərəfli ehtiram elə əməl ilə göstərilsə, kifayət edər; necə ki, bu ictimai dəfn mərasimi buna nümunədir; və beləcə, bir çox insanın şücaətinin dəyəri bir nəfərin yaxşı, ya da pis nitq söyləməsindən asılı olmaz. Hətta sadə bir hadisə ilə bağlı, dinləyənləri doğru olana inandırmağın az qala mümkün olmadığı vəziyyətdə, bir nitqdə lazım olanları deyə bilmək heç də asan məsələ deyil. Çünki hadisənin şahidi olmuş və niyyəti saf olan bir dinləyici, natiqin sözlərinin öz hisslərindən və bildiyindən çox arxada qaldığını güman edəcək; hadisə yerində olmayan digəri isə öz gücü xaricində olan bir əməl haqqında deyilənləri paxıllığından şişirdilmiş hesab edəcək. Başqasına deyilən tərif yalnız bir məqama qədər dözülən olur: hər kəsin eynisini özünün də edə biləcəyini düşündüyü məqama qədər; bundan

---

[154] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. s.138

böyük olan şeylər isə paxıllıq və buna görə də inamsızlıq ilə qarşılanır. Lakin əcdadlarımız bu mərasimi düzgün hesab edibsə, mən də ənənəyə tabe olmalıyam və sizlərdən hər birinin gözləntilərinə mümkün qədər cavab verməyə çalışmalıyam.

Öncə icazə verin, əcdadlarımız barəsində danışaraq başlayım; belə bir əlamətdar gündə onları da ehtiramla yad etmək düzgün və yerində olardı. Çünki onlar öz şücaət və fəzilətləri sayəsində bu ölkəni kəsilməyən bir ardıcıllıqla nəsildən nəsilə ötürərək, bu saata kimi, onu özlərindən sonra gələnlərə azad bir ölkə olaraq miras qoyub. Onlar buna görə əlbəttə ki, tərifə layiqdirlər; lakin bizim atalarımız onlardan daha yüksək tərifə layiqdirlər. Çünki onlar aldıqları mirasa bizim bugünkü əzəmətimizi əlavə ediblər – təbii ki, bu da mübarizəsiz olmayıb – və bu gün yaşayan bizlər üçün qoyub gediblər"[155].

Heydər Əliyev əcdadlarımızın torpaqlarını qoruyub bizə əmanət etmələri ilə bağlı deyirdi: "Atalarımızın, babalarımızın, əcdadlarımızın qəhrəmanlıq nümunələri bu gün də, gələcəkdə də müstəqil Azərbaycanı qoruyub saxlamaqda, onun müstəqilliyini əbədi etməkdə bizim üçün örnək olmalıdır"[156].

Fukidid yazır: "Nəhayət, biz özümüz, hələ həyatda və yetkin yaşda olanlar və indi burada toplananlar, onların başladığı işi davam etdirmişik, şəhərimizi hər bir cəhətdən olduqca qüvvətləndirmişik ki, həm müharibə, həm də sülh vəziyyətində özü-özünə yetərli ola bilsin. Burada mən, bugünkü nailiyyətlərimizə görə borclu olduğumuz hərbi rəşadətlər haqqında sizin qarşınızda, özləri həmin döyüşləri görmüş kişilərin önündə uzun-uzadı danışmaq istəmirəm, nə də bizim özümüzün, yaxud atalarımızın, bizi təhdid edən barbarların və ya yunanların hücumlarını harada necə dəf etməsinə toxunmayacağam. Həlak olanlara tərif deməzdən öncə, mən istəyirəm ki, bizi bu qüdrətə gətirib çıxaran prinsiplərdən,

---

[155] Фукидид. История. Санкт-Петербург. 2018. с. 118
[156] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Altıncı kitab. s. 265

eləcə də bizim hakimiyyətimizi belə uca mövqelərə qaldıran ictimai quruluşumuzdan və həyat yolumuzdan söhbət açım. Çünki düşünürəm ki, bu deyəcəyim sözlər bugünkü mərasim üçün heç də daha az uyğun sayılmaz, buraya toplaşan vətəndaşlar və yadlar üçün bunları dinləməkdə fayda var.

Bizim ictimai quruluşumuz digərlərində olan təsisatları yamsılamır; əksinə, digərlərini yamsılamaqdan daha çox, biz özümüz onlar üçün nümunəyik. Bizim ictimai quruluşumuz demokratiya adlanır, çünki hakimiyyət azlığın əlində deyil, çoxluğun əlindədir. Şəxsi məsələlərdə hər kəs qanun qarşısında bərabərdir; siyasi həyata gəldikdə isə, hər kəs burada, mənsub olduğu hər hansı bir ictimai təbəqənin nümayəndəsi olduğu üçün deyil, sahib olduğu həqiqi qabiliyyətinə görə iştirak edir. Bir kimsə yoxsul ola bilər, amma vətənə bir fayda vermək iqtidarında olduğu təqdirdə, onun fəaliyyət imkanları əlverişsiz həyat şərtlərinə görə məhdudlaşdırıla bilməz. Siyasi həyatda azadlıqdan tam bəhrələndiyimiz kimi, gündəlik həyatımızda da işlərimizi, əməllərimizi bir-birimizi güdməklə məhdudlaşdırmırıq. Əgər qonşumuz sərbəst şəkildə öz ürəyindən keçəni edirsə, biz ona tənə ilə baxmırıq: doğrudur, bu cür tənə ona maddi ziyan gətirməz, amma əhvalını korlaya bilər. Beləliklə, şəxsi münasibətlərimizdə bir-birimizə dözümlü yanaşdığımız kimi, ictimai həyatımızda da ədəb-ərkandan irəli gələn bir çəkingənliklə hər cür qanun pozuntusundan qaçırıq; müvafiq hakimiyyətə və qanunlara, ələlxüsus da əzilənlərin müdafiəsinə yönəlmiş qanunlara və yazılmamış qanunlara könüllü olaraq tabe oluruq, çünki onları pozmaq icmanın nəzərində rüsvayçılıq sayılır.

Bundan başqa, biz gərgin zəhmətlərdən sonra ruhumuzun dincəlməsi üçün hər cür imkanlar yaratmışıq. Bütün il boyu çoxsaylı yarışlar və qurban mərasimlərini təşkil edirik; evlərimizdə isə hər gün gözümüzü oxşayıb tutqun fikirləri bizdən uzaq tutan əşyalar saxlamağı sevirik. Şəhərimizin böyüklüyündəndir ki, ürəyimiz istəyən az qala hər şey dünyanın hər yerindən bizim üçün

gətirilir və biz, eynən öz ölkəmizin məhsullarından olduğu kimi, başqa ölkələrin məhsullarından da doyunca faydalana bilirik.[157]

Heydər Əliyev Azərbaycanın müstəqilliyini qoruması, demokratik dövlət quruculuğunu uğurla həyata keçirilməsi ilə əlaqədar deyirdi: "Bu illərdə Azərbaycan xalqının böyük itkiləri olmuş, torpaqlarımızın müdafiəsində ölkəmizin suverenliyini, ərazi bütövlüyünün müdafiəsində insanlar qəhrəmancasına vuruşmuş, həlak olmuşlar. Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü yolunda canlarını qurban vermiş insanların xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır. Eyni zamanda, ötən bu dövrdə Azərbaycan xalqının çox böyük nailiyyətləri vardır. Ən böyük nailiyyətimiz ondan ibarətdir ki, müstəqilliyi qoruyub saxlamışıq və onu bu gün dönməz etmişik. Böyük nailiyyət ondan ibarətdir ki, keçən ilin noyabr ayında müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmişdir. Bu Konstitusiya respublikamızda hüquqi, demokratik, dünyəvi dövlətin bundan sonra da qurulması, inkişaf etdirilməsi üçün hüquqi əsaslar yaratmışdır. Keçən ilin noyabrında demokratik seçkilər, çoxpartiyalı sistem əsasında müstəqil Azərbaycan Respublikasının ilk parlamenti seçilmişdir. Azərbaycan iqtisadi islahatlar aparır, respublikamızda bazar iqtisadiyyatı inkişaf etdirilir. Ölkəmiz öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq, dünya iqtisadi məkanında olmaq üçün lazımi tədbirlər görür. Dünyanın böyük şirkətlərinin, xüsusən, dünyanın böyük neft şirkətlərinin Azərbaycana marağı gündən-günə artır. Xalqımızın bu günü, gələcəyi üçün əhəmiyyətli olan müqavilələr imzalanmışdır, iqtisadi əməkdaşlıq gündən-günə inkişaf edir"[158].

Xalqın əsrlər boyu həsrətində olduğu müstəqil Azərbaycan dövləti mövcudluğunu yüksək dəyərləndirən Heydər Əliyev Azərbaycanın istiqlaliyyətini, müstəqil Azərbaycanı, hüquqi, demok-

---

[157] Фукидид. История. Санкт-Петербург. 2018. с. 119-120
[158] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab. s. 416

ratik, dünyəvi Azərbaycan dövlətini və Azərbaycanda gedən müsbət prosesləri şəhidlərimizin xatirəsinə ən böyük abidə hesab edirdi: “Xalqımız üç ildən çoxdur ki, milli azadlığa çıxıb, Azərbaycan öz müstəqilliyini əldə edib, müstəqil bir dövlətdir. Müstəqillik, milli azadlıq yolu asan, hamar olmayıb, çox əzab-əziyyətli olub. Həmin yol bundan sonra da çətin olacaqdır. Ancaq itkilərimizlə bərabər, əldə etdiyimiz dövlət müstəqilliyi, suverenliyi, milli azadlıq bizi sevindirir, hamımızda qürur hissi yaradır və bu bayramı böyük nikbinliklə qeyd etməyə imkan verir. Xalqımız əsrlər boyu yaşamaq, yaratmaq üçün mübarizə aparıb, milli azadlıq uğrunda vuruşub, qurbanlar verib, öz torpağında milli ənənələri, tarixi kökləri əsasında, öz dini, mənəviyyatı əsasında müstəqil dövlət qurmaq arzusunda olub. İndi xalqımız bunlara nail olub. Dediyim kimi, bu yolda itkilər də olub, bu da təbiidir. Biz bundan sonra da şübhəsiz ki, çətin yolla gedəcəyik, böyük maneələrlə rastlaşacağıq. Ancaq ən əhəmiyyətlisi ondan ibarətdir ki, əsrlər boyu həsrətində olduğumuz müstəqil Azərbaycan dövləti mövcuddur”[159].

“Bizim şəhidlərimizin xatirəsinə ən böyük abidə Azərbaycanın istiqlaliyyətidir, müstəqil Azərbaycandır, hüquqi, demokratik, dünyəvi Azərbaycan dövlətidir və indi Azərbaycanda gedən müsbət proseslərdir. Bütün şəhidlərimiz, təkcə yanvar şəhidləri yox, vətən, torpaq uğrunda döyüşlərdə şəhid olan övladlarımız da rahat yatsınlar. Çünki artıq onların istəkləri, arzuları yerinə yetirilibdir – Azərbaycan öz dövlət müstəqilliyini əldə edibdir[160].

Fukidid daha sonra yazır: “Biz həm də müharibəyə münasibətimizdə rəqiblərimizdən fərqlənirik: şəhərimizi hər kəs üçün açıq etmişik, nə də düşmən üçün yararlı ola biləcək sirlərimizi öyrənmələrinin, yaxud görmələrinin qarşısını almaq üçün gəlmələri vaxtaşırı olaraq şəhərdən qovmuruq; çünki biz hərbi hazırlıq-

[159] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. s. 223
[160] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi dördüncü kitab. s. 226

lara və gizli tədbirlərə deyil, açıq döyüş meydanında cəsarətimizə arxalanırıq. Bizim rəqiblərimiz tərbiyə işlərində gənc yaşdan başlayaraq əziyyətli məşqlər vasitəsilə cəsarətə çatmağa çalışırlar; biz isə bunun əksinə, heç bir məşəqqətə qatlanmadan yaşayırıq, lakin eyni təhlükələrə onlarınkı qədər cəsarətlə atılırıq. Dediklərimin sübutu budur: spartalılar bizim ölkəmizə hücum edərkən heç vaxt tək gəlmirlər, bütün müttəfiqlərini də özləri ilə gətirirlər; biz isə, bunun əksinə, düşmənin ölkəsinə tamamilə tək, müttəfiqlərsiz gedirik, bizim üçün yad olan ölkədə, öz doğma evi və ocağı üçün vuruşan ordulara əziyyət çəkmədən qələbə çalırıq. Bizim toplam hərbi qüvvəmiz ilə hələ heç bir düşmənimiz qarşılaşmayıb, çünki biz həm dənizdən mühafizəmizin qayğısına qalırıq, həm də quruda vətəndaşlarımızı müxtəlif istiqamətlərdə hərbi səfərlərə göndərməli oluruq. Onlar bizim qüvvəmizin bir hissəsi ilə toqquşanda və qalib gələndə, elə öyünürlər ki, sanki bütün ordumuzu məğlub ediblər; əksinə, onlar məğlub olanda, elə iddia edirlər ki, guya bütün ordumuza məğlub olublar. Biz, əziyyətli məşqlərin nəticəsi olaraq deyil, ürək rahatlığı ilə, qanunların tələbi ilə deyil, xarakterimizin gücünə arxalanaraq təhlükələrə atılmağa hazırıqsa, deməli burada bizim müəyyən üstünlüyümüz də vardır: biz, gələcəkdə qarşımıza çıxacaq çətinliklərə sinə gərmək üçün özümüzə indidən əziyyət verməli deyilik; onsuz da belə çətinliklərə rast gələndə, vaxtını ən sərt məşqlərdə keçirənlərlə eyni səviyyədə cəsarət sərgiləyirik. Lakin bizim şəhərimiz tək buna görə yox, həm də başqa səbəblərdən heyrətə layiqdir[161].

Heydər Əliyev şəhidlərin nümunəsində gələcəyə ümidlə baxır, hesab edirdi ki, onların açdığı yol Azərbaycanı qələbəyə aparacaqdır: “Bu günümüzün və gələcəyimizin də zəmini buradakı qəbirlərdə əbədiyyətə qovuşmuş övladlarımızın qəhrəmanlıq nümunələridir. Onların qəhrəmanlığı, rəşadəti, vətən, xalq, torpaq yolunda özlərini şəhid etməsi bugünkü nəsil və gələcəkdə

[161] Фукидид. История. Санкт-Петербург. 2018. с. 121

yaşayacaq hər bir azərbaycanlı üçün örnək olmalıdır. Bugünkü gənclərimiz bu tarixdən dərs almalı, nəticə çıxarmalı, tarix boyu göstərilmiş qəhrəmanlıq nümunələrini özlərinə örnək etməli, onlara bənzəməyə çalışmalıdırlar. Onlar kimi bu gün də, sabah da, hər bir azərbaycanlı övladı, gənci vətən, torpaq yolunda, müstəqil Azərbaycan Respublikasının gələcəyi naminə şəhidliyə, özünü qurban verməyə hazır olmalıdır. Əgər xalqımız qəhrəmanlıq nümunələrini özündə toplayıb, cəmləyib daha da yüksəklərə qaldıra bilməsə, biz torpaqlarımızı azad edə, müstəqil dövlətimizi, respublikamızı qoruya bilmərik. Ancaq tarix boyu Azərbaycan övladlarının vətənə, öz millətinə, dövlətinə, xalqına sədaqət nümunələri, qəhrəmanlıqları və şəhidlik nümunələri onu göstərir ki, xalqımız bu gün də, gələcəkdə də öz torpaqlarını, vətənini qorumağa hazırdır, vətən, torpaq, müstəqillik naminə şəhid olmağa hazırdır".[162]

Azərbaycan xalqının böyük qəhrəmanlıq salnaməsi, əzmkarlıq və müdrikliklə zəngin ulu tarixi Heydər Əliyevdə Azərbaycan xalqının özünün düşmən üzərində qələbə qazanacağına inama möhkəm zəmin yaradırdı. Bunu üçün daxili imkanları möhkəmləndirmək, sıx birləşmək, xalqda vətənpərvərlik hissini yüksəltmək lazım idi: "Öz torpaqlarımızı biz özümüz qorumalıyıq. Heç kəs gəlib torpaqlarımızı bizim əvəzimizə qorumayacaq, bizim əvəzimizə şəhid olmayacaq. Hər kəs öz evini, öz obasını qorumalıdır. Sizin qəhrəmanlıq nümunələriniz heç vaxt unudulmayacaq. Siz də gənclərimizin vətənpərvərlik tərbiyəsi, onların döyüş ruhunun qaldırılması, vətənə sədaqət, xalqa xidmət ruhunun yüksəldilməsi üçün fəal çalışmalısınız"[163].

"Azərbaycan müstəqilliyini təmin etmək üçün gərək öz daxili imkanlarını möhkəmləndirsin. Gərək Azərbaycan xalqı daha da sıx birləşsin, Azərbaycan xalqının vətənpərvərlik hissi yüksəlsin. Vətənini müdafiə etmək, Vətən yolunda şəhid olmaq, Vətən

[162] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. s. 223
[163] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi dördüncü kitab. s. 226

naminə özünü fəda etmək duyğuları, hissləri indi bütün Azərbaycanda hökm sürməlidir"[164].

Fukidid davam edərək yazır: "Biz gözəlliyi sadəlikdə axtarırıq, müdrikliyə olan meylimiz bizi heç də yüngülməcaz etmir; biz var-dövlətimizlə qürrələnmirik, onu həyat və fəaliyyətimiz üçün düzgün qaydada sərf edirik; yoxsulluğunu etiraf etmək bir kimsə üçün rüsvayçılıq sayılmır, əksinə, rüsvayçılıq – yoxsulluqdan qurtulmaq üçün heç bir iş görməməkdir. Bizim dövlət adamlarımız ictimai maraqların müdafiəsində mahir olduqları kimi öz şəxsi maraqlarını da gözləməkdə mahirdirlər; daha çox öz şəxsi işləri ilə məşğul olanlar da dövlətin işləri haqqında ətraflı məlumata sahibdirlər. Çünki yalnız biz, siyasət və dövlət işlərində iştirak etməyənləri qayğısız vətəndaş yox, yararsız vətəndaş hesab edirik. Biz hadisələr barəsində mövqeyimizi ya özümüz formalaşdırırıq, ya da digərlərinin fikirlərini götür-qoy etdikdən sonra qəbul edirik, çünki müzakirələrdə fəaliyyət üçün bir maneə görümük; əksinə, vacib bir əməli həyata keçirməzdən öncə onu kifayət qədər müzakirə edib düzgün nəticə çıxarmamaqdan daha çox zərər gəlir. Biz digərlərindən bir də ona görə irəlidəyik ki, cürətli olmağımızla yanaşı, hər işimizi öncədən ölçüb-biçirik. Digərlərinin cəsarəti onlarda düşünmək çatışmazlığından qaynaqlanır, düşünmək isə tərəddüdə səbəb olur. Ancaq o kəslər əsl cürətkar sayıla bilər ki, həm əzab, həm də həzzin nə olduğunu ən yaxşı onlar bilirlər, bununla belə təhlükədən də qorxub geri çəkilmirlər. İnsan münasibətlərində həmçinin, biz əksəriyyətdən fərqlənirik. Biz, başqalarından yaxşılıq gözləməklə deyil, başqalarına yaxşılıq etməklə dost qazanırıq. Yaxşılıq edən şəxs isə daha etibarlı dostdur, çünki yaxşılıq etdiyi insanın minnətdarlığının sönməsinə imkan verməmək üçün yeni yaxşılıqlar etməyə hazır olur. Bunun əksinə, yaxşılıqdan faydalanan şəxs daha az etibarlıdır: o, minnətdarlıq duyğusundan deyil, sanki borcun altından çıxırmış kimi dostluq sərgiləyir. Bundan

[164] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. s. 12

əlavə, yalnız biz, sadəcə azad insanlara xas etibarla, çəkinmədən və öz xeyrimizi güdmədən, başqalarına öz dəstəyimizi əsirgəmirik.

Qısaca desəm, bizim şəhərimiz bütün Yunanıstan üçün bir məktəbdir. Digər tərəfdən, bizdə, mənim fikrimcə, hər bir ayrıca şəxs çoxsaylı fəaliyyət növlərində özünü sınamaqla, öz işini ustaca və çevik görməklə, öz şəxsiyyətinin əsl sahibinin məhz özü olduğunu nümayiş etdirir. Bütün bunların, sözgəlişi deyilmiş bəzəkli ifadələr yox, gerçəklik olduğunu şəhərimizin əzəməti sübut edir; bu əzəmət, sadaladığım keyfiyyətlər sayəsində əldə edilib. Bütün indiki şəhərlər arasında yalnız bizim şəhər öz adsanından da böyük sınaqla qarşılaşır; yalnız bizim şəhər imkan yaradır ki, nə ona hücum edib, amma məğlub olan düşmən zəif olduğu üçün utansın, nə də məğlub edilmiş rəqib özündən dəyərsiz biri tərəfindən idarə edildiyini düşünsün. Biz bu əzəmətimizi yetəri qədər sübuta yetirmişik, onu yer üzündə nişanəsiz buraxmamışıq, buna görə də müasirlərimiz kimi, gələcək nəsillər də bizə valeh olacaqlar. Şənimizə qəhrəmanlıq şərqilər oxuması üçün bizim bir Homerə, ya da digərinə ehtiyacımız yoxdur; bu gözəl sözlər bizi bir anlıq məst edə bilər, lakin onların təxəyyül gücü gerçəkliyin qarşısında puç olub gedir; çünki biz öz cəsarətimizlə bütün dənizlərdə və quruda hər yerdə özümüzə yol açmışıq, ayaq basdığımız yerlərdə geriyə buraxdığımız abidələr bizim orada olmağımıza, dostlara etdiyimiz yaxşılıqlara və düşmənlərə etdiyimiz pisliklərə əbədi şahidlik edəcək. Burada dəfn etdiyimiz kişilər məhz belə bir şəhər üçün, onu əldən vermək istəmədikləri üçün şərəflə döyüşüb həlak olub; sağ qalanlar arasında isə elə birimiz yoxdur ki, onun uğrunda hər cür əzab-əziyyətə qatlanmaqdan çəkinsin”[165].

Heydər Əliyev müstəqil Azərbaycan yolunda itkilərin, qurbanların olmasını etiraf edir, lakin bu qurbanların, itkilərin Azərbaycanın bugünkü müstəqil, qüdrətli bir dövlət olması üçün verildiyi

[165] Фукидид. История. Санкт-Петербург. 2018. с. 121-123

üçün əbəs olmadığı bildirirdi: "Böyük itkilər vermişik. Azərbaycanın torpaqlarının müdafiə edilməsində, ərazi bütövlüyünün qorunmasında xalqımız böyük qurbanlar, şəhidlər veribdir. Azərbaycanın suverenliyinin və milli azadlığının qorunması yolunda xalqımız qurbanlar, şəhidlər veribdir. Azərbaycanın dövlətçiliyini qoruyub saxlamaq yolunda xalqımız qəhrəmanlıq nümunələri göstəribdir, müdriklik göstəribdir, dövlətimizə, dövlətçiliyimizə böyük sədaqət nümayiş etdiribdir. Amma eyni zamanda bizim bu yolda da qurbanlarımız, itkilərimiz olubdur. Bir şey bizdə böyük iftixar hissi doğurur ki, bütün bunların qarşısını almışıq, bu qurbanlar, itkilər Azərbaycanın bugünkü müstəqil, qüdrətli bir dövlət olması üçün verilibdir. Bu qurban-ların, bu itkilərin xatirəsi qəlbimizdə daim yaşayacaq və onların müstəqillik yolunda şəhid olması xalqımızı bundan sonra müstə-qillik uğrunda mübarizəyə daha da səfərbər edəcəkdir"[166].

Fukidid yazır: "Mən şəhərimiz haqqında buna görə ətraflı danışıram, çünki sizə əyani şəkildə göstərmək istəyirəm: bizim uğrunda vuruşduğumuz şeylər digərlərinin uğrunda vuruşduqları ilə eyni deyildir, onların sahib olduqları bizim sahib olduğumuz üstünlüklərlə müqayisəyə gəlməz. Həmçinin mən, həlak olanlar üçün söylədiyim tərifimi sübutlarla qüvvətləndirmək istəyirəm. Əslində, vacib olan hər şey artıq deyilmişdir. Mənim tərifini söylədiyim və bu şəhəri şərəfləndirən əməllərə görə burada dəfn etdiyimiz yaxşıların və onlar kimi digərlərinin şücaətinə borcluyuq; hətta digər ellinlər arasında tərif və əməllərin bu cür üst-üstə düşməsinə çox da rast gəlməzsiniz. Mən düşünürəm ki, burada dəfn olunan kişilərin dəyərinin ilk göstəricisi, həm də yekun dəlili onların ölümlərinin özüdür. Əlbəttə, onların bəziləri şəxsi qüsurlardan xali deyildi, amma unutmayaq ki, onlar müharibədə, vətən uğrunda sərgilədikləri şücaətləri sayəsində, öz pis cəhətlərini yaxşı əməlləri ilə yaddaşlardan silib; onların vətən uğrunda bir yerdə

[166] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. s. 191

göstərdikləri xidmət ayrı-ayrılıqda verdikləri zərərdən daha üstündür. Onların heç biri öz var-dövlətindən daha çox həzz ala bilmək üçün təhlükə qarşısında tərəddüdə düşməyib; onlardan heç biri yoxsulluqdan qurtulub varlanacağı ümidi ilə ölümüləngitməyə çalışmayıb; çünki düşməndən qisas almaq onlar üçün bütün bunlardan daha cəlbedici olub, təhlükəyə atlamaq əməllərin ən gözəli sayılıb. Buna görə də onlar digər nemətlərdən imtina edərək təhlükəni və düşməndən qisas almağı seçib; onlar uğurun taleyini ümidə etibar edib, döyüş meydanında özlərinə güvənib, geri çəkilmək və xilas olmaq yerinə müqavimət göstərməyi və əzaba qatlaşmağı üstün tutub; onlar yalnız insanların tənəsindən qaçıb, ölümün qarşısına öz varlıqları ilə çıxıb və həyatlarının ən yüksək məqamında, qorxu hissi ilə deyil, şərəf hissi ilə öz canlarından keçib”[167].

Heydər Əliyev Xocalı hadisələri ilə bağlı şəhidlərin həyatdan getməsinin qəm, kədər gətirməsi ilə yanaşı, xalqın iftixar mənbəyi olmasını, xalqın yenilməzlik qürurunun göstəricisi olmasını bəyan edirdi: “Azərbaycan xalqının çoxəsrlik tarixində onun başına çox bəlalar gəlib, xalqımız faciələrlə rastlaşıb. Ancaq deyə bilərəm ki, bu qədər dəhşətli faciə görünməmişdi. Xalqımızın milli mənliyinə, mənəviyyatımıza, milli azadlığımıza təcavüz edilibdir. O gecə Azərbaycanın günahsız övladları həlak oldular, müstəqilliyimiz yolunda, milli azadlıq yolunda şəhid oldular. Çoxları yaralandı, xəsarət aldı. O hərbi təcavüz nəticəsində bəziləri indiyə qədər də əlildirlər. Şəhidlərin ailələrindən qəm-qüssə, kədər çəkilməyibdir. Yaralılar o yaranı hər gün duyaraq həmin o faciəli gecəni unuda bilmirlər. Ümumən xalqımız isə özünün milli mənliyinə, milli azadlıq ruhuna edilən bu təcavüzü heç vaxt unutmayacaqdır. Bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtdı, əzdi. Ancaq onun mənliyini tapdalaya bilmədi. Bizim qürurumuzu sındıra bilmədi. İtkilər verdik, ona görə də bu gün matəm günü keçiririk. Ancaq

---

[167] Фукидид. История. Санкт-Петербург. 2018. С. 123-124

eyni zamanda o gün və ondan sonrakı günlər Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə yeni böyük bir səhifə yazdı. Biz o günü matəm günü kimi, qəm-qüssə, kədər ilə xatırlayırıq. Ancaq eyni zamanda biz bu hadisələri böyük qürur hissi, iftixar hissi ilə xatırlayırıq. Çünki Azərbaycan xalqı bir daha dünyaya nümayiş etdirdi ki, o yenilməzdir, qəhrəmandır, ona nə qədər güclü təcavüz, təzyiq olsa da, onun iradəsini sındırmaq mümkün deyil… Bu gün şəhidləri yad edərək bir daha bəyan edirik ki, xalqımız yenilməzdir və heç vaxt başını aşağı salmayacaqdır. Biz əldə etdiyimiz milli azadlığımızı qoruyacağıq, saxlayacağıq və onu əbədi edəcəyik. Dövlət müstəqilliyimizi qoruyub inkişaf etdirəcəyik və o, əbədi olacaqdır. Şəhidlərin xatirəsi qəlbimizdə əbədi yaşayacaq, milli azadlığımız əbədidir, dövlət müstəqilliyimiz əbədidir. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz, heç bir qüvvə bu iradəmizi sındıra bilməz. Ona görə də bu gün matəm günü olsa da, eyni zamanda bu gün bizim dövlət müstəqilliyimizin, xalqımızın qəhrəmanlığının xatirə günüdür”[168].

Fukidid yazır: “Beləliklə, burada dəfn etdiyimiz kişilər şəhərimizə layiq olduqlarını nümayiş etdirib; qalanlar isə daha yaxşı aqibət üçün dua etməlidirlər, amma düşmənə qarşı ən azı eyni cəsarətlə davranmağı da arzu etməlidirlər. Düşmənə müqavimət göstərməyin faydalarını sizə kiminsə sözdə izah etməsinə ehtiyacınız yoxdur, onları özünüz də çox yaxşı bilirsiniz. Bunun əvəzinə, yaxşı olardı ki, siz şəhərimizin gerçək əzəmətini hər gün seyrə dalasınız və qəlbinizi ona qarşı sevgiyə açasınız. Onda, şəhərimizin əzəməti qarşısında anlayacaqsınız ki, bütün bunları, ürəkləri cəsarətlə dolu olanlar öz əməllərindən şərəf hissi duyaraq əldə edib; onlar bəzən düçar olduqları uğursuzluğa görə cəsarətlərini vətəndən əsirgəməyi ədalətsizlik hesab edib, ona verə biləcəkləri ən gözəl qurbanları verib. Onlar şəhərimiz uğrunda və bizim uğrumuzda öz canlarından keçib, bunun qarşılığında zamandan uca

---

[168] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. s. 291-292

tərif və uzaqlara işıq saçan sərdabə əldə edib. Mən onların içində yatdıqları məzarı nəzərdə tutmuram, onların şöhrətini əbədi yaşadacaq, məqamı yetişəndə isə başqalarını ruhlandıracaq sözləri və əməlləri nəzərdə tuturam. Çünki böyük kişilər üçün bütün dünya bir abidədir. Onlardan xəbər verən təkcə vətənlərində məzar daşları üzərində kiçik yazılar deyil, onların yazılmamış xatirəsi yad ellərdə də hər kəsin qəlbində yaşayır. Onlardan nümunə götürün, siz də xoşbəxtliyi azadlıqda, azadlığı isə cəsarətdə axtarın, müharibə təhlükəsindən çox da səksəkəyə düşməyin. Çünki həyatından keçməyə səbəbi olanlar heç də daha yaxşı bir şeyə ümidi olmayan səfillər deyil, yalnız məğlub olması ilə həyatında əks tərəfə dönüş təhlükəsi yaranan şəxslərdir. Qürurlu bir şəxs üçün qorxaqlığın gətirdiyi rüsvayçılıq, onun gücünü və ümidlərini yarıda qoyan qəfil ölümdən daha ağrılıdır"[169].

Şəhidlər qazandıqları zirvəyə əbəs yerə deyil, məqsədyönlü yüksəlmişlər. Onların amalı xalqın müstəqilliyi, azadlığı, torpaqlarımızın bütövlüyü idi. Bu yolda ölümlə üzbəüz dayanmağı onlar dərk edərək qəbul etmişdilər. Şəhidlik qabaqcadan dərk olunduğuna görə müqəddəsdir: "Şəhidlər öz qəhrəmanlıqları, şəhidlikləri ilə xalqımızın mənəviyyatını yüksəklərə qaldırmışlar. Bizim insanlar buraya gələrkən, biz də hər dəfə bu məzarları, bu qəbirləri ziyarət edərkən onlara Allahdan rəhmət diləyirik. Amma eyni zamanda onların hər birinin qarşısında şəxsən mən baş əyirəm. Çünki onlar öz şəhidliyi ilə bizim xalqımızı yüksəltdilər. Bəli, onlar bizim müstəqilliyimizə yol açdılar. Onlar sübut etdilər ki, xalqımızı müstəqillik yolundan çəkindirmək olmaz və biz bu müstəqilliyi də əldə etdik. Biz bu müstəqil dövlətdə yaşayırıq, yaşayacağıq və o şəhidlərin bugünkü müstəqilliyimizin əldə edilməsində xüsusi xidmətləri vardır. Onlar bizim bu müstəqilliyimizin təməlini qoyan insanlardır. Onlar əmin ola bilərlər ki, onların tökülən qanları heç vaxt unudulmayacaq, onların qəhrə-

[169] Фукидид. История. Санкт-Петербург. 2018. с. 124-125

manlığı heç vaxt unudulmayacaqdır. Onların şəhidliyi Azərbaycan xalqını daha da mətinləşdirib, Azərbaycan xalqının daim müstəqil yolla getməyinə kömək edir və kömək edəcəkdir.

Hörmətli bacılar, qardaşlar! Hörmətli analar! Mən sizə hörmət və ehtiramımı bildirirəm. Bilin ki, siz xalqımız üçün, şəxsən mənim üçün çox əziz insanlarsınız. Siz belə qəhrəman övladlar yetişdirmisiniz, sizin ailənizdə belə qəhrəman insanlar olubdur. Siz bununla fəxr edə bilərsiniz. Bütün bunlar da sizə təskinlik verməlidir, sizə təsəlli verməlidir. Allah sizə səbr versin. Allah xalqımıza səbr versin. Amma bilin ki, bizim bu yolumuz uğurlu yoldur. Bu yolda itkilərimiz olub, şəhidlərimiz olub. Bəlkə bundan sonra da ola bilər. Ancaq biz bu yolla gedirik, gedəcəyik və o şəhidlər də, onların qəhrəmanlıq nümunələri də böyük bir məşəl kimi bizim bu yolumuzu işıqlandırır və işıqlandıracaqdır. Allah bütün şəhidlərimizə rəhmət eləsin!”[170]

Fukidid davam edərək yazır: “Buna görə də mən, həlak olanların burada toplaşan valideynlərinə qoşulub yas saxlamaq istəmirəm, daha çox onlara təsəlli vermək istəyirəm. Onlar yaxşı bilirlər ki, tale necə dəyişkəndir; bəxtinə xoşbəxt yaşadığı kimi xoşbəxt də ölmək düşənlər, nəsibi şərəfli ölüm olanlar – burdakılar kimi, nəsibi şərəfli hüzn olanlar – sizlər kimi, necə də bəxtəvərdir! Mən anlayıram ki, sizi buna inandırmaq asan deyil. Siz tez-tez başqalarını xoşbəxt görəndə bir vaxtlar sizi də xoşbəxt edən övladlarınızı xatırlayacaqsınız. Biz, sahib olmadığımız nemətləri itirəndə yox, sevməyə alışdığımız nemətləri itirəndə ağrı duyuruq. İndi, dünyaya hələ uşaq gətirmək yaşında olanlar yeni oğul ümidi ilə gərək toxtasınlar, çünki evinizdə yeni doğulan oğullarınız itirdiyiniz oğulların acısını sizə unutduracaq. Bu həm də şəhərimiz üçün ikiqat faydalıdır: həm əhalisi azalmayacaq, həm də təhlükəsizliyi zəifləməyəcək; çünki uşaqlarını itirmək təhlükəsi yaşamayan vətəndaşlar şəhərimizin işlərinin müzakirəsində öz layiqli töhfəsini

[170] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On dördüncü kitab. s. 145

verə bilməz. Sizlərdən, yenidən dünyaya uşaq gətirmək üçün həddən çox yaşlı olanlar isə, həyatınızın xoşbəxt olduğunuz əvvəlki daha böyük qismini qazancınız olaraq düşünün; bilin ki, bundan sonrakı qismi qısa çəkəcək və oğullarınızın şöhrətinə söykənib qəddinizi düzəldin; çünki yaşlanmayan tək şey yalnız ləyaqət hissidir, çoxlarından eşitdiyimiz kimi, həyatın son illərində sevinc gətirən nemət heç də pul qazanmaq yox, məhz şərəf hissidir”[171].

Dünyaya gələn hər bir insan bu dünyanı tərk edəcəyi Allahtaalanın hökmüdür. Bu dünya heç kim üçün əbədi deyildir. Ancaq öz əməlləri ilə, xalqa, millətə sədaqəti ilə, xalqın milli istiqlaliyyət ruhunu yüksəklərə qaldırmaları ilə dünyalarını dəyişənlər ən müqəddəs insan kimi cismən bu dünyadan köçsələr də, ruhən xalqın qəlbində yaşayırlar. Bu fikirləri ifadə edərək Heydər Əliyev deyirdi: “Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün, sizlər üçün, ailə üzvləri üçün böyük itkidir, faciədir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların şəhid olması zamanı tökülən qan bütün xalqımızın qanıdır. O qanın hər damcısında bizim xalqımızın qüdrəti var, xalqımızın qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır... tökülən qanlar müqəddəs qanlardır. Onlar bizim xalqımızın əsrlər boyu milli azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır, ...tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır.

Biz itkilərə görə, tələfata görə məyus oluruq, kədərlənirik və daim kədərlənəcəyik. Biz sizinlə birlikdəyik. Bu, tək sizin kədəriniz, sizin qəminiz-qüssəniz deyil, bütün Azərbaycan xalqının qəmi-qüssəsidir. Ancaq onlar öz şəhidliyi ilə, canlarından tökülən qan ilə özlərini də əbədiləşdirmişlər. Onlar xalqımızın müstəqillik,

---

[171] Фукидид. История. Санкт-Петербург. 2018. с. 125

milli azadlıq arzularını və bu yolda şəhid olmağa hazır olduğunu bütün dünyaya nümayiş etdirmiş və bununla da qəhrəmanlıq nümunələri göstərmişlər”[172].

Heydər Əliyev Vətən, torpaq uğrunda qurban getməyi şəhidin özü üçün də, onun ailə üzvləri üçün də ucalıq, zirvə hesab edir, şəhidliyi ən böyük sərvət kimi dəyərləndirirdi. 28 may 1995-ci il tarixdə Heydər Əliyev Azərbaycan torpaqlarının müdafiəsi uğrunda şəhid olmuş Əfqan Hüseynovun büstünün açılması mərasimində Azərbaycanını Milli Qəhrəmanının ailə üzvlərinə müraciət edərək deyirdi: “Əfqan Hüseynov başqalarına nisbətən xeyli ucalıb. Siz də mənəviyyatca ucalmısınız. Bu, böyük sərvətdir. Bu, bütün dünyada olan sərvətlərin hamısından böyük sərvətdir. Hamımız bilməliyik ki, məhz bu cür sərvətlərə malik olan adamlar daim cəmiyyətimizin hörmət və ehtiramını qazanacaqlar. Bizim cəmiyyətdə məhz bu cür sərvətə malik olanlar ən zəngin adamlardır”[173].

Fukidid yazır: “Sizlər üçün isə, qəhrəmanlarımızın oğulları və qardaşları, qarşıda çətin mübarizə görürəm. Həyatda olmayanları hər kəs tərifləyir, siz ən böyük şücaətləri göstərsəniz də onlara bərabər tutulmayacaqsınız, onlardan həmişə bir qədər geridə qalacaqsınız. Çünki rəqiblər həyatda olanda qısqanclıqla qarşılaşırlar, bizi tərk edənlər isə qeyd-şərtsiz ehtiramla anılırlar. Bundan sonra dul kimi yaşamalı olacaq qadınların fədakarlığına da toxunmalı olsam, qısa bir xitabla hər şeyi demiş olaram: yaxşı olar ki, təbiətən sizə xas olan zəifliyinizdən daha aşağıya düşməyəsiniz, həmçinin kişilər arasında, haqqınızda nə yaxşı, nə də pis danışılmasın”[174].

Şəhidlərin cismən dünyadan köçəndən sonra yaşamaları bir də onda ifadəsini tapır ki, gələcək nəsillər onlardan nümunə götürür,

---

[172] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On dördüncü kitab. s. 143
[173] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. s. 469-470
[174] Фукидид. История. Санкт-Петербург. 2018. с. 125-126

müstəqillik, azadlıq, Vətən uğrunda mübarizəyə mənəvi ruh yüksəkliyi ilə qatılırlar. Bununla bağlı Heydər Əliyev deyirdi: "Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi, suverenliyi uğrunda şəhid olmuş övladlarımızı... böyük minnətdarlıq hissi ilə xatırlayırıq. Onların qəhrəmanlıq nümunələri bizim qəlbimizdə əbədi yaşayacaqdır və ordumuzun bugünkü əsgərləri, gələcəkdə döyüşçülər üçün nümunə, örnək olacaqdır. Onlar öz qəhrəmanlıqları ilə özlərini əbədiləşdiriblər. Ordumuz məhz həmin qəhrəmanlıq nümunələri əsasında formalaşır, qurulur, böyüyür, artıq bu gün Azərbaycanın dövlət müstəqilliyini, ölkəmizin hüdudlarını, ərazisini qoruya bilən qüdrətli bir orduya çevrilibdir"[175].

"Biz bu dərdi, bu qəmi daim qəlbimizdə saxlayacağıq. Ancaq eyni zamanda bu şəhidlərin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnək olub. Bundan sonra da örnək olacaqdır. Mən tam əminəm ki, Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, respublikamızın müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərik nümunələri göstərəcəklər. Ona görə də bu şəhidlərin həlak olması bizim üçün nə qədər qəm-qüssə doğurursa, nə qədər ağır itkidirsə, o qədər də xalqımız üçün, qəhrəmanlıq nümunəsi kimi, örnək kimi bizim milli sərvətimizdir, milli iftixarımızdır. Biz bu gün buraya həm qəm hissi ilə, həm də böyük iftixar hissi ilə gəlmişik. Biz fəxr edirik ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı öz milli mənliyini, öz milli azadlığını qorumaq üçün həlak olmağa, şəhid olmağa hazırdır. Biz fəxr edirik ki, bizim qəhrəmanlarımız var, biz fəxr edirik ki, bu azadlıq yolunda özünü qurban etmiş şəhidlərimiz var, onların qəhrəmanlığı, onların ruhu bizim qəlbimizdə daim yaşayacaq. Onlar əbədiyyətə qovuşublar. Onların xatirəsi bizim üçün əbədidir. Ona görə də mən sizə

[175] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Altıncı kitab. s. 377

başsağlığı verərək, eyni zamanda sizi təbrik edirəm ki, Azərbaycan xalqı bundan sonra özünü qorumağa qadirdir. Azərbaycan xalqı öz mənliyini müdafiə etməyə qadirdir”[176].

Mahatma Qandi şəhidliyin mənəvi dəyəri ilə bağlı yazırdı: “Mən fərəhlə satyaqraxinin işi üçün minlərlə insanın könüllü ölməsinə baxıram, ona görə yox ki, həyatı dəyərləndirmirəm, ona görə ki, sonda satyaqraxa böyük sayda həyatın xilasına nail olacaq və bundan başqa ona görə könüllü ölümü qəbul edənləri yüksəldəcək və onun qurbanlarının gözəlliyini dərk edən dünyanı mənəvi cəhətdən zənginləşdirəcək[177].

“Bizim borcumuz şəhidlərin ruhuna sadiq olmaqdır. Bizim borcumuz əcdadlarımızın vəsiyyətinə sadiq olmaqdır. Borcumuz bütün şəhidlərin ailələrinə qayğı göstərməkdir, yaralılara qayğıları artırmaqdır” – deyən Heydər Əliyev həm bu qayğının göstərilməsini reallıqda təmin edir, həm də şəhidlərin işinin davam etdirilərək müstəqilliyi, azadlığı, torpaqları qorumağı hamının borcu, vəzifəsi hesab edirdi: “Şübhəsiz ki, görülən işlər görüləcək işlərin bir hissəsidir. Mən bu gün bir daha bütün dövlət orqanlarına, təşkilatlara, xeyirxah insanlara müraciət edirəm. Şəhidlərin ailələrinə qayğı, diqqət, 20 Yanvar hadisələrində xəsarət alanlara, müharibə əlillərinə qayğı, diqqət bizim borcumuzdur və borcumuzu yerinə yetirməliyik. Hər bir kəs bu borcunu yerinə yetirməyə çalışmalıdır və heç vaxt bunu unutmamalıdır. Bu gün bu matəm axşamı biz qəm-qüssə içindəyik, amma bir də qeyd edirəm, həm də iftixar hissi, qürur hissi keçiririk. O günlərdən altı il keçir. Respublikamız, xalqımız altı il müddətində böyük sınaqlardan keçdi məharətlə keçdi. İtkilərimiz də, çətinliklərimiz də, ağır günlərimiz də oldu. Ancaq xalqımızın birliyini təmin edə bildik. Xalqımızın əsas hissəsini bir yerə yığa bildik. Artıq respublikamızda sabitlik yaranıbdır. Görüləsi işlər çoxdur. İqtisadiyyatda çətinlik var. Xalqımızın

---

[176] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. s. 140
[177] Dhirenda Mohan Datta. Mahatma Qandi fəlsəfəsi. Bakı 2017. s. 70

rifah halında çox ağır problemlər var. Bunların hamısı qarşımızda duran vəzifələrdir. Biz bunları dərk edirik, bunlarla məşğul oluruq və bundan sonra da məşğul olacağıq. Ancaq bunlar hamısı keçib gedəsidir. Qalan isə xalqımızın qəhrəmanlığı, mərdliyi, igidliyidir, iradəsidir, yenilməzliyidir. Xalqımız heç vaxt sınmayacaqdır. Əmin olun ki, respublikanın prezidenti kimi, bu gün bir daha bəyan edirəm, xalqımızın milli azadlığını qoruyub saxlamaq, dövlət müstəqilliyini qorumaq və inkişaf etdirmək mənim müqəddəs vəzifəmdir"[178].

Fukidid yazır: "Adətin tələbinə uyğun olaraq, uyğun bildiyim hər şeyi bu nitqimdə söylədim. Ölənlərin şərəfinə edilməli olanların bir hissəsi artıq edilib; digər hissəsinə gəldikdə isə, dövlət onların övladlarını yetkinlik yaşına çatana qədər öz himayəsinə alacaq. Bu da həm ölənlərin, həm sağ qalanların mübarizəsinə görə şəhərimiz onları təltif etdiyi şərəf çələngidir. İndi isə, əzizləriniz üçün doyunca ağlayın və sonra evinizə qayıdın!"[179]

Heydər Əliyev 20 mart 1996-cı il tarixdə şəhid uşaqları və kimsəsiz uşaqlar üçün təşkil olunmuş novruz şənliyindəki çıxışında deyirdi: "Sizin çoxunuz atanızı, ananızı itirmisiniz, çoxlarınızın atası Vətənimizi, torpağımızı, müstəqil Azərbaycanı müdafiə edərkən şəhid olub, canını qurban verib, qəhrəmanlıq nümunələri göstərib, həyatı qəhrəman kimi tərk edibdir. Ancaq onlar sizin də, bizim də, bütün Azərbaycan xalqının qəlbində qəhrəman kimi yaşayırlar. Onlar həyatdan getməyiblər, bizimlədirlər, qəlbimizdədirlər. Onlar bu gün bu salondadırlar, sizin şən, xoşbəxt gününüzü görüb daha da sevinirlər. Ona görə də siz özünüzü heç də valideynsiz hesab etməyin. Sizin valideynləriniz var. Müstəqil Azərbaycan dövləti sizin valideyninizdir. Sizin valideyniniz Azərbaycan torpağıdır, Vətənimizdir, müstəqil Azərbaycan dövləti və onun prezidentidir. Siz buna arxayın ola bilərsiniz".[180]

---

[176] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. s. 298
[179] Фукидид. История. Санкт-Петербург. 2018. с. 126
[180] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Altıncı kitab. s. 6-7

Heydər Əliyevin səhidlərlə, müharibə əlilləri ilə bağlı İşıq yolunun həqiqəti kimi müəyyən etdikləri İlham Əliyevin həyata keçirdiyi siyasətin əsasını təşkil edir. Bu sahədə həyata keçirilən layihələr, görülən işlərin əlavə şərhə heç bir ehtiyacı yoxdur.

8 noyabr 2024-cü ildə Bakıda Zəfər parkının açılışındakı nitqində İlham Əliyev deyirdi: "Biz şəhidlərimizin qisasını, qanını döyüş meydanında aldıq. 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir, parlaq Qələbəmizdir. Biz həm Birinci Qarabağ müharibəsinin, həm İkinci Qarabağ müharibəsinin, eləcə də antiterror əməliyyatının şəhidlərinin qanını döyüş meydanında aldıq, öz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etdik.

Qırx dörd gün ərzində Azərbaycan Silahlı Qüvvələri ancaq və ancaq irəli gedirdi. Hər gün, hər saat irəli gedərək döyüş meydanında 300-dən çox şəhər və kəndimizi işğalçılardan azad etdik və düşməni kapitulyasiya aktının imzalanmasına məcbur etdik. Qırx dörd gün ərzində şəhərlərimizin, kəndlərimizin azad edilməsi Ordumuzun gücünü, hərbçilərimizin peşəkarlığını, fədakarlığını, xalqımızın əzmini bütün dünyaya nümayiş etdirmişdir...

Cəmi 44 gün ərzində düşmənin 6-7 müdafiə xəttini öz sinəsini qabağa verərək, güllə altına qoyaraq yaran bizim qəhrəman övladlarımız, hərbçilərimiz bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu, gücünü, iradəsini bir daha göstərmişdir.

Bu gün Zəfər Günündə şəhərimizin ən gözəl yerlərindən birində Zəfər parkı açılıb... Bu parkda və indi tərtib olunan muzeydə bir çox önəmli rəmzlər var. Bu rəmzlər bizimlə əbədi olacaq. Bu Qələbə bizimlə əbədi olacaq. Azərbaycan xalqı bundan sonra qalib xalq, Azərbaycan dövləti müzəffər dövlət kimi yaşayacaqdır"[181].

---

[181] İlham Əliyev Bakıda Zəfər parkının açılığında iştirak edib. 8 noyabr 2024-cü il // https://president.az/az/articles/view/67241

# YAZI 5

# "ŞƏHİD ADININ ƏBƏDİLƏŞDİRİLMƏSİ VƏ ŞƏHİD AİLƏLƏRİNƏ EDİLƏN GÜZƏŞTLƏR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA KOMMENTARİYA

## Preambula

**Bu Qanun Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərin və onların ailələrinin statusunu və sosial müdafiəsini tənzimləmək məqsədinə xidmət edir.**

**1. Preambulanın məqsədi**

1.1. Preambulanın məqsədi "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunun (bundan sonra Qanun) hansı məqsədə xidmət etməsini bəyan etməkdir.

1.2. Qanunun Preambulasında məqsədi – Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərin və onların ailələrinin statusunu və sosial müdafiəsini tənzimləməyə xidmət etməsi kimi ifadəsini tapmışdır. Yəni Qanun bilavasitə iki subyektin – şəhid və şəhid ailəsi ilə bağlı münasibətlərin tənzimlənməsinə yönəlmişdir.

1.3. Preambuladan müəyyən edilir ki, Qanun üç amal – Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan və ya hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərin və onların ailələrinin statusunu və sosial müdafiəsini tənzimləmək məqsədinə xidmət edir. Şəhid statusunun müəyyən edilməsi üçün şəhid kimi statusu müəyyən edilməli olan şəxsin, məhz Azərbaycan Respublikasının azadlığı və ya suverenliyi, yaxud da ərazi bütövlüyü uğrunda həlak olması, hərbi əməliyyatla əlaqədar itkin düşüb və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilməsi vacib şərtdir.

1.4. Qanun, həm qeyd olunan üç amal uğrunda həlak olanların, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərin, həm də onların ailələrinin statusunu və sosial müdafiəsini tənzimləmək məqsədinə xidmət edir. Yəni Qanuna əsasən iki kateqoriyadan olan şəxslərin – həlak olanların şəhid, onların ailə üzvlərinin isə şəhid ailəsi statusu tanına bilər.

1.5. Nəhayət, Qanun, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olanların, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərin özlərinin, onların ailə üzvlərinin həm statusunu, həm də sosial müdafiəsini tənzimləmək məqsədinə xidmət edir. Təbii ki, Qanunun statusu müəyyən etmək funksiyası həm şəhidlərə, həm də şəhid ailələrinə münasibətdə həyata keçirilsə də, sosial müdafiəni təmin etmək funksiyası şəhidlərə münasibətdə deyil, yalnız şəhid ailələrinə münasibətdə həyata keçiriılməlidir. Baxmayaraq ki, şəhid olan şəxsin dəfn olunması, qəbirüstü abidəsinin qoyulması və s. məsələlər sosial xərclər kimi nəzərdən keçirilə bilər, hesab edirik ki, həmin xərcləri şəhidin sosial müdafiəsi kimi dəyərləndirmək düzgün olmazdı.

2. Vətənin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan şəxslərin və onların ailələrinin statusu və sosial müdafiəsi ilə bağlı xarici ölkələrin təcrübəsi

Vətənin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan şəxslərin xatirəsinin əbədiləşdirilməsi, həmin kateqoriyadan olan şəxslərin qəhrəmanlıqlarına xüsusi hörmətin, onların ailə üzvlərinin sosial müdafiəsinin təmini məsələlərini tənzimləyən qanunvericilik aktlarına müxtəlif ölkələrin təcrübəsində rast gəlmək olur.

**Rusiya Federasiyasının "Vətənin müdafiəsi zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" 14 yanvar 1993-cü il tarixli 4292-1 saylı Qanunu** müəyyən edir ki, Vətənin müdafiəsi zamanı həlak olanların xatirəsinə və ya onların mənafeyinə hörmətli münasibət bütün vətəndaşların müqəddəs borcudur. Qanuna müvafiq olaraq aşağıdakıların xatirəsinin əbədiləşdirilməsi nəzərdə tutulmuşdur:

Vətənin müdafiəsi üzrə xidməti vəzifələrini və ya digər döyüş tapşırıqlarını yerinə yetirərkən hərbi əməliyyatlar zamanı həlak olanlar;

başqa dövlətlərin ərazisində hərbi borcu yerinə yetirərkən həlak olanlar;

nəticəsinin nə zaman baş verməsindən asılı olmayaraq Vətənin müdafiəsi zamanı alınmış yara, kontuziya, xəsarət və ya xəstəlik nəticəsində ölmüş, həmçinin döyüş tapşırıqlarını, və ya xidməti vəzifələrini yerinə yetirərkən hərbi əməliyyatlar zamanı itkin düşmüş şəxslər;

həlak olmuş, yaranmış döyüş şəraiti nəticəsində əsirlikdə ölmüş, lakin özünün şərəf və ləyaqətini itirməmiş, Vətənə xəyanət etməmiş şəxslər.

Qanuna müvafiq olaraq Rusiyanın müdafiəsi zamanı həlak olmuş xarici ölkə vətəndaşlarının xatirəsi də şərəflə yad edilir.

Vətənin müdafiəsi zamanı həlak olmuş şəxslərin xatirəsinin əbədiləşdirilməsinin əsas formaları, bu cür şəxslərin qalıqlarının

dəfn və ya yenidən dəfn edilməsi, hərbi dəfn yerlərinin qorunması və abadlaşdırılması, Vətənin müdafiəsi zamanı həlak olmuş şəxslərin dəfn olunduğu digər yerlərin qorunması və abadlaşdırılması, qəbirüstü abidələrin, xatirə lövhələrinin həlak olanların xatirəsini əbədiləşdirən digər xatirə qurğularının qoyulması;

Vətənin müdafiəsi zamanı həlak olmuş şəxslərin qəhrəmanlıqları ilə tarixən bağlılığı olan ayrı-ayrı ərazilərin qorunması və yenidən bərpası;

Məlum olmayan hərbi məzarlıqların aşkar edilməsi, həlak olmuş və ya itkin düşmüş şəxslərin adlarının müəyyənləşdirilməsi, onların adlarının və digər məlumatların Xatirə kitabına və müvafiq informasiya sistemlərinə salınması;

Xatirə muzeylərinin, büroların və döyüş əməliyyatları yerlərində xatirə nişanlarının yaradılması;

Kütləvi informasiya vasitələrində və "İnternet" informasiya-telekommunikasiya şəbəkələrində Vətənin müdafiəsi zamanı həlak olmuş şəxslər haqqında materialların dərc olunması, onların qəhrəmanlıqlarına, həsr olunmuş ədəbiyyat və incəsənət əsərlərinin yaradılması, sərgilərin keçirilməsi, küçə və meydanlara, coğrafi obyektlərə, təşkilatlara, o cümlədən tədris müəssisələrinə, hərbi hissə və birləşmələrə, gəmi və tankerlərə Vətənin müdafiəsi zamanı həlak olanların adlarının verilməsi, xatirə günlərinin müəyyən edilməsi ilə həyata keçirilir[182].

9 noyabr 2024-cü il tarixli 386-ФЗ nömrəli Federal Qanunla həmin qanuna dəyişikliklər edilərək şəhidlərin adlarının xüsusi təhsil müəssisələrinin və hərbi hissələrin şərəf lövhələrinə əbədi olaraq daxil edilməsi və Rusiya Fövqəladə Hallar Nazirliyinin (МЧС) bu sahədəki səlahiyyətlərinin genişləndirilməsi məsələsi qanuna əlavə edilmişdir[183].

---

[182] Закон РФ от 14 января 1993 г. N 4292-1, Об увековечении памяти погибших при защите Отечества // https://base.garant.ru/1583840/

[183] Российская газета

Bir sıra Qərb ölkələrinin qanunvericiliyində "şəhid" anlayışı dini mənada deyil, daha çox "xidmətdə həlak olanlar" (ingiliscə: "fallen soldiers", "killed in the line of duty") və ya "qəhrəmanlar" kimi hüquqi və simvolik statusla anılır. Bu statuslar dövlət tərəfindən rəsmi şəkildə tanınır və müxtəlif hüquqi, sosial və simvolik tədbirlərlə əbədiləşdirilir.

ABŞ-da "şəhid" termini "xidmətdə həlak olanlar" və "qəhrəmanlar" kimi anlayışlarla hüquqi və simvolik baxımdan tanınır. "Fallen Heroes Flag Act of 2016" qanununa əsasən, vəzifə başında həlak olan hərbi qulluqçuların və ictimai təhlükəsizlik işçilərinin ailələrinə ABŞ Konqresi tərəfindən bayraq və rəsmi sertifikat təqdim olunur[184].

"Respect for America's Fallen Heroes Act" (2006) qanunu, milli qəbiristanlıqlarda keçirilən dəfn mərasimləri zamanı etiraz aksiyalarını məhdudlaşdıraraq, həlak olanların ailələrinin həlak olan yaxınlarını hörmətlə yad edilməsini təmin edir. "Fallen Warrior Battlefield Cross Memorial Act" (2020) qanununa görə ABŞ-ın milli qəbiristanlıqlarında həlak olan əsgərlərin xatirəsinə "Fallen Soldier Display" adlı memorial abidələrin yerləşdirilməsinə icazə verilir[185], "Children of Fallen Heroes Scholarship Act" (2018) qanunu, vəzifə başında həlak olan ictimai təhlükəsizlik işçilərinin uşaqlarına təhsil dəstəyi təmin edir.

"Fallen Heroes Flag Act" (2016)[186] ABŞ Konqresi tərəfindən qəbul edilmiş bir qanundur. Bu qanuna əsasən, hərbi xidmətdə və ya ictimai təhlükəsizlik orqanlarında (polis, yanğınsöndürmə və s.) vəzifə başında həlak olmuş şəxslərin ailələrinə ABŞ bayrağı rəsmi şəkildə təqdim olunur. Bayraqla birlikdə Konqresin təşəkkür və hörmətini ifadə edən məktub da verilir. Bu jest, ölkənin həmin şəxslərin fədakarlığını rəsmi və simvolik olaraq tanıdığını göstərir və onların xatirəsinin əbədiləşdirilməsinə xidmət edir.

---

[184] congress.gov
[185] congress.gov
[186] chttps://www.congress.gov/bill/114th-congress/senate-bill/2755

ABŞ-ın 2016-cı il “Fallen Heroes Flag Act” qanununa əsasən, hərbi və ya ictimai təhlükəsizlik xidmətində (məsələn, polis və yanğınsöndürmə) vəzifə başında həlak olmuş şəxslərin yaxınlarına ABŞ Konqresi tərəfindən dövlət bayrağı və rəsmi məktub təqdim olunur. Bu təşəbbüs, həlak olanların xidmətinə simvolik hörmətin ifadəsi kimi çıxış edir və onların fədakarlığının dövlət səviyyəsində tanındığını hüquqi şəkildə təsbit edir. Qanun, həm də ictimai yaddaşda bu şəxslərin adlarının yaşadılmasına xidmət edən əxlaqi və vətənpərvərlik dəyəri daşıyır.

Qanunun əsas məqsədi vəzifə başında həlak olmuş hərbi qulluqçular və ictimai təhlükəsizlik işçilərinin (polis, yanğınsöndürən və s.) xidmətinin tanınması, həlak olmuş şəxsin ailəsinə ABŞ bayrağının və Konqresin rəsmi təşəkkür məktubunun təqdim olunmasıdır. Dövlət bayrağı qəhrəmanın vətənə xidmətini simvolizə edir və onun ailə üzvlərinə təqdim olunması simvolik dəyər daşıyır. Ailə rəsmi olaraq cəmiyyət və dövlət tərəfindən tanınır və ehtiramla yad edilir.

Bayrağın təqdim olunmasının qanunla müəyyən edilməsi və prosedurun rəsmi protokol əsasında icra olunması hüquqi nəticə kimi dəyərləndirilir. ABŞ modeli daha çox rəsmi, simvolik və institusional hörmət üzərində qurulub və qanunla məcburidir.

ABŞ-da vətənpərvərlik simvolları ilə bağlı məhkəmə təcrübəsi də önəmlidir. “Texas v. Johnson” (1989) işi üzrə qərar Qreqori Conson adlı şəxsin ABŞ bayrağını yandıraraq Vyetnam müharibəsinə etiraz etməsi ilə bağlı idi. ABŞ Ali Məhkəməsi bu hərəkəti ifadə azadlığı çərçivəsində qiymətləndirərək onun cinayət məsuliyyətinə cəlb edilməsini konstitusiyaya zidd hesab etdi. Həmin qərarla ABŞ-da vətənpərvərlik simvollarına qarşı sərt qanunların tətbiqinə qarşı konstitusional sərhədlər müəyyən edildi. Yəni, məhkəmə hesab etdi ki, ABŞ-da qəhrəmanlara və ya dövlət simvollarına qarşı tənqid nifrət nitqi deyilsə və zorakılığı təşviq etmirsə ifadə azadlığı kimi qəbul oluna bilər[187].

---

[187] “Texas v. Johnson” (1989) 491 U.S. 397 (1989) (Supreme Court of the United States): https://www.supremecourt.gov/opinions/HTMLFiles/88-155.U.html)

“Snyder v. Phelps” (2011) işində Qərbi Virciniya ştatında yerləşən Westboro Baptist Kilsəsinin üzvləri ABŞ ordusunda xidmət edən bir əsgərin dəfn mərasimində homoseksualizm və ordu əleyhinə plakatlarla etiraz etmişdilər.

ABŞ Ali Məhkəməsi hadisəni yenə də ifadə azadlığı kimi dəyərləndirdi və əsgərin ailəsinin açdığı təhqirlə bağlı mülki iddiasını rədd etdi[188].

Fransada “Mort pour la France” (“Fransa uğrunda ölmüş”) ifadəsi hüquqi statusa malikdir və dövlət tərəfindən tanınır. “Mort pour la France” statusu Fransa uğrunda həlak olan hərbi qulluqçulara və mülki şəxslərə verilir və onların adları rəsmi sənədlərdə qeyd olunur.

1915-ci il 29 dekabr qanunu Birinci Dünya Müharibəsində həlak olan əsgərlərin qəbiristanlıqlarının dövlət tərəfindən əbədi olaraq qorunmasını təmin edir[189].

Qanunun məqsədi Fransa uğrunda həlak olan hərbi qulluqçulara və bəzi hallarda mülki vətəndaşlara “Fransa uğrunda ölmüş” statusunun verilməsidir. Qanuna əsasən həlak olanların adları dövlət tərəfindən rəsmi sənədlərə və xatirə lövhələrinə daxil edilir. Bu statusa əsasən şəhidin adı məktəblərdə, küçələrdə, abidələrdə əbədiləşdirilə bilər. “Mort pour la France” ifadəsi şəhidin qəhrəman kimi tanınmasını ifadə edir.

Bu status qanunvericilikdə rəsmi tanınır və şəhidin ailəsinə müəyyən sosial üstünlüklər təqdim edir. Fransa modeli daha çox tarixi və milli kimliklə bağlı bir status təqdim edir.

Almaniyada son illərdə hərbi xidmət və vəzifə başında həlak olanların tanınması istiqamətində addımlar atılmışdır: Almaniya parlamenti “Veteranlar Günü (2024)” qanununa əsasən hərbi xidmət

---

188 “Albert Snyder, Petitioner v. Fred W. Phelps, Sr., et al. 562 U.S. 443 (2011) Supreme Court of the United States//https://www.supremecourt.gov/opinions/10pdf/09-751.pdf; Legal Information Institute//:https://www.law.cornell.edu/supremecourt/text/09-751)

189 Vikipediya

göstərmiş şəxsləri və həlak olanları anmaq məqsədilə hər il 15 iyun tarixini "Veteranlar Günü" kimi qeyd etməyi qərara almışdır. Qanunun məqsədi Vətənə xidmət etmiş və həlak olmuş hərbçilərin ictimai səviyyədə tanınması və yad edilməsidir. Qəhrəmanlıq və vətənə xidmət dövlət və cəmiyyət tərəfindən tanınır. Hələlik tam hüquqi çərçivə formalaşmasa da, dövlət tərəfindən rəsmi anım tədbirləri və ictimai təşəkkür tədbirləri keçirilir. Almaniya bu sahədə prosesə yeni başlamış və məsələyə daha çox ictimai anım və təbliğat vasitələri kimi yanaşır.

İtaliyada "Mükəmməl Vətəndaşlıq Cəsarəti" (Award for Civil Valor) adlı mükafat sistemi mövcuddur[190]. Bu mükafat, vəzifə başında və ya ictimai təhlükəsizlik sahəsində həlak olan şəxslərə və onların ailələrinə verilir və onların cəsarətini tanıyır.

Mükafatın məqsədi vətəndaşlıq vəzifəsini yerinə yetirərkən, xüsusilə də ictimai təhlükəsizlik sahəsində həyatını itirən şəxslərin tanınması və anılmasıdır. Həlak olmuş şəxsə və ya ailəsinə medal və ya sertifikat verilir. Dövlət tərəfindən verilən medal və diplom, onun fədakarlığını cəmiyyətə nümunə olaraq göstərir. Rəsmi təltiflər və bəzi hallarda sosial dəstək tədbirləri ilə dəstəklənir. İtaliya isə vətəndaş qəhrəmanlığını dövlət mükafatı ilə tanıyır[191].

Beləliklə, ABŞ və Avropa ölkələrinin qanunvericiliyində "şəhid" anlayışı daha çox vəzifə başında həlak olanların və qəhrəmanların tanınması və xatirələrinin əbədiləşdirilməsi məqsədilə hüquqi və simvolik tədbirlərlə əks olunur. Bu tədbirlər arasında xüsusi günlərin qeyd edilməsi, memorial abidələrin ucaldılması, ailələrə sosial dəstək və təhsil imkanlarının yaradılması önəmli yer tutur.

Çin Xalq Respublikasında şəhidlərə və xalq qəhrəmanlarına hörmətlə yanaşma məsələsi qanunvericilik səviyyəsində ciddi şəkildə tənzimlənir. Bu sahədə əsas hüquqi sənədlərdən biri 2018-ci

---

190 Vikipediya

191 Award for Civil Valor // https://servizio-nazionale.protezionecivile.gov.it/en/awards/

ilin may ayında Çin Xalq Nümayəndələri Ümumçin Yığıncağı tərəfindən qəbul edilmiş "Qəhrəmanlar və Şəhidlərin müdafiəsi haqqında Qanun"dur. Qanunun əsas müddəaları qəhrəmanların və şəhidlərin nüfuzunun müdafiəsidir. Qəhrəmanların və şəhidlərin şərəfini və adını təhqir etmək, onların xidmətini inkar etmək, ya da yalan məlumat yaymaq qanunsuz hesab olunur. Bu cür əməllərə yol verən fiziki və hüquqi şəxslər mülki və hətta cinayət məsuliyyətinə cəlb edilə bilər.

Şəhidlərin xatirəsi ictimai şəkildə yad edilir. Hökumət şəhidlərin xatirəsini anmaq üçün müxtəlif tədbirlər keçirir. İctimai yerlərdə şəhidlərə aid abidələrin qorunması qanunla təmin olunur. Qanun qəhrəmanlıq ruhunun gənc nəslə aşılanmasını və vətənpərvərlik tərbiyəsinin gücləndirilməsini nəzərdə tutur[192].

Çin Xalq Respublikasında qəhrəman və şəhidlərin nüfuzunun qorunması ilə bağlı bir neçə məhkəmə qərarı mövcuddur. "Çju Çjunxuan (Qanlı Təpə işi)" (2021) işində Jurnalist və blogger Çju Çjunxuan (Qju Zhi Yong) 1950–1953 Koreya müharibəsində Çin Xalq Könüllü Ordusunun məşhur qəhrəmanlarından biri olan Çjan Taofanın qəhrəmanlığını şübhə altına alan və onu tənqid edən paylaşımlar etmişdi. Şanxay Xalq Məhkəməsi qəhrəmanların adını təhqir etdiyinə görə təqsirləndirilən şəxsi əhalinin mənəvi duyğularına zərər vurmaqda və qəhrəmanların şərəfini ləkələməkdə təqsirli bilərək 8 ay azadlıqdan məhrum etmə cəzasına məhkum etdi.

Həmin iş üzrə Şanxay Xalq Məhkəməsinin qərarı qəhrəmanlıq nüfuzunu ləkələyən sosial media fəaliyyətinə görə ilk cinayət işi olaraq tarixə keçdi.

"Sina Weibo" (Anshan Company v. Sina Weibo (2019) Zui Gao Fa Zhi Min Xia Zhong No. 85) məhkəmə işi üzrə qərardan aydın olur ki, iş üzrə tərəflər Çin Mədəniyyət Nazirliyi və Sina Weibo platformasında anonim bir istifadəçi olmuşdur. İstifadəçi

[192] V.Ə.İbayev. Çində 15 gün və ya dünya məhkəmə mədəniyyətinə töhfə vermək arzusu. Bakı. 2018. s.199-211

sosial mediada Koreya müharibəsi qəhrəmanlarını təhqir edən paylaşım etmişdi. O, Çin əsgərlərinin qəhrəmanlıqla mübarizə aparmadığını və tarixin saxtalaşdırıldığını iddia etmişdi. Məhkəmə həmin şəxsin ictimai şəkildə üzr istəməsini, paylaşımın silinməsini və simvolik təzminat ödəməsini qərara aldı. İş üzrə məhkəmə qərarı "Qəhrəmanlar və Şəhidlərin müdafiəsi haqqında" Qanunun mülki məsuliyyət tətbiqi üzrə ilk nümunələrindən biri oldu[193].

2022-ci ildə bir neçə şəhid ailəsi bir yazıçının və bloggerin əsərlərində şəhidlərin adlarını və şəxsiyyətlərini təhrif etdiyini, onların adından istifadə edilərək mənfi obrazlar yaradıldığını iddia edərək məhkəməyə müraciət etmişdi. Həmin işlər qəhrəman ailələrinin açdığı mülki iddialar kimi tanınır. Məhkəmə bu hərəkətləri şəhidlərin nüfuzuna xələl gətirən kimi qiymətləndirərək müəllifi əsərləri yaymaqdan məhrum etdi və rəsmi üzr istəməyə məcbur etdi. Şəhid ailələrinin nümayəndələri vasitəsilə müdafiə edilməsi həmin qanunun praktiki tətbiqinin əsas nəticəsi kimi dəyərləndirilir.

Qiu Shaoyun Defamation Case – 2016 (Qiu Shaoyun's Family v. Sun Jie and Jiaduobao JDB Group) işində Sun Jie, "Zuoyeben" ləqəbi ilə tanınan bir *Weibo* istifadəçisi, Koreya müharibəsində qəhrəmanlıq göstərmiş Qiu Shaoyun'u təhqir edən paylaşım etmişdi. Jiaduobao JDB Group isə bu paylaşımı reklam kampaniyasında istifadə etmişdi. Həmin işdə Çin Xalq Respublikasının Ali Xalq Məhkəməsi (Supreme People's Court) hər iki tərəfin Qiu Shaoyun'un ailəsinə simvolik olaraq 1 yuan təzminat ödəməsinə və ictimai şəkildə üzr istəməsinə qərar verdi[194].

Beləliklə, dünya təcrübəsində həm şəhidlər, həm də şəhid ailələrinin qanunvericilik və məhkəmə səviyyəsində müdafiəsi və onlara xüsusi hörmətin ifadə olunması öz təsdiqini tapır.

---

193 lifanglaw.comlifanglaw.com

194 globaltimes.cnglobaltimes.cn

**M a d d ə 1. Şəhid və şəhid ailəsi anlayışı**

**Şəhid Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxsdir.**

**Qüvvədə olan qanunvericiliyə müvafiq surətdə aşağıdakı şəxslər şəhid ailəsinin üzvləri hesab edilir:**

**ər-arvad, valideyn, 18 yaşına çatmamış uşaqlar, 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan övladları, qardaşlar və bacılar, uşaq evlərində tərbiyə olunanlar; peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrində təhsil alanlar isə həmin təhsil müəssisələrini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək; qanunla onları saxlamalı şəxs yoxdursa babalar və nənələr.**

**1. Maddənin məqsədi** şərh olunan Qanuna əsasən həlak olmuş şəxsin şəhid hesab olunması, şəhid anlayışının verilməsi üçün zəruri ünsürləri və şəhid ailəsinin üzvlərinin dairəsini müəyyən etməkdir.

**2. Şəhid**. Maddənin özündə şəhidə Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxs kimi anlayış verilmişdir. Şəhid anlayışının tam açıqlanması "Azərbaycan Respublikasının azadlığı", "Azərbaycan Respublikasının suverenliyi" "Azərbaycan Respublikasının ərazi bütövlüyü", "həlak olma", "hərbi əməliyyatlar", "itkin düşən", qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxs"in nəyi ehtiva etməsinin açıqlanmasını tələb edir.

**3. Azərbaycan Respublikasının azadlığı** Azərbaycan dövlətinin müstəqilliyinin, istiqlalının, heç bir başqa dövlətdən asılı olmamasını, sərbəst və müstəqil şəkildə öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etməsini, dövlət haki-

miyyətinin yeganə mənbəyinin Azərbaycan xalqının olmasını ehtiva edir.

18 oktyabr 1991-ci il tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktında[195] qeyd olunur ki: "1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdi. Azərbaycan Respublikası öz ərazisində tam dövlət hakimiyyətinə malik olub müstəqil xarici və daxili siyasət yeridirdi. Azərbaycan Respublikasının müstəqil dövlətə xas olan təsisatları – parlamenti, hökuməti, ordusu, maliyyə sistemi yaradılmışdı və fəaliyyət göstərirdi. Azərbaycan Respublikası bir çox xarici dövlətlər tərəfindən tanınmış və onlarla diplomatik münasibətlər yaratmışdı. Lakin 1920-ci il aprelin 27-28-də RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pozaraq müharibə elan etmədən öz silahlı qüvvələrinin hissələrini Azərbaycana yeritdi, suveren Azərbaycan Respublikasının ərazisini işğal etdi, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirdi və Azərbaycan xalqının çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoydu.

Bunun ardınca Azərbaycan 1806-1828-ci illərdə olduğu kimi, yenidən Rusiya tərəfindən ilhaq edildi.

SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilə bu ilhaqı təsbit etməli idi. Sonralar, 70 il ərzində Azərbaycan Respublikasına qarşı əslində müstəmləkəçilik siyasəti yeridilir, Azərbaycanın təbii ehtiyatları amansızcasına istismar olunur, milli sərvətləri çapılıb talanır, Azərbaycan xalqı təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalırdı, onun milli ləyaqəti tapdalanırdı. Bütün bunlara baxmayaraq Azərbaycan xalqı dövlət müstəqilliyi uğrunda mübarizəni davam etdirirdi.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il

---

[195] https://e-qanun.az/framework/6693

avqustun 30-da qəbul etdiyi Bəyannamə də bu mübarizənin yekunu olmuşdur.

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq bu Konstitusiya Aktını qəbul edir və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir".

Konstitusiya Aktında qərara alınır ki, "1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Demokratik Respublikasını devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin.

Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir.

SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid hissəsi imzalandığı andan etibarsızdır".

**Dövlətin azadlığı** – dövlətin daxili və xarici siyasətində sərbəst, müstəqil qərarlar qəbul etmək hüququ və qabiliyyətidir. Bu anlayış dövlətin heç bir xarici qüvvənin təsiri altında olmadan öz hüquqi, siyasi, iqtisadi və sosial sistemini müəyyən etməsi deməkdir.

Dövlət azadlığının əsas xüsusiyyətləri kimi suverenliyi, bərabərliyi, müdaxiləsizliyi, hüquq sisteminin özünün müəyyən etməsini göstərmək olar. Burada suverenlik – dövlətin öz ərazisində yeganə qanunverici və icraedici gücə malik olmanı, bərabərlik – bütün dövlətlərin beynəlxalq hüquq qarşısında bərabər olmasını, müdaxiləsizlik – xarici dövlətlərin başqa bir dövlətin daxili işlərinə qarışmamasını, özünün hüquqi sistemini müəyyən etmək – dövlətin öz konstitusiyasını qəbul etməsi və qanunlarını sərbəst şəkildə formalaşdırması kimi başa düşülür.

Daxili və xarici azadlıq dövlətin azadlığının təzahür formaları kimi çıxış edir. Daxili azadlıq dövlətin öz sərhədləri daxilində qanunvericilik, icra və məhkəmə hakimiyyətini həyata keçirməsində, x**arici azadlıq** isə dövlətin digər ölkələrlə sərbəst şəkildə diplomatik münasibətlər qurması və beynəlxalq müqavilələr bağlamasında özünü təzahür etdirir.

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra dövlət azadlığını təmin edən hüquqi və siyasi əsasları formalaşdırmışdır. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasının dövlət müstəqilliyi, ərazi bütövlüyü, siyasi və iqtisadi sistemi suveren hüququ kimi tanınır və qorunur.

Xarici hüquqi və siyasi ədəbiyyatda "state freedom" və ya "freedom of the state" anlayışı daha çox klassik suverenlik və öz müqəddəratını təyin etmə hüququ (self-determination) çərçivəsində izah olunur. Jean Bodin, Thomas Hobbes, Jean-Jacques Rousseau, John Locke kimi filosoflar dövlətin azadlığını hakimiyyətin mənbəyi və sərhədləri ilə əlaqələndirirlər. Müasir beynəlxalq hüquqda dövlətin azadlığı aşağıdakılarla müəyyən olunur:

– ərazi bütövlüyü (territorial integrity);
– siyasi müstəqillik (political independence);
– sərbəst xarici siyasət (external autonomy).

Beləliklə, ilkin olaraq Azərbaycanın azadlığı uğrunda həlak olanlar dedikdə, 1920-ci il aprelin 27-28-də RSFSR-in suveren Azərbaycan Respublikasının ərazisini işğal etməsi və SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilə ərazilərimizin ilhaqından azad olunma uğrunda mübarizədə həlak olanlar başa düşülməlidir. Hazırda dövlətin azadlığı daha çox müstəqillik və istiqlaliyyət anlamında işlədilir. Buna görə də şəhidlik anlayışı bu azadlığın təhlükə altına düşdüyü anda onu qoruyanların fədakarlığı ilə bağlıdır.

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının təsdiq olunması haqqında" Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli 10 saylı Qərarı ilə təsdiq olunmuş Qaydalarda[196] qeyd olunur ki, “Bu Qaydalar Azərbaycan Respublikasının azadlığı, istiqlaliyyəti, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərin və onların ailələrinin statusunun və sosial müdafiəsinin tənzimlənməsi, həyata keçirilməsi üzrə əsas tələbləri müəyyən edir. Beləliklə, həmin Qaydalarda Qanunda nəzərdə tutulandan daha geniş dairədə şəxslərin, yəni “Azərbaycan Respublikasının istiqlaliyyəti uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərin” də şəhid hesab edilməsi öz əksini tapmışdır. Əslində hesab edirik ki, “Azərbaycan Respublikasının istiqlaliyyəti uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslər” elə “Azərbaycan Respublikasının azadlığı uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxsləri” ehtiva edir. Belə ki, “azadlıq” və “istiqlaliyyət” eyni məna yükünə malik olan sözlərdir.

**4. Azərbaycan Respublikasının Prezidentinin 19 yanvar 2006-cı il 350 saylı “20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında Fərmanı[197]** da “Azərbaycan Respublikasının azadlığı” anlayışına aydınlıq gətirilməsi üçün nümunə kimi qeyd oluna bilər. Fərmanda göstərilir ki, “Azərbaycan xalqının tarixinə qəhrəmanlıq rəmzi kimi daxil olmuş Qanlı Yanvar faciəsindən artıq 16 il keçir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu hissələri heç bir xəbərdarlıq edilmədən Bakı şəhərinə, eləcə də Azərbaycan Respublikasının bir sıra digər şəhər və rayonlarına yeridilərək

---

[196] https://e-qanun.az/framework/12184
[197] https://e-qanun.az/framework/11356

Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycan xalqının suveren hüquqlarının bərqərar edilməsi üçün ayağa qalxmış dinc əhaliyə amansızcasına divan tutmuşdur.

Sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı bu Qanlı Yanvar günündə tarixi ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirmiş və bununla da 20 Yanvar günü Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə parlaq səhifə kimi həkk olunmuşdur.

Kütləvi terror aktları ilə müşayiət olunan bu hərbi-siyasi təcavüzün və mənəvi qəsdin qurbanı olmuş insanlar xalqımızın milli müstəqillik duyğusunun yüksəldilməsində müstəsna rol oynamışlar.

Fərmanda 1990-cı ilin yanvar ayında faciəli hadisələr zamanı Azərbaycan Respublikasının azadlığı, suverenliyi uğrunda həlak olanların əziz xatirəsini yad edərək şəhid ailəsi üzvlərinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə 1990-cı ilin yanvar faciəsi zamanı şəhid olmuş hər bir şəxsin ailəsinə ayda *600 (altı yüz)* manat məbləğində “20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü” təsis edilmiş, təsis edilən təqaüdün həmin şəxslərin ailə üzvlərinin sayına bərabər bölünməklə dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik vasitəsilə ödənilməsi nəzərdə tutulmuşdur.

### 3. Azərbaycan Respublikasının suverenliyi

Suverenlik (alm. Souveranitat; fr. Souverainete – ali hakimiyyət) beynəlxalq hüququn əsas subyekti kimi dövlətə məxsusdur. Suverenlik dövlətin öz ərazisi üzərində hakimiyyətinin aliliyində və beynəlxalq münasibətlərin müstəqilliyində təzahür edir.

Həmin prinsip BMT Nizamnaməsinin 2-ci maddəsinin 1-ci bəndində “Təşkilat bütün üzvlərin suveren bərabərliyi prinsipi əsasında yaradılmışdır” kimi ifadəsini tapmışdır.

Dövlətlərin suveren bərabərliyi prinsipi Beynəlxalq hüququn prinsipləri haqqında bəyannamədə sonrakı inkişafını tapmışdır. Bəyannamədə ifadə olunmuş anlayış özündə aşağıdakı ünsürləri birləşdirir:

1) dövlətlər hüquqi cəhətdən bərabərdirlər;
2) hər bir dövlət tam suverenliyə xas olan hüquqlardan istifadə edir;
3) hər bir dövlət başqa dövlətlərin hüquq subyektliliyinə hörmətlə yanaşmalıdır;
4) dövlətin ərazi bütövlüyü və siyasi müstəqilliyi toxunulmazdır;
5) hər bir dövlət özünün siyasi, sosial, iqtisadi və mədəni sistemini seçmək və inkişaf etdirmək hüququna malikdir;
6) hər bir dövlət özünün beynəlxalq öhdəliklərini tam və vicdanla yerinə yetirməyə və başqa dövlətlərlə sülh şəraitində yaşamağa borcludur.

Helsinki Yekun Aktında Dövlətlərin suveren bərabərlik prinsipi bir qədər də inkişaf etdirilmişdir: "İştirakçı dövlətlər bir-birinin suveren bərabərliyinə və özünəməxsusluğuna, həmçinin onların suverenliyindən doğan və onun ehtiva etdiyi bütün hüquqlar, xüsusən hər bir dövlətin hüquqi bərabərliyə, ərazi bütövlüyünə, azadlığa və siyasi müstəqilliyə olan hüququna hörmət bəsləyəcəklər. Onlar həmçinin bir-birinin siyasi, sosial, iqtisadi və mədəni sistemlərini sərbəst seçmək və inkişaf etdirmək, eynilə də öz qanunlarını və inzibati qaydalarını yaratmaq hüququna hörmət edəcəklər".

Dövlət suveren hüquq və azadlıqların daşıyıcısı kimi ölkə daxilində əhali və onun birlikləri üzərində ali hakimiyyətini formalaşdırır və həyata keçirir, xaricdə isə dövlət suverenliyinin xarici tərəfinə xas olan "sülh, digər dövlətlərlə beynəlxalq ünsiyyət və əməkdaşlıq" hüququ, "heç bir ayrı-seçkiliyə yol verilmədən universal beynəlxalq müqavilələrdə iştirak" hüququnu, beynəlxalq təşkilatlarda tam hüquqlu üzv kimi iştirak hüququnu, neytrallıq hüququnu və s. həyata keçirir.

Dövlət suverenliyinin ölkə daxilində özünün hakimiyyəti, ölkə xaricində isə müstəqilliyi ilə realizə olunan – dövlətin aliliyinin tam təmini və realizasiyası üçün real şərtlər yaradır. Başqa sözlə, dövlət suverenliyinin praktiki realizasiya dərəcəsi dövlət hakimiyyətinin real təmini, dövlət hakimiyyətinin tamlığı və reallığı səviyyəsindən birbaşa asılıdır. Dövlət hakimiyyətinin tamlığı və reallığı dərəcəsi nə qədər yüksəkdirsə, dövlət suverenliyinin həyata keçirilməsi üçün real imkanların səviyyəsi bir o qədər yüksək olur və əksinə.

Xalq və ya dövlətin suveren kimi tanınması o deməkdir ki, onların üzərində heç bir ali hakimiyyət mövcud deyildir, onlar özləri digərlərinə münasibətdə ali hakimiyyətə malikdirlər, yəni məhz onlar hakimiyyətlərini həyata keçirmələrinin məzmun, forma və metodlarını, həmçinin suveren hüquqlarının həyata keçirilməsinin həvalə olunduğu orqanların səlahiyyət hədlərini müəyyən edirlər.

Suverenlik ancaq onun daşıyıcısının səlahiyyətləndirdiyi orqanları hüquqlarla təmin edə bilməsini ifadə edir. Çox vaxt bu cür orqanlar kimi dövlət orqanları çıxış edir. Həmin orqanlar məhz suveren tərəfindən hüquqlarla, o cümlədən hüquq normalarını qəbul etməklə səlahiyyətləndirilir və hüquq normalarının təcrübədə həyata keçirilməsinə görə həmin orqanların cavabdehliyi müəyyən edilir. Beləliklə, suverenlik – xalq və ya dövlətin xüsusiyyətidir.

Hər bir dövlət başqa dövlətin ərazi bütövlüyünə, siyasi müstəqilliyinə və ya vahidliyinə qarşı yönəlmiş, özündə zorakılıq və zorakılığın tətbiqi təhlükəsini təmsil edən, BMT Nizamnaməsinin məqsəd və prinsipləri ilə bir araya sığmayan hər hansı bir hərəkətdən çəkinməlidir.

Beynəlxalq hüquq həmçinin müəyyən edir ki, heç bir dövlət və ya beynəlxalq hüququn digər subyekti suveren dövlətin işlərinə müdaxilə etməməlidir. Dövlətin özünün qərarlarını hazırlamaq və həyata keçirməsi prosesinə bəraət qazandırılmayan müdaxilədən azadlığı həqiqi dövlət suverenliyinin mühüm şərtidir.

Müstəqil dövlətin siyasi-hüquqi cəhətdən asılı olmaması beynəlxalq hüququn ilkin subyekti kimi ali məsuliyyət və dəyərini təcəssüm etdirən, dövlət hakimiyyətinin müstəsna üstünlüyü üçün zəruri olan və başqa dövlətin hakimiyyətinə tabe olmamağı nəzərdə tutan, müstəqil dövlətlərin hüquq bərabərliyi ilə şərtlənən və müasir beynəlxalq hüququn əsasını təşkil edən, özgəninkiləşdirilməyən hüquqi keyfiyyətidir.

Dövlət suverenliyi dövlətə xas olan öz ərazisi üzərində üstünlük və beynəlxalq münasibətlərdə müstəqillik kimi başa düşülür. Bu suverenlik ölkə daxilində dövlət hakimiyyətinin üstünlüyü, dövlət xaricində isə başqa dövlət və digər qurumlardan asılı olmamaqda ifadə olunur.

Dövlət hakimiyyətinin üstünlüyü dövlət hakimiyyətinin müstəqil olaraq cəmiyyətin bütün üzvləri üçün ümumməcburi davranış qaydalarını qəbul etməsi, vahid hüquq qaydasını müəyyən və təmin etməsi, vətəndaşların, vəzifəli şəxslərin, dövlət, partiya, ictimai orqanlar və təşkilatların hüquq və vəzifələrini müəyyən etməsində özünü təcəssüm etdirir.

Üstünlük, müstəqillik dövlət hakimiyyətinin suveren xüsusiyyəti kimi onun siyasi-hüquqi mahiyyətini əks etdirir və dövlət fəaliyyətinin daxili və xarici siyasi formalarında meydana çıxır. Suverenlik özündə dövlətin keyfiyyət əlamətlərini təmsil edir və onun hüquqi-siyasi mahiyyətini xarakterizə edir. Mahiyyət etibarilə üstünlük cəmiyyətdə vahid hüquq qaydasının, dövlət orqanları və ictimai təşkilatların hüquq qabiliyyətliliyini müəyyən etmək səlahiyyətindən, vəzifəli şəxs və vətəndaşlara hüquq və vəzifələr təqdim etməkdən ibarətdir.

Suverenlikdə dövlət özünün siyasi və hökmran dairələrinin tam hakimiyyətliliyində əks olunan hüquqi ifadəsini tapır. Onda, həmçinin dövlətin başqa dövlətlərdən asılı olmayaraq daxili və xarici siyasətini formalaşdırmaq və həyata keçirmək qabiliyyəti də təcəssüm edir.

2023-cü il sentyabrın 19-da Qarabağ ərazisində erməni təxribatlarının qarşısının alınması, Ermənistan silahlı birləşmələrinin

tərk-silah edilərək ərazilərimizdən çıxarılması, işğaldan azad edilmiş ərazilərdə əmin-amanlığın təmin olunması məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanması məhz Azərbaycan dövlətinin suverenliyinin təmininə yönəlmişdi. Bir sutkadan da az davam edən əməliyyat zamanı Azərbaycan Ordusu suverenliyin bərpası üçün zəruri olanlara nail oldu və ölkənin bütün ərazilərində Azərbaycan hakimiyyətinin aliliyini təmin etdi.

Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2024-cü il tarixli "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncamı ilə 20 sentyabr Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edildi. Həmin Sərəncamda deyilir: "2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır"[198].

### 4. Azərbaycan Respublikasının ərazi bütövlüyü

Ərazi toxunulmazlığı və bütövlüyü dövlətin mövcudluğunun təbii və zəruri şərtidir. Bu o deməkdir ki, dövlət öz fəaliyyətində başqa dövlətin ərazi toxunulmazlığı və bütövlüyünə hörmət

---

[198] Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //https://president.az/ az/articles/view/66855)

etməli, onlann pozulmasına yönəlmiş hərəkətlərə yol verməməlidir. Ərazi toxunulmazlığı və bütövlüyü prinsipi dövlətin xarici münasibətlərdə öz müstəqilliyini həyata keçirdiyi ümumqəbulolunmuş *jus cogens* prinsiplərə aiddir.

Ərazi bütövlüyü prinsipi dövlətin ərazi aliliyinə əsaslanan dövlət suverenliyindən irəli gəlir və bir çox beynəlxalq hüquqi müqavilə, saziş və bəyannamədə öz ifadəsini tapmışdır. Dövlətin mövcudluğunun maddi əsasını onun müəyyən əraziyə malik olması təşkil edir. Hər bir dövlət öz ərazisi hüdudlarında müstəsna xarakter daşıyan yəni başqa dövlətlərin hakimiyyətini istisna edən tam suveren hakimiyyətə malikdir. Öz ərazisi üzərində dövlətin tam və müstəsna səlahiyyətinə ərazi aliliyi deyilir. Ərazi aliliyi dövlət suverenliyinin əsas ünsürlərindən biridir.

Dövlətin ərazi bütövlüyü və toxunulmazlığı prinsipinin mahiyyətinin araşdırılmasına keçməmişdən əvvəl həmin prinsipə daxil olan “ərazi”, “bütövlük” və “toxunulmazlıq” anlayışlarının üzərində qısaca dayanmağı zəruri hesab edirik.

Dövlətin ərazisi yer kürəsinin dövlətin suveren hakimiyyəti altında olan hissəsidir. Dövlət ərazisinin tərkib hissəsini quru sahə, sular, yerin altı və müvafiq hava sahəsi təşkil edir. Açıq dənizlər, Antarktika, onların üzərindəki hava məkanı, kosmik fəza, o cümlədən Ay və digər fəza cisimləri dövlət ərazisini təşkil edə bilməz və onlar beynəlxalq ərazi kimi dövlətlərin birgə istifadəsindədir.

Dövlətin quru ərazisinə onun bütün torpaqları, onların təki, adalar, qütb torpaqları və anklavlar daxildir.

Su ərazisi tərkibinə dövlətin quru ərazisi daxilindəki bütün məhəlli sular (çaylar, dənizlər, göllər, kanallar) quru ərazisini əhatə edən dəniz suları (liman suları, daxili körfəz və buxtaların suları) və suların sərhədlərindən kənarda müəyyən enlikdə olan məhəlli sular və sahil suları daxildir. Yeraltı əraziyə dövlətin quru və su ərazisinin dibi şamil edilir. Hava məkanına dövlətin quru və su ərazisi üzərində olan fəza boşluğu aid edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasınm ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

Dövlətin ərazi toxunulmazlığı o deməkdir ki, onun ərazisinə hər hansı bir dövlət silahlı və qeyri silahlı qəsd edə bilməz və həmin ərazini ilhaqdan çəkinməlidir.

Dövlət ərazisinin bütövlüyü isə o deməkdir ki, hər hansı dövlətin ərazisi zorla bölünə və ya onun hər hansı hissəsi zorla qoparıla, tutula bilməz.

Dövlətlərin ərazi bütövlüyü və toxunulmazlığına hörmət Azərbaycan Respublikasının xarici siyasətinin konstitusion prinsipidir. Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsində Azərbaycan Respublikasının başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurması təsbit olunmuşdur.

Ərazi toxunulmazlığı və bütövlüyü anlayışı bir-biri ilə üzvi surətdə bağlı və bəzi məqamları uyğun gəlsə də, tamamilə eyni anlayışlar deyildir. Belə ki, xarici dövlətin ərazisinə hər hansı silahlı və ya qeyri silahlı qəsdin mövcud olması hökmən onun bölünməsi və ya tutulmasına səbəb olmur. Məsələn, hərbi banda və hərbi təyyarələrin xarici dövlətin ərazisinə daxil olması sözsüz ki, onun ərazi toxunulmazlığının pozulması deməkdir, lakin bu heç də dövlətin ərazi bütövlüyünün pozulması kimi qiymətləndirilə bilməz. Ərazi bütövlüyünün pozulması hər hansı dövlətin ərazisinin zorla bölünməsində ifadə olunur. Lakin bəzən dövlətin ərazi bütövlüyünə qəsd edilməsi onun ərazi toxunulmazlığı pozulmadan da həyata keçirilə bilər. Öz mənafeyinə uyğun olaraq bir dövlətin başqa dövləti parçalamaq məqsədi həmin dövlət ərazisindəki separatçı hərəkatı müdafiə etməsi buna misal ola bilər. Ermənistan-Azərbaycan münaqişəsinin ilk dövrlərində Ermənistanın Azərbaycanı

parçalamaq məqsədilə Dağlıq Qarabağ ərazisindəki separatçı hərəkatı dəstəkləməsi (sonradan Ermənistan Azərbaycana qarşı birbaşa açıq təcavüzə keçdi), hələ o vaxt Azərbaycanın ərazi toxunulmazlığına qəsd kimi qiymətləndirilməli idi. Çünki bütün bu hallarda dövlətin ərazi üstünlüyünə qəsd mövcuddur, burada dövlətin ərazi bütövlüyü və toxunulmazlığının pozulması göz qabağında idi.

Müxtəlif beynəlxalq hüquqi sənədlərdə, məsələn, BMT Nizamnaməsində bu prinsipin ərazi toxunulmazlığı, ATƏT-in Helsinki Yekun aktında isə ərazi bütövlüyü adlandırılmasına baxmayaraq, həmin anlayışların sinonim kimi işlədilməsi düzgün deyildir. Bu anlayışların qarşılıqlı əlaqədə olması onların eyni prinsipin tərkib hissələri olduğunu təsdiq edir. A.N.Talalayevin belə bir fikri ilə şərikik ki, "hər iki halda söhbət müasir beynəlxalq hüququn bir mühüm prinsipindən "ərazi bütövlüyü və toxunulmazlığı prinsipindən gedir"[199].

Xarici dövlətin ərazisinin zorla ələ keçirilməsinin qadağan edilməsi dövlətin ərazisinin toxunulmazlığı və bütövlüyü prinsipinin ən mühüm cəhətidir. Məhz bu cəhət dövlət ərazisini hər cür qəsdlərdən qoruyur, dövlət ərazisinin həm bütövlükdə, həm də bir hissəsinin zəbt edilməsini qadağan edir.

Zor ilə ələ keçirmək dedikdə, ərazinin zor və ya zor tətbiq etmək hədəsi ilə ələ keçirilməsi başa düşülür. Beləliklə, dövlət ərazisinin aidiyyəti məsələsi zor tətbiq etmək və zor tətbiq etməklə hədələməklə həll edilə bilməz. Bu müddəa BMT Nizamnaməsinin 2-ci maddəsinin 4- cü bəndində də öz ifadəsini tapmışdır.

Qeyd etmək lazımdır ki, xarici dövlətə qarşı silahlı qüvvə tətbiq edilməsi BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hallarından başqa qalan hallarda qadağan edilir. Zor tətbiq edilməsi və ya zor tətbiq edilməklə hədələmənin qadağan edilməsinin mövcud olduğu şəraitdə dövlət ərazisinin

---

[199] Талалаев А.Н. Хельсинки: принципы и реальность. М. 1985. с. 86

zorla ələ keçirilməsinin də xüsusi hal kimi qadağan edilməsi əbəs deyildir. Çünki silahlı qüvvənin qanuni tətbiqi baş verdikdə belə zorla ərazi dəyişikliyi yolverilməzdir. Göstərildiyi kimi özünümüdafiə qaydasında da xarici dövlətə qarşı silahlı qüvvə tətbiq edilə bilər. Bu halda təcavüzkarın ərazisinin ələ keçirilməsi, işğalı mümkündür. Lakin bu məğlub dövlətin ərazisinin ilhaqına əsas vermir.

BMT Nizamnaməsi beynəlxalq mübahisələrin həlli vasitəsi kimi müharibələri qadağan etmişdir. Nizamnamənin 2-ci maddəsinin 4-cü bəndində göstərilir ki, "dövlətin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı zor tətbiq etmə və ya zor tətbiq etməklə hədələmə" qəti qadağan olunur. Beləliklə, BMT Nizamnaməsi ərazi toxunulmazlığına qarşı zor tətbiq edilməsi və zor tətbiq etməklə hədələməni qadağan etməklə dövlət ərazisinin toxunulmazlığı prinsipini müəyyən etdi. Ərazi bütövlüyü və toxunulmazlığı ilə əlaqədar həmin müddəadan aşağıdakı nəticələr çıxır:

1) dövlətlərin ərazi toxunulmazlığına hörmət etmək vəzifəsi təşkilatın fəaliyyətinin əsas prinsiplərindən biridir;

2) dövlət ərazisinə qəsd mahiyyət etibarilə eyni zamanda dövlətin müstəqilliyinə qəsd olduğuna və müstəqillik üçün təhlükə dövlət ərazisinə qəsdə bərabər tutulduğuna görə ərazi toxunulmazlığı haqqında məsələ siyasi müstəqillik məsələsi ilə əlaqədar surətdə nəzərdən keçirilir;

BMT Nizamnaməsi ərazi toxunulmazlığına hörmət tələbini və ya siyasi müstəqilliyi zor tətbiq edilməsinin qadağan olunması ilə əlaqələndirir[200].

**5. Həlak olan şəxslər**

Azərbaycan dilinin izahlı lüğətində həlak [ər.] ölmə, məhv olma, ölüm, məhv, tələf kimi, həlak olmaq – ölmək, məhv olmaq, tələf olmaq kimi izah edilir (Azərbaycan dilinin izahlı lüğəti IV cild S-Ş. Bakı 1987. s. 375). Ona görə həlak olmaq artıq həyatda

[200] Thttps://ebooks.az/ru/book/zywvuia

olmamanı bildirir. Həlak olan şəxs ifadəsi artıq nəzərdə tutulan şəxsin həyatda olmamasını ifadə edir.

**6. Hərbi əməliyyatlar** – (lat.operatio – fəaliyyət) vahid niyyət və plan üzrə strateji, operativ-strateji, operativ və operativ-taktiki vəzifələrin həlli məqsədinə, vəzifələrinə, yer və vaxtına görə razılaşdırılmış, qarşılıqlı əlaqədə olan qoşunların eyni zamanda və ardıcıl zərbə, döyüş əməliyyatı və manevrlərlərdən ibarət hərbi fəaliyyətin məcmusudur.

Müasir şəraitdə hərbi əməliyyatlar miqyasına, tiplərinə, hərbi fəaliyyətin növlərinə, keçirilməsi vaxtı və ardıcıllığına görə fərqləndirilir.

Miqyasına görə hərbi əməliyyatlar strateji, operativ-strateji, operativ, operativ-taktiki növlərə bölünür.

Hərbi fəaliyyətin növünə görə hücum (əkshücum) və müdafiə hərbi əmaliyyatları fərqləndirilir. Hücum əməliyyatlarının məqsədi düşmənin qarşıda duran əsas qüvvələrini dağıtmaq, hücumun gələcək inkişafını təmin edən müəyyən rayonları (sədləri) ələ keçirməkdir.

Müdafiə əməliyyatlarının məqsədi, adətən, düşmənin hücumunu pozmaq, əldə olunan rayonları nəzarətdə saxlamaq və əks hücuma keçmək üçün şərait yaratmaqdır.

Əks hücum əməliyyatlarının məqsədi düşmənin hücum əməliyyatı nəticəsində əldə etdiyi nəticələri ləğv etmək, onun müdaxilə etmiş qruplarını darmadağın etmək, itirilmiş mövqeləri bərpa etmək və öz qoşunlarının sonrakı fəaliyyəti üçün şərait yaratmaqdır.

Beləliklə, hərbi əməliyyatlar dövlətin və ya silahlı birliyin müəyyən məqsədlərə çatmaq üçün planlı şəkildə həyata keçirdiyi hərbi fəaliyyətlər toplusudur. Bu fəaliyyətlər döyüş meydanında və ya strateji ərazilərdə həyata keçirilə bilər və onların əsas məqsədi düşmənə zərbə vurmaq, ərazini azad etmək, müdafiə olunmaq və ya nəzarət qurmaqdır. Hərbi əməliyyatların əsas xüsusiyyətləri planlı şəkildə həyata keçirilmədə (əməliyyatlar əvvəlcədən

hazırlanmış planlara əsaslanır, komandanlıq və idarəetmənin mövcudluğunda (yüksək rütbəli zabitlər tərəfindən idarə olunur), müxtəlif növ qoşunların iştirakı ilə həyata keçirilmədə (quru qoşunları, hava qüvvələri, dəniz donanması və s.), məqsədyönlülükdə məsələn, bir ərazinin azad edilməsi, düşmənin qüvvələrinin zəiflədilməsi və s. təzahür edir.

ABŞ Silahlı Qüvvələrində "military operation" anlayışı rəsmi doktrinalarda "A coordinated military action by a state or non-state actor involving the use of armed force to achieve strategic or tactical objectives" kimi izah edilir.

ABŞ-da hərbi əməliyyatların növlərinə aşağıdakılar daxildir:

– Combat Operations (döyüş əməliyyatları)

– Peacekeeping Operations (sülhməramlı əməliyyatlar)

– Counterinsurgency Operations (üsyana qarşı əməliyyatlar)

– Special Operations (xüsusi təyinatlı əməliyyatlar)

Böyük Britaniya ordusunda da "military operation" termini rəsmi olaraq istifadə olunur və MOD (Ministry of Defence) sənədlərində bu termin beynəlxalq hüquq, müdafiə planlaması və koalisiya əməliyyatları çərçivəsində işlədilir.

23 sentyabr 1994-cü il tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"[201]nin Preambulasında qeyd olunur ki, təlimlərdə və hərbi qulluqçulara döyüşdə hərəkətetmə qaydalarını öyrətmək məşğələlərində, eləcə də müharibə dövründə döyüş əməliyyatları zamanı daxili xidmət bu Nizamnamə ilə yanaşı, döyüş nizamnamələri və təlimatlarla müəyyən edilir".

Nizamnamənin 4-cü maddəsində isə qeyd olunur ki, hərbi qulluqçu döyüş əməliyyatlarını aparmağın, yaralılarla, xəstələrlə, gəmi qəzasına uğramış şəxslərlə və döyüş əməliyyatları rayonunda

---

[201] https://e-qanun.az/framework/9476

mülki əhali ilə, eləcə də hərbi əsirlərlə rəftar etməyin, həmçinin silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsinin beynəlxalq qaydalarını öyrənməyə və ona riayət etməyə borcludur.

Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli, 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin[202] 167-ci bəndində qeyd olunur ki, ölən, həlak olan, xəbərsiz itkin düşən, hərbi əməliyyatlarla bağlı itkin düşən, habelə hərbi rütbədən məhrum edilən hərbi qulluqçular "Azərbaycan Respublikası Silahlı Qüvvələri şəxsi heyətinin Uçotu haqqında Təlimat"la müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının siyahısından çıxarılır. Dinc dövrdə xəbərsiz itkin düşmüş və hərbi əməliyyatlar zamanı itkin düşmüş hərbi qulluqçuların Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının siyahısından çıxarılması korpus (diviziya) komandirinin, Silahlı Qüvvələr növlərinin komandanlarının, mərkəzi tabelikdə olan bölmələrin və hərbi hissələrin komandirlərinin, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı, idarə, müstəqil şöbə (xidmət) rəislərinin vəsatəti əsasında hərbi qulluqçunun yoxa çıxması haqqında məlumatın alınmasından 3 ay gec olmayaraq onun xəbərsiz yoxa çıxmasının səbəblərinin və şəraitin təhqiqatının nəticələrinə görə müvafiq icra hakimiyyəti orqanının əmri ilə həyata keçirilir.

### 7. İtkin düşənlər

İtkin düşmə və onun hüquqi nəticələri Azərbaycan Respublikası Mülki Məcəlləsinin 40-cı maddəsi ilə tənzimlənir. Əgər fiziki şəxsin olduğu yer məlum deyildirsə və iki il ərzində o, yaşayış yerində görünməmişsə, maraqlı şəxslərin ərizəsinə əsasən məhkəmə fiziki şəxsi xəbərsiz itkin düşmüş hesab edə bilər.

Fiziki şəxsin olduğu yerin məlum olmaması onun yaşamasının və əgər yaşayırsa harada yaşamasının heç kəsə məlum olmamasını

[202] https://e-qanun.az/framework/4645

ehtiva edir. Fiziki şəxsin harada yaşamasının məlum olmaması dövrü ən azı iki ili əhatə etməlidir. Yəni bu müddət iki ildən çox ola bilər, lakin müddətin iki ildən az olması şəxsin itkin düşən hesab olunmasına əsas vermir.

Maraqlı şəxs dedikdə, fiziki şəxsin itkin düşmüş elan edilməsinin doğurduğu hüquqi nəticələrin onun maraqları dairəsinə düşən şəxsləri əhatə edir. Məsələn, bu fakt nikaha xitam verilməsi, vərəsəlikdən pay əldə edilməsi, uşağın övladlığa götürülməsi, əmlak üzərində ümumi mülkiyyət hüququna xitam verilməsində marağı olan şəxsləri əhatə edə bilər.

İtkin düşmə haqqında son məlumatların alındığı günü müəyyənləşdirmək mümkün olmadıqda, xəbərsiz itkin düşmüş sayılma üçün müddətin hesablanması itkin düşmüş haqqında son məlumatların alındığı aydan sonrakı ayın birinci günündən, həmin ayı müəyyənləşdirmək mümkün olmadıqda isə növbəti ilin yanvar ayının 1-dən başlanır.

Məsələn, xəbərsiz itkin düşmüş elan edilməsi üçün məhkəməyə müraciət edilən şəxsin əsgər yoldaşı həmin şəxslə konkret hansı ayın neçəsində hərbi əməliyyatda iştirak etdiyini və həmin əməliyyatlardan sonra ondan məlumat alınmamasını bildirirsə, həmin tarixdən sonra şəxsdən heç bir məlumat alınmamışdırsa, əsgər yoldaşının göstərdiyi tarix şəxs haqqında son məlumatın alındığı tarix kimi qəbul edilməlidir. Əgər ayın konkret tarixi məlum deyilsə, lakin ayın özü dəqiq məlumdursa, onda son məlumatın alındığı tarix növbəti ayın 1-i kimi müəyyən edilir. Əgər şəxsin itkin düşdüyü ayı da müəyyən etmək mümkün deyildirsə, onda son məlumatın alındığı tarix növbəti ilin yanvar ayının 1-i kimi qəbul edilir və iki il müddəti həmin tarixdən sonra hesablanır.

Xəbərsiz itkin düşmə haqqında məhkəmənin qərarı qanuni qüvvəyə mindikdən sonra həmin şəxsin qanuni vərəsələri xəbərsiz itkin düşmüşün əmlakını etibar olunmuş əmlak kimi idarə etmək, o cümlədən ondan fayda götürmək ixtiyarı əldə edirlər. Bu əmlak-

dan xəbərsiz itkin düşmüşün öhdəsində olan şəxslərə dolanacaq xərcləri verilir və borclar ödənilir.

Xəbərsiz itkin düşmüş fiziki şəxsin qanuni əmlakının daimi idarə edilməsi zərurəti yarandıqda, əgər onun qanuni vərəsələri yoxdursa, məhkəmənin qərarı ilə bu əmlak qəyyumluq və himayəçilik orqanı tərəfindən müəyyənləşdirilən və həmin orqanla bağlanan etibarnamə ilə idarəetmə müqaviləsi əsasında fəaliyyət göstərən şəxsə verilir. Xəbərsiz itkin düşmüş şəxsin əmlakının idarəçisi itkin düşmüş şəxsin əmlakı hesabına onun borclarını ödəyir, əmlakı həmin şəxsin xeyrinə idarə edir, xəbərsiz itkin düşmüşün öhdəsində olan şəxslərə dolanacaq xərcləri verir.

Mülki Prosesual Məcəllənin 72.2-ci maddəsinə əsasən müəyyən edilmiş qaydada xəbərsiz itkin düşmüş hesab edilmiş fiziki şəxsin iştirak etməli olduğu iş üzrə xəbərsiz itkin düşmüş şəxsin əmlakının mühafizə və idarə olunması üçün təyin edilmiş qəyyum həmin şəxsin nümayəndəsi qismində çıxış edir.

Əgər idarəçinin təyin edildiyi gündən üç il keçənədək şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi haqqında məhkəmə qərarı ləğv edilməzsə və şəxsin ölmüş sayılması haqqında məhkəməyə müraciət edilməzsə, qəyyumluq və himayəçilik orqanı fiziki şəxsin ölmüş sayılması haqqında ərizə ilə məhkəməyə müraciət etməyə borcludur.

Qanunverici şəxsin xəbərsiz itkin düşmüş elan edilməsindən sonra onun gəlməsi və ya onun olduğu yerin aşkar edilməsi ehtimalını da nəzərdə tutmuşdur. Belə ki, xəbərsiz itkin düşmüş şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə məhkəmə onun xəbərsiz itkin düşmüş hesab edilməsi haqqında qərarı, habelə onun əmlakının idarə olunması haqqında qərarı ləğv edir.

Mülki Prosesual Məcəllənin 305-ci maddəsinə əsasən şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi və ya şəxsin ölmüş elan edilməsi haqqında işlərə məhkəmə xüsusi icraat qaydasında baxır.

Xüsusi icraat işləri ərizəçilər tərəfindən qaldırılır, ərizəçinin və maraqlı şəxsin iştirakı ilə məhkəmədə baxılır. Xüsusi icraat

qaydasında işlərə baxarkən məhkəməyə aid hüquq haqqında mübahisənin olduğu müəyyən edilərsə, hakim ərizənin baxılmamış saxlanılması haqqında qərardad çıxarır və maraqlı şəxslərə onların ümumi əsaslarla iddia vermək hüququnu izah edir.

MPM-nin 32-ci fəsilinin (312-316-cı maddələr) müddəalarına əsasən şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi və şəxsin ölmüş elan edilməsi haqqında ərizə ərizəçinin yaşadığı yer üzrə məhkəməyə verilir.

Ərizədə şəxsi xəbərsiz itkin düşmüş hesab etməyin və onun ölmüş elan edilməsinin ərizəçiyə nə məqsəd üçün lazım olduğu göstərilməli, habelə şəxsin xəbərsiz itkin düşməsini təsdiq edən hallar, yaxud xəbərsiz itkin düşənin ölüm təhlükəsi qarşısında olmasını və ya onun müəyyən bədbəxt hadisədən həlak olmasını güman etməyə əsas verən hallar şərh edilməlidir. Hərbi əməliyyatlar zamanı hərbi qulluqçuların və ya digər şəxslərin xəbərsiz itkin düşməsi barədə ərizədə hərbi əməliyyatın qurtardığı vaxt göstərilməlidir.

Hakim işi məhkəmə baxışına hazırladıqda hansı şəxslərin itkin düşən barədə məlumat verə biləcəyini aydınlaşdırmalı, habelə itkin düşənin məlum son yaşayış yeri və iş yeri üzrə müvafiq təşkilatlardan, polis orqanlarından onun haqqında olan məlumatları almalıdır.

Hakim ərizəni qəbul etdikdən sonra, itkin düşən şəxsin əmlakının yerləşdiyi yer üzrə müvafiq icra hakimiyyəti orqanına onun əmlakını idarə etmək üçün şəxs (qəyyum) təyin etməyi təklif edə bilər.

Şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi barədə məhkəmə qətnaməsi itkin düşənin əmlakının idarə olunması üçün müvafiq icra hakimiyyəti orqanının müqavilə bağladığı şəxsə verilməsi üçün (zəruri halda daimi idarə üçün) əsasdır.

Şəxsin ölmüş elan edilməsinə dair məhkəmə qətnaməsi, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ölümün qeydə alınması üçün də əsas təşkil edir.

Xəbərsiz itkin düşmüş hesab edilən və ya ölmüş elan edilən şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə, məhkəmə yeni qətnamə ilə özünün əvvəl çıxarmış olduğu qətnaməsini ləğv edir. Həmin qətnamə müvafiq olaraq əmlakın idarə edilməsinin və şəxsin ölümü haqqında vətəndaşlıq vəziyyəti akt qeydinin ləğvi üçün əsas hesab olunur.

Onu da qeyd edək ki, şəxsin sadəcə itkin düşməsi və ya məhkəmə qərarı ilə itkin düşmüş elan edilməsi onun şəhid statusu alması üçün kifayət deyildir. Belə ki, qanunun birinci maddəsi şəxsin hərbi əməliyyatla əlaqədar itkin düşməsi və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilməsi halında onun şəhid statusu qazanmasını müəyyən edir. Yəni ilkin olaraq itkin düşmə hərbi əməliyyatla əlaqədar olmalı və bundan sonra şəxs qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məhkəmə qətnaməsinə əsasən ölmüş hesab edilməlidir.

**8. Qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslər**

Şəxsin qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilməsi aşağıdakıları ehtiva edir:

Əgər şəxsin yaşayış yerində onun harada olması barədə beş il ərzində məlumat olmazsa, habelə o, ölüm təhlükəsi törədən və ya hansısa bədbəxt hadisədən həlak olduğunu güman etməyə əsas verən şəraitdə xəbərsiz itkin düşərsə və ondan altı ay ərzində xəbər çıxmazsa, o, məhkəmə qaydasında ölmüş elan edilə bilər.

Hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşmüş hərbi qulluqçu və ya digər şəxs hərbi əməliyyatların qurtardığı gündən azı iki il keçdikdən sonra məhkəmə qaydasında ölmüş elan edilə bilər. Məhkəmə şəxsin hərbi əməliyyatlarda həlak olduğunu güman etməyə əsas verən halları nəzərə alaraq onu bu müddət bitməzdən əvvəl, lakin hərbi əməliyyatların qurtardığı gündən altı aydan tez olmayaraq ölmüş elan edə bilər.

Şəxsin ölmüş elan edilməsi haqqında məhkəmə qərarının qanuni qüvvəyə mindiyi gün onun ölüm günü sayılır.

Qanunda (MM-in 41.1 və 41.2-ci maddələri) nəzərdə tutulan hallarda məhkəmə şəxsin həlakının güman edildiyi günü onun ölüm günü saya bilər.

Ölmüş elan edilmiş şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə məhkəmə onun ölmüş elan edilməsi barədə qərarı ləğv edir. Nə vaxt gəlməsindən asılı olmayaraq şəxs onun ölmüş elan edilməsindən sonra əvəzsiz olaraq başqa şəxsə verilmiş əmlakın qalan hissəsinin qaytarılmasını tələb edə bilər.

Ölmüş elan edilmiş şəxsin əmlakını əvəzli əldə etmiş şəxs bu əmlakı ona qaytarmağa o halda borcludur ki, əmlakı əldə edərkən onun ölmüş elan edilmiş şəxsin sağ olduğunu bildiyi sübuta yetirilsin.

Əgər ölmüş elan edilmiş şəxsin əmlakı dövlətin mədaxilinə keçirilmiş və satılmışdırsa, həmin şəxsin ölmüş elan edilməsi haqqında qərarın ləğvindən sonra əmlakın satışından götürülmüş məbləğ ona qaytarılır.

Şəhid hesab edilən şəxslərin dairəsinin müəyyənləşdirilməsində "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi Qaydalarının" təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli 10 saylı qərarı[203] ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları" (bundan sonra – Qaydalar)[204] xüsusi əhəmiyyətə malikdir. Belə ki, həmin Qaydaların 1.1-ci qaydası Qanunun 1-ci maddəsində nəzərdə tutulan şəhid anlayışını təkrarlayır. 1.2-ci qaydada isə kimlərin şəhid hesab olunduğu müəyyən edilir: Həmin qaydaya müvafiq olaraq aşağıdakılar şəhid hesab edilirlər:

"1.2.1. 1990-cı ilin yanvarında Bakı şəhərində, Lənkəran və Neftçala rayonlarında faciəli hadisələr nəticəsində həlak olanlar;

---

[203] https://e-qanun.az/framework/12184
[204] https://e-qanun.az/framework/12184

1.2.2. 11 dekabr 1988-ci ildə Leninakanda qəzaya uğrayan təyyarədə həlak olmuş şəxslər;

1.2.3. Azərbaycan Respublikasında 1988-ci ildən 1990-cı ilin yanvar ayınadək olan dövrdə Sovet Ordusunun qeyri-qanuni hərəkətləri və ya manevrləri nəticəsində həlak olmuş vətəndaşlar;

1.2.4. Ermənistanla sərhəd rayonlarında və Qarabağda erməni təcavüzü, habelə ölkənin digər ərazilərində erməni hərbi təxribatı (hücumu, zərbəsi) nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlar;

1.2.5. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı həlak olmuş və itkin düşmüş hərbi qulluqçular;

1.2.6. Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hadisələrdə, o cümlədən atəşkəs dövründə döyüş şəraitində olan hərbi hissələrdə və ya daxili işlər, dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarında, habelə Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətində, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyində döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi üzrə xidməti vəzifəsinin icrası zamanı həlak olmuş, itkin düşmüş və məhkəmənin qərarına əsasən ölmüş hesab edilmiş şəxslər;

1.2.7. Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı həlak olmuş və ya itkin düşmüş hərbi qulluqçular".

Qeyd etmək lazımdır ki, Qaydaların 1.2.6-cı qaydası Azərbaycan Respublikası Nazirlər Kabinetinin15 iyul 2009-cu il tarixli 107 nömrəli Qərarı[205] qəbul edilənə kimi aşağıdakı redaksiyada idi: "1.2.6. Azərbaycan Respublikasının azadlığı, suverenliyi və

[205] https://e-qanun.az/framework/18120

ərazi bütövlüyü ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən digər hadisələrdə həlak olan,itkin düşən və ölmüş hesab edilən şəxslər, o cümlədən atəşkəs dövründə döyüş bölgələrində yerləşən hərbi hissələrdə və daxili işlər orqanlarında xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəşlər nəticəsində, habelə minaya düşərək həlak olan şəxslər".

Qeyd olunan qərarla Qaydaların 1.2.6-cı yarımbəndi yeni redaksiyada verilmişdir.

**9. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə dair" 30 dekabr 2008-ci il tarixli qərarı**[206] Qaydaların 1.2.6-cı yarımbəndinin yeni redaksiyada verilməsi üçün əsas yaratmışdır.

Qərarda müəyyən edilir ki, "Könül Suleyman qızı Vəliyeva Azərbaycan Respublikası Müdafiə Nazirliyinə qarşı şəhid statusunun verilməsinə dair xüsusi iddia ərizəsi ilə məhkəməyə müraciət etmiş və ərizəsində göstərmişdir ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tərkibində olan (bundan sonra – "Müdafiə Nazirliyi") Gədəbəy rayonunda yerləşən hərbi hissədə hərbi xidmətini yerinə yetirən əri Xalid Xanhüseyn oğlu Vəliyev 27 yanvar 2006-cı ildə, hərbi hissənin düşmənlə üzbəüz olan postu ilə kəsilmiş rabitə əlaqəsinin bərpasına dair komandirdən verilmiş göstərişi icra edərkən qəflətən dağdan qopan qar uçqunu altında qalıb həlak olmuşdur".

Mərhum ərinin adının əbədiləşdirilməsi barədə müraciətinə Müdafiə Nazirliyinin Kadrlar və Hərbi Təhsil İdarəsinin Hərbi Rütbələr və Təltiflər Şöbəsi rəisinin 23 avqust 2007-ci il tarixli məktubu ilə imtina cavabı verilmişdir. Həmin məktubda Azərbaycan Respublikası Nazirlər Kabinetinin (bundan sonra – "Nazirlər

[206] https://e-qanun.az/framework/18120

Kabineti") 15 yanvar 1994-cü il tarixli Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın (bundan sonra – "Qaydalar") 1.2.6-cı bəndinə istinadən göstərilir ki, onun əri nə güllə yarasından, nə də minaya düşüb həlak olmadığından ona şəhid statusunun verilməsi mümkün deyildir. Bununla razılaşmayan K.Vəliyeva yuxarıda qeyd olunan məktubun qanunsuz hesab edilməsini və ərinə şəhid statusunun verilməsi vəzifəsinin Müdafiə Nazirliyinin üzərinə qoyulmasını məhkəmədən xahiş etmişdir.

İşə baxan Səbail rayon məhkəməsi mərhum X.Vəliyevin 27 yanvar 2006-cı il tarixdə xidməti vəzifə borcunu yerinə yetirərkən qar uçqunu nəticəsində öldüyünü müəyyən edərək Qaydaların 1.2.6-cı bəndi baxımından ona şəhid adının verilməli olmaması nəticəsinə gəlməklə 07 dekabr 2007-ci il tarixli qətnaməsi ilə iddianı rədd etmişdir.

Birinci instansiya məhkəməsinin qətnaməsindən narazı qalmış ərizəçi apellyasiya şikayəti vermişdir. İşə apellyasiya qaydasında baxılmasının gedişində, iddiaçı vəsatət qaldıraraq, məsələ ilə bağlı Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – "Konstitusiya Məhkəməsi") müraciət olunmasını xahiş etmişdir. Həmin vəsatətlə razılaşan Bakı Apellyasiya Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyası 04 iyul 2008-ci il tarixli qərardadla vəsatəti təmin edərək Konstitusiya Məhkəməsinə müraciət edilməsini qərara almışdır.

Bakı Apellyasiya Məhkəməsi (bundan sonra – "məhkəmə") Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın 1.2.6-cı bəndi baxımından "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının 03 sentyabr 1993-cü il tarixli Qanununun (bundan sonra – "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında Qanun") 1-ci maddəsinə şərh verilməsini xahiş etmişdir.

Müraciət onunla əsaslandırılmışdır ki, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində şəhid anlayışının Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan şəxs kimi müəyyən edilməsinə baxmayaraq Qaydaların 1.2.6-cı bəndində atəşkəs dövründə bu şəxslər kateqoriyasına yalnız döyüş bölgələrində yerləşən hərbi hissələrdə və daxili işlər orqanlarında xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəşlər nəticəsində, habelə minaya düşərək həlak olanlar aid edilmişdir.

Məhkəmənin qənaətinə görə, Nazirlər Kabinetinin müəyyən etdiyi dairə həddən artq məhdud olmaqla yanaşı ədalətsizdir, ona görə ki, xidməti vəzifəsini yerinə yetirərkən həlak olmaq yalnız düşmən gülləsi almaq və ya minaya düşmək nəticəsində deyil, həm də soyuq silahla və ya başqa üsullarla baş verə bilər. Bu baxımdan, məhkəmə hesab edir ki, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi bütün bu hadisələri əhatə edəcək dərəcədə geniş olsa da, Nazirlər Kabinetinin qəbul etdiyi Qaydalarda bu dairə çox məhdud təfsir edilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı Azərbaycan Respublikasının Konstitusiyasını (bundan sonra – “Konstitusiya”) və hərbi qulluqçulara aid bəzi qanunvericilik müddəalarını nəzərə almaqla aşağıdakıların qeyd olunmasını zəruri hesab etmişdir.

Azərbaycan Respublikasında Vətənə sədaqət müqəddəsdir. Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər (Konstitusiyanın 74-cü maddəsinin I hissəsi və 76-cı maddəsinin I hissəsi).

“Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının 09 oktyabr 1991-ci il tarixli Qanununun 1-ci maddəsində müəyyən edilib ki, Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsi, dövlətə silahlı hücumun qarşı-

sının alınması, təcavüz olarsa, onun dəf edilməsi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin məqsədidir.

Azərbaycan Respublikasının 23 sentyabr 1994-cü il tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin 1-ci bəndinə əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəni Azərbaycan Respublikasının müdafiəçisidir. Hərbi qulluqçu öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. O, Azərbaycan Dövlətinin mənafeyini qorumağa, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərməyə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına müqəddəscəsinə və sarsılmaz surətdə riayət etməyə, hərbi andı yerinə yetirməyə, intizamlı, vicdanlı, doğruçu və cəsarətli olmağa, hərbi borcunu yerinə yetirərkən, bütün qüvvəsini və lazım gəldikdə, canını əsirgəməməyə, komandirlərə (rəislərə) sözsüz tabe olmağa və döyüşdə onları müdafiə etməyə, öz hərbi hissəsinin Döyüş Bayrağını göz bəbəyi kimi qorumağa borcludur.

Silahlı Qüvvələri formalaşdıran hərbi qulluqçuların hərbi vəzifələri "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının 25 dekabr 1991-ci il tarixli Qanununda əksini tapmışdır. Həmin Qanunun 4-cü maddəsinin 2-ci bəndinə görə hərbi qulluqçular hərbi xidmət vəzifələrini faktik yerinə yetirdikləri bütün hallarda, o cümlədən döyüş əməliyyatlarında iştirak edərkən, təlimlərdə, döyüş növbəsində (döyüş xidmətində), gündəlik və qarnizon növbələrində, toplanışlarda, ezamiyyətlərdə olarkən, xidmət yerinə gedib-gələrkən və başqa hallarda hərbi xidmət başında sayılırlar.

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunun 1-ci maddəsində verilmiş şəhid adının anlayışına görə şəhid Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxsdir.

Göstərilən qanunvericilik normalarının təhlilindən göründüyü kimi, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Qanunun 1-ci maddəsi Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidməti vəzifəsi çərçivəsində Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasından irəli gələn borcunu həyata keçirməsi ilə bağlı həlak olmuş şəxslərin də şəhid hesab olunduğunu əhatə edir. Bu qanun norması şəhid adının verilməsi üçün üsul, şərait və vəziyyətdən asılı olmayaraq göstərilən şəxslərin həlak olması ilə Azərbaycan Respublikasının azadlığının, suverenliyinin və ərazi bütövlüyünün qorunması arasında səbəbli əlaqənin mövcudluğunu şərtləndirir.

“Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Qanunun tətbiqi ilə əlaqədar məsələlərin həlli üçün zəruri aktların qəbul olunması həmin Qanunun 8-ci maddəsi ilə Nazirlər Kabinetinə həvalə olunmuşdur.

Bundan irəli gələrək Nazirlər Kabineti 15 yanvar 1994-cü il tarixdə “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının” təsdiq olunması haqqında” 10 saylı Qərar qəbul etmişdir. Qaydaların 1.1-ci bəndində “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Qanunun 1-ci maddəsi təkrarlanmaqla, 1.2-ci bənddə göstərilmişdir ki, aşağıdakılar şəhid hesab edilirlər:

1990-cı ilin yanvarında Bakı şəhərində, Lənkəran və Neftçala rayonlarında faciəli hadisələr nəticəsində həlak olanlar (1.2.1-ci bənd);

11 dekabr 1988-ci ildə Leninakanda qəzaya uğrayan təyyarədə həlak olmuş şəxslər (1.2.2-ci bənd);

Azərbaycan Respublikasında 1988-ci ildən 1990-cı ilin yanvar ayınadək olan dövrdə Sovet Ordusunun qeyri-qanuni hərəkətləri və ya manevrləri nəticəsində həlak olmuş vətəndaşlar (1.2.3-cü bənd);

Ermənistanla sərhəd rayonlarında və Qarabağda erməni təcavüzü nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlar (1.2.4-cü bənd);

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı həlak olmuş və itkin düşmüş hərbi qulluqçular (1.2.5-ci bənd);

Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən digər hadisələrdə həlak olan, itkin düşən və ölmüş hesab edilən şəxslər (1.2.6-cı bənd).

Nazirlər Kabinetinin 05 mart 1999-cu il tarixli 35 saylı və 22 may 2006-cı il tarixli 131 saylı Qərarları ilə Qaydaların 1.2.6-cı bəndinə "o cümlədən atəşkəs dövründə döyüş bölgələrində yerləşən hərbi hissələrdə və daxili işlər orqanlarında xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəşlər nəticəsində, habelə minaya düşərək həlak olan şəxslər" müddəası əlavə edilmişdir.

Qaydaların şəhid adının verilməsi mexanizmini tənzimləyən 4.1-ci bəndinə müvafiq olaraq şəhid və şəhid ailəsi statusunun verilməsi məsələsinə maraqlı şəxsin müraciəti və dövlət orqanlarının və ya müvafiq hərbi hissənin vasatəti ilə baxılır. Həmin bəndə görə, şəhid ailəsi statusu gizir və zabit heyəti üçün Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin kadrlar idarəsi, digər hərbi qulluqçulara qeydiyyatda olduqları hərbi komissarlıqlar, mülki vətəndaşlara isə rayon (şəhər) icra hakimiyyəti orqanlarının verdiyi arayışlarla təsdiq olunur. Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti və rayon (şəhər) icra hakimiyyəti orqanları şəhid və şəhid ailəsi hesab edilməsi üçün müraciət və vəsatətləri dərhal qəbul edib, bir aydan gec olmayaraq "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanuna və bu Qaydalara müvafiq surətdə arayış verməlidir. Şəhid ailələrinə vəsiqə bu Qaydaların 4.1-ci bəndində göstərilən arayışlara əsasən yaşadıqları ərazi üzrə əhalinin sosial müdafiə mərkəzləri tərəfindən verilir (4.2-ci bənd). Həmçinin vurğulanmalıdır ki, qeyd olunan məsələ ilə bağlı

səlahiyyətli orqanların qəbul etdiyi aktlarla razılaşmayan maraqlı şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək hüquqları vardır.

Göründüyü kimi "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunun 1-ci maddəsində şəhid adının verilməsinin Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü ilə əlaqələndirilməsi şəhid adına layiq görülmənin mümkün olduğu hadisələrin geniş dairəsini əhatə edir. Eyni zamanda Qaydaların qeyd olunan müddəalarının təhlili göstərir ki, Nazirlər Kabineti şəhid anlayışını həmin Qanunda olduğu kimi təkrarlayaraq, konkret hadisələrdə həlak olmuş və ya itkin düşmüş şəxslərin şəhid hesab olunduğunu müəyyən etmişdir.

Həmçinin nəzərə alınmalıdır ki, Qaydalarda qanunvericiliklə digər hadisələrin müəyyən olunması mümkünlüyünün nəzərdə tutulması (1.2.6-cı bənd) "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunun 1-ci maddəsi ilə ziddiyyət təşkil etmir. Belə ki, qanunvericiliklə digər hadisələrin müəyyən edilməməsi Qaydaların 4.1-ci bəndinə əsasən şəhid və şəhid ailəsi statusunun verilməsi məsələsinə baxan səlahiyyətli dövlət orqanları tərəfindən qeyd olunan Qanunun 1-ci maddəsinə müvafiq olaraq Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş, itkin düşmüş və ya ölmüş hesab edilmiş şəxslərə şəhid adının verilməsini istisna etmir.

Lakin Qaydaların 1.2.6-cı bəndinə sonradan əlavə olunmuş "o cümlədən atəşkəs dövründə döyüş bölgələrində yerləşən hərbi hissələrdə və daxili işlər orqanlarında xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəşlər nəticəsində, habelə minaya düşərək həlak olan şəxslər" müddəasında atəşkəs dövrünə aid məhz iki halın xüsusi olaraq göstərilməsi, qanun normasına nisbətən daha məhdud xarakterli təəssürat yaratmaqla, qeyd olunan Qanun əsasında şəhid adının verilməsini istisna etməsə də, hər hansı başqa şəraitdə həlak olmuş şəxslərə şəhid adının verilməsini mümkünsüz edən kimi görünür.

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin I hissəsinin 5-ci bəndinə əsasən, Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar sırasında olduğu üçün müəyyən tələblərə cavab verməlidir. Belə ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin mövqeyinə görə, əgər qayda vətəndaşa öz davranışını idarə etmək üçün imkan verən kifayətedici dəqiqliklə ifadə olunmayıbsa, o, "qanunvericilik norması" kimi qəbul oluna bilməz: vətəndaş – zərurət olduqda, müvafiq məsləhətlə – olduğu vəziyyəti baxımından ağlabatan olan dərəcədə, müvafiq hərəkətin səbəb ola biləcəyi nəticələri əvvəlcədən gözləmək imkanına malik olmalıdır (bax, *Maestri İtaliyaya qarşı* (Böyük Palata), № 39748 /98, § 30, İHAM 2004-I; *Adalı Türkiyəyə qarşı*, № 38187/97, § 272, 31 mart 2005-ci il; və *Rekveni Macarıstana qarşı* (Böyük Palata), № 25390/94, § 34, İHAM 1999-III).

Konstitusiya Məhkəməsinin Plenumu da əvvəllər ifadə etdiyi hüquqi mövqeyini təkrarlamaqla qeyd etmişdir ki, konstitusiya hüququnun doktrinası hüquqi müəyyənlik prinsipini Konstitusiyanın Preambulasında öz əksini tapan qanunun aliliyinin əsas elementlərindən biri kimi tanıyır. Hüquqi müəyyənlik prinsipi isə digər tələblərlə yanaşı ən ümumi mənasında mövcud hüquqi vəziyyətə aid aydınlığı və müəyyənliyi nəzərdə tutur ("Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci maddəsinə dair" Konstitusiya Məhkəməsi Plenumunun 27 may 2008-ci il tarixli Qərarı).

Bu baxımdan Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəxsin qanunda müəyyən olunmuş meyarlara əsasən, həlak olmanın bütün hallarında şəhid adını alması imkanı aydın ifadə edilməli və əlçatan olmalıdır. Qaydaların 1.2.6-cı bəndinin sonradan əlavə olunmuş hissəsində isə şəhid adının verilməsi üçün həlak olmanın sadəcə iki halının göstərilməsi təcrübədə bu yüksək adın verilməsində anlaşılmazlıq yaratmaqla qeyri-müəyyənliyə səbəb olur.

Həmçinin müqayisə üçün qeyd etmək lazımdır ki, Nazirlər Kabinetinin 73 saylı 02 iyun 2003-cü il tarixli Qərarı ilə Qaydalara aşağıdakı redaksiyada 1.2.7-ci bənd əlavə olunmuşdur:

"Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı həlak olmuş və ya itkin düşmüş hərbi qulluqçular".

Göründüyü kimi Qaydalara əlavə olunmuş 1.2.7-ci bənddə Nazirlər Kabineti Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı həlak olmuş və ya itkin düşmüş hərbi qulluqçulara şəhid statusunun verilməli olduğunu təsbit edərkən, həlak olma halları ilə bağlı hər hansı fərq müəyyən etməmişdir.

Yuxarıda göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlmişdir ki:

Qaydaların 1.2.6-cı bəndinin "o cümlədən atəşkəs dövründə döyüş bölgələrində yerləşən hərbi hissələrdə və daxili işlər orqanlarında xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəşlər nəticəsində, habelə minaya düşərək həlak olan şəxslər" müddəası hüquqi müəyyənlik prinsipinin tələbləri baxımından aydın və dəqiq ifadə edilmədiyi üçün qeyri-müəyyənliyə səbəb olduğuna görə, şəxsin şəhid hesab olunması ilə bağlı hüquq münasibətlərinə daha yüksək hüquqi qüvvəyə malik olan "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunun 1-ci maddəsi tətbiq edilməli və

Qaydaların 1.2.6-cı bəndinin "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunun tələblərinə müvafiq təkmilləşdirilməsi Nazirlər Kabinetinə tövsiyə edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli Qərarı ilə təsdiq edilmiş “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları”nın 1.2.6-cı bəndinin “o cümlədən atəşkəs dövründə döyüş bölgələrində yerləşən hərbi hissələrdə və daxili işlər orqanlarında xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəşlər nəticəsində, habelə minaya düşərək həlak olan şəxslər” müddəası təcrübədə qeyri-müəyyənliyə səbəb olduğuna görə şəxsin şəhid hesab olunması ilə bağlı hüquq münasibətlərinə daha yüksək hüquqi qüvvəyə malik olan “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının 03 sentyabr 1993-cü il tarixli Qanununun 1-ci maddəsinin tətbiq edilməli olduğunu və

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli Qərarı ilə təsdiq edilmiş “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları”nın 1.2.6-cı bəndinin “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının 03 sentyabr 1993-cü il tarixli Qanununun tələblərinə müvafiq təkmilləşdirilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tövsiyə edilməsini qərara almışdır”.

Konstitusiya Məhkəməsi Plenumunun həmin qərarı şəhid statusu almağa haqqı olan şəxslərin və onların ailə üzvlərinin hüquqlarının təminində ədalətin bərpası üçün mühüm addım kimi dəyərləndirilməlidir.

**10. Şəhid ailəsinin üzvləri**

Şərh olunan maddənin 2-ci hissəsində qeyd olunur ki, qüvvədə olan qanunvericiliyə müvafiq surətdə aşağıdakı şəxslər şəhid ailəsinin üzvləri hesab edilir:

ər-arvad, valideyn, 18 yaşına çatmamış uşaqlar, 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan övladları, qardaşlar və bacılar, uşaq evlərində tərbiyə olunan-

lar; peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrində təhsil alanlar isə həmin təhsil müəssisələrini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək; qanunla onları saxlamalı şəxs yoxdursa babalar və nənələr.

Həmin mətndə istifadə olunan "qüvvədə olan qanunvericiliyə müvafiq surətdə" ifadəsi hər şeydən əvvəl ailə üzvü kimi sadalanan şəxslərin statuslarının (ər-arvad, valideyn, 18 yaşına çatmamış uşaqlar, 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan övladları, qardaşlar və bacılar, uşaq evlərində tərbiyə olunanlar; peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrində təhsil alanlar isə həmin təhsil müəssisələrini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək; qanunla onları saxlamalı şəxs yoxdursa, babalar və nənələr) qüvvədə olan qanunvericiliyə əsaslanmasını tələb edir.

Ailə Məcəlləsinin 9.4-cü maddəsinə əsasən ər-arvadın hüquq və vəzifələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikahın bağlanmasının dövlət qeydiyyatı günündən yaranır. Nikah müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin, bu barədə ərizə verdikləri gündən 1 ay sonra onların iştirakı ilə bağlanır.

Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq ər və arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər.

Analıq, atalıq, uşaqların tərbiyəsi və təhsili, eləcə də ailənin digər məsələləri ər-arvadın hüquq bərabərliyi prinsiplərinə uyğun olaraq birgə həll edilir. Ər (arvad) özünə məşğuliyyət, sənət və yaşayış yeri seçməkdə azaddır.

Ər-arvad ailədə öz münasibətlərini qarşılıqlı yardım və hörmət hissi əsasında qurmalı, ailənin möhkəmləndirilməsi və rifahı üçün birgə fəaliyyət göstərməli, övladlarının inkişafı üçün əlverişli şərait yaratmalı və onların sağlamlığının qayğısına qalmalıdırlar. Ər və arvad bir-birinə maddi cəhətdən kömək etməlidirlər. Ər-arvad arasında qarşılıqlı öhdəlikləri onların nikahda olduqları

müddətə aiddir. Odur ki şəhid hesab olunan şəxsin ailə üzvü statusu şəhidlik baş verdiyi zaman nikahda olan arvada (ərə) münasibətdə qüvvədə olacaqdır. Faktiki birgəyaşayış şəhidin ailə üzvü statusunu almaq üçün əsas ola bilməz.

Ailə Məcəlləsinin 43-cü maddəsinə əsasən  valideynlərin və uşaqların hüquq və vəzifələri qanunvericiliklə müəyyən olunmuş qaydada uşağın mənşəyinin təsdiq olunmasına əsaslanır.

Uşağın anadan mənşəyi (analıq) ananın uşağı tibb müəssisəsində doğmasını təsdiq edən sənəd əsasında, uşaq tibb müəssisəsindən kənarda anadan olduqda doğuma kömək göstərmiş həkimin sənədi əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən, bu sənədlər olmadıqda isə şahid ifadələri və digər sübutlar əsasında məhkəmə tərəfindən müəyyən olunur.

Uşaq, aralarında nikah bağlanmış şəxslərdən olduqda, eləcə də nikahın pozulması və ya etibarsız sayılması vaxtından və ya uşağın atasının ölümündən 300 gün ərzində doğulduqda, başqa sübutlar yoxdursa, uşağın atası ananın əri (keçmiş əri) hesab olunur. Atalıq ərlə ananın nikahı haqqında qeyddə təsdiq olunur.

Uşağın anası ilə nikahda olmayan şəxsin atalığı uşağın atasının və anasının müvafiq icra hakimiyyəti orqanına birgə ərizə vermələri ilə müəyyən olunur.

Ana öldükdə, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, ananın yerini müəyyən etmək mümkün olmadıqda və ya o, valideynlik hüquqlarından məhrum edildikdə, atalıq müvafiq icra hakimiyyəti orqanının razılığı ilə uşağın atasının ərizəsi əsasında, bu razılıq olmadıqda isə məhkəmənin qərarı ilə müəyyən olunur.

Atalığın müəyyən olunması haqqında birgə ərizə verməyin uşağın doğulmasından sonra qeyri-mümkünlüyü və ya çətinliyi güman olunduğu hallarda gələcək uşağın öz aralarında nikahda olmayan valideynləri bu ərizəni müvafiq icra hakimiyyəti orqanına ananın hamiləliyi dövründə vermək hüququna malikdirlər. Uşağın valideynləri haqqında qeyd uşaq doğulduqdan sonra aparılır.

Yetkinlik yaşına çatmış şəxs barədə atalığın müəyyən olunmasına yalnız onun razılığı ilə, həmin şəxs fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə isə onun qəyyumu və ya müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yol verilir.

Uşaq aralarında nikah olmayan şəxslərdən olduqda və valideynlərin birgə ərizəsi və ya uşağın atasının ərizəsi olmadıqda, atalıq uşağın valideynlərindən birinin, uşağın qəyyumunun (himayəçisinin), uşağı saxlayanın, habelə uşaq yetkinlik yaşına çatdıqda onun özünün ərizəsi əsasında məhkəmə qaydasında müəyyən olunur. Bu zaman məhkəmə uşağın konkret şəxsdən törəməsi ilə əlaqədar istənilən sübutun mötəbərliyini nəzərə ala bilər.

Uşağın anası ilə nikaha daxil olmayan, lakin özünü uşağın atası hesab edən şəxs öldükdə, atalığın tanınması faktı Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında müəyyən oluna bilər.

Öz aralarında nikahda olan ata və ana doğum haqqında şəhadətnamədə uşağın valideynləri kimi qeyd olunurlar.

Valideynlər öz aralarında nikahda olmadıqda uşağın anası haqqında qeyd ananın ərizəsi, atası haqqında qeyd isə uşağın atasının və anasının birgə ərizəsi və ya atanın ərizəsi əsasında, habelə məhkəmənin qərarı əsasında aparılır.

Şəhid statusu almış şəxsin uşaqlarının şəhidin ailə üzvü kimi tanınması üç halda mümkündür: birincisi onlar 18 yaşına çatmamış uşaqlar olduqda, ikincisi, 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş və 18 yaşından yuxarı əlilliyi olduqda, üçüncüsü, peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrində təhsil alanlar isə həmin təhsil müəssisələrini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək.

Şəhidin bacı və qardaşları iki halda şəhid ailəsi üzvü hesab olunurlar: birincisi, şəhidin qardaş və bacıları uşaq evlərində tərbiyə olunduqda və ikincisi, peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrində təhsil alanlar isə həmin təhsil müəssisələrini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək.

Ailə Məcəlləsinin 89-cu maddəsi baba və nənənin nəvələrini, 90-cı maddəsi isə nəvələrin baba və nənəni saxlamaq vəzifələrini tənzimləyir.

Yardıma ehtiyacı olan yetkinlik yaşına çatmayan nəvələr saxlanmaq üçün öz valideynlərindən maddi yardım ala bilmədikdə, buna zəruri vəsaitə malik baba və nənədən məhkəmə qaydasında aliment almaq hüququna malikdirlər. Əmək qabiliyyəti olmayan və yardıma ehtiyacı olan yetkinlik yaşına çatan nəvələr saxlanmaq üçün valideynlərindən, yaxud da ərdən (arvaddan) maddi yardım ala bilmədikdə, onlara da eyni hüquq verilir.

Əmək qabiliyyəti olmayan və yardıma ehtiyacı olan baba və nənə saxlanmaq üçün yetkinlik yaşına çatan övladlarından və ya ərindən (arvadından) maddi yardım ala bilmədikdə, zəruri vəsaitə malik nəvələrdən məhkəmə qaydasında aliment verilməsini tələb etmək hüququna malikdirlər.

Şəhidin baba və nənələrini qanunla saxlamalı şəxs yoxdursa babalar və nənələr şəhid ailəsinin üzvü statusuna malik olurlar.

Qaydaların 2-ci qaydası şəhid ailəsi üzvlərinə həsr olunmuş və həmin qayda aşağıdakıları nəzərdə tutur:

“2.1. Şəhid ailə üzvləri aşağıdakılar hesab olunurlar;

2.1.1. arvadı (əri);

2.1.2. valideynləri;

2.1.3. 18 yaşına çatmamış uşaqları, 18 yaşınadək əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı əlilliyi olan övladları;

2.1.4. qardaşları və bacıları – uşaq evlərində tərbiyə olunanlar;

2.1.5. babalar və nənələr, qanunla onları saxlayan şəxs yoxdursa;

2.1.6. 2.1.3 və 2.1.4 bəndlərində göstərilənlər əyani təhsil müəssisələrində təhsil aldıqda 23 yaşa çatanadək ailə üzvü hesab edilirlər.

**11. Status –** (lat.) vətəndaş və hüquqi şəxsin hüquqi və digər rəsmi strukturda vəziyyəti, yeri, hüquq və vəzifələrinin məcmusunu ehtiva edir. Azərbaycan Respublikasının azadlığı, suverenliyi

və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslər şəhid statusu aldıqdan sonra həmin statusa müvafiq olaraq onların xatirəsini əbədiləşdirmək məqsədilə qəbirüstü abidələrin, xatirə komplekslərinin yaradılması, adlarının küçələrə, meydanlara, müəssisələrə, təşkilatlara, idarələrə, məktəblərə, mədəni-maarif ocaqlarına verilməsi kimi tədbirlər həyata keçirilir. Şəhidin ailə üzvləri şəhid ailəsi statusunu əldə edir və ailə başçısını itirməyə görə əmək pensiyası, mənzil, iş və bir sıra digər sosial müdafiə təminatları əldə edirlər (Bax: şərh olunan Qanunun 3-cü maddəsi).

**12. Sosial müdafiə** – insanın həyat və əmək fəaliyyəti dövründə üzləşə biləcəyi sosial risklərə (qocalıq, xəstəlik, əlillik, işsizlik, ailə başçısının itirilməsi və s.) qarşı dövlətin və cəmiyyətin təmin etdiyi iqtisadi, hüquqi və təşkilati tədbirlər sistemidir.

Milli qanunvericiliyə müvafiq olaraq sosial müdafiə Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi əsasında əhalinin aztəminatlı, sosial cəhətdən həssas qruplarının layiqli həyat şəraitinin təmin edilməsi məqsədilə həyata keçirilən sosial təminat, sosial xidmət və sosial yardım tədbirləri məcmusu kimi müəyyən edilir.

BMT-nin Sosial Müdafiə üzrə Minimum Standartlar Sazişə əsasən sosial müdafiəni (social protection) – insanların yoxsulluq və sosial xarakterli risklərdən qorunması üçün dövlət və ya digər subyektlər tərəfindən həyata keçirilən müdaxilə tədbirləri sistemidir. Bu tədbirlər arasında nağd ödənişlər, tibbi və sosial xidmətlər, sosial sığorta, sosial yardım və əmək bazarının müdaxilə mexanizmləri yer alır[207].

Sosial müdafiəni sosial ədalətin təmin olunmasına və insanların həyat keyfiyyətinin qorunmasına yönəlmiş dövlət siyasətidir.

---

[207] BMT-nin Sosial Müdafiə üzrə Minimum Standartlar Sazişi, ILO Recommendation No. 202) //https://normlex.ilo.org/dyn/nrmlx_en/f?p=NORMLEXPUB:12100:0::NO::P12100_INSTRUMENT_ID:3065524

O, fərdləri və ailələri həyatlarını təhlükəyə atan hallardan (xəstəlik, işsizlik, əlillik, yaşlılıq və s.) qoruyur və bu hallar baş verdikdə onlara sosial və iqtisadi dəstək verir.

Azərbaycan Respublikası qanunvericiliyində sosial müdafiə geniş və sistemli şəkildə tənzimlənmişdir. Bu anlayış insanların sosial risklərə (qocalıq, xəstəlik, əlillik, işsizlik, ailə başçısının itirilməsi və s.) qarşı müdafiəsini və həyat şəraitinin yaxşılaşdırılmasını nəzərdə tutur. Azərbaycan qanunvericiliyində sosial müdafiənin əsas istiqamətləri və əhatə etdiyi məsələlərə aşağıdakıları aid etmək olar: Pensiya təminatı (qocalığa görə pensiya, əlilliyə görə pensiya, ailə başçısını itirməyə görə pensiya), sosial müavinətlər (uşaqlı ailələrə müavinətlər, ailə başçısını itirənlərə müavinətlər, əlillərə verilən müavinətlər, aztəminatlı ailələr üçün sosial yardım), əlillərin sosial müdafiəsi (tibbi-sosial ekspertiza və əlillik qruplarının müəyyənləşdirilməsi, reabilitasiya xidmətləri (psixoloji, peşə, sosial reabilitasiya, əlillərə təhsil, məşğulluq və sosial xidmətlər sahəsində imkanlar, əlillərin yaşayış mühitinə uyğunlaşdırma (binaların əlçatan olması və s.), sosial sığorta (məcburi dövlət sosial sığorta sistemi, işəgötürən və işçilərin öhdəlikləri, sığorta haqları və onların idarə olunması, sığorta hadisəsi baş verdikdə ödəniş hüququ, məşğulluq və işsizlik (işsiz kimi qeydiyyata alınma və iş axtaranların dəstəklənməsi, dövlət tərəfindən aktiv məşğulluq tədbirləri, peşə hazırlığı və yenidənhazırlıq, işsizlik müavinətləri) aztəminatlı ailələrin sosial müdafiəsi (ailənin gəlirinin hesablanması, dövlətin verdiyi aylıq sosial yardım, yoxsulluq səviyyəsinin müəyyən edilməsi və yardımların hədəflənməsi), şəhid ailələrinin və müharibə iştirakçılarının müdafiəsi (mənzil və kommunal xidmətlərdə güzəştlər, tibbi xidmətlərdə üstünlüklər, pensiya və təqaüdlər, təhsil və işə qəbulda imtiyazlar), qadınlar, uşaqlar və yaşlılar (ana və uşaq hüquqları (analıq məzuniyyəti, doğuşa görə müavinət və s., yetim uşaqlar və valideyn himayəsindən məhrum olanların sosial təminatı, ahıllar üçün sosial xidmət müəssisələri və sosial yardım proqramları və s.

**M a d d ə 2. Şəhid və şəhid ailəsi statusu verilməsinin qaydası**

**Bu Qanunun 1-ci maddəsində göstərilən şəxslərə şəhid və ya şəhid ailəsi statusu verilməsi üçün marağı olan şəxs müvafiq dövlət orqanlarına müraciət edir.**

**Bu məsələyə dövlət orqanının və ya müvafiq hərbi hissənin vəsatəti ilə də baxıla bilər.**

**Müvafiq dövlət orqanı müraciətləri və vəsatətləri dərhal qəbul edib bir aydan gec olmayaraq şəhid və ya şəhid ailəsi statusu barədə bu Qanuna müvafiq surətdə sənəd verməlidir.**

**Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) şəhid və şəhid ailəsi statusu almış şəxslərin vahid informasiya bazasını yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sistemində şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrini elektron formada aparır. Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.**

**Maddənin məqsədi** Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərə şəhid və onların ailələrinə şəhid ailəsi statusu verilməsi qaydalarının müəyyən edilməsidir.

Şərh olunan maddə ilkin olaraq müəyyən edir ki, Qanunun 1-ci maddəsində göstərilən şəxslərə şəhid və ya şəhid ailəsi statusu verilməsi üçün marağı olan şəxs müvafiq dövlət orqanlarına müraciət edir.

Qanunun 1-ci maddəsi şəhid statusu verilməli olduğu şəxsləri "Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən

və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən" şəxslər kimi müəyyən edir. Ona görə də maraqlı şəxslər yalnız "Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən" şəxslərə şəhid statusunun verilməsi üçün müvafiq dövlət orqanlarına müraciət edə bilərlər. Həlak olmuş şəxsin göstərilən kateqoriyadan olan şəxsə aid olmaması müraciətin rədd olunması üçün əsas təşkil edəcəkdir.

**2. Şəhid ailəsi statusunun verilməsi** üçün ilkin olaraq həlak olmuş şəxsin şəhid hesab olunması zəruridir. Ona görə də həlak olan şəxsin şəhid hesab olunması barədə müraciət olmadan şəhid ailəsi statusu alınması üçün müraciət edilməsi səmərəli olmayacaqdır. Lakin qanunverici həm şəhid, həm də şəhid ailəsi statusunun verilməsi üçün eyni vaxtda müraciət olunmasını istisna etmir, əksinə, bu cür müraciətlərin eyni vaxtda olunmasını təşviq edir. Şəhid adı alınandan sonra da, şəhidin ailə üzvlərinin şəhid ailəsi üzvü statusu almaq üçün müraciət etməsi mümkündür.

Şəhid və ya şəhid ailəsi statusu verilməsi üçün marağı olan şəxslər ilk növbədə şəhid ailəsi statusunu almaq istəyən şəxslər, şəhid hesab edilməli olan şəxsin ailə üzvləri hesab olunmalıdır. Belə ki, həlak olan şəxsə şəhid statusunun verilməsi birbaşa onların maraq dairəsində olmaqla özlərinin də şəhid ailəsi statusu almaları üçün zəmin yaranır.

Qanunda və Qaydalarda şəhid və şəhid ailəsi statusunun verilməsi məsələsinə baxılması üçün müraciət edən şəxslərin dairəsi yalnız maraqlı şəxslərlə məhdudlaşdırılmamış, bu məqsədlə dövlət orqanları və ya müvafiq hərbi hissənin vəsatət verməsi də nəzərdə tutulmuşdur. Qanunun 2-ci maddəsinin 2-ci hissəsi Qaydaların 4.1-ci qaydası müəyyən edir ki, "şəhid və şəhid ailəsi statusunun verilməsi məsələsinə maraqlı şəxsin müraciəti və dövlət orqanlarının və ya müvafiq hərbi hissənin vəsatəti ilə baxılır".

Qanun və Qaydalarda hansı **dövlət orqanının,** şəhid və şəhid ailəsi statusunun verilməsi məsələsinə baxılması üçün vəsatətlə müraciət etmək səlahiyyətinə malik olması öz əksini tapmamışdır. Hesab edirik ki, vətəndaşların müraciətlərini araşdırmaq, insan hüquq və azadlıqlarını müdafiə etmək səlahiyyətinə malik olan dövlət orqanları səlahiyyətləri daxilində bu cür vəsatətlərlə müraciət edə bilərlər.

**3.“Müvafiq hərbi hissə”** anlayışı həlak olmuş şəxsin hərbi qulluq etdiyi və ya tabeliyində hərbi əməliyyatlarda iştirak etdiyi hərbi hissə kimi başa düşülməlidir.

**4. Qanunda şəhid və ya şəhid ailəsi statusu verilməsi üçün marağı olan şəxsin,** dövlət orqanının və ya müvafiq hərbi hissənin müraciət etməli olduqları müvafiq dövlət orqanlarının dairəsi göstərilməmişdir. Lakin Qaydaların 4.1-ci qaydasında məsələyə aydınlıq gətirilmişdir. Həmin qaydaya əsasən şəhid ailəsi statusu gizir və zabit heyəti üçün Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidmətinin, Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin kadrlar idarəsi, digər hərbi qulluqçulara hərbi qeydiyyatda olduqları Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq olaraq yerli baş idarə, idarə, şöbə və bölmələri, mülki vətəndaşlara isə rayon (şəhər) icra hakimiyyəti orqanlarının verdiyi arayışlarla təsdiq olunur.

Müdafiə Nazirliyinin zabit və gizir heyətinə münasibətdə şəhid və şəhid ailəsi hesab edilməsi üçün arayışların verilməsi, habelə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən digər hərbi qulluqçulara (əsgər, matros və çavuş heyəti) münasibətdə şəhid və şəhid ailəsi hesab edilməsi üçün arayışların

verilməsi məqsədilə maraqlı şəxs "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə də müraciət edə bilər.

**5. Şəhid və ya şəhid ailəsi statusu verilməsi üçün marağı olan şəxsin, dövlət orqanının və ya müvafiq hərbi hissənin müraciət etməli olduqları müvafiq dövlət orqanları** aşağıdakılar hesab olunmalıdır:

1. Müdafiə Nazirliyi;
2. Daxili İşlər Nazirliyi;
3. Fövqəladə Hallar Nazirliyi;
4. Dövlət Təhlükəsizliyi Xidməti;
5. Xarici Kəşfiyyat Xidməti;
6. Dövlət Sərhəd Xidməti;
7. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti;
8. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti;
9. Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin kadrlar idarəsi;
10. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq olaraq yerli baş idarə, idarə, şöbə və bölmələri;
11. Rayon (şəhər) icra hakimiyyəti orqanları;
12. Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri.

Beləliklə, şəhid statusunun verilməsi üçün hərbi qulluqçulara münasibətdə gizir və zabit heyəti üçün onların xidmət etdiyi orqana (Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinə, əsgərlər

üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli bölmələrinə (komissarlıqlara), mülki vətəndaşa münasibətdə: rayon (şəhər) yerli icra hakmiyyəti orqanına müraciət olunmalıdır.

**6.** Qaydaların 4.1-ci qaydasında **müvafiq dövlət orqanına müraciət üçün təqdim edilməli olan sənədlərin dairəsi** də göstərilmişdir. Orada qeyd olunur ki, şəxsin şəhid hesab edilməsi ölüm haqqında şəhadətnamə, məhkəmə qətnaməsi, hərbi hissənin arayışı əsasında təsdiq olunur. Hərbi hissənin arayışında Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri Nizamnaməsi"nin 16 saylı əlavəsinin[208] 1.4.2-ci maddəsində göstərilən məlumatlar əks edilir.

Həlak olan şəxsin şəhid hesab edilməsi üçün hərbi qulluqçulara münasibətdə: hərbi hissənin arayışı və ölüm haqqında şəhadətnamə, itkin düşmə hallarında isə məhkəmə qətnaməsi; mülki vətəndaşa münasibətdə: rayon (şəhər) yerli icra hakmiyyəti orqanının arayışı tələb olunur.

**7. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında" 23 sentyabr 1994-cü il, 886 saylı Azərbaycan Respublikası Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri" Nizamnaməsinin[209] 16 saylı Əlavəsi**

Dəfn mərasiminin təşkili və keçirilməsi Qaydaları "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"nin (bundan sonra – Nizamnamə) 333-cü maddəsində göstərilən şəxslərin dəfn mərasimlərinin təşkili və keçirilməsi qaydalarını müəyyən edir. Nizamnamənin 333-cü

[208] https://e-qanun.az/framework/9297
[209] https://e-qanun.az/framework/9297

maddəsində göstərilən şəxslər onların valideynlərinin (yaxın qohumlarının və ya qanuni nümayəndələrinin) seçdikləri qəbiristanlıqda dəfn edilirlər. Qaydaların 1.4-cü və 1.5-ci maddələrinə əsasən müvafiq icra hakimiyyəti orqanı şəhidin "Şəhidlər Xiyabanı"nda dəfn edilməsi üçün məzar yerinin ayrılması ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanına müraciət edir. Aşağıdakı hallarda vəfat etmiş (həlak olmuş) hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər onların valideynlərinin (yaxın qohumlarının və ya qanuni nümayəndələrinin) müvafiq icra hakimiyyəti orqanına müraciəti əsasında "Şəhidlər Xiyabanı"nda dəfn edilirlər:

1. hərbi qulluqçuya və toplanışa çağırılmış hərbi vəzifəliyə "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Şəhid" adı verildikdən sonra;

2. həlak olmuş hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin şəhid hesab edilməsi müvafiq hərbi hissənin arayışı ilə təsdiq edildikdə. Müvafiq hərbi hissənin arayışında hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı, habelə atəşkəs dövründə döyüş şəraitində olan hərbi hissələrdə döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi, yaxud dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı həlak olması faktı öz əksini tapmalıdır.

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dəfn olunmuş hərbi qulluqçuya və toplanışa çağırılmış hərbi vəzifəliyə "Şəhid" adı verildikdən sonra hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin valideynlərinin (yaxın qohumlarının və ya qanuni nümayəndələrinin) müvafiq icra hakimiyyəti orqanına müraciəti əsasında cənazənin "Şəhidlər Xiyabanı"na aparılması və yenidən dəfn edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Nizamnamənin 333-cü maddəsində

göstərilən şəxslərin bu Qaydalara uyğun dəfn mərasiminin təşkili və keçirilməsi ilə bağlı xərclər Azərbaycan Respublikasının dövlət büdcəsindən müvafiq icra hakimiyyəti orqanının saxlanılması üçün ayrılmış vəsait hesabına ödənilir. Nizamnamənin 333-cü maddəsində göstərilən şəxslərin valideynlərinə (yaxın qohumlarına və ya qanuni nümayəndələrinə) yas mərasimlərinin təşkili üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və məbləğdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən maliyyə yardımı göstərilir.

Nizamnamənin 333-cü maddəsində göstərilən şəxslərin ölüm faktı tibb müəssisəsinin müvafiq sənədi ilə (ölüm haqqında həkim arayışı, ölüm haqqında feldşer arayışı ilə) təsdiq edilməlidir. Bu sənəd əsasında müvafiq icra hakimiyyəti orqanı ölüm haqqında qeydlər aparır. Hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin vəfat etməsi (həlak olması) hərbi xidmət dövründə baş verdikdə, hərbi hissə komandiri ölümün baş verdiyi və ya meyitin tapıldığı vaxtdan 1 (bir) gündən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanına ölüm haqqında yazılı formada məlumatı verir. Müvafiq icra hakimiyyəti orqanı yazılı formada məlumatı aldığı andan 1 (bir) gün ərzində ölüm haqqında məlumatı qeydə alır.

Hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin vəfat etməsi (həlak olması) haqqında məlumatı əldə etdikdən dərhal sonra hadisənin tarixi və ilkin səbəbləri barədə komanda üzrə yuxarı qərargaha və qarnizon rəisinə məruzə etmək, ərazi hərbi prokuroruna və müvafiq icra hakimiyyəti orqanına məlumat vermək hərbi hissə komandirinin vəzifəsidir.

Müvafiq icra hakimiyyəti orqanı hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin vəfat etməsi (həlak olması) haqqında hərbi hissə komandiri tərəfindən verilmiş məlumatı dərhal hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin valideynlərinə (yaxın qohumlarına və ya qanuni nümayəndələrinə) çatdırır, hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin valideynlərinin (yaxın qohumlarının və ya qanuni nümayəndə-

lərinin) müraciəti əsasında onların hərbi hissəyə gediş-gəlişi üçün xərclərin ödənilməsini Azərbaycan Respublikasının dövlət büdcəsindən müvafiq icra hakimiyyəti orqanının saxlanılması üçün ayrılmış vəsait hesabına təmin edir.

Hərbi hissə komandiri vəfat etmiş (həlak olmuş) hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin valideynlərinin (yaxın qohumlarının və ya qanuni nümayəndələrinin) müraciəti əsasında onların, habelə cinayət təqibini həyata keçirən orqanın əməkdaşlarının meyitə baxışda iştirakı üçün şərait yaradır. Meyitlərin tanınması Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 240-cı və 241-ci maddələri ilə müəyyən edilmiş qaydada aparılır.

Vəfat etmiş (həlak olmuş) hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin meyitini Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 240-cı və 241-ci maddələri ilə müəyyən edilmiş qaydada tanımaq mümkün olmadıqda, cinayət təqibini həyata keçirən orqanın qərarı əsasında məhkəmə-tibbi ekspertizası aparılır.

Vəfat etmiş (həlak olmuş) hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin şəxsi, o cümlədən qiymətli əşyaları, sənədləri və təltifləri yığılaraq qablaşdırılır, hərbi hissənin möhürü ilə möhürlənir və bu barədə iki nüsxədən ibarət akt tərtib edilir. Aktın ikinci nüsxəsi hərbi hissədə saxlanılmaqla, vəfat etmiş (həlak olmuş) hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin şəxsi, o cümlədən qiymətli əşyalarının, sənədlərinin və təltiflərinin göndərilmə üsulu və vaxtı haqqında müvafiq qeydlər aparılır, vəfat etmiş (həlak olmuş) hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin valideynləri (yaxın qohumları və qanuni nümayəndələri) dəfn mərasimində iştirak etdikdə, şəxsi əşyalar bilavasitə onlara təhvil verilir.

Vəfat etmiş (həlak olmuş) hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin valideynləri (yaxın qohumları və ya qanuni nümayəndələri) dəfn mərasimində iştirak etmədikdə,

yaxud onların yaşayış ünvanları məlum olmadıqda, şəxsi, o cümlədən qiymətli əşyalar, sənədlər və təltiflər aktın birinci nüsxəsi ilə birlikdə saxlanılması üçün müvafiq icra hakimiyyəti orqanına təhvil verilir, valideynlərin (yaxın qohumların və ya qanuni nümayəndələrin) yaşayış ünvanları məlum olduqda isə, onlara poçt vasitəsilə göndərilir.

Vəfat etmiş (həlak olmuş) hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin şəxsi, o cümlədən qiymətli əşyalarının, sənədlərinin və təltiflərinin ölüm hadisəsi ilə bağlı aparılan ibtidai araşdırma üzrə sübut əhəmiyyətinə malik ola biləcəyinə güman etməyə kifayət qədər əsas olduqda, onlar Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 242-ci-247-ci maddələrinə əsasən götürülür.

Hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin cənazəsinin dəfn yerinə gətirilməsi onların xidmət etdikləri (toplanışa çağırıldıqları) hərbi hissənin nümayəndə heyətinin müşayiəti ilə 24 (iyirmi dörd) saat ərzində həyata keçirilir. Bu müddət zəruri istintaq hərəkətlərinin keçirilməsi, məhkəmə-tibbi ekspertizasının aparılması, hava şəraitinin mürəkkəb olması və digər hallar ilə əlaqədar uzadıla bilər.

Hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin cənazəsini göndərməzdən əvvəl hərbi hissə komandiri cənazəni müşayiət edən nümayəndə heyətinin başçısına aşağıdakıları verir:

1. Qaydaların 4.1-ci maddəsinə uyğun tərtib edilən aktın birinci nüsxəsi ilə birlikdə hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin şəxsi, o cümlədən qiymətli əşyalarını, sənədlərini və təltiflərini;

2. ölüm haqqında həkim arayışını və ya ölüm haqqında feldşer arayışını;

3. zabitlərin, gizirlərin, miçmanların, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının şəxsi vəsiqəsini, kursantların, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının və toplanışa çağırılmış hərbi vəzifəlilərin isə hərbi biletini;

4. hərbi hissə komandirinin hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin valideynlərinə (yaxın qohumlarına və ya qanuni nümayəndələrinə) ünvanlanmış ölüm hadisəsinin başvermə tarixini, ilkin səbəblərini, mərhumun hərbi anda sadiq qalmasını, göstərdiyi igidlik və mətinlik nümunələrini əks etdirən, baş vermiş ağır itki və faciə ilə əlaqədar dərin hüzn və başsağlığı ifadə edən məktubunu.

Cənazənin dəfn yerinə çatdırılması müvafiq icra hakimiyyəti orqanının sərəncamında olan nəqliyyat vasitəsilə həyata keçirilir. Hərbi Dəniz Qüvvələrinin gəmilərində dənizdə səfərdə olarkən vəfat etmiş (həlak olmuş) hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin cənazələri yalnız sahilə çatdıqdan sonra bu Qaydalara uyğun olaraq dəfn edilir. Gəminin sahilə qayıtması mümkün olmadığı hallarda hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin cənazələri gəmiyə ən yaxın adalardan birində əlverişli vaxtadək müvəqqəti məzarlarda dəfn edilir.

Hərbi qulluqçu və toplanışa çağırılmış hərbi vəzifəli hərbi tibb müəssisələrində və ya yürüş zamanı yolda vəfat etdikdə (həlak olduqda), həmin müalicə müəssisəsinin rəisi və ya yürüşə rəhbərlik edən vəzifəli şəxs dərhal bu haqda hərbi hissəyə məlumat verir və vəfat etmiş (həlak olmuş) hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin dəfnolunma yerinə çatdırılmasını təmin edir. Hərbi hissə komandiri cənazənin dəfn yerinə vaxtında gətirilməsini və dəfn mərasimində nümayəndə heyətinin iştirakını təmin etməlidir.

Hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin cənazələri dəfn olunacağı yerə çatdırılması üçün tabuta yerləşdirilir. Tabutun üst qapağında vəfat etmiş (həlak olmuş) hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin soyadı, adı, atasının adı, doğum tarixi və çatdırılacaq ünvan göstərilir.

Həlak olmuş (vəfat etmiş) naməlum hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin dəfn edildikləri məzarlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən abadlaşdırılır və hər

bir məzarın üstünə səkkizguşəli ulduzu və ayparası olan sadə məzar daşı (abidə) qoyulur. Məzar daşının (abidənin) üz tərəfində "Burada Vətən uğrunda gedən döyüşlərdə həlak olmuş naməlum Azərbaycan əsgəri (əsgərləri) dəfn edilib (gün, ay və il)" və ya "Burada Vətən uğrunda gedən döyüşlərdə şəhid olmuş naməlum Azərbaycan əsgəri (əsgərləri) dəfn edilib (gün, ay və il)" yazıları həkk olunur.

Müvafiq icra hakimiyyəti orqanı dəfn mərasiminin keçirilməsi ilə əlaqədar aşağıdakı vəzifələri yerinə yetirir:

1. Nizamnamənin 333-cü maddəsində göstərilən şəxslərin valideynləri (yaxın qohumları və ya qanuni nümayəndələri) ilə birlikdə mərhumun dəfn olunacağı yeri və vaxtı müəyyənləşdirir;

2. müvafiq icra hakimiyyəti orqanı ilə birlikdə dəfn və yas mərasimləri ilə əlaqədar görüləcək tədbirləri razılaşdırır və həyata keçirir, bu haqda Nizamnamənin 333-cü maddəsində göstərilən şəxslərin valideynlərini (yaxın qohumlarını və ya qanuni nümayəndələrini) ətraflı məlumatlandırır.

Müvafiq icra hakimiyyəti orqanı Nizamnamənin 333-cü maddəsində göstərilən şəxslərin valideynlərinə (yaxın qohumlarına və ya qanuni nümayəndələrinə) onların "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Əmək pensiyaları haqqında" və "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hüquq və imtiyazları haqqında dolğun məlumat verir.

Müharibə dövründə vəfat etmiş (həlak olmuş) hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin bu Qaydalara uyğun dəfn mərasiminin təşkili və keçirilməsi hərbi hissə komandirinin müraciəti əsasında müvafiq icra hakimiyyət orqanı tərəfindən təmin edilir.

Döyüş əməliyyatları zamanı mövcud şəraitə görə bu Qaydaları yerinə yetirmək və ya hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin şəxsiyyətini müəyyən etmək mümkün olmadığı

hallarda, vəfat etmiş (həlak olmuş) hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin dəfninin müvəqqəti yeri, o cümlədən dəfn vaxtı hərbi ehtiramın göstərilməsi hərbi hissə komandirinin (təşkilat və müəssisə rəisinin) əmri ilə müəyyən edilir. Əmrdə dəfnin həyata keçirilməsi üçün rəhbər və sayı elan edilməklə hərbi hissənin (təşkilat və müəssisənin) hərbi qulluqçularından ibarət dəfn qrupu (komandası) təyin olunur.

Döyüş meydanında həlak olmuş döyüşçülərin meyitlərinin oradan çıxarılması və dəfn yerinə çatdırılması ən qısa müddət ərzində təşkil olunmalı, qoşunlar həmin ərazidən uzaqlaşdıqdan və ya döyüş əməliyyatlarında müəyyən fasilə yarandıqdan sonra həyata keçirilməlidir.

Qaydalara əsasən Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və rayon (şəhər) icra hakimiyyəti orqanları şəhid və şəhid ailəsi hesab edilməsi üçün müraciət və vəsatətləri dərhal qəbul edib, bir aydan gec olmayaraq "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununa və bu Qaydalara müvafiq surətdə arayış verməlidir.

8. Qanunun 2-ci maddəsi həmçinin müəyyən edir ki, **müvafiq dövlət orqanı** müraciətləri və vəsatətləri dərhal qəbul edib bir aydan gec olmayaraq şəhid və ya şəhid ailəsi statusu barədə Qanuna müvafiq surətdə sənəd verməlidir. Burada "müvafiq dövlət orqanı" ifadəsi yuxarıda 12 bənddə qeyd olunan orqanları ehtiva edir.

Həmin müddəa Qaydalarda aşağıdakı kimi ifadə olunmuşdur: "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublika-

sının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və yerli icra hakimiyyəti orqanları şəhid və şəhid ailəsi statusu verildiyi tarixdən 5 (beş) iş günü müddətində bu barədə məlumatı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Zəfər" altsisteminə daxil edirlər".

Göstərilən sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir

9. Qaydaların 4.2-ci qaydasına əasən **şəhid ailələrinə vəsiqə** bu Qaydaların 4.1. bəndində göstərilən arayışlara əsasən yaşadıqları ərazi üzrə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumları tərəfindən verilir.

10. **Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin aparılması Qaydası"**nın[210] təsdiq edilməsi haqqında "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə"

---

[210] https://e-qanun.az/framework/51146

Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 295-VIQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 iyun tarixli 1366 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 5 avqust 2022-ci il tarixli 281 saylı qərarı ilə "Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin aparılması Qaydası" təsdiq etmişdir. Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin aparılması Qaydası" aşağıdakıları nəzərdə tutur:

Qayda "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsinə uyğun olaraq hazırlanmışdır və şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin (bundan sonra – Reyestr) formalaşdırılmasının, aparılmasının, inteqrasiyasının və arxivləşdirilməsinin hüquqi və təşkilati əsaslarını müəyyən edir.

Reyestrin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılan vəsait və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

Reyestrlə bağlı bu Qayda ilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" (bundan sonra – Qaydalar) ilə tənzimlənir.

Reyestr aşağıdakı prinsiplər əsasında formalaşdırılır:

1. istifadə rahatlığı – Reyestrdən istifadənin və məlumat mübadiləsinin rahat, əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

2. fasiləsizlik – Reyestrdə aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmayaraq fəaliyyətin fasiləsiz həyata keçirilməsi;

3. funksionallıq və davamlı inkişaf – Reyestrin inkişaf etdirilməsi imkanını təmin edən proqram-texniki komponentlərin

olması və ən son texnologiyalardan istifadə edilməklə Reyestrin daim təkmilləşdirilməsi;

4. operativlik – Reyestrdə məlumatların yaradılması, toplanılması, işlənilməsi, saxlanılması və axtarışı işlərinin sürətli şəkildə həyata keçirilməsi;

5. sərbəstlik – Reyestrin fəaliyyətinin onda aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmaması;

6. şəffaflıq – Reyestrin fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi imkanının mövcudluğu.

Reyestrin strukturuna aşağıdakı modullar daxildir:

1. məlumatların daxil edilməsi modulu;

2. məlumatlara baxış modulu;

3. hesabatlar modulu.

Reyestrin strukturuna daxil olan modullar vasitəsilə aşağıdakılar təmin edilir:

1. "məlumatların daxil edilməsi" modulu vasitəsilə şəhid və şəhid ailəsi statusu almış şəxslər barədə bu Qaydanın 6.1-ci bəndində göstərilən məlumatların daxil edilməsi;

2. "məlumatlara baxış modulu" vasitəsilə Reyestrdə toplanılmış məlumatlar üzrə axtarış edilməsi və məlumatlara baxılması;

3. "hesabatlar modulu" vasitəsilə müxtəlif parametrlərə görə hesabatların tərtib edilməsi.

Reyestrin formalaşdırılması, dayanıqlı və fasiləsiz fəaliyyəti, aparılması, idarə olunması, tamlığı və mühafizəsi, Reyestrə çıxışı olan və onun aparılmasında iştirak edən əməkdaşların gücləndirilmiş elektron imza ilə təmin edilməsi, Reyestrin iştirakçıları tərəfindən daxil edilən məlumatların tamlığına və dolğunluğuna nəzarət edilməsi, habelə onların tələbi əsasında şəhid və şəhid ailəsi statusu almış şəxslər barədə məlumatlarda aparılan düzəlişlərin təsdiq və ya imtina edilməsi Reyestrin sahibi tərəfindən həyata keçirilir.

Reyestrdə şəhid və şəhid ailəsi üzvü statusu almış şəxslər barədə fərdi məlumatların toplanılması, işlənilməsi, yayılması və verilməsi zamanı həmin fərdi məlumatların və müvafiq informasiya sistemlərinin mühafizəsi “İnformasiya əldə etmək haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Dövlət sirri haqqında” və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının qanunları ilə və bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktlarla müəyyənləşdirilmiş qaydada həyata keçirilir.

Reyestrdə məlumatların toplanılması, işlənilməsi, sorğuların verilməsi və icrası, habelə Reyestrin idarə olunması və mühafizəsi ilə bağlı əməliyyat tarixçələrinin elektron nəzarət-audit jurnallarında toplanılması (hesabatlılığı) təmin edilir.

Reyestrin fəaliyyətinin və məlumat mübadiləsinin təkmilləşdirilməsi, habelə Reyestrdə yaranan nasazlıqların aradan qaldırılması məqsədilə Reyestrin sahibi təxirəsalınmaz tədbirlər görür.

Reyestrin iştirakçıları və istifadəçiləri Reyestrdə saxlanılan məlumatların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görməli, Reyestrə daxil edilmiş məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə məlumat verməli, Reyestrin fəaliyyətinə xələl gətirəcək hərəkətlərə yol verməməlidirlər.

Reyestrin iştirakçıları və istifadəçiləri Reyestrin fəaliyyəti ilə bağlı Reyestrin sahibinə təkliflər verə bilərlər. Reyestrin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

Reyestrin iştirakçıları şəhid və şəhid ailəsi statusu verildiyi tarixdən 5 (beş) iş günü müddətində şəhid və şəhid ailəsi statusu almış şəxslər barədə aşağıdakı məlumatları Reyestrə daxil etməlidirlər:

1. şəhid statusu almış şəxslər barədə:

– soyadı, adı, atasının adı;

– fərdi identifikasiya nömrəsi (FİN-i);

– hərbi qulluqçu və ya mülki şəxs olması;
– hərbi rütbəsi;
– hərbi xidmətə başladığı tarix;
– həlak olduğu və ya xəbərsiz itkin düşdüyü tarix;
– itkin düşdüyünə görə ölmüş elan edilməsinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarının tarixi, nömrəsi və onu qəbul edən məhkəmənin adı;
– həlak olduğu və ya xəbərsiz itkin düşdüyü yer;
– dəfn olunduğu yer;
– şəhid statusunu təsdiq edən sənədin nömrəsi və verilməsi tarixi;

2. şəhid ailəsi statusu almış şəxslər barədə:
– soyadı, adı, atasının adı;
– fərdi identifikasiya nömrəsi (FİN-i);
– şəhid statusu almış şəxslə qohumluq əlaqəsi;
– şəhid ailəsi statusunu təsdiq edən vəsiqənin nömrəsi və verilməsi tarixi.

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti bu Qaydanın 6.1-ci bəndində nəzərdə tutulan məlumatların kağız və elektron daşıyıcılarda Reyestrin sahibinə təqdim olunmasını təmin etməlidirlər.

Reyestrin istifadəçilərinin Reyestrdən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə uyğun olaraq Reyestrə inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir. Hüquqi və fiziki şəxslər Reyestrdə olan açıq məlumatlarla tanış ola bilərlər. Reyestrin sahibi Reyestrin istifadəçilərinin Reyestrə girişini aşağıdakı hallarda məhdudlaşdırır:

1. reyestrə qeyri-qanuni daxilolma və ya müdaxilə baş verdikdə;
2. bu Qayda ilə müəyyən edilmiş tələblər yerinə yetirilmədikdə.

Qeyd edək ki, şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin hazırlanmasında əsas məqsəd həmin tarixədək verilmiş və həmin tarixdən sonra verilə biləcək statuslar əsasında şəhidlər, şəhid ailə üzvləri barədə vahid informasiya bazasının yaradılması, müvafiq məlumatların toplanılması, saxlanılması və axtarışının avtomatlaşdırılmasının təmin edilməsi olmuşdur.

Reyestrin təşkili status verilmiş şəxslərin sayının dəqiqləşdirilməsi, onların uçotunun aparılması, şəxslərin (ailə üzvlərinin) statusları haqqında kağız daşıyıcılarda olan müvafiq vəsiqələrdən imtina edilməsi, onların dövlət orqanlarına müraciətləri zamanı statuslarının onlayn rejimdə müəyyən edilməsi, habelə sosial təminat hüquqlarına proaktiv qaydada baxılması imkanlarını əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.

**M a d d ə 3. Şəhidin xatirəsinin əbədiləşdirilməsi və şəhid ailələrinin hüquqları**

**Bu Qanunun 1-ci maddəsində göstərilən əlamətlər üzrə həlak olmuş şəxslərin xatirəsini əbədiləşdirmək məqsədilə aşağıdakı tədbirlər həyata keçirilir:**

**qəbirüstü abidələrin, xatirə komplekslərinin yaradılması;**

**şəhid adlarının küçələrə, meydanlara, müəssisələrə, təşkilatlara, idarələrə, məktəblərə, mədəni-maarif ocaqlarına verilməsi;**

**Şəhid ailəsi statusunu almış ailənin üzvlərinə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada aşağıdakı təminatlar verilir:**

**ailə başçısını itirməyə görə əmək pensiyası təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun tənzimlənir**[3]**;**

**işçilərin sayı və ya ştatı ixtisar edilərkən işdə saxlanmaqda onlara üstünlük verilir;**

**resept üzrə dərman almaq üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olmuş qaydada və məbləğdə müavinət verilir;**

**təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respubli-kası Qanununun 14.8-1-ci maddəsi ilə tənzimlənir;**

**tibb müəssisələrinin göndərişi ilə ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada təmin edilirlər;**

**sosial iş yerlərinin və işsiz şəxslərin özünüməşğulluğunun, habelə peşə hazırlığının təşkili zamanı onlara üstünlük verilir;**

**yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçot onun ailə üzvləri üçün mü-**

**vafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada saxlanılır.**

**1. Maddənin məqsədi** şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə həyata keçirilən tədbirlərin və şəhid ailəsi statusunu almış ailənin üzvlərinə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada verilən təminatların dairəsinin, onların həyata keçirilməsi qaydasının müəyyən edilməsidir.

Adından göründüyü kimi şərh olunan maddə iki məsələyə - şəhidin xatirəsinin əbədiləşdirilməsi və şəhid ailəsi statusunu almış ailənin üzvlərinin təminatlarına həsr olunmaqla həmin məsələlərin tənzimlənməsinə, nizama salınmasına xidmət edir.

**2. Şəhidin xatirəsinin əbədiləşdirilməsi.** Vətən, xalq qarşısında xüsusi xidmətləri olan şəxslərin daimi xatırlanması, yada salınması, onlara xalqın xüsusi hörmətinin ifadə olunması üçün görülən tədbirləri ehtiva edir. Qanunda Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərin – şəhidlərin xatirəsinin əbədiləşdirmək üçün tədbirlər iki qrupa bölünmüşdür. Birinci qrupa qəbirüstü abidələrin, xatirə komplekslərinin yaradılması, ikinci qrupa isə şəhid adlarının küçələrə, meydanlara, müəssisələrə, təşkilatlara, idarələrə, məktəblərə, mədəni-maarif ocaqlarına verilməsi ilə bağlı tədbirlər daxildir.

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 137 saylı, 1 aprel 2019-cu il tarixli qərarı[211] ilə görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə Komissiyanın yaradılması** həyata keçirilmişdir. Qərara əsasən:

Görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə aşağıdakı tərkibdə Komissiya yaradılmışdır.

---

[211] https://e-qanun.az/framework/41815

Komissiyanın sədri Azərbaycan Respublikası Baş nazirinin müavini Komissiyanın katibi Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının humanitar və sosial məsələlər şöbəsinin müdiri

Komissiyanın üzvləri:

Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədrinin müavini

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisinin müavini

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədrindən ibarətdir.

Dövlət müəssisələrinin, təşkilatlarının, idarələrinin və digər obyektlərin adlarının dəyişdirilməsi, onlara görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin adlarının verilməsi ilə əlaqədar daxil olmuş təkliflər və Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında qaldırılmış vəsatətlər Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının

aidiyyəti şöbələri tərəfindən araşdırılır və nəticəsi barədə arayışla birlikdə baxılması üçün həmin Qərar əsasında yaradılan Komissiyaya təqdim edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı ilə təsdiq edilmiş **"Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"**nın[212] 1.2-ci bəndində qeyd olunur ki, həmin Qaydaların tələbləri (5.5-ci və 5.6-cı bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla) Azərbaycan Respublikasının Fəxri xiyabanlarında, Şəhidlər xiyabanlarında və kütləvi (qardaşlıq) məzarlıqlarında aparılan dəfnlərə, habelə Vətən uğrunda şəhid olan hərbçilərin dəfn mərasimlərinə şamil edilmir.

Qaydaların 2.1.16-cı bəndində qəbirüstü tikililər – "dinlərə uyğun olaraq məzarların üstündə quraşdırılmış qəbirüstü daşlar və dayaqlar" kimi izah edilir.

Qaydaların 22-ci qaydasına müvafiq olaraq qəbirüstü tikililər dəfn edilmiş şəxsin qohumları, qanuni nümayəndələri və ya dəfnlə bağlı xərcləri çəkmiş digər şəxslər tərəfindən quraşdırılır.

Dəfn edilmiş şəxsin qohumları, qanuni nümayəndələri və ya dəfnlə bağlı xərcləri çəkmiş digər şəxslər tərəfindən qəbirüstü tikililər quraşdırılarkən, ölmüş şəxsin dini mənsubiyyəti nəzərə alınır, soyadı, adı, atasının adı, doğum və ölüm tarixləri qəbirüstü tikililərdə qeyd olunur. Başdaşı qoyulduğu halda, hündürlüyü 1,0 metrdən və eni 0,6 metrdən artıq olmamaqla, eni 0,6 metr və hündürlüyü 0,25 metr olan altlıq üstündə quraşdırılmalıdır. Sinədaşı qoyulduqda hündürlüyü torpaqdan 0,2 metrə, uzunluğu 1,2 metrə və eni 0,6 metrə qədər olmalıdır. Qəbirüstü tikililərin quraşdırılmasında cərgə ilə sıralanmaya əməl olunmalı və qəbrin ətrafı hasara alınmamalıdır.

Dəfn edilmiş şəxsin qohumları, qanuni nümayəndələri və ya dəfnlə bağlı xərcləri çəkmiş digər şəxslər tərəfindən qəbirüstü tikililər quraşdırılmadıqda, qəbiristanlığın müdiriyyəti tərəfindən

---

[212] https://e-qanun.az/framework/40898

bu Qaydaların 13.2.8-ci yarımbəndinə əsasən quraşdırılmış ölmüş şəxsin soyadını, adını, atasının adını, doğum və ölüm tarixlərini bildirən lövhə saxlanılır.

Dəfn edilmiş şəxsin qohumları, qanuni nümayəndələri və ya onların dəfni ilə bağlı xərcləri çəkmiş digər şəxslər tərəfindən qəbirüstü tikililərin və onların üzərindəki yazıların dəyişdirilməsinə qəbiristanlığın müdiriyyətinin razılığı ilə yol verilir və aşağıdakı sənədlərin təqdim edilməsi tələb olunur:

– qəbirüstü tikilinin və ya onun üzərindəki yazının dəyişdirilməsi səbəbləri göstərilməklə ərizə;
– qəbirüstü tikilinin və ya onun üzərindəki yazının dəyişdirilməsinə dair ərizə ilə müraciət etmiş şəxsin şəxsiyyətini təsdiq edən sənəd, habelə qohumluq əlaqəsini və ya qanuni nümayəndə olmasını təsdiq edən sənəd;
– qəbirüstü tikilinin və ya onun üzərindəki yazının dəyişdirilməsinə dair digər qohumların, qanuni nümayəndənin və ya dəfnlə bağlı xərcləri çəkmiş digər şəxslərin razılıq ərizəsi.

Dəfn edilmiş şəxsin qohumları, qanuni nümayəndələri və ya onların dəfni ilə bağlı xərcləri çəkmiş digər şəxslərin bu Qaydaların 22.4.1-ci yarımbəndində nəzərdə tutulmuş ərizəsinə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxılır.

Dəfn edilmiş şəxsin qohumları, qanuni nümayəndələri və ya onların dəfni ilə bağlı xərcləri çəkmiş digər şəxslər tərəfindən qəbirüstü tikililər dəfn olunmuş şəxsin qohumlarının Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş vərəsəlik növbəliliyinə uyğun olaraq razılığı olduqda dəyişdirilir, belə razılıq əldə edilmədikdə, qəbirüstü tikililərin dəyişdirilməsinə yol verilmir.

Qəbiristanlıqların salınması və idarə olunması Qaydalarının 5.5-ci Qaydasına əsasən Azərbaycan Respublikasında Fəxri xiyabanların, Şəhidlər xiyabanlarının və kütləvi (qardaşlıq) məzarlıqlarının salınması barədə qərar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilir.

Qəbiristanlıqların salınması və idarə olunması Qaydalarının 5.6-cı qaydasına əsasən həmin Qaydaların 5.5-ci bəndində göstərilən yerlərdə dəfn olunacaq şəxslərin dairəsinin və dəfnlərinin təşkili qaydası bu Qaydaların 8-10-cu, 17-ci, 21-ci, 24-26-cı hissələrinin tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən müəyyən edilir.

**3. Xatirə komplekslərinin yaradılması**

Qəbiristanlıqların salınması və idarə olunması Qaydalarının 22.1-ci qaydasına əsasən xatirə kompleksi və ya memorial kompleks – vəfat etmiş şəxsin və ya hər hansı hadisənin xatirəsinə ithaf olunan kompleksdir. Xatirə komplekslərinin ən geniş yayılmış formalarına mühüm obyektlər, eləcə də incəsənət əsərləri, heykəllər, fontanlar və parklar daxildir.

Ən çox yayılmış növləri baş daşı və memorial lövhələrdir. Müharibədə ölənlərin xatirəsinə ucaldılan komplekslər də geniş yayılıb.

**4. "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" 23 dekabr 1997-ci il tarixli № 416-IQ saylı Azərbaycan Respublikasının Qanunu**[213].

Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi, onların şəxsiyyətinin müəyyən edilməsi və cənazələrinin tapılması üçün axtarış işlərinin aparılması qaydalarını müəyyən edir.

Həmin Qanuna əsasən aşağıdakıların xatirəsinin əbədiləşdirilməsi mümkünlüyü nəzərdə tutulmuşdur:

– vətən uğrunda döyüşlərdə, yaxud döyüş ehtiyaclarının təmin edilməsi ilə əlaqədar döyüş bölgəsində və ya ondan kənarda xidməti və ya vətəndaşlıq borcunu yerinə yetirərkən həlak olmuş şəxslərin;

[213] https://e-qanun.az/framework/3221

– başqa dövlətlərin ərazisində əsgəri borcunu yerinə yetirərkən həlak olanların;
– vəfat etdiyi vaxtdan asılı olmayaraq vətən uğrunda döyüşlərdə, habelə əsirlikdə aldıqları xəsarət (yaralanma, travma, kontuziya) və xəstəliklər nəticəsində ölənlərin;
– döyüşdə yaranmış şərait üzündən özündən asılı olmayaraq əsir düşən, vətənə xəyanət etməyib əsirlikdə həlak olan şəxslərin;
– Azərbaycan Respublikasının müdafiəsi zamanı həlak olmuş vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin.

Qanuna müvafiq olaraq Vətənin müdafiəsi zamanı fərqlənmiş mülki idarə və müəssisələrin, xalqın tarixinə qəhrəmanlıq rəmzi kimi daxil olmuş döyüş əməliyyatı yerlərinin adları da əbədiləşdirilə bilər.

Qanun Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsinin əsas formaları kimi aşağıdakıları müəyyən edir:
– Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının, Azərbaycanın Milli Qəhrəmanlarının, Sovet İttifaqı Qəhrəmanlarının büstlərinin qoyulması;
– Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının, Azərbaycanın Milli Qəhrəmanlarının, Sovet İttifaqı Qəhrəmanlarının habelə vətən uğrunda döyüşlərə görə ordenlə təltif olunanların adlarının küçələrə, meydanlara, təşkilatlara, müəssisələrə, hərbi və mülki gəmilərə verilməsi;
– "Şəhid" Memorial Kompleksinin yaradılması;
– dəfn yerlərinin qorunması və abadlaşdırılması, qəbirüstü daşların, xatirə abidələrinin qoyulması;
– vətən uğrunda göstərilən qəhrəmanlıqla bağlı döyüş yerlərinin qorunması və abadlaşdırılması;
– döyüş əməliyyatları getmiş yerlərdə xatirə nişanlarının qoyulması;
– həlak olanlar haqqında Respublika "Xatirə kitabı"nın aparılması;

– həlak olanlar haqqında materialların mediada yayılması, onların qəhrəmanlığına həsr olunmuş ədəbiyyat və incəsənət əsərlərinin yaradılması, muzey və sərgilərin təşkil edilməsi.

Dövlət və yerli özünüidarə orqanları həlak olanların xatirəsini əbədiləşdirmək üçün digər tədbirləri də həyata keçirə bilərlər.

Qanunun 4-cü maddəsi müəyyən edir ki, hərbi xatirə qəbiristanları, əsgər qəbiristanları, ümumi qəbiristanda əsgərlərin dəfn olunduğu sahələr, qardaşlıq məzarları, dəniz və okean akvatoriyalarında dəfn yerləri, hərbi və mülki gəmilərin, təyyarələrin öz heyətləri ilə həlak olduqları yerlər hərbi dəfn yerləri hesab olunur.

Qanunun Vətən uğrunda həlak olanların dəfn (yenidən dəfn) qaydasını tənzimləyən 5-ci maddəsinə əsasən Vətən uğrunda həlak olanların dəfn (yenidən dəfn) mərasimi əsgəri ehtiram göstərmək və dini ayinlər icra etməklə aparılır.

Həlak olanların tapılmış cənazələrinin dəfn olunması müvafiq icra hakimiyyəti orqanı tərəfindən özünüidarə və hərbi idarə orqanları cəlb olunmaqla təşkil edilir.

Digər dövlətlərin hərbi qulluqçularının dəfn olunmamış cənazələri aşkar edildikdə həmin dövlətlərin müvafiq təşkilatlarına məlumat verməklə dəfn (yenidən dəfn) təşkil edilir.

Həlak olanların cənazələrinin yenidən dəfni onların qohumlarının xahişi ilə, yaxud xüsusi dövlət əhəmiyyətli işlər görülərkən və ya qəbrin yerləşdiyi ərazinin coğrafi şəraiti zəruri abadlaşdırma və qorunma tədbirlərinin görülməsinə imkan vermədiyi hallarda həyata keçirilir.

Həlak olanların cənazələrinin yenidən dəfni onların ailələrinə və ya qohumlarına məlumat verilməklə müvafiq icra hakimiyyəti orqanının qərarı ilə yerinə yetirilir.

Hərbi əməliyyatların gedişində həlak olanların dəfn olunması hərbi nizamnamələrə, komandanlığın əmr və göstərişlərinə uyğun aparılır.

Əsgər məzarları dövlət qeydiyyatına alınır. Azərbaycan Respublikası ərazisində onların qeydiyyatı müvafiq icra hakimiyyəti

orqanı, digər dövlətlərin ərazisində isə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri tərəfindən aparılır.

Hər bir əsgər məzarı üçün xatirə nişanı qoyulur və pasport tərtib olunur (maddə 6).

Müvafiq icra hakimiyyəti orqanı yerli özünüidarə və hərbi orqanların iştirakı ilə əsgər məzarlarının və xatirə abidələrinin qorunmasını, təmirini və bərpasını təşkil edir.

Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilən qaydada, əsgər məzarlarının qorunmasını təmin etmək məqsədilə mühafizə zonaları, o cümlədən qoruq sayılan təbii landşaft zonaları yaradılır.

Başqa dövlətlərin ərazisində olan Azərbaycan əsgərlərinin məzarlarının qorunması və abadlaşdırılması dövlətlərarası müqavilələrdə müəyyən olunmuş normalar əsasında təmin edilir.

Şəhərlərdə, digər yaşayış məntəqələrində planlaşdırma, tikinti və yenidənqurma işlərinin layihələri hazırlanarkən əsgər məzarlarının qorunmasının təmin edilməsi nəzərə alınır.

Xüsusi dövlət əhəmiyyətli işlər istisna olmaqla, əsgər məzarlarını zədələyə biləcək tikinti və təsərrüfat işlərinin aparılmasına yol verilmir.

Fiziki və hüquqi şəxslər istifadəsində olan torpaq sahələrindəki əsgər məzarlarının qorunması üçün məsuliyyət daşıyırlar. Həmin torpaq sahələrində əsgər məzarları aşkar edilərsə, torpaq sahələrinin sahibləri bu barədə müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarına məlumat verməlidirlər.

**5. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında", 2 aprel 2007-ci il tarixli 2079 saylı Sərəncamı**[214] şəhid olmuş qəhrəman vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi baxımından əhəmiyyətə malikdir. Həmin Sərəncamda deyilir:

---

[214] https://e-qanun.az/framework/18275

“Ölkəmizin müxtəlif guşələrində ucaldılan monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri bu gün artıq şəhər və kəndlərimizin görkəminin ayrılmaz hissəsinə çevrilmişdir. Yüksək estetik dəyərə malik olan, milli-mədəni irsə və tarixi keçmişə dərin ehtiram duyğusu oyadan bu əsərlər Azərbaycan heykəltəraşlıq və memarlıq sənətinin gözəl nümunələridir.

Öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikasında ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Respublikamızın hər bir bölgəsində şəhidlərin xatirəsinə abidə-komplekslər ucaldılmışdır.

Monumental heykəltəraşlıq xəzinəmizin qızıl fonduna daxil olmuş bütün bu abidələr, xatirə-memorial və memarlıq kompleksləri öz plastik forma rəngarəngliyi, koloriti və estetik təsir gücü ilə səciyyələnir. Həmin əsərlər insanların tarixi-mənəvi dəyərlərə hörmət və məhəbbət ruhunda tərbiyə olunmasında, onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsində böyük əhəmiyyət kəsb edir”.

**6. Şəhid adlarının küçələrə, meydanlara, müəssisələrə, təşkilatlara, idarələrə, məktəblərə, mədəni-maarif ocaqlarına verilməsi.**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında” Əsasnamənin[215] 4.11.17-ci bəndində əsasən “yaşayış məntəqələrində küçə və meydanlara ad vermək, onların adlarını dəyişdirmək, ünvan reyestrinə daxil edilmiş ünvan rekvizitləri hesab olunan nəqliyyat infrastrukturu obyektlərinin adlarını və daşınmaz əmlak obyektlərinin nömrələrini əks etdirən ünvan lövhələrini Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan

[215] https://e-qanun.az/framework/23701

Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"na[216] uyğun olaraq hazırlamaq və yerləşdirmək, mövcud ünvan lövhələrinin qorunub saxlanılmasına nəzarət etmək və daşınmaz əmlak obyektlərində yerləşdirilmiş ünvan lövhələrinin mövcudluğunu müəyyənləşdirmək məqsədilə mütəmadi monitorinq keçirmək, ünvan lövhələrinin məhv edilməsi və ya zədələnməsi hallarını aşkar etdikdə, bu barədə aidiyyəti üzrə məlumat verməkyerli icra hakimiyyəti orqanlarının səlahiyyətinə aiddir.

**7. Şəhid ailəsi statusunu almış ailənin üzvlərinə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada aşağıdakı təminatlar verilir:**

**– ailə başçısını itirməyə görə əmək pensiyası təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa[217] uyğun tənzimlənir.**

Qanunun 3-cü maddəsində şəhid ailəsi statusunu almış ailənin üzvlərinə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada verilən təminatlar da öz əksini tapmışdır. Bu cür təminatlardan biri şəhid ailəsi statusunu almış ailənin üzvlərinə ailə başçısını itirməyə görə əmək pensiyası təminatıdır və həmin təminat "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun tənzimlənir.

Vəfat etmiş və ya həlak olmuş ailə başçısının aşağıdakı ailə üzvlərinin:

– vəfat etmiş və ya həlak olmuş şəxslərin övladları:
– 18 yaşına çatmamış;
– 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan şəxs;
– təhsil müəssisələrinin əyani şöbəsində təhsil alanlar, lakin ən çoxu 23 yaşına çatanadək;

216 https://e-qanun.az/framework/15681
217 https://e-qanun.az/framework/11566

– ata, ana, ər, arvad bu Qanunun 7-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş pensiya yaşına çatmışdırsa, yaxud orqanizmin funksiyalarının 61-80 faiz və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsdirsə;
– yaşından və əmək qabiliyyətindən asılı olmayaraq valideynlərdən biri və ya ər (arvad), yaxud baba, nənə, qardaş, bacı vəfat etmiş və ya həlak olmuş ailə başçısının 8 yaşına çatmamış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə baxırsa və işləmirsə.
– sığortaolunan qanunvericilikdə nəzərdə tutulmuş qaydada xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildiyi halda, onun ailə üzvləri vəfat etmiş və ya həlak olmuş ailə başçısının ailə üzvləri ilə bərabər əsaslarla ailə başçısını itirməyə görə əmək pensiyası hüququ vardır.

Xəbərsiz itkin düşmüş və ya ölmüş elan edilən sığortaolunan qayıtdıqda və ya onun olduğu yer aşkar edildikdə, onun ailə üzvlərinə ödənilən ailə başçısını itirməyə görə əmək pensiyası dayandırılır.

"Əmək pensiyaları haqqında" Qanunun 18.2-ci və 18.3-cü maddələrinə uyğun olaraq ailə başçısını itirməyə görə hesablanmış əmək pensiyasının sığorta hissəsinin ailə üzvünə düşən məbləği "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun 7.0.1 – 7.0.3-cü, 7.0.5-ci və ya 7.0.6-cı maddələrində nəzərdə tutulmuş sosial müavinətlərin məbləğindən az olduqda, həmin ailə üzvünün qeyd olunan müavinətləri almaq hüququ olduğu halda, o, ailə başçısını itirməyə görə pensiya əvəzinə müvafiq sosial müavinəti almaq hüququna malikdir.

Ögey ata və ögey ana vəfat etmiş ögey oğlunu və ya ögey qızını azı beş il tərbiyə etmiş və saxlamışdırsa, doğma valideynlərlə bir səviyyədə əmək pensiyası hüququna malikdirlər.

Ögey oğulun, ögey qızın doğma övladlarla bir səviyyədə ailə başçısını itirməyə görə əmək pensiyası hüququ vardır.

Övladlığa götürənlərin doğma valideynlərlə, övladlığa götürülənlərin isə doğma uşaqlarla bir səviyyədə əmək pensiyası hüququ vardır.

Ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olan “Əmək pensiyaları haqqında” Qanunun 14.1.1-ci maddəsində nəzərdə tutulmuş şəxslər övladlığa götürüldükdə də bu hüququ saxlayırlar.

Ailə başçısını itirməyə görə əmək pensiyası ölüm gününədək ailə başçısının “Əmək pensiyaları haqqında” qanunun 12.1-ci maddəsində tələb edilən sığorta stajı olduqda (bu qanunun qüvvəyə mindiyi günədək ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) təyin olunur.

Hərbi qulluqçuların, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından müharibə ilə əlaqədar orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərin (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular və digər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) ailə üzvlərinə ailə başçısını itirməyə görə əmək pensiyaları hərbi qulluqçunun xidmət müddətindən asılı olmayaraq təyin edilir. Bu zaman ailə başçısını itirməyə görə əmək pensiyası ailə başçısı xidmət etdiyi dövrdə və ya xidmətdən buraxıldıqdan sonra, amma xidmət etdiyi dövrdə aldığı xəstəlik və yaxud xəsarət (yaralanma, travma, kontuziya) nəticəsində vəfat edibsə təyin olunur. Həmin hərbi qulluqçular sırasından olan pensiyaçıların ailələrinə isə ailə başçısı pensiya aldığı dövrdə və ya pensiya ödənilməsinin kəsilməsindən 5 il keçənədək vəfat edibsə təyin olunur. Hərbi əməliyyatlar zamanı itkin düşmüş hərbi qulluqçuların ailə üzvləri cəbhədə həlak olanların ailə üzvlərinə bərabər tutulur.

Ailə başçısını itirməyə görə əmək pensiyasının sığorta hissəsinin əmək qabiliyyəti olmayan ailə üzvlərinin hər birinə düşən məbləği “Əmək pensiyaları haqqında” Qanunun 13.3-cü və 13.3-1-ci maddələrində nəzərdə tutulmuş əlilliyə görə əmək pensiyasının sığorta hissəsinin hesablanması mexanizminə uyğun olaraq hesablanmış məbləğin əmək qabiliyyəti olmayan ailə üzvlərinin sayına bölünməsi yolu ilə müəyyənləşdirilir. Əmək qabiliyyəti olmayan ailə üzvlərinin ailə başçısını itirməyə görə əmək pensiya-

larının ailəyə düşən ümumi məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir. Ailə üzvlərindən biri ("Əmək pensiyaları haqqında" Qanunun 20.1.13-cü maddəsinə uyğun olaraq ailə başçısının qulluq stajına görə əlavə təyin olunmuş əri (arvadı) və övladları istisna olmaqla) öz seçimi ilə digər növ əmək pensiyasını, yaxud "Əmək pensiyaları haqqında" Qanunun 14.4-cü maddəsinə əsasən sosial müavinəti (ailə başçısını itirməyə görə müavinət istisna olmaqla) aldıqda ona ailə başçısının itirilməsinə görə düşən əmək pensiyasının məbləği digər ailə üzvləri arasında bölüşdürülməklə onların əmək pensiyasının məbləği yenidən hesablanır.

Vəfat etmiş ailə başçısı yaşa və ya əlilliyə görə əmək pensiyaçısı olmuşdursa, ailə üzvləri üçün ailə başçısını itirməyə görə əmək pensiyasının sığorta hissəsinin ("Əmək pensiyaları haqqında" Qanunun 29.1-ci maddəsi nəzərə alınmaqla) məbləği vəfat etmiş ailə başçısına təyin edilmiş yaşa və ya əlilliyə görə əmək pensiyasının sığorta hissəsinin əmək qabiliyyətli olmayan ailə üzvlərinin sayına nisbəti şəklində müəyyənləşdirilir. Vəfat etmiş ailə başçısının vəfat etdiyi tarixə əmək pensiyasının yenidən hesablanmasında istifadə olunmamış pensiya kapitalı ailə başçısını itirməyə görə əmək pensiyasının təyinatı zamanı nəzərə alınır.

Vəfat etmiş sığortaolunanın və əmək pensiyasının yığım hissəsi təyin olunmamış əmək pensiyaçısının fərdi şəxsi hesabının yığım hissəsində olan vəsaitlər qanunvericiliyə uyğun qaydada onun varisləri arasında bərabər bölünür.

Sığortaolunanın və ya əmək pensiyasının yığım hissəsi təyin olunmamış əmək pensiyaçısının varisləri olmadıqda, onun fərdi şəxsi hesabının yığım hissəsində olan vəsaitlər və əmək pensiyasının yığım hissəsi üzrə alınmamış vəsaitlər müvafiq icra hakimiyyəti orqanının büdcəsinin gəlirlərinə aid edilir.

Ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilərkən pensiyaçı olmayan vəfat etmiş şəxsin 2006-cı il yanvarın 1-dək olan

sığorta stajı “Əmək pensiyaları haqqında” Qanunun 22-1.2.2-ci maddəsinə uyğun olaraq hesablanır.

Ailə başçısını itirməyə görə əmək pensiyası, buna hüququ olan şəxsin müraciəti əsasında ailə başçısını itirməyə görə əmək pensiyası hüququnun yarandığı gündən “Əmək pensiyaları haqqında” Qanunun 14-cü maddəsində göstərilmiş şərtlərin mövcud olduğu müddət üçün, “Əmək pensiyaları haqqında” Qanunun 7-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş pensiya yaşına çatmış şəxslərə isə ömürlük təyin edilir.

Əmək pensiyasının bir növündən başqa növünə keçirilmə “Əmək pensiyaları haqqında” Qanunun 34.1-1-ci maddəsinə uyğun olaraq avtomatlaşdırılmış qaydada yeni təyinatın aparıldığı tarixdən və ya bu barədə ərizənin və müvafiq əmək pensiyasının təyin edilməsi üçün Qanunun 5.3-cü maddəsində nəzərdə tutulan qayda ilə müəyyən edilmiş sənədlərin təqdim edildiyi tarixdən, şəhid ailə üzvlərinə münasibətdə isə “Əmək pensiyaları haqqında” Qanunun 5.1-ci maddəsinin şərti nəzərə alınaraq ailə başçısına şəhid statusunun verildiyi tarixdən hesablanmaqla aparılır.

Ailənin hər bir üzvünün tələbi ilə onun ailə başçısını itirməyə görə əmək pensiyası payı ayrılır və ona ayrıca ödənilir.

Ailə başçısını itirməyə görə əmək pensiyası payı bu barədə ərizənin qeydə alındığı aydan sonrakı ayın 1-dən ayrılır.

İşləyən əmək pensiyaçılarına ailə başçısını itirməyə görə əmək pensiyası tam məbləğdə ödənilir.

Şəhid ailəsinin sosial təminat hüquqları **pensiya və müavinət üzrə** – şəhid ailəsi üzvlərinin pensiya və müavinət almaq hüququ şəxsin şəhid olduğu gündən, **Azərbaycan Respublikası Prezidentinin təqaüdü üzrə** – şəhid ailəsi statusuna dair arayışın verildiyi tarixdən yaranır.

**Ailə başçısını itirməyə görə pensiya (aylıq)** – şəhidin pensiya hüququ olduqda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ailə üzvlərinə ailə başçısını itirməyə görə pensiya ödənilir. Bu məqsədlə Şəhid zabit, gizir və müddətdən artıq xidmət

edən (MAXE) şəxs olubsa, ailə başçısını itirməyə görə pensiya hüququ olan ailə üzvlərindən biri şəhidin xidmət keçdiyi quruma müraciət edir; həmin qurum məlumat vərəqəsini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərir; Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq bölməsi şəhidin ailə üzvündən pensiya təyin edilməsi üçün digər müvafiq sənədləri qəbul edib təyinat aparır – şəhid əsgərdirsə, ailə başçısını itirməyə görə pensiya hüququ olan ailə üzvləri müvafiq sənədlərlə birbaşa Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq bölməsinə müraciət edir və təyinat aparılır.

**8. İşçilərin sayı və ya ştatı ixtisar edilərkən işdə saxlanmaqda onlara üstünlük verilir.**

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin[218] 78-ci maddəsi "İşçilərin ixtisarı zamanı işdə saxlanmağa üstünlüyü olan şəxslər" adlanmaqla müəyyən edir ki, müvafiq hallarda işçilərin sayı azaldılarkən və ya ştatların ixtisarı həyata keçirilərkən müəyyən vəzifələr üzrə əmək funksiyasının icrası üçün tələb olunan ixtisasın (peşəsinin) və peşəkarlıq səviyyəsinin daha yüksəyinə malik olan işçilər işdə saxlanılır. İşçinin peşəkarlıq səviyyəsini işəgötürən müəyyən edir. İşəgötürən işçinin peşəkarlıq səviyyəsini müəyyən edərkən onun peşə hazırlığı səviyyəsinin yüksəldilməsini, yeni ixtisasa yiyələnməsini və ixtisasının artırılmasını nəzərə alır.

İşçilərin sayı azaldılarkən və ya ştatların ixtisarı həyata keçirilərkən işəgötürən tərəfindən ixtisasları (peşələri) və ya peşəkarlıq səviyyələri eyni olduqda işdə saxlanmaqda:

şəhid ailəsinin üzvlərinə;

müharibə iştirakçılarına;

əsgər və zabitlərin arvadına (ərinə);

öhdəsində iki və daha çox 16 yaşınadək uşağı olanlara;

---

[218] https://e-qanun.az/framework/46943

həmin müəssisədə istehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində əlilliyi olan şəxslərə;

məcburi köçkün onlara bərabər tutulan şəxs və qaçqın statusu olan şəxslərə;

kollektiv müqavilələrdə və ya əmək müqavilələrində nəzərdə tutulan digər şəxslərə üstünlük verilir.

**9. Resept üzrə dərman almaq üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olmuş qaydada və məbləğdə müavinət verilir.**

Həkim reseptləri üzrə dərman almaq üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olmuş qaydada və məbləğdə müavinət verilir. (https://dost.gov.az/page/sehid-ailelerinin-huquqları)

**10. Təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci maddəsi ilə tənzimlənir.**

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun[219] 14.8-1.2-ci maddəsinə əsasən dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan şəhid ailəsinin üzvlərinin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Şəhid uşaqlarının təhsil haqqını ödəməkdən azad olunmasını Elm və Təhsil Nazirliyi həyata keçirir.

**11. Şəhid ailəsi üzvləri tibb müəssisələrinin göndərişi ilə ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada təmin edilirlər.**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli, 128 nömrəli qərarı ilə təsdiq edilmiş "İkinci Dünya

---

[219] https://e-qanun.az/framework/11566

müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydalarına müvafiq olaraq "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli, 614 nömrəli Fərmanının[220] icrası olaraq hazırlanmışdır və İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxil *olmaqla*, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsini tənzimləyir.

[220] https://e-qanun.az/framework/2880

Sanatoriya-kurort müalicəsini almaq üçün sanatoriya-kurort putyovkaları (yollayışları) işləməyənlərə – dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsait hesabına, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlarda işləyənlərə isə dövlət sosial müdafiə fondunun büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsait hesabına bu Qaydalarda göstərilmiş şəxslərə növbəlilik əsasında pulsuz verilir.

İkinci Dünya müharibəsi iştirakçıları, şəhid ailəsi statusunu almış ailənin üzvləri, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşlar sanatoriya-kurort putyovkası ilə: işləyənlər – iş yerindən, işləməyənlər isə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmət-lər Agentliyinin yerli qurumları və "DOST" mərkəzləri tərəfindən təmin olunurlar (tibb müəssisələrinin göndərişi ilə ölkə hüdudları daxilində).

Beləliklə, şəhid ailəsi üzvləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən tibb müəssisələrinin göndərişi ilə ölkə daxilində pulsuz sanatoriya-kurort müalicəsi ilə təmin edilirlər. Bu məqsədlə pulsuz sanatoriya-kurort müalicəsi ilə təmin olunmaq istəyən şəhid ailəsi üzvləri tibb müəssisələrinin göndərişi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etməlidirlər.

**12. Sosial iş yerlərində əməkhaqqının birgə maliyyələşdirilməsi.**

Şəhid ailəsi üzvləri sosial iş yerlərində işçilərin əmək-haqqının bir hissəsinin maliyyələşdirilməsi proqramına və peşə kurslarına cəlb edilməsi zamanı üstünlük verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 244 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyə-

ləşdirilməsi Qaydası"[221] "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun[222] 25.1-ci və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun[223] 19.0.2.6-cı maddələrinə əsasən hazırlanmışdır və sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilməsi qaydasını müəyyən edir.

Qaydanın 1.7 bəndinə əsasən sosial iş yerlərinin təşkili zamanı sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərə üstünlük verilir.

Qeyd olunmalıdır ki, 27 may 2021-ci il tarixli 152 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası"nın[224] 1.7-ci bəndinə "uşaqlara", sözündən sonra "şəhid ailəsinin üzvlərinə," sözləri əlavə edilmişdir.

12 may 2025-ci il tarixli 157 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası"nın 1.7-ci bəndində "əlilliyi olan şəxslərə, şəhid ailəsinin üzvlərinə, gənclərə, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslərə və 1 (bir) ildən artıq işsiz kimi qeydiyyatda olan" sözləri "sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən" sözləri ilə əvəz edilmişdir.

Şəhid ailəsi üzvlərinin sosial iş yerlərində əməkhaqqının birgə maliyyələşdirilməsi proqramına ən qısa zamanda növbədənkənar

---

221 https://e-qanun.az/framework/45379
222 https://president.az/az/articles/view/29750
223 https://e-qanun.az/framework/36310
224 https://e-qanun.az/framework/45379

cəlb edilməsi təmin olunur. Bu məqsədlə həmin dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada "Əmək Münasibətləri və Məşğulluq Altsistemi"nə (ƏMAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etməlidir.

**13. Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçot onun ailə üzvləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada saxlanılır.**

Şəhid ailəsinin yaşayış sahəsi ilə təmin edilməsi qüvvədə olan qanunvericiliyə müvafiq surətdə respublika hökumətinin müəyyənləşdirdiyi qaydada yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan şəhid ailələri yaşayış sahəsi ilə birinci növbədə təmin olunurlar.

1 yanvar 2023-cü ilədək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəhid ailəsi üzvlərinin mənzil və ya fərdi evlə təmin edilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aparılır. Bu məqsədlə həmin kateqoriyadan olan şəxslər tərəfindən rayon (şəhər) İcra Hakimiyyəti orqanlarına müraciət edilir, növbəlilik siyahıları rayon (şəhər) İcra Hakimiyyəti orqanları tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunur. Bu siyahılara uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən onlar növbəlilik əsasında mənzil və ya fərdi evlə təmin edilirlər.

"Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu

verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası"na[225] əsasən, uçota alınmış şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılması məqsədilə ailə üzvlərinin birgə razılığı əsasında ailənin yetkinlik yaşına çatmış üzvlərindən biri (belə şəxs olmadıqda qəyyum (himayəçi), patron (köməkçi) və ya vəkil edilmiş şəxs), yəni ailənin təmsilçisi uçota alınmış şəxs vəfat etdiyi gündən etibarən üç ay müddətində uçota alınmanı həyata keçirən orqana (uçota alınmış şəxsin Mənzil Məcəlləsinin 51.3-cü maddəsinə əsasən yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alındığı müvafiq yerli icra hakimiyyəti orqanı və ya bələdiyyə orqanına) və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri"nə ərizə ilə müraciət edir.

Bu zaman aşağıdakı sənədlər təqdim edilir:

– həmin şəxsin və digər ailə üzvlərinin şəxsiyyətini təsdiq edən sənədlərin surəti;
– ailəni təmsil etməsi barədə ərizə (yaşayış yeri üzrə rayon (şəhər) icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin və ya "ASAN xidmət" Mərkəzinin yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışına əsasən notarial qaydada təsdiq edilir);
– uçota alınmış şəxsin ölümü haqqında şəhadətnamənin surəti;
– yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, sonradan şəhid statusu verilməsi haqqında arayış.

Həmin sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından əldə edilməsi mümkün olduqda onlar tələb edilmir, mümkün olmadıqda onların təqdim edilməsi təmsilçinin razılığı ilə sorğu əsasında

[225] https://e-qanun.az/framework/58292

müvafiq dövlət orqanından tələb olunur və ya təmsilçi tərəfindən təmin edilir.

Uçota alınmanı həyata keçirən orqan və ya vahid əlaqələndirmə mərkəzi tərəfindən təmsilçiyə qəbul edilən sənədlərin siyahısı və sənədlərin qəbuledilmə tarixi barədə qəbz verilir. Sənədlərin təqdim edildiyi gündən 30 iş günündən gec olmayaraq təmsilçinin uçota alınmış şəxsin əvəzinə uçota alınması və ya bundan imtina edilməsi barədə (səbəbləri göstərilməklə) qərar qəbul edilir.

Qərar qəbul edildiyi gündən 3 iş günündən gec olmayaraq surəti təmsilçiyə şəxsən verilir və ya poçt vasitəsilə göndərilir, yaxud təmsilçiyə göndərilməsi üçün qeyd edilən vahid əlaqələndirmə mərkəzinə təqdim olunur.

**14. Birdəfəlik sığorta ödənişi –** 1 yanvar 2022-ci il tarixdən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həlak olmuş hərbi qulluqçuların ailələrinə 11000 manat sığorta ödənişi həyata keçirilir. Bu məqsədlə sığorta ödənişinin verilməsi üçün vərəsə(-lər) həlak olmuş hərbi qulluqçunun ölüm haqqında şəhadətnaməsinin surətini, notariat qaydada təsdiq edilmiş vərəsəlik şəhadətnaməsini və vərəsələrin şəxsiyyət vəsiqəsinin surətini müvafiq quruma təqdim etməlidir. Sənədlər təqdim edildikdən 10 iş günü ərzində 11000 (on bir min) manat sığorta ödənişi vərəsə(-lər)in bank hesabına köçürülür.

**15. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında”**

19 aprel 2018-ci il 1 saylı Fərmanında[226] qeyd olunur ki, Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi

[226] hhttps://e-qanun.az/framework/38532

bütövlüyünün təmin edilməsi və qorunub saxlanması üçün ölkənin hərbi qüdrətinin artırılması, hərbi-sənaye kompleksinin inkişaf etdirilməsi, silahlı qüvvələrin döyüş qabiliyyətinin gücləndirilməsi və mənəvi-psixoloji vəziyyətinin daha da yüksəldilməsi dövlətin ən ümdə vəzifələridir.

Son illərdə hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması ölkənin müdafiə potensialının gücləndirilməsi ilə yanaşı, silahlı qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsinə, mənzil-məişət problemlərinin həll olunmasına, onlara verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsinə şərait yaratmışdır.

Bu sahədə dövlət siyasətinin mühüm istiqamətlərindən biri də hərbi qulluqçulara dövlət icbari sığortasının tətbiqidir. 1997-ci il avqustun 2-də "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra hərbi qulluqçuların həlak olması, itkin düşməsi və ya xəsarət alması zamanı sığorta ödənişlərinin verilməsinə dair normativ hüquqi baza formalaşdırılmış, belə ödənişlərlə bağlı maliyyə təminatı məsələsi həll edilmiş və Qanuna uyğun olaraq sığorta ödənişlərinin verilməsinə başlanılmışdır.

Həmin Qanunun tətbiqindən əvvəl Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların, eləcə də daxili işlər orqanları əməkdaşlarının ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti aşağıdakıları qərara almışdır:

1. 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi və daxili işlər orqanları əməkdaşlarının vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə (bundan sonra – birdəfəlik ödəmə) verilsin.

2. Birdəfəlik ödəmə – bu Fərmanın 5-ci və 5-1-ci hissələrində nəzərdə tutulmuş siyahılardakı hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının Azərbaycan Respublikasının Mülki

Məcəlləsinə uyğun olaraq müəyyən edilən vərəsələrinə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilir.

3. Birdəfəlik ödəmə bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulmuş şəxsin müraciəti və notariat qaydasında təsdiq olunmuş aşağıdakı sənədlər əsasında verilir:

3.1. hərbi qulluqçunun və ya daxili işlər orqanları əməkdaşının ölümü haqqında şəhadətnamə;

3.2. hərbi qulluqçunun və ya daxili işlər orqanları əməkdaşının ölmüş elan edilməsi haqqında məhkəmə qərarı;

3.3. birdəfəlik ödəməni almaq üçün müraciət etmiş şəxsin vərəsəlik hüququnu təsdiq edən sənəd;

3.4. birdəfəlik ödəməni almaq üçün müraciət etmiş şəxsin bank hesabı nömrəsinə dair arayış.

3-1. Birdəfəlik ödəmənin verilməsi üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulmuş şəxsdən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulmuş şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya həmin şəxs tərəfindən təmin edilir.

4. Birdəfəlik ödəmə həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman həlak olması, ölməsi və ya xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilməsi ilə əlaqədar barəsində sığorta ödənişinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktı olmayan, habelə 11000 manat məbləğində (qanunvericiliklə müəyyən edilmiş məcburi ödənişlər nəzərə alınmaqla) sığorta ödənişi almamış hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələrinə verilir.

5. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 1997-ci il avqustun 2-dək Azərbaycan

Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ümumi siyahısını Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti və digər aidiyyəti dövlət orqanları ilə birgə müəyyən etsin və üç ay müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etsin.

5-1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş daxili işlər orqanları əməkdaşlarının siyahısını 2019-cu il fevralın 15-dək müəyyən edib Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etsin.

6. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

6.1. birdəfəlik ödəmənin verilməsinə dair müraciəti bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulmuş sənədlərlə birlikdə (bu Fərmanın 3-1-ci hissəsinin müddəaları nəzərə alınmaqla) qəbul edib, onu müraciətlərin vahid elektron reyestrinə daxil etsin və müraciətin daxilolma tarixini və reyestr nömrəsini əks etdirən qəbzi müraciət etmiş şəxsə təqdim etsin;

6.2. hərbi qulluqçunun və ya daxili işlər orqanları əməkdaşının adının bu Fərmanın 5-ci və 5-1-ci hissələrində nəzərdə tutulmuş siyahılardakı olub-olmamasını müəyyən edib, bu Fərmanın digər tələbləri nəzərə alınmaqla, birdəfəlik ödəmənin verilməsinə və ya bundan imtina edilməsinə dair qərar qəbul etsin;

6.3. birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul edilmiş şəxslər barədə məlumatları vəsaitin ayrılması məsələsinin həll

edilməsi üçün, mütəmadi olaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müəyyən etdiyi formaya əsasən həmin Nazirliyə təqdim etsin;

6.4. müraciətlərin daxilolma ardıcıllığına uyğun olaraq, birdəfəlik ödəmələrin nağdsız qaydada müvafiq şəxslərin bank hesabına köçürülməsini təmin etsin və bu barədə həmin şəxslərə məlumat versin;

6.5. birdəfəlik ödəmə üçün müraciət etmiş və ödəniş almış şəxslər, həmçinin ödənilmiş məbləğ barədə rüblük məlumatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

6.6. hərbi qulluqçunun və ya daxili işlər orqanları əməkdaşının adını, soyadını və atasının adını daxil etməklə, bu Fərmanın 5-ci və 5-1-ci hissələrində nəzərdə tutulmuş siyahılardakı olub-olmamasını yoxlamağa imkan verən internet informasiya resursunun fəaliyyətini təmin etsin.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

7.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən daxil olmuş məlumatlar əsasında müraciətlərin daxilolma ardıcıllığı nəzərə alınmaqla, birdəfəlik ödəmələrin verilməsi ilə əlaqədar maliyyələşmənin həyata keçirilməsi üçün tələb olunan vəsaitin müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulmasını və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılmasını təmin etsin;

7.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş tarixədək baş vermiş sığorta hadisələrinə görə "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş sığorta ödənişlərinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktlarının icrası məqsədi ilə maliyyələşməni təmin etsin;

7.3. bu Fərmanda verilmiş tapşırıqların icrası ilə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə illik hesabat təqdim etsin.

8. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Xüsusi

Dövlət Mühafizə Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulmuş hərbi qulluqçuların siyahısını müəyyən etmək məqsədi ilə müvafiq məlumatları iki ay müddətində Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə təqdim etsinlər.

9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olması, ölməsi və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan olunması ilə əlaqədar sığorta ödənişinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktı olan hərbi qulluqçular haqqında bir ay müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məlumat versin.

10. Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olması, ölməsi və ya xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilməsi ilə əlaqədar sığorta ödənişi verilmiş hərbi qulluqçular barədə bir ay müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məlumat versin".

**16. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 14 sentyabr 2018-ci il tarixli 6-8 nömrəli qərarı ilə təsdiq edilmiş 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələrinə birdəfəlik ödəmənin verilməsi Qaydaları[227] aşağıdakıları müəyyən edirdi:**

---

[227] hhttps://e-qanun.az/framework/40227

Həmin Qaydalar "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanının (bundan sonra – Fərman) icrasının təmin edilməsi məqsədilə hazırlanmışdır və 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların (bundan sonra – hərbi qulluqçular) və daxili işlər orqanları əməkdaşlarının Azərbaycan Respublikasının ərazisində yaşayan vərəsələrinin müəyyən edilməsi, onlara birdəfəlik ödəmənin təyin edilməsi və ödənilməsi ilə bağlı məsələləri tənzimləyir.

Birdəfəlik ödəməyə hüququ yaranan hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan – Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqları tərəfindən müəyyən edilmiş vərəsələrinə birdəfəlik ödəmənin təyin edilməsi və ödənilməsi ilə bağlı məsələlərə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanının tələblərinə uyğun olaraq baxılır.

Fərmanda göstərilən dövlət qurumları tərəfindən təqdim edilmiş məlumatlar əsasında aşağıdakı adlı siyahılar müəyyən edilir:

1. hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının siyahıları;

2. sığorta ödənişinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktı olan hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının siyahıları;

3. 11000 manat məbləğində (qanunvericiliklə müəyyən edilmiş məcburi ödənişlər nəzərə alınmaqla) sığorta ödənişi almamış hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının siyahıları;

4. birdəfəlik ödəməyə hüququ yaranan hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının siyahıları.

Birdəfəlik ödəməyə hüququ yaranan hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələri (Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqları tərəfindən müəyyən edilənlər istisna olmaqla) birdəfəlik ödəməyə hüququ yaranan hərbi qulluqçunun və daxili işlər orqanı əməkdaşının sonuncu yaşayış yeri, bu məlum olmadıqda mirasının olduğu yer üzrə notariat orqanlarına vərəsəlik şəhadətnaməsinin verilməsi üçün müraciət edirlər.

Birdəfəlik ödəməyə hüququ yaranan hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələri notariat orqanlarına aşağıdakı sənədləri təqdim edirlər:

1. hərbi qulluqçunun və daxili işlər orqanı əməkdaşının ölümü haqqında şəhadətnaməni;

2. hərbi qulluqçu və daxili işlər orqanı əməkdaşı hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edildiyi təqdirdə, hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilməsi haqqında məhkəmə qərarını;

3. birdəfəlik ödəmənin verilməsi haqqında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin adına ünvanlanan ərizəni (ərizə forması əlavə olunur);

4. bank hesabı nömrəsinə dair arayışı;

5. vərəsəlik hüququnun müəyyən edilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"a uyğun olaraq notariat orqanı tərəfindən tələb olunan sənədləri.

Birdəfəlik ödəmənin verilməsi üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər birdəfəlik ödəməyə hüququ yaranan hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələrindən tələb

edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi birdəfəlik ödəməyə hüququ yaranan hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsəsinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya həmin şəxs tərəfindən təmin edilir.

Birdəfəlik ödəmənin verilməsi üçün müraciətin vahid elektron reyestrə daxil edilməsi barədə məlumat MEİS vasitəsilə "Elektron Hökumət" şlüzü üzərindən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə bildirilir. MEİS tərəfindən müraciətlərin daxilolma ardıcıllığına uyğun olaraq, onların daxilolma tarixini və reyestr nömrəsini əks etdirən bildiriş vərəsələrin ərizədə qeyd etdiyi əks-əlaqə vasitələrinin birinə göndərilir. MEİS-ə daxilolma ardıcıllığı ilə tərtib edilmiş məlumatlar üzrə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2018-ci il 30 aprel tarixli 18020021716 nömrəli əmri ilə yaradılmış Komissiyada birdəfəlik ödəmənin verilməsi haqqında qərar qəbul edilir.

Birdəfəlik ödəmənin verilməsi üçün tələb olunan maliyyə vəsaitinin ayrılması məqsədi ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hər ay üçün sifariş növbəti ayın 5-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin müəyyən etdiyi formaya uyğun olaraq həmin Nazirliyə təqdim edilir.

Tələb olunan maliyyə vəsaiti müvafiq xəzinə hesabına daxil olduqdan sonra Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müraciətlərin daxilolma ardıcıllığına uyğun olaraq, birdəfəlik ödəmələrin nağdsız qaydada vərəsələrin bank hesablarına köçürülməsi təmin edilir və MEİS tərəfindən vərəsələrin ərizədə göstərilən əks əlaqə vasitələrindən birinə bu barədə bildiriş göndərilir.

### 17. Şəhid ailəsi üzvlərinin Azərbaycan Respublikası Prezidentinin təqaüdü təminatı

"Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2006-cı il 493 nömrəli Fərmanına[228] uyğun tənzimlənir.

"Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Fərmanında aşağıdakılar qeyd olunur:

"Azərbaycan dövlətinin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi üçün mübarizəyə qalxan minlərlə soydaşımız mərdlik göstərərək canlarını qurban vermiş və şəhidlik zirvəsinə ucalmışdır.

Həmin şəxslərin xatirəsi xalqımız və dövlətimiz tərəfindən həmişə böyük hörmət və məhəbbətlə yad edilir. Şəhidlərin əziz xatirəsinin əbədiləşdirilməsi və şəhid ailələrinin mənəvi və maddi ehtiyaclarının ödənilməsi üçün müntəzəm olaraq tədbirlər həyata keçirilir.

Dövlətimizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşu uğrunda şəhid olanların ailələrinə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti aşağıdakıları qərara almışdır:

1. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hər şəhid ailəsinə hər şəhidə görə ayda 700 (yeddi yüz) manat məbləğində "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilsin.

2. Müəyyən edilsin ki:

2.1. bu Fərmanın 1-ci bəndi ilə təsis edilən təqaüd hər ilin dövlət büdcəsində sosial müdafiə xərcləri üçün nəzərdə tutulan vəsait hesabına, şəhid ailəsi üzvlərinin sayına bərabər bölünməklə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ödənilir;

---

[228] hhttps://e-qanun.az/framework/12606

2.2. hər şəhidə görə onun ailəsinə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı və Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə, 20 Yanvar şəhidinin ailəsi üçün və bu Fərmanın 1-ci bəndi ilə müəyyən edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdlərindən yalnız biri, ən yüksəyi verilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təyin olunması və ödənilməsi qaydalarını bir ay müddətində hazırlayıb təsdiq etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin;

4. Bu Fərman 2007-ci il yanvarın 1-dən qüvvəyə minir.

**18. Azərbaycan Respublikasının Prezidenti "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamənin təsdiq edilməsi barədə 29 dekabr 1998-ci il tarixli Fərmanı[229] ilə "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamə** təsdiq edilmişdir. "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamədə aşağıdakılar nəzərdə tutulmuşdur:

1. "20 Yanvar şəhidi" fəxri adı Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 31 mart tarixli 695 nömrəli Fərmanı ilə təsis edilmişdir. "20 Yanvar şəhidi" fəxri adı ilə Azərbaycan Respublikasının azadlığı, suverenliyi və dövlət müstəqilliyi uğrunda 1990-cı ilin yanvarında Bakı şəhərində, Lənkəran və Neftçala rayonlarında faciəli hadisələr zamanı həlak olmuş və həmin hadisələr nəticəsində aldığı xəsarətdən (yaralanma, travma, kontuziya) vəfat etmiş şəxslər (ölümündən sonra) təltif olunurlar.

2. "20 Yanvar şəhidi" fəxri adının verilməsi haqqında vəsatət qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq sənədlər əsasında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qaldırılır.

---

[229] https://e-qanun.az/framework/3453

Vəsatət Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən vətəndaşların və ictimai təşkilatların müraciətinə uyğun olaraq qaldırıla bilər.

3. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "20 Yanvar şəhidi" fəxri adı ilə təltif olunmağa hüquq yarandıqdan və ya bu barədə müraciət edildikdən sonra 1 ay müddətində bütün zəruri sənədləri toplayaraq vəsatətlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

4. "20 Yanvar şəhidi" fəxri adı Azərbaycan Respublikası Prezidentinin sərəncamı əsasında verilir.

5. "20 Yanvar şəhidi" fəxri adı ilə təltif olunma haqqında bu Əsasnamənin əlavəsində müəyyən olunmuş formada müvafiq vəsiqə şəhid ailəsi statusu almaq hüququ olan ailə üzvlərindən birinə təqdim olunur.

6. "20 Yanvar şəhidi" fəxri adı ilə təltif olunanların ailə üzvləri qanunvericilikdə şəhid ailələri üçün nəzərdə tutulan güzəşt və imtiyazlardan istifadə edirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən **Azərbaycan Respublikası Prezidentinin təqaüdü (aylıq)** – şəhid ailəsinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü (700 manat) ödənilir. Bu məqsədlə Şəhid ailəsi statusu haqqında müvafiq arayış Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli strukturuna təqdim edilir, oradan təqaüd almaq hüququ olan ailə üzvlərinə təyinat aparılaraq ödənişə göndərilir.

**19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 yanvar tarixli 18 nömrəli qərarı ilə təsdiq edilmiş "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təyin olunması və ödənilməsi Qaydaları[230]**.

Həmin Qaydalar "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli 493 nömrəli

---

[230] https://e-qanun.az/framework/12759

Fərmanına əsasən hazırlanmışdır və şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin olunması və ödənilməsi mexanizmini müəyyən edir.

"Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" şəhidin aşağıdakı ailə üzvlərinə təyin edilir:

– arvadına (ərinə);
– valideynlərinə;
– 18 yaşına çatmamış və ya 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan uşaqlarına;
– uşaq evlərində tərbiyə olunan qardaş və bacılarına;
– qanunla onları saxlayan şəxs olmadıqda baba və nənələrinə.

3. Şəhidin 18 yaşına çatmamış və ya 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan uşaqlarına və uşaq evlərində tərbiyə olunan qardaş və bacılarına tədris müəssisələrində əyani təhsil aldıqda, həmin təqaüd təhsili bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək ödənilir. Şəhidin qəyyumluğa (himayəçiliyə) verilmiş uşaqlarına "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təyin edilərkən qəyyum (himayəçi) ailə tərkibində nəzərə alınmır.

"Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" müraciət edən şəxsin şəhidlə qohumluğunu təsdiq edən sənəd, şəhid ailələrinə verilən vəsiqə, təqaüd almaq hüququ olan digər ailə üzvləri barədə məlumat və ərizə əsasında təyin edilir. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təyin edilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

“Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü” hər bir şəhidə görə təyin edilir və ailə üzvlərinin sayına bərabər bölünməklə ödənilir. “Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü” Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan şəhid ailəsi üzvlərinə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu, Azərbaycan Respublikasında yaşayan şəhid ailəsi üzvlərinə isə yaşayış yeri üzrə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yerli qurumları və ya “DOST” mərkəzləri tərəfindən təyin edilir və yalnız nağdsız qaydada ödənilir.

Müraciət müddətindən asılı olmayaraq, “Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü” onu almaq hüququ yarandığı gündən təyin edilir. “Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü” dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan şəhid ailəsi üzvlərinə təqaüd onların arzularına əsasən Azərbaycan Respublikasının banklarında açılmış şəxsi hesablarına və ya öz vəsaitləri hesabına yaşadıqları ölkələrə köçürülür.

**20. Müavinət** (aylıq) – şəhidin pensiya hüququ olmadıqda ailə başçısını itirməyə görə hər bir ailə üzvünə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 120 manat məbləğində müavinət ödənilir. Bu məqsədlə şəhidin ölüm haqqında şəhadətnaməsi onun ailə üzvü tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli strukturuna təqdim edilir, oradan müavinət almaq hüququ olan ailə üzvlərinə müavinət təyin edilərək ödənişə göndərilir.

**21. Özünüməşğulluq proqramı** – şəhid ailəsi üzvlərinin özünüməşğulluq proqramına ən qısa zamanda növbədənkənar cəlb edilməsi təmin olunur və proqram çərçivəsində kiçik ailə təsərrüfat və müəssisələrini yaratmaları üçün onlara mal və materiallar formasında aktivlər təqdim edilir.

**Bu məqsədlə** həmin dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada Əmək Münasibətləri və Məşğulluq Altsistemi"nə (ƏMAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müracət etməlidir[231].

**22**. **Haqqı ödənilən ictimai işlər.** Şəhid ailəsi üzvlərinin haqqı ödənilən ictimai işlərə ən qısa zamanda növbədənkənar cəlb edilməsi təmin olunur. Bu məqsədlə həmin dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada Əmək Münasibətləri və Məşğulluq Altsistemi"nə (ƏMAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etməlidir.

**23. Kvotadan əlavə iş yerlərinin yaradılması.** Şəhid ailəsi üzvlərinin müəssisələrdə iş yerlərinə işlərə qəbulu və əməkhaqqının 100%-dək maliyyələşdirilməsi. Bu məqsədlə həmin dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada "Əmək Münasibətləri və Məşğulluq Altsistemi"nə (ƏMAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etmə-lidir.

**24**. **Sosial müəssisələrin və əlavə iş yerlərinin yaradılması, məqsədli proqramların icrası.** Şəhid ailəsi üzvləri də daxil olmaqla həssas kateqoriyalardan olan şəxsləri əhatə edəcək xüsusi layihələrin həyata keçirilməsi. Bu məqsədlə həmin dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada "Əmək Münasibətləri və Məşğulluq Altsistemi"nə (ƏMAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müracitə etməlidir.

---

[231] https://dost.gov.az/page/sehid-ailelerinin-huquqlari

**25. Qeyd olunanlardan əlavə** Qaydaların 3-cü qaydası şəhidin xatirəsinin əbədiləşdirilməsi və şəhid ailələrinin hüquqlarına həsr olunmuş və daha geniş dairədə tədbirləri əhatə edir. 3.1-ci qaydaya əsasən şəhid adını əbədiləşdirmə məqsədilə yerli rayon (şəhər) icra hakimiyyəti orqanları aşağıdakı tədbirləri həyata keçirirlər:

– Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı və Azərbaycanın Milli Qəhrəmanı olan şəhidlərin büstlərini qoyurlar;
– Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı və Azərbaycanın Milli Qəhrəmanı olan, habelə vətən uğrunda döyüşlərə görə ordenlə təltif olunan şəhid adlarını küçələrə, meydanlara verirlər, təşkilatlara, müəssisələrə, hərbi və mülki gəmilərə verilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırırlar;
– "Şəhid" Memorial kompleksini yaradırlar;
– Vətən uğrunda göstərilən qəhrəmanlıqla bağlı döyüş yerlərinin, habelə dəfn yerlərinin qorunması və abadlaşdırılması, qəbirüstü daşların, xatirə abidələrinin qorunmasını təşkil edirlər;
– Döyüş əməliyyatları getmiş yerlərdə xatirə nişanları qoyurlar;
– Qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirləri həyata keçirirlər.

Qaydaların 3.2-ci qaydasına müvafiq olaraq şəhid ailəsi statusunu almış ailə üzvlərinə qanunvericiliklə müəyyən edilmiş təminatlar (güzəştlər) aşağıdakı qaydada verilir:

– şəhidin ailə üzvünə ailə başçısını itirməyə görə pensiya "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təyin edilir;
– şəhidin ailə üzvləri təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət

büdcəsi vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci maddəsi ilə tənzimlənir;

– şəhidin ailə üzvlərinə işçilərin sayı və ya ştatı ixtisar edilərkən işdə saxlanmaqda üstünlük verilir, müəssisənin, idarənin, təşkilatın fəaliyyəti dayandırıldıqda isə onlar işlə təmin olunur;
– sosial iş yerlərinin və işsiz şəxslərin özünüməşğulluğunun, habelə peşə hazırlığının təşkili zamanı şəhidin ailə üzvlərinə üstünlük verilir;
– yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçot onun ailə üzvləri üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada saxlanılır;
– Şəhidin ailə üzvlərinin gəlirindən vergi tutulması Azərbaycan Respublikasının vergi qanunvericiliyi ilə nizama salınır;
– mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan şəhid ailələri yaşayış sahəsi ilə birinci növbədə təmin olunurlar;
– şəhid ailəsinə onun arzusuna görə fərdi mənzil tikintisi üçün məqsədli güzəştli ssuda, yaşadığı yerdən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş ölçüdə torpaq sahəsi, habelə bağçılıq birliyinə (kooperativə) qəbul zamanı üstünlük verilir.

**26. Azərbaycan Respublikası Vergi Məcəlləsinin**[232] *102.1-ci maddəsi f*iziki şəxslərin gəlirlərinin gəlir vergisindən azad olunması hallarını nəzərdə tutur. Şəhid olmuş şəxslərin ailə üzvlərinin təqvim ili ərzində alınan hədiyyə, maddi yardım, birdəfəlik müavinət və miraslardan əldə etdiyi maddi yardımın

---

[232] https://e-qanun.az/framework/46948

20000 manatadək olan hissəsi gəlir vergisindən azaddır (maddə 102.1.3.3).

Qeyd olunandan əlavə Vətən müharibəsi iştirakçılarının və Vətən müharibəsində, habelə Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatları və hərbi təxribatlar nəticəsində şəhid ailəsi statusu almış və əlilliyi müəyyən edilmiş şəxslərin banklara və digər kredit təşkilatlarına olan borclarının silinməsindən əldə olunan gəlirlər də gəlir vergisindən azaddır (maddə 102.1.25-1).

Həmin Məcəllənin 102.1-1-ci maddəsinə müvafiq olaraq şəhid statusu almış şəxslərin valideynlərinin, dul arvadlarının (ərlərinin) və övladlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 800 manat məbləğində azaldılır.

Vergi Məcəlləsinin 102.2.5-ci maddəsi həmçinin müəyyən edir ki, həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin (şəhid statusu almış şəxslər istisna olmaqla) dul arvadlarının (ərlərinin) və övladlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır.

Həmin Məcəllənin 102.4.1-ci maddəsi isə müəyyən edir ki, həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin (şəhid statusu almış şəxslər istisna olmaqla) valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və arvadlarının (ərləri) hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır. Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar.

Vergi Məcəlləsinin 130-cu maddəsinə əsasən Vergi ödəyicisi vergi tutulan gəlirin (mənfəətin) dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumat əsasında gəlirlərinin və xərclərinin vaxtlı-vaxtında dəqiq uçotunu aparmağa, bu fəsilə uyğun şəkildə tətbiq edilən uçot metodundan asılı olaraq gəlirlərini və xərclərini onların əldə edildiyi və ya çəkildiyi müvafiq hesabat dövrlərinə aid etməyə borcludur. Vergi ödəyicisinin istifadə etdiyi uçot metodunda xərclərin və daxilolmaların müddətləri və uçotu qaydasına dair bütün tələblər nəzərə alınmalıdır.

Gəlirlərin və xərclərin uçotunu hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq aparırlar. Vergitutma məqsədləri üçün gəlirlər və xərclər bu Məcəlləyə əsasən müəyyən edilir.

Vergi ödəyicisi öz fəaliyyəti ilə bağlı olan bütün əməliyyatların başlanğıcını, gedişini və qurtarmasını müəyyənləşdirməyə imkan verən uçotun aparılmasını təmin etməyə borcludur.

Banklar və kredit təşkilatları tərəfindən Vətən müharibəsi iştirakçılarının və Vətən müharibəsində şəhid olmuş şəxslərin, habelə Vətən müharibəsi nəticəsində şəhid ailəsi statusu almış şəxslərin 2021-ci il 1 yanvar tarixinədək alınmış kreditlər üzrə həmin tarixədək ödənilməyən borclarına görə hesablanmış faizlərin silinməsi bankların və digər kredit təşkilatlarının vergi tutulan gəlirlərinə aid edilmir. Bu maddə ilə müəyyən edilmiş silinən borcların əsas məbləği üzrə yaradılmış ehtiyatlar gəlirdən çıxılan xərclərə aid edilir.

**27. Dəfn mərasiminin təşkili üçün maliyyə yardımı** – şəhidin valideynlərinə (nümayəndələrinə) Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən yas mərasiminin təşkili üçün 3 000 manat məbləğində maliyyə yardımı ödənilir. Bu məqsədlə valideyn (nümayəndə) həlak olma (vəfat etmə) barədə hərbi hissə (müəssisə, idarə və təşkilat) komandirinin (rəisinin) əmrini Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli bölməsinə təqdim edir, oradan  3 (üç) iş günü müddətində müvafiq vəsait nağdsız hesablaşma yolu ilə ödənilir.

**28. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası"**[233].

---

233 https://e-qanun.az/framework/46420

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydasıdır.

Həmin Qayda Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) (bundan sonra – Fond) vəsaitinin formalaşdırılması, idarə olunması və həmin vəsaitdən istifadə ilə bağlı münasibətləri tənzimləyir.

Fondun məqsədi "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanının 3.1-ci bəndində qeyd olunan şəxslərin (bundan sonra – şəxs) sosial müdafiəsi sahəsində dövlətin həyata keçirdiyi tədbirlərə əlavə dəstək verilməsidir.

Fondun vəsaitinin sərəncamçısı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir (bundan sonra – Dövlət Agentliyi).

Fondun vəsaiti aşağıdakı mənbələr hesabına formalaşdırılır:

1. fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr);

2. qanunla qadağan olunmayan digər mənbələr.

Fondun vəsaitindən aşağıdakı istiqamətlərdə istifadə olunur:

1. şəhid ailəsi statusu alana və ya əlilliyi müəyyən edilənədək götürülən istehlak kreditlərinin və digər borc öhdəliklərinin qarşılanması;

2. müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi;

3. təhsil almasına, habelə əlavə təhsilinə, peşə hazırlığının artırılmasına, eləcə də yaradıcı potensialının inkişafına kömək edilməsi ilə bağlı xərclərin ödənilməsi;

4. məişət şəraitinin yaxşılaşdırılması;

5. Himayəçilik Şurasının müəyyən etdiyi digər istiqamətlər.

Fondun vəsaiti yuxarıda qeyd olunmayan istiqamətlərdə istifadə edilə bilməz.

Fond tərəfindən şəxsə əlavə dəstək onun müraciəti əsasında göstərilir. Şəxsin müraciəti elektron qaydada Fondun rəsmi internet səhifəsi üzərindən qəbul edilir. Müraciətlərin elektron qaydada formalaşdırılması ilə bağlı könüllülər müraciət edən şəxsə yardım göstərirlər. Fonda edilən müraciətlər, ehtiyacların prioritetliyi nəzərə alınmaqla, Dövlət Agentliyinin bu məqsədlə yaratdığı informasiya sistemində növbəlilik prinsipi ilə sıralanır. Ehtiyacların prioritetliyi müvafiq dövlət orqanlarından (qurumlarından) və müraciət edən şəxsdən əldə edilmiş məlumatlar nəzərə alınmaqla, aşağıdakı meyarlar əsasında Dövlət Agentliyinin müəyyən etdiyi: müvafiq ehtiyac istiqaməti; müraciətin ilkin və ya təkrar olması; müraciət edən şəxsin maddi vəziyyəti, orta aylıq gəliri; himayəsində azyaşlı uşağın olması; ailədə əmək qabiliyyətli şəxslərin sayı; Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar dövlət təltiflərinin olması; dövlət tərəfindən digər dəstək tədbirlərinin göstərilməsi kimi əmsallara uyğun olaraq qiymətləndirilir.

Dövlət Agentliyi daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxır və nəticəsi barədə müraciət edən şəxsə bildiriş göndərir. Şəxsə dəstək göstərilməsi barədə qərar qəbul edildikdən sonra 10 iş günü müddətində maliyyə yardımı müraciət edən şəxsə bank vasitəsilə təqdim olunur. Eyni müraciətlə bağlı Fondun vəsaiti hesabına və ya müvafiq dövlət orqanının (qurumunun) əvvəllər yardım etdiyi, habelə müraciətdə göstərilən dəstəyin verilməsi üçün Fondun balansında kifayət qədər vəsait olmadığı hallarda, müraciət edən şəxsin razılığı ilə alternativ maliyyələşdirmə üsulu tətbiq olunur. Alternativ maliyyələşdirmə üçün şəxsin müraciəti Fondun rəsmi internet səhifəsində yerləşdirilir və onun fiziki və ya hüquqi şəxslər tərəfindən maliyyələşdirilməsinə imkan yaradılır.

Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti Azərbaycan Respublikası Prezidentinin yaratdığı Himayəçilik Şurası həyata keçirir.

**M a d d ə 4. Şəhid ailələrinin mənzillə təmin edilməsi**

**Şəhid ailəsinin yaşayış sahəsi ilə təmin edilməsi qüvvədə olan qanunvericiliyə müvafiq surətdə respublika hökumətinin müəyyənləşdirdiyi qaydada yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.**

**Mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan şəhid ailələri yaşayış sahəsi ilə birinci növbədə təmin olunurlar.**

**Şəhid ailəsinə onun arzusuna görə fərdi mənzil tikintisi üçün məqsədli güzəştli ssuda, yaşadığı yerdən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş ölçüdə torpaq sahəsi, habelə bağçılıq birliyinə (kooperativə) qəbul zamanı üstünlük verilir.**

**Şəhid ailəsi xüsusi mülkiyyət əsasında mənzil və ya fərdi ev alarkən notariat əməliyyatları dövlət rüsumu ödənilmədən aparılır.**

**1. Maddənin məqsədi** şəhid ailələrinin mənzillə təmin edilməsi ilə bağlı münasibətlərin tənzimlənməsi qaydalarını, şəhid ailələrinin mənzillə təmin edilməsini həyata keçirən orqanları müəyyən etməkdir.

Şərh olunan maddəyə əsasən şəhid ailələri qüvvədə olan qanunvericiliyə müvafiq surətdə respublika hökumətinin müəyyənləşdirdiyi qaydada mənzillə təmin edilməlidirlər. Şəhid ailələrinin mənzillə təmin edilməsi yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilməlidir.

**2. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 20 iyun 2014-cü il tarixli Sərəncamında[234]** qeyd olunur ki, Azərbaycan

---

[234] https://e-qanun.az/framework/27883

Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində olan məsələlərdəndir. 2014-cüilədək bu kateqoriyadan olan 4278 əlilliyi olan şəxs və şəhid ailəsi mənzillə təmin edilmiş, 5731 nəfər yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitini yaxşılaşdırmaq məqsədi ilə, Azərbaycan Respublikasının Prezidenti aşağıdakıları qərara almışdır:

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2014-cü il yanvarın 1-dək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin 2014-2028-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün tədbirlər planı hazırlayıb Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirsin.

2. Yerli icra hakimiyyəti orqanları Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müraciəti əsasında bu Sərəncamın 1-ci hissəsində göstərilən məqsədlər üçün torpaq sahələrinin ayrılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti göstərilən tədbirləri həyata keçirmək üçün tələb olunan ilkin vəsaitin Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsindən ayrılmasını, 2015-2028-ci illərdə isə hər il dövlət büdcəsinin tərtibi prosesində zəruri vəsaitin dövlətin əsaslı vəsait qoyuluşunda nəzərdə tutulmasını təmin etsin.

**3. Azərbaycan Respublikası Prezidentinin "Şəhid ailəsi statusu almış şəxslərin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında"** 16 dekabr 2021-ci il 1487 saylı Fərmanda[235] eyni məsələlərlə bağlı Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsində, Qaradağ rayonunun Ümid qəsəbəsində, Binəqədi rayonunun Xocasən qəsəbəsində, Abşeron, Lənkəran və Samux rayonlarında inşa edilmiş çoxmənzilli binalarda, həmçinin Bakı şəhəri Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində və Abşeron rayonunda inşası davam etdirilən, dövlət mənzil fonduna aid çoxmənzilli binalarda yerləşən mənzillərin (bu Fərmanın 4-cü hissəsi nəzərə alınmaqla) Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 146.4-cü maddəsinə əsasən özəlləşdirilməsi həmin mənzillərin satışı yolu ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən həyata keçirilməsi qərara alınmışdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Fərmanda nəzərdə tutulan mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə qaydasının layihəsini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək, Nazirliyə Fərmanda qeyd edilən mənzillərin satışını nəzərdə tutulan qaydaya uyğun olaraq təşkil etmək həvalə olunmuşdur.

Nazirlik həmçinin mənzillərin satışından əldə olunan vəsait hesabına yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış aşağıdakı şəxslərin mənzillə və ya fərdi evlə təmin edilməsi üçün tədbirlər görməlidir:

1. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında"

[235] https://e-qanun.az/framework/48640

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli 569 nömrəli Sərəncamının[236] 1-ci hissəsində nəzərdə tutulmuş şəxslər;

2. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamının[237] 1-ci hissəsində nəzərdə tutulmuş şəxslər;

3. həmin 16 dekabr 2021-ci il 1487 saylı Fərmanın 3.2.2-ci yarımbəndində nəzərdə tutulan, 2020-ci və 2021-ci illər ərzində yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəxslər.

Fərmanda həmçinin qeyd olunur ki, 1-ci hissəsdə nəzərdə tutulan mənzillərin satışına həmin mənzillərin sayı yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış bu Fərmanın 3.2.1 – 3.2.3-cü yarımbəndlərində nəzərdə tutulan şəxslərin, eləcə də bu Fərman qüvvəyə mindiyi günədək yaşayış sahəsinə ehtiyacı olan qismində uçotda olan gözdən əlilliyi müəyyən edilmiş şəxslərin, habelə uşaqlar üçün sosial xidmət müəssisələrinin, habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərinin valideynlərini itirmiş *və ya* valideyn himayəsindən məhrum olmuş məzunlarının sayından artıq olduqda və həmin mənzillərin Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş yaşayış sahəsinin ayrılma norması nəzərə alınmaqla bu Fərmanın 3.2.1 – 3.2.3-cü yarımbəndlərində nəzərdə tutulan şəxslərə verilməsi mümkün olmadıqda. aşağıdakı hallarda yol verilir:

Fərmana müvafiq olaraq Yerli icra hakimiyyəti orqanları həmin Fərmanın 3.2.3-cü yarımbəndində göstərilən şəxslər barədə məlumatları Nazirliyə təqdim etməlidirlər.

---

[236] https://e-qanun.az/framework/27883
[237] https://e-qanun.az/framework/46720

**4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 noyabr 2024-cü il 485 saylı qərarı ilə "Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası"**[238] təsdiq edilmişdir. Qərarda göstərilir ki, həmin Qayda "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin səkkizinci abzasına əsasən hazırlanmışdır və yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin şəxsin (bundan sonra – uçota alınmış şəxs) uçotunun onun ailə üzvləri üçün saxlanılması qaydasını müəyyən edir. Qərarda aşağıdakılar nəzərdə tutulmuşdur:

Qaydada istifadə olunan anlayışları aşağıdakı mənaları ifadə edir:

– **uçota alınmış şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılması** – uçota alınmış şəxsin yaşayış sahəsini əldə etməsi üçün növbəlilik sırasındakı yerini müəyyən edən uçot işinin nömrəsinin onun əvəzinə uçota alınacaq ailə üzvü (üzvləri) üçün saxlanılması;

– **uçota alınmış şəxsin ailə üzvləri** – Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın (bundan sonra – Qaydalar) 2.1-ci bəndində göstərilmiş və uçota alınmış şəxs yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınarkən onun ailə üzvləri kimi qeydiyyata alınmış şəxslər;

– **uçota alınmanı həyata keçirən orqan** – uçota alınmış şəxsin Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 51.3-cü maddə-

---

[238] https://e-qanun.az/framework/58292

sinə əsasən yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alındığı müvafiq yerli icra hakimiyyəti orqanı və ya bələdiyyə orqanı.

Qaydaya əsasən uçota alınmış şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılması məqsədilə Qaydaların 2.1-ci bəndinə uyğun olaraq ailə üzvlərinin birgə razılığı əsasında ailənin yetkinlik yaşına çatmış üzvlərindən biri (belə şəxs olmadıqda qəyyum (himayəçi), patron (köməkçi) və ya vəkil edilmiş şəxs) (bundan sonra – təmsilçi) uçota alınmış şəxsin vəfat etdiyi gündən etibarən 3 (üç) ay müddətində uçota alınmanı həyata keçirən orqana və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri"nə (bundan sonra – Mərkəz) Qaydanın 1 nömrəli əlavəsinə uyğun formada ərizə ilə müraciət edir.

Uçota alınmanı həyata keçirən orqana və ya Mərkəzə ərizə ilə birlikdə aşağıdakı sənədlər təqdim edilir:

– təmsilçinin və digər ailə üzvlərinin şəxsiyyətini təsdiq edən sənədlərin surəti;

– bu Qaydanın 2 nömrəli əlavəsinə uyğun təmsilçilik barədə ərizə (yaşayış yeri üzrə rayon (şəhər) icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin və ya "ASAN xidmət" Mərkəzinin yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışına əsasən notarial qaydada təsdiq edilir);

– uçota alınmış şəxsin ölümü haqqında şəhadətnamənin surəti;

– yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, sonradan şəhid statusu verilməsi haqqında arayış.

Həmin sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar təmsilçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi

mümkün olmadığı hallarda onların təqdim edilməsi təmsilçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya təmsilçi tərəfindən təmin edilir.

Uçota alınmanı həyata keçirən orqan və ya Mərkəz tərəfindən təmsilçiyə qəbul edilən sənədlərin siyahısı və sənədlərin qəbuledilmə tarixi barədə qəbz verilir. Çatışmayan sənəd (sənədlər) olduqda bu barədə qəbzdə müvafiq qeyd aparılır.

Təqdim edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, uçota alınmanı həyata keçirən orqan və ya Mərkəz bu barədə təmsilçiyə 1 (bir) iş günündən gec olmayaraq (Qaydanın 2.3-cü bəndinin tələbi nəzərə alınmaqla) yazılı məlumat verir və həmin çatışmazlıqlar yazılı məlumatın alındığı gündən ən geci 7 (yeddi) iş günü müddətində təmsilçi tərəfindən aradan qaldırılır.

Sənədlərin təqdim edildiyi gündən 30 iş günündən gec olmayaraq uçota alınmanı həyata keçirən orqan tərəfindən təmsilçinin uçota alınmış şəxsin əvəzinə uçota alınması və ya bundan imtina edilməsi barədə qərar qəbul edilir. Uçota alınmanı həyata keçirən orqan qərarın qəbul edildiyi gündən 3 (üç) iş günündən gec olmayaraq qərarın surətini təmsilçiyə şəxsən təqdim edir və ya poçt vasitəsilə göndərir, yaxud təmsilçiyə göndərilməsi üçün Mərkəzə təqdim edir.

Uçota alınmış təmsilçinin təqdim etdiyi sənədlər uçota alınmış şəxs uçota alınarkən onun üçün açılmış uçot işinə əlavə olunur.

Uçota alınmış şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılmasından aşağıdakı hallarda imtina edilir:

– Qaydanın 2.2-ci bəndində qeyd olunan sənədlər təqdim edilmədikdə (bu Qaydanın 2.3-cü bəndinin tələbləri nəzərə alınmaqla);
– uçota alınmış şəxsin vəfat etməsi ilə onun ailə üzvlərinin sərəncamında olan yaşayış sahəsinin (sahələrinin) Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 49.5-ci maddəsi ilə müəyyən edilmiş uçot normasına əsasən ailə üçün kifayət etdiyi müəyyən edildikdə;

– təmsilçi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ləyaqətsiz vərəsə hesab edildikdə.

Uçota alınmış şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılmasından imtina edilməsi haqqında qərar imtinanın səbəbləri göstərilməklə əsaslandırılmalıdır. Uçota alınmış şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılmasından imtina edilməsi haqqında qərarın surəti onun qəbul edildiyi gündən 3 (üç) iş günündən gec olmayaraq təmsilçiyə şəxsən təqdim edilir və ya poçt vasitəsilə göndərilir. Həmin qərardan təmsilçi tərəfindən "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati icraat qaydasında və ya məhkəmə qaydasında şikayət verilə bilər. İmtina halı aradan qaldırıldıqda müraciətə yenidən baxılır. Eyni zamanda imtina halı Qaydaların 2.1-ci bəndinə uyğun olaraq digər ailə üzvlərinin yenidən müraciət etməsinə mane olmur.

**5. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə** 28 iyun 2024-cü il 1199-VIQD saylı Qanunla "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununa[239] dəyişiklik edilərək Qanunun 3-cü maddəsinin ikinci hissəsinin yeddinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmiş və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilmişdir:

"yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçot onun ailə üzvləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada saxlanılır". Beləliklə şəhid ailələrinin mənzil hüququnun təminində irəliyə doğru yeni addım atılmışdır.

---

[239] https://president.az/az/articles/view/66494

**6. Azərbaycan Respublikası Prezidenti "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1199-VIQD nömrəli Qanununun[240] tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 1380 nömrəli Fərmanı[241] ilə təsdiq edilmiş "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı"nda dəyişiklik edilməsi haqqında"**, 16 iyul 2024-cü il 145 saylı Fərmanı "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1199-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə aşağıdakıları müəyyən etmişdir:

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin səkkizinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir, həmin Qanunun 3-cü maddəsinin ikinci hissəsinin səkkizinci abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin üzərinə "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin səkkizinci abzasına uyğun olaraq, yaşayış

---

[240] https://president.az/az/articles/view/66491
[241] https://e-qanun.az/framework/47737

sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək vəzifəsi qoyulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 1380 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 595 (Cild I) ilə təsdiq edilmiş "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı"na aşağıdakı məzmunda 5.2-1-ci bənd əlavə edilsin:

5.2-1. yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması barədə müraciətlərin qəbulu

**7. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" 2021-ci il 25 yanvar tarixli nömrəli Sərəncamında[242] dəyişiklik edilməsi barədə" 13 may 2025-ci il tarixdə Sərəncam** imzalayıb.

Dəyişiklik 2014-cü il yanvarın 1-dən 2023-cü il yanvarın 1-dək yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin)

[242] https://e-qanun.az/framework/59603

yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Sərəncamda qeyd edilən 2021-2025-ci illər dövrü 2021-2030-cu illər olaraq müəyyən edilib.

Sərəncamda həmçinin qeyd olunmuşdur ki, hər il dövlət büdcəsinin tərtibi prosesində dövlət əsaslı vəsait qoyuluşunda (investisiya xərclərində) bununla bağlı vəsait də nəzərdə tutulacaq.

Mühüm sosial proqramlardan biri olan şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsindən sonra 5 dəfə genişlənib.

Onlara Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən postmüharibə dövründə 6,8 min, ümumən ötən dövrdə 16 min mənzil və fərdi ev təqdim edilib, bu il isə daha 1000 mənzil verilməsi nəzərdə tutulub.

**8. Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2014-cü il tarixli 569 nömrəli[243], 25 yanvar 2021-ci il tarixli 2449 nömrəli[244] və 25 avqust 2021-ci il tarixli 2871 nömrəli[245] sərəncamları, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 avqust 2021-ci il tarixli 492s nömrəli Sərəncamı**

**Sərəncamlarla əhatə olunan imtiyazlı şəxslər aşağıdakılardır:**

1. 2020-ci il yanvar ayının 1-dək imtiyazı yaranmış və 2023-cü il yanvar ayının 1-dək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri;

---

[243] https://e-qanun.az/framework/27883
[244] https://e-qanun.az/framework/59603
[245] https://e-qanun.az/framework/48139

2. Uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər;

3. Yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və 2020-2023-cü illərdə aparılan hərbi əməliyyatlar zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri;

4. Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslər, eləcə də ölümündən sonra həmin ad verilmiş şəxslərin ailə üzvləri;

5. 16 avqust 2021-ci il tarixinə kimi Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərlərində uçota alınmış gözdən əlilliyi olan şəxslər, habelə qeyd edilən tarixədək uçota alınmış uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunları.

**İmtiyazlı şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün tələb olunan sənədlər aşağıdakılardır:**

1. Mənzil növbəsində olması haqqında müvafiq yerli icra hakimiyyəti orqanının sərəncamının surəti;

2. Ailə üzvü olan hər bir şəxsin şəxsiyyət vəsiqəsinin surəti;

3. 18 yaşından yuxarı hər bir ailə üzvü üçün mülkiyyətində daşınmaz əmlakın olub-olmaması barədə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Xidmətindən arayış;

4. 18 yaşından yuxarı hər bir ailə üzvü üçün torpaq sahəsinin ayrılıb-ayrılmamasına dair qeydiyyat ünvanları üzrə bələdiyyədən arayış;

5. Əlilliyini təsdiq edən müvafiq sənədin və ya şəhid ailə üzvü vəsiqəsinin surəti;

6. Qeydiyyatda olduğu ünvandan arayış (Forma-2, evin kimə məxsus olması barədə sənədin surəti);

7. Faktiki yaşayış yerindən arayış (evin kimə məxsus olması barədə sənədin surəti);

8. Ailə vəziyyəti ilə bağlı digər sənədlər.

Yuxarıda göstərilən imtiyazlı şəxslər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mövcud qanunvericiliyə uyğun olaraq və ailə tərkibi nəzərə alınmaqla növbəlilik qaydasında mənzil və ya fərdi evlə təmin edilirlər[246].

---

[246] https://sxa.gov.az/fealiyyet/menzilteminati)

**M a d d ə 5. Şəhid və şəhid ailələrinin məsələləri ilə məşğul olan dövlət orqanları və onların qarşılıqlı əlaqəsi**

**Şəhid və şəhid ailələrinin məsələləri ilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanları məşğul olurlar. Onlar şəhid ailələrinə tibbi və sosial xidmət göstərilməsi, mənzil tikintisi və təsərrüfatla məşğul olmaq üçün torpaq sahələri ayrılması, ailə üzvlərinin işə düzəldilməsi, habelə digər yardım göstərilməsi məsələlərini qarşılıqlı əlaqə şəraitində həll edirlər.**

**1. Maddənin məqsədi** şəhid və şəhid ailələrinin məsələləri ilə birbaşa məşğul olan dövlət orqanlarının dairəsini, onların həmin sahədə fəaliyyətinin istiqamətlərini və qarşılıqlı əlaqələrini müəyyən etməkdir.

**2. Qarşılıqlı əlaqənin təmini**

Şərh olunan 5-ci maddənin tələblərinin səmərəli həyata keçirilməsinin təmini, yəni Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının şəhid və şəhid ailələrinin məsələləri ilə bağlı fəaliyyətinin (şəhid ailələrinə tibbi və sosial xidmət göstərilməsi, mənzil tikintisi və təsərrüfatla məşğul olmaq üçün torpaq sahələri ayrılması, ailə üzvlərinin işə düzəldilməsi, habelə digər yardım göstərilməsi və s.) əlaqələndirilməsi və bu sahədə səmərəliliyə nail olunması üçün Azərbaycan Respublikasının Prezidenti 25 iyun 2021-ci il tarixdə "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 1380 saylı Fərmanı[247] imzalamışdır. Fərmanda aşağıdakılar öz əksini tapmışdır:

---

[247] https://president.az/az/articles/view/52315

Azərbaycan Respublikasının Prezidenti həmin Fərmanla Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi və ərazilərin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlar zamanı şəhid olmuş şəxslərin ailə üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrdə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məmnunluğunun təmin olunması, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin, şəffaflığın artırılması, habelə xidmətlərin vahid məkandan təxirəsalınmaz və operativ icrasını təmin etmək məqsədilə şəhid ailələrinin üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə göstərilən xidmətlərin vahid məkandan həyata keçirilməsini təmin etmək məqsədilə "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri" (bundan sonra – Mərkəz) yaradılmasını qərara almışdır. Bundan əlavə "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı" və "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərilməsi Qaydası" təsdiq edilmişdir.

Fərmana əsasən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra – Nazirlik) Fərmanla təsdiq edilən siyahıda nəzərdə tutulmuş dövlət orqanlarının (qurumlarının) həmin siyahıda göstərilmiş xidmətlər üzrə fəaliyyətinin əlaqələndirilməsi və müraciətlərin icra vəziyyətinin monitorinqi üzrə əlaqələndirici orqan qismində müəyyən edilmişdir.

Mərkəzdə xidmətlərin “bir pəncərə”, həmçinin operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında göstərilməsi, xidmətlərin birbaşa (yerində), “Çağrı mərkəzi” vasitəsilə və səyyar formada və Mərkəzin fəaliyyətinin ilkin mərhələdə Nazirliyin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin “DOST” mərkəzlərində, daha sonra xidmət göstəriləcək şəxslərin sayı nəzərə alınmaqla, digər inzibati ərazi vahidləri üzrə Nazirliyin yerli qurumlarının inzibati binalarında təşkili müəyyən edilmişdir.

Fərmana müvafiq oolaraq Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanları kimi dövlət orqanları(qurumları) Mərkəzdən daxil olmuş müraciətlərin icrasını, o cümlədən vaxtında və tam (əhatəli) cavablandırılmasını təmin etmək məqsədilə mövcud ştat vahidləri çərçivəsində müvafiq struktur bölməsi yaratsınlar və ya bununla bağlı səlahiyyətləri mövcud struktur bölməsinə həvalə etməli, Fərmanla təsdiq edilən siyahıda nəzərdə tutulmuş xidmətlərin göstərilməsinin və hüquqmüəyyənedici sənədlərin verilməsinin Mərkəz vasitəsilə həyata keçirilməsini təmin etmək üçün Mərkəzin fəaliyyət göstərdiyi yerləri dövlət büdcəsində aidiyyəti dövlət orqanları (qurumları) üçün müəyyən edilmiş büdcə təxsisatları çərçivəsində zəruri işçi qüvvəsi, texniki kommunikasiya və informasiya resursları ilə təmin etsinlər, habelə həmin resursların zəruri dövlət informasiya sistemlərinə (ehtiyatlarına) çıxışını təşkil, Fərmandan irəli gələn digər məsələləri həll etməlidirlər.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Fərmana əsasən Fərmanla təsdiq edilən siyahıda göstərilmiş dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin rəhbərliyi ilə həmin dövlət orqanları (qurumları) rəhbərlərinin müavinlərinin təmsil olunduğu Əlaqələndirmə Komissiyasının yaradılmasını təmin etmək həvalə olunmuşdur.

Nazirliyə isə Fərmanla təsdiq edilən siyahıda göstərilmiş dövlət orqanlarının (qurumlarının) əməkdaşlarının Mərkəzdə müvafiq xidmətlər göstərmələri üçün zəruri şərait yaradılmasını və digər tədbirlər görülməsini, Mərkəzdə xidmət göstərəcək dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri arasında əlaqələndirməni Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə həyata keçirməklə Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemində müvafiq dəyişikliklər edilməsini üç ay müddətində təmin etmək, siyahıda göstərilmiş dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi, Mərkəzə daxil olan müraciətlərin icra vəziyyətinin monitorinqi və onların icrasına dair hesabatlılığın təmin edilməsi məqsədilə Katiblik yaratmaq tapşırılmışdır.

**3. Azərbaycan Respublikasının Prezidenti 25 iyun 2021-ci il tarixdə "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 1380 saylı Fərmanı[248] ilə təsdiq edilmiş "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərilməsi Qaydası"[249]** şəhid ailələrinin üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə (bundan sonra – **şəxslər**) əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, habelə digər sahələrdə xidmətlər (bundan sonra – **xidmətlər**) şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində (bundan sonra – **Mərkəz**) göstərilməsi qaydasını müəyyən edir.

---

[248] https://president.az/az/articles/view/52315
[249] https://president.az/az/articles/view/52315

“Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərilməsi Qaydasında həmçinin müəyyən edilir ki, Mərkəzdə xidmətlər “bir pəncərə”, həmçinin operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilir, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra – **Nazirlik**) Mərkəzdə xidmət göstərən aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsini həyata keçirir və müraciətlərin icra vəziyyətinin monitorinqini aparır.

**Mərkəzin fəaliyyətinin məqsədləri**. şəxslərin əlavə xərclərinin və vaxt itkisinin qarşısını almaq, şəxslərə göstərilən xidmət səviyyəsini yüksəltmək və xidmətlərin əlçatanlığını, rahatlığını təmin etmək, şəffaflığı təmin etmək, korrupsiyaya qarşı mübarizəni gücləndirməkdir.

Qaydalara əsasən Mərkəzin iş qrafikini Nazirlik müəyyən edir. Mərkəzdə göstərilən xidmətlər Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş siyahıda göstərilən dövlət orqanları(qurumları) tərəfindən göstərilir. Mərkəzin fəaliyyəti Nazirliyin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin “DOST” mərkəzlərində, habelə xidmət göstəriləcək şəxslərin sayı nəzərə alınmaqla, inzibati ərazi vahidləri üzrə Nazirliyin yerli qurumlarının inzibati binalarında təmin olunur.

**4. Mərkəzdə xidmətlərin təşkili**

Mərkəzdə xidmətlər birbaşa (yerində) xidmət; “Çağrı mərkəzi” vasitəsilə xidmət; səyyar xidmət formalarda göstərilir. Birbaşa (yerində) xidmət vasitəsilə şəxsə Mərkəzdə müraciət etdiyi dövlət orqanının (qurumunun) əməkdaşı bilavasitə xidmət göstərir.

Birbaşa (yerində) xidmət göstərilməsi aşağıdakı qaydada həyata keçirilir:

1. şəxs Mərkəzə daxil olaraq məlumat köşkündən əldə etmək istədiyi xidmətlə bağlı hansı pəncərəyə və hansı sənədlərlə müraciət etməli olduğunu öyrənir, yaxud əldə etmək istədiyi xidmətlə bağlı tələb olunan sənədlərin tamlığının yoxlanılması üçün həmin sənədləri məlumat köşkünə təqdim edir;

2. məlumat köşkündə şəxsin əldə etmək istədiyi xidmətlə bağlı təqdim etdiyi sənədlərin tamlığı yoxlanıldıqdan sonra ona elektron növbə verilir, yaxud əlavə olunması tələb olunan sənədlər, habelə müraciətlə bağlı ərizənin və ya digər sənədlərin (anketlərin) doldurulmasının tələb olunduğu barədə məlumat verilir;

3. əldə etmək istədiyi xidmətlə bağlı ərizənin və ya digər sənədlərin (anketlərin) doldurulmasında şəxsin köməyə ehtiyacı olduğu halda o, Mərkəzdə fəaliyyət göstərən könüllülərə və ya Mərkəzin bu məqsəd üçün ayrılmış əməkdaşına müraciət edə biləcəyi barədə məlumatlandırılır;

4. şəxs ona verilmiş elektron növbəyə uyğun olaraq müraciət edəcəyi pəncərənin qarşısında gözləyir və növbəsi çatdıqda tələb olunan sənədləri həmin pəncərəyə təqdim edir;

5. müraciətlər Mərkəzdə qəbul olunur, müraciətlərin qeydiyyatına və icrasına nəzarət elektron formada aparılır;

6. göstərilən xidmətlə bağlı müraciətə baxılma və həmin müraciətin nəticəsinin rəsmiləşdirilməsi müraciət edildiyi vaxt mümkün olduğu halda, qərar yerində qəbul edilərək şəxsə təqdim olunur;

7. müraciətə baxılma mümkün olmadıqda, "İnzibati icraat haqqında", "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, şəxsin müraciəti "**VƏM**" qeydi ilə icra üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) dərhal göndərilir;

8. "**VƏM**" qeydi ilə daxil olmuş müraciətlər aidiyyəti dövlət orqanlarının (qurumlarının) bu məqsədlə yaradılmış və ya bununla bağlı səlahiyyətlərin həvalə edildiyi mövcud struktur bölmələri tərəfindən hərtərəfli, operativ araşdırılmaqla "İnzibati icraat

haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun icra olunur və qəbul edilmiş müvafiq qərar və ya hüquqmüəyyənedici sənədlər şəxsə göndərilməsi üçün Mərkəzə təqdim olunur;

9. Mərkəzdə şəxsin arzusu ilə "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə uyğun olaraq, informasiya sistemlərindən istifadə yolu ilə onun bu Qaydanın 1.1-ci bəndində göstərilən məsələlərlə bağlı hüquqları müəyyən edilir və həmin hüquqlarla bağlı müvafiq xidməti əldə etmək istəyi olduqda, ona bu Qaydada nəzərdə tutulan formada hüquqi xidmət və məsləhət xidmətləri göstərilir.

"**Çağrı mərkəzi**" vasitəsilə şəxs Mərkəzə gəlmədən internet və ya telefon vasitəsilə bütün xidmət növləri, tələb edilən sənədlər barədə məlumat ala, növbə tuta, Mərkəzin fəaliyyəti ilə bağlı təkliflərini bildirə bilər. "**Çağrı mərkəzi**" vasitəsilə şəxslərə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara uyğun olaraq, bu Qaydanın 1.1-ci bəndində göstərilən məsələlərlə bağlı xidmət göstərilir. "**Çağrı mərkəzi**" vasitəsilə xidmət göstərilməsi barədə müraciətlər xidmət keyfiyyətinin qiymətləndirilməsi məqsədilə qeydə alınır.

Sağlamlıq vəziyyəti məhdud olduğundan Mərkəzə gələ bilməyən şəxslərə səyyar formada xidmətlər göstərilir. Səyyar xidmətlər şəxsin yaşadığı və ya olduğu yerdə Mərkəzin iş qrafikinə uyğun göstərilir. Müraciətlərin sayının çoxluğu və səyyar xidmət göstərilməsi tələb olunan ünvanların uzaq məsafədə yerləşməsi səbəbindən Mərkəzin gündəlik (həftəlik) müraciət qəbuluna məhdudiyyət tətbiq etmək hüququ vardır. Hər iş gününün sonunda Mərkəzə daxil olmuş müraciətlər əsasında növbəti iş günü üçün səyyar xidmət göstərilməsi qrafiki hazırlanaraq təsdiq edilir və səyyar xidmət göstərəcək əməkdaşlar müəyyən olunur. Səyyar xidmət göstərilməsi zamanı Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları ilə müəyyən edilmiş sənədlərdən əlavə sənədlərin tələb edilməsi qadağandır. Səyyar xidmət göstərilməsi şəxsdən tələb olunan sənədlərin təhvil alınmasını və (və ya) hazır sənədlərin ona təhvil verilməsini nəzərdə tutur.

Səyyar xidmət göstərilməsinə dair müraciət "**Çağrı mərkəzi**"nə zəng vurmaqla edilir. Şəxsin müraciəti zamanı "**Çağrı mərkəzi**"nin operatoru müvafiq xidmət göstərilməsi üçün əsas şərtləri (icra müddəti, normativ hüquqi aktlara istinad etməklə tələb olunan sənədlər) izah edir və zəruri sənədlərin şəxsdə mövcudluğunu öyrənir. Səyyar xidmət göstərilməsinə dair müraciət bu Qaydaya uyğun formada edilmədikdə, müraciət qəbul olunmur və imtinanın səbəbi barədə şəxsə məlumat bildirilir. Şəxsin əldə etmək istədiyi xidmətlə bağlı müraciətinin qəbulu üçün Mərkəzdə göstərilən digər xidmət göstərilməsi də tələb olunduqda, ona həmin xidmət də təklif edilir.

Şəxs səyyar xidmət göstərilməsi şərtləri ilə razılaşdıqda və xidmət göstərilməsi üçün tələb olunan sənədlərinin mövcudluğunu bildirdikdə, ona dair məlumatlar (soyadı, adı, atasının adı, ünvanı, əlaqə nömrələri, xidmətin göstərilmə yeri və vaxtı, fərdi identifikasiya nömrəsi) öyrənilərək qeyd edilir, operator xüsusi proqram təminatı vasitəsilə xidmət göstərilməsi üçün uyğun olan vaxtı (tarix və saat) müəyyənləşdirir və şəxslə razılaşdırdıqdan sonra müraciəti qəbul edib təsdiqləyir. Səyyar xidmət göstərilməsinə dair müraciəti operator qəbul edərək təsdiqlədikdən sonra həmin müraciət xüsusi proqram təminatı vasitəsilə müvafiq Mərkəzə ötürülür. Mərkəzin səyyar xidmət göstərəcək əməkdaşı müraciətdə qeyd edilən ünvana getməzdən əvvəl xidmətin qüvvədə olmasını dəqiqləşdirir.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə əsasən, səyyar sosial xidmətlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq göstərilir".

**3. Azərbaycan Respublikasının Nazirlər Kabineti** Fərmanla təsdiq edilən siyahıda göstərilmiş dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi

nazirinin rəhbərliyi ilə həmin dövlət orqanları (qurumları) rəhbərlərinin müavinlərinin təmsil olunduğu Əlaqələndirmə Komissiyasının yaradılmasının təmini məqsədilə 2 oktyabr 2021-ci ildə 289 saylı "**Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərən dövlət orqanlarının fəaliyyətinin təşkilinə dair Əlaqələndirmə Komissiyasının yaradılması barədə"**[250] qərar qəbul etmişdir. Qərara əsasən Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin təşkilinə dair aşağıdakı tərkibdə Əlaqələndirmə Komissiyası yaradılmışdır:

Komissiyanın sədri

Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Komissiyanın üzvləri:

Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini

yerli icra hakimiyyəti başçılarının birinci müavinləri və ya müavinləri.

Komissiyaya vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsini həyata keçirmək tapşırılmışdır.

---

[250] https://e-qanun.az/framework/48335

4. **Azərbaycan Respublikasının Prezidenti 25 iyun 2021-ci il tarixdə "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 1380 saylı Fərmanı ilə təsdiq edilmiş "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı"**[251] şərh olunan 5-ci maddənin tələblərinin səmərəli həyata keçirilməsi, yəni Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının şəhid və şəhid ailələrinin məsələləri ilə bağlı fəaliyyətinin istiqamətlərinin müəyyən edilməsi və əlaqələndirilməsində önəmli əhəmiyyətə malikdir. Belə ki, siyahıda Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Yerli icra hakimiyyəti orqanları, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin şəhid və şəhid ailələrinin məsələləri ilə bağlı fəaliyyətinin istiqamətləri və bu sahədə göstərdiyi xidmətlər konkret olaraq qeyd olunmuşdur. Siyahıda xidmətlərin bölgüsü aşağıdakı kimi əks olunmuşdur:

**1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə dair arayışlar verilməsi

tibbi sosial ekspertiza və reabilitasiya üzrə xidmətlər, o cümlədən əlilliyin müəyyən edilməsi, reabilitasiya vasitələri ilə təminat

məşğulluq sahəsində göstərilən xidmətlər

---

[251] https://e-qanun.az/framework/47737

əmək pensiyası və sosial müavinətlər üzrə müraciətlərin qəbulu

Azərbaycan Respublikası Prezidentinin təqaüdləri üzrə müraciətlərin qəbulu

sosial xidmət sahəsində göstərilən xidmətlər, o cümlədən əlilliyi olan şəxslərin peşə-əmək reabilitasiyası, sosial məişət xidmətlərinin göstərilməsi, sanatoriya-kurort putyovkaları (yollayışları) ilə təminat

şəhid statusu verilmiş şəxsin vərəsələrinə dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu

müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu

hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrinin) yerinə yetirilməsi ilə əlaqədar xəsarət (yaralanma, travma, kontuziya) alan hərbi qulluqçulara dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu

**2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi**

şəhid və şəhid ailəsi statusunun əldə olunması üçün arayışlar verilməsi məqsədilə müraciətlərin qəbulu (zabit və gizir heyətinə münasibətdə)

müharibə veteranı adının və vəsiqəsinin verilməsi üçün müraciətlərin qəbulu (Azərbaycan Ordusuna münasibətdə)

orden və medallarla təltif olunma üçün müraciətlərin qəbulu (Azərbaycan Ordusuna münasibətdə)

xəsarət (yaralanma, travma, kontuziya) alınması barədə, habelə əlilliyin müəyyən edilməsi üçün tələb olunan müvafiq arayışlar verilməsi məqsədilə müraciətlərin qəbulu

sığorta ödənişləri ilə bağlı tələb olunan sənədlərin verilməsi üçün müraciətlərin qəbulu

**3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi**

tabeliyində olan tibb müəssisələrində tibbi yardım göstərilməsi ilə bağlı müraciətlərin qəbulu

**4. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti**

hərbi xidmətkeçmə haqqında arayış verilməsi

müddətli həqiqi hərbi xidmətdə olmasına dair arayış verilməsi

müharibə veteranlarına və şəhid ailələrinə müvafiq arayışlar verilməsi

hərbi qeydiyyatda olma barədə arayış verilməsi

**5. Yerli icra hakimiyyəti orqanları**

yaşayış sahəsinə ehtiyacı olan qismində müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxsin, şəhid ailə üzvünün uçota alınması barədə müraciətlərin qəbulu

yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması barədə müraciətlərin qəbulu

ərazisində yaşayan şəhid ailələrinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə ailə tərkibini təsdiq edən arayışlar və digər arayışlar verilməsi

şəhid adının əbədiləşdirilməsi, o cümlədən prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi, eləcə də onların adlarının dəyişdirilməsi barədə müraciətlərin qəbulu

**6. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi**

tabeliyində olan tibb müəssisələrində səhiyyə xidmətləri ilə bağlı müraciətlərin qəbulu

immunoprofilaktikaya dair məlumat verilməsi

tibbi arayışların elektron registrindən məlumatların verilməsi

"Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri" Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi və ərazilərin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlar zamanı şəhid olmuş şəxslərin ailə üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış

hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrdə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məmnunluğunun təmin olunması, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin, şəffaflığın artırılması, habelə xidmətlərin vahid məkandan təxirəsalınmaz və operativ icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2021-ci il tarixli 1380 nömrəli Fərmanı ilə yaradılmışdır. Vahid əlaqələndirmə mərkəzlərinin fəaliyyəti ilkin mərhələdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST" mərkəzlərində, daha sonra isə xidmət göstərilən şəxslərin sayı nəzərə alınmaqla, digər inzibati ərazi vahidləri üzrə Nazirliyin yerli qurumlarının inzibati binalarında təşkil edilmişdir.

Qeyd olunan Fərman ilə təsdiq edilmiş "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərilməsi Qaydası"na əsasən vahid əlaqələndirmə mərkəzlərində xidmətlər "bir pəncərə", həmçinin operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilir. Nazirlik vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərən aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsini həyata keçirir və müraciətlərin icra vəziyyətinin monitorinqini aparır. Həmin Qaydaya əsasən vahid əlaqələndirmə mərkəzlərində xidmətlər birbaşa (yerində) xidmət, "Çağrı mərkəzi" vasitəsilə xidmət və səyyar xidmət formalarda göstərilir.

Hazırda hər bir "DOST" mərkəzində vahid əlaqələndirmə mərkəzləri xidmət göstərir. "DOST" mərkəzlərinin fəaliyyət göstərmədiyi regionlarda fəaliyyət göstərən regional vahid əlaqələndirmə mərkəzləri və onların əhatə etdiyi rayonların siyahısı əks olunmuşdur.

**5. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında" Əsasnamə**[252] "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"[253] Azərbaycan Respublikası Prezidentinin "Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" 2018-ci il 5 sentyabr tarixli 258 nömrəli Fərmanının[254] 2.4.1-ci yarımbəndinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) Mərkəzləşdirilmiş elektron informasiya sistemindən istifadənin, MEİS-də informasiya ehtiyatlarının formalaşdırılmasının, uzlaşdırılmasının, aparılmasının, inkişaf etdirilməsinin və informasiya təhlükəsizliyinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

MEİS-in əsas təyinatı əmək, məşğulluq, sosial müdafiə və sosial təminat, habelə Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq digər sahələrdə (bundan sonra – müvafiq sahə) informasiyanın yaradılması, toplanılması, işlənməsi, saxlanılması və axtarışı işlərinin avtomatlaşdırılmasından ibarətdir.

MEİS-in informasiya ehtiyatlarının formalaşdırılması və onlardan istifadə "İnformasiya əldə etmək haqqında"[255], "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında"[256], "Dövlət sirri haqqında"[257], "Fərdi məlumatlar haqqında[258]" və

---

[252] https://e-qanun.az/framework/41978
[253] https://e-qanun.az/framework/41978
[254] https://e-qanun.az/framework/39919
[255] https://e-qanun.az/framework/11142
[256] https://e-qanun.az/framework/3525
[257] https://e-qanun.az/framework/5526
[258] https://e-qanun.az/framework/19675

"Elektron imza və elektron sənəd haqqında[259]" Azərbaycan Respublikası qanunlarının, habelə "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının[260] tələblərinə riayət olunmaqla həyata keçirilir.

MEİS-in fəaliyyəti "bir pəncərə" prinsipi əsasında yeni texnologiyaların tətbiqi yolu ilə təmin olunur.

MEİS-in informasiya ehtiyatlarında yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

MEİS-in saxlanılma, fəaliyyət və inkişaf xərcləri Nazirlik üçün ayrılmış büdcə təxsisatları çərçivəsində dövlət sosial müdafiə fondunun büdcəsi, işsizlikdən sığorta fondunun büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

Həmin Əsasnamədə istifadə olunan əsas anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nda (bundan sonra – Qaydalar), eləcə də Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

MEİS-in digər dövlət informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyası və məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

---

[259] https://e-qanun.az/framework/13127
[260] https://e-qanun.az/framework/40020

**6. Azərbaycan Respublikası Prezidentinin "Şəhid və şəhid ailəsi statusu almış şəxslərə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə və müharibə veteranlarına dair məlumatların mübadiləsi mexanizminin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı[261] ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" 27 oktyabr 2021-ci il tarixli, 1470 saylı Fərmanı[262]** ilə şəhid və şəhid ailəsi statusu almış şəxslərə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə və müharibə veteranlarına dair məlumatların mübadiləsi mexanizminin təkmilləşdirilməsi, o cümlədən həmin məlumatların sistemləşdirilməsi və axtarışının avtomatlaşdırılması məqsədilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində "Zəfər" altsistemi (bundan sonra – altsistem) yaradılması və aşağıdakıların həyata keçirilməsi qərara alınmışdır:

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

2.1. altsistemin formalaşdırılmasını 1 (bir) ay müddətində təmin etsin;

2.2. bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulan dövlət orqanlarının altsistemə çıxışını təmin etsin;

2.3. altsistemə daxil ediləcək məlumatların, habelə qanunla qorunan digər məlumatların mühafizəsinin təmin olunması üçün Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə zəruri tədbirlər görsün;

---

[261] https://e-qanun.az/framework/41978
[262] https://e-qanun.az/framework/48450

2.4. “Əlillik” (TSERAS) altsistemindən müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər barədə məlumatların altsistemə ötürülməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi altsistemin Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”na uyğun olaraq Elektron Hökumət İnformasiya Sisteminə *inteqrasiyasını* təmin etsin.

4. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və yerli icra hakimiyyəti orqanları:

4.1. altsistem formalaşdırıldıqdan sonra altı ay müddətində şəhid və şəhid ailəsi statusu, habelə müharibə veteranı statusu almış şəxslərə dair məlumatların altsistemə daxil edilməsini təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər;

4.2. şəhid və şəhid ailəsi statusunun, habelə müharibə veteranı statusunun verildiyi tarixdən 5 (beş) iş günü müddətində bu barədə məlumatın altsistemə daxil edilməsini təmin etsinlər.

5. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634; 2020, № 4, maddə 417; 2021, № 5, maddə 445, № 6 (I kitab), maddə 566) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

5.1. aşağıdakı məzmunda 2.1.15-1-ci, 2.3.15-1-ci yarımbəndlər və 2.8-ci bənd əlavə edilsin:

"2.1.15-1. "Zəfər" altsistemi;

"2.3.15-1. şəhid və şəhid ailəsi statusu almış şəxslər, müharibə veteranları və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər barədə məlumatların "Zəfər" altsistemi vasitəsilə toplanması və sistemləşdirilməsi, habelə şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin və müharibə veteranlarının reyestrinin aparılması";

"2.8. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və yerli icra hakimiyyəti orqanları şəhid və şəhid ailəsi statusu, habelə müharibə veteranı statusu verildiyi tarixdən 5 (beş) iş günü müddətində bu barədə məlumatı altsistemə daxil edirlər.";

5.2. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.2. MEİS-in strukturuna aşağıdakı reyestrlər daxildir:

2.2.1. "Məşğul şəxslərin" reyestri;

2.2.2. "Əlilliyi olan şəxslərin" reyestri;

2.2.3. "Şəhid və şəhid ailəsi statusu almış şəxslərin" reyestri;

2.2.4. "Müharibə veteranları" reyestri.";

5.3. 2.7-ci bənddə "tabeliyində" sözü "Tabeliyində" sözü ilə əvəz edilsin;

5.4. 2.3.5-ci yarımbəndə "eləcə də" sözlərindən əvvəl "əlilliyi olan şəxslərin reyestrinin aparılması," sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin".

Hazırda MEİS-in strukturuna digərləri ilə yanaşı "Sənəd dövriyyəsi" altsistemi; "Əlillik" (TSERAS) altsistemi; "Zəfər" altsistemi; "Əlilliyi olan şəxslərin" reyestri; "Şəhid və şəhid ailəsi statusu almış şəxslərin" reyestri altsistemlər daxildir:

Əsasnamənin 2.3.15-1-ci bəndinə müvafiq olaraq şəhid və şəhid ailəsi statusu almış şəxslər, müharibə veteranları və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər barədə məlumatların "Zəfər" altsistemi vasitəsilə toplanması və sistemləşdirilməsi, habelə şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin və müharibə veteranlarının reyestrinin aparılması təmin edilir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və yerli icra hakimiyyəti orqanları şəhid və şəhid ailəsi statusu, habelə müharibə veteranı statusu verildiyi tarixdən 5 (beş) iş günü müddətində bu barədə məlumatı altsistemə daxil etmələri Əsasnamənin 2.8-ci bəndində öz əksini tapmışdır.

7. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanları və digər dövlət qurumlarının şəhid ailələrinə tibbi və sosial xidmət göstərilməsi, mənzil tikintisi və təsərrüfatla məşğul olmaq üçün torpaq sahələri ayrılması, ailə üzvlərinin işə düzəldilməsi, habelə digər yardım göstərilməsi məsələlərini qarşılıqlı əlaqə şəraitində həll etməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar 2021-ci il tarixli **"Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda iştirak etmiş hərbi qulluqçulara və şəhid ailələrinə psixoloji yardımla bağlı bəzi məsələlər barədə"**

Qərarı[263] da əhəmiyyətə malikdir. Qərarda Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda iştirak etmiş hərbi qulluqçulara və şəhid ailələrinə operativ, vaxtında, keyfiyyətlə və əlaqəli şəkildə psixoloji yardım göstərilməsini təmin etmək məqsədilə aşağıdakı tərkibdə komissiya yaradılması qərara alınmışdır:

Komissiyanın sədri

Azərbaycan Respublikasının səhiyyə naziri

Komissiyanın üzvləri:

Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İcraçı direktoru

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri

Tabeliyində hərbi-həkim komissiyaları və həkim-uçuş komissiyaları olan dövlət orqanlarının səlahiyyətli şəxsləri.

Komissiyaya 2020-ci il 27 sentyabr tarixindən başlayan, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda iştirak etmiş hərbi qulluqçulara və şəhid ailələrinə operativ, vaxtında, keyfiyyətlə və əlaqəli şəkildə "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq psixoloji yardım göstərilməsinin təmin edilməsi üçün zəruri tədbirlər görülməsi və Qərardan irəli gələn digər tədbirlərin həyata keçirilməsini təmin edilməsi tapşırılmışdır.

---

[263] https://e-qanun.az/framework/46692

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi həmin Qərardan irəli gələn məsələləri həll etməlidirlər.

**7. Psixoloji dəstək** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailəsi üzvlərinə postmüharibə dövründə ilkin diaqnostika aparıldıqdan sonra fərdi və qrup konsultasiyaları, ailə terapiyaları kimi psixoloji metodlardan istifadə olunmaqla psixoloji dəstək göstərilir. Bu məqsədlə şəhid ailəsi üzvlərinin müraciəti olmalıdır.

**M a d d ə 6. Şəhidlərə və şəhid ailələrinə xərclənən vəsaitin mənbələri**

**Şəhidlərə və şəhid ailələrinə xərclənən vəsait Azərbaycan Respublikasının dövlət büdcəsindən, ayrı-ayrı şəxslərin və müxtəlif təşkilatların, idarə və müəssisələrin, o cümlədən xarici təşkilatların ianələri və digər mənbələr hesabına yaranan yardım fondlarından, habelə dövlət icbari şəxsi sığorta vəsaiti hesabına ödənilir.**

**1. Maddənin məqsədi** şəhidlərə və şəhid ailələrinə xərclənən vəsaitin ödənilməsi mənbələrinin müəyyən edilməsidir.

**1. Azərbaycan Respublikası dövlət büdcəsinin** məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir.

Azərbaycan Respublikasının dövlət büdcəsi mərkəzləşdirilmiş gəlir və xərclərdən, yerli gəlir və xərclərdən ibarətdir.

Dövlət büdcəsinin gəlirləri dövlət vergiləri, qrantlar, digər gəlirlərdən ibarətdir.

Dövlət büdcəsi gəlirlərinin yığımı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq həyata keçirilir. Gəlirlərin məbləğinin yuxarı həddi dövlət büdcəsinin qanunla təsdiq olunmuş göstəriciləri ilə məhdudlaşmır.

Qanunvericiliklə nəzərdə tutulmuş həcmdən artıq ödənilmiş vergilərin, rüsumların, digər ödənişlərin və daxilolmaların büdcədən qaytarılması dövlət büdcəsi gəlirlərinin azaldılmasına aid edilir.

Dövlət büdcəsinin xərclərinə cari xərclər, o cümlədən əmək haqqı, əmək haqqına üstəlik, pensiya və başqa sosial müavinətlər və ödənişlər, malların satın alınması və başqa xidmətlər üzrə xərclər, faiz üzrə ödənişlər, qrantlar, subsidiyalar və cari köçürmələr, əsaslı

xərclər, o cümlədən əsas vəsaitlərin alınması, kapital qoyuluşları və səhmlərin alınması, kreditlər üzrə borclara, faizlərə xidmət xərcləri və layihələrdə pay iştirakı xərcləri daxildir.

Büdcə xərcləri müvafiq büdcə təsnifatına uyğun olaraq təsdiq olunmuş büdcə ayırmaları həddində cari, investisiya, innovasiya və digər xərclərin maliyyələşdirilməsinə yönəldilir.

Hər ilin dövlət büdcəsində təsdiq edilmiş ayırmalar həmin məqsədlər üçün xərclərin ən yüksək həddini göstərir. Hər ilin dövlət büdcəsi üzrə təsdiq edilmiş ayırmaların icra müddəti, büdcə ilinin sonunda başa çatır.

**2.Ayrı-ayrı şəxslərin və müxtəlif təşkilatların, idarə və müəssisələrin, o cümlədən xarici təşkilatların ianələri**

İanə – fiziki və ya hüquqi şəxslərin könüllü şəkildə pul və ya əmlak formasında verdikləri maddi və ya qeyri-maddi yardım növüdür. Bu yardım çox zaman sosial, xeyriyyəçilik, dini, təhsil, səhiyyə və digər ictimai faydalı məqsədlər üçün edilir.

İanənin əsas xüsusiyyətləri könüllülük, qarşılıqsızlıq, məqsədəuyğunluqdur. Könüllülük ianə verməyin məcburi deyil, tamamilə könüllü əsasda həyata keçirilməsini, qarşılıqsızlıq ianə edən şəxs bunun əvəzində maddi və ya digər fayda gözləməməsini, məqsədəuyğunluq ianənin konkret məqsədlə – məsələn, ehtiyacı olan insanlara yardım, xəstəxana tikintisi, müalicə xərcləri, şəhid ailələrinə dəstək və s. üçün edildiyini ehtiva edir.

Azərbaycan Respublikasının qanunvericiliyində ianələrlə bağlı müddəalar nəzərdə tutulmuşdur. Məsələn, "Qeyri-Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanunda[264] QHT-lərin ianə toplamaq hüququ təsbit olunmuşdur. Vergi Məcəlləsinə əsasən, bəzən ianələr üçün müəyyən vergi güzəştləri də tətbiq olunur (məsələn, hüquqi şəxs tərəfindən QHT-yə ianə edildikdə).

---

[264] https://e-qanun.az/framework/511

**3. Digər mənbələr hesabına yaranan yardım fondları**

Yardım fondu – ictimai, sosial, humanitar, elmi, təhsil, səhiyyə və digər faydalı məqsədlər üçün könüllü ianələr, qrantlar və digər mənbələr hesabına yaradılan vəsaitlərlə fəaliyyət göstərən hüquqi şəxs və ya təşkilatdır. Yardım fondlarının əsas məqsədi ehtiyac içində olan insanlara və ya cəmiyyətə fayda verən təşəbbüslərə dəstək verməkdir.

Yardım fondlarının əsas xüsusiyyətləri qeyri-kommersiya xarakterli olmasındadır. Fondların məqsədi mənfəət əldə etmək deyil, ictimai fayda yaratmaqdır. Yardım fondları fiziki və hüquqi şəxslərin ianələri, dövlət və bələdiyyə qrantları, beynəlxalq təşkilatların yardımları, fondun öz fəaliyyətindən əldə etdiyi gəlirlərdən (məsələn, yarmarkalar, tədbirlər) formalaşır. Azərbaycan Respublikasında yardım fondları əsasən aşağıdakı sahələrdə fəaliyyət göstərir:

"YAŞAT" Fondu – şəhid ailələri və qazilərin sosial müdafiəsi məqsədilə Prezidentin sərəncamı ilə yaradılıb.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti – təcili humanitar yardım, sağlamlıq, təbii fəlakətlərə reaksiya və s.

Heydər Əliyev Fondu – geniş fəaliyyət sahələri: təhsil, səhiyyə, mədəniyyət, sosial yardım.

Bu fondların fəaliyyəti "Qeyri-Hökumət Təşkilatları haqqında" və digər müvafiq qanunvericilik aktları ilə tənzimlənir. Azərbaycan Respublikası Vergi Məcəlləsinə müvafiq olaraq yardım fonduna ianə edən hüquqi şəxslərə vergi güzəştləri tətbiq oluna bilər (Vergi Məcəlləsi, 106-cı maddə). Fondlar ianə toplamaq üçün rəsmi qeydiyyatdan keçməli və şəffaf hesabat təqdim etməlidirlər.

**4. Dövlət icbari şəxsi sığorta vəsaiti**

Dövlət icbari şəxsi sığorta sığortaolunanların həyat və sağlamlığının mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada icbari formada sığorta olunmasına yönəldilmiş münasibətlər sistemidir.

Dövlət icbari şəxsi sığorta ödənişləri hərbi qulluqçular, məhkəmə və hüquq mühafizə orqanları işçiləri, Milli Məclisin deputatları, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarına şamil olunur. Şərh olunan maddəyə əsasən dövlət icbari şəxsi sığorta üzrə toplanan vəsaitdən şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsi üçün istifadə edilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 may tarixli Fərmanı[265] ilə dövlət icbari şəxsi sığorta sahəsində idarəetmə 2022-ci ilin əvvəlindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunub. Fərmanla sığortaolunanlar və sığortalıların uçotunun aparılması, sığorta haqlarının ödənilməsinə nəzarət, sığorta ödənişlərinin verilməsi, sığorta ehtiyatlarının yaradılması, artırılması və s. işlərin görülməsi Nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən həyata keçirilir.

Sığorta vəsaiti müvafiq qanunvercilikdə nəzərdə tutulan şəxslərlə (hərbi qulluqçular, məhkəmə və hüquq mühafizə orqanları işçiləri, diplomatik xidmət əməkdaşları və b.) bağlı ödənilən dövlət icbari şəxsi sığorta haqları və kreditlər, habelə sığorta ehtiyatının banklarda depozitə yerləşdirilməsindən əldə edilən gəlirlər, qanunla qadağan edilməyən digər mənbələr hesabına formalaşır.

Sığorta haqları üzrə illik daxilolmaların proqnozunun 5 faizədək hissəsinin sığorta ehtiyatına yönəldilməsi nəzərdə tutulur. Hər ilin sonunda sığorta vəsaitinin istifadə olunmamış qalığı, sığorta ehtiyatı və onun depozitə yerləşdirilməsindən əldə edilmiş gəlir növbəti il üçün xərclərin maliyyələşdirilməsinə yönəldilir.

Sığorta vəsaitindən dövlət icbari şəxsi sığorta ödənişlərinin verilməsi, sığorta ehtiyatının yaradılması, şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsi,

[265] https://e-qanun.az/framework/47485

idarəetmə xərclərinin ödənilməsi və qanunla müəyyən edilən digər istiqamətlər üzrə istifadə olunması nəzərdə tutulur.

Sığorta ehtiyatından istifadə istiqamətlərinə sığorta ödənişləri üzrə illik gözlənilən xərclər sığorta haqları üzrə illik gözlənilən daxilolmadan artıq olduqda, arada yaranan kəsirin maliyyələşdirilməsi, sığorta ehtiyatının həcmi sığorta haqlarının illik proqnoz həcminə bərabər olduqda, sığorta ehtiyatının həcminin artırılması dayandırılmaqla, onun depozitə yerləşdirilməsindən əldə edilən gəlir hesabına müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsi daxildir.

Sığorta ehtiyatının banklarda (bir banka qoyulan depozitin məbləği həmin bankın kapitalının 20 faizindən çox olmamaq şərtilə) depozitə yerləşdirilməsi də qaydada əksini tapır.

**5. Azərbaycan Respublikası Prezidentinin "Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin dövlət icbari şəxsi sığorta vəsaiti hesabına maliyyələşdirilməsi haqqında" 29 sentyabr 2022-ci il 3493 saylı Sərəncamı[266]** ilə qərara alınmışdır ki:

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı 1.1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli 569 nömrəli və "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar

---

[266] https://e-qanun.az/framework/52943

əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli sərəncamlarına uyğun olaraq mənzil və ya fərdi evlərlə; və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq reabilitasiya vasitələri və reabilitasiya xidməti ilə təmin edilməsi sahəsində tədbirlərin maliyyələşdirilməsini əlavə olaraq 2022–2025-ci illərdə formalaşmış dövlət icbari şəxsi sığorta vəsaiti hesabına həyata keçirmək həvalə edilmişdir.

**6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 341 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə Qaydası"[267]**

Həmin Qayda "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 8-1.4-cü maddəsinə, "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 8-1.4-cü maddəsinə, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun 30-9-cu maddəsinin dördüncü hissəsinə və "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.4-cü maddəsinə əsasən hazırlanmışdır və dövlət icbari şəxsi sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə qaydasını müəyyən edir.

Qaydaya müvafiq olaraq sığorta vəsaiti aşağıdakı mənbələr hesabına formalaşdırılır:

1. "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari

---

[267] https://e-qanun.az/framework/51388

şəxsi sığortası haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının qanunları və "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2015-ci il 4 dekabr tarixli 27-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 5 dekabr tarixli 697 nömrəli Fərmanı ilə müəyyən olunmuş qaydada və məbləğdə ödənilən sığorta haqları;

2. kreditlər;

3. sığorta ehtiyatının aşağıdakı təhlükəsizlik göstəriciləri üzrə meyarlardan birinə cavab verən banklarda depozitə yerləşdirilməsindən əldə edilən gəlirlər:

– beynəlxalq reytinq agentlikləri tərəfindən ölkə üzrə verilmiş reytinqdən maksimum iki pillə aşağı olan banklar;

– Azərbaycan Respublikasında fəaliyyət göstərən, aktivlərinin həcminə görə ilk beşlikdə yer alan banklar;

4. qanunla qadağan edilməyən digər mənbələr.

Sığorta haqları üzrə illik daxilolmaların proqnozunun 5 (beş) faizədək hissəsi sığorta ehtiyatına yönəldilir.

Sığorta vəsaiti Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) xüsusi xəzinə hesabında (Qaydanın 2.1.3-cü yarımbəndində qeyd olunan gəlirlər istisna olmaqla) toplanılır və Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun xüsusi bank hesabına köçürülür. Sığorta vəsaitləri üzrə əməliyyatların aparılması, o cümlədən sığorta ehtiyatında vəsaitin toplanılması və ondan istifadə edilməsi məqsədilə Fondun müvafiq bank hesabları açılır. Hər ilin sonunda sığorta vəsaitinin istifadə olunmamış qalığı, sığorta ehtiyatı və onun depozitə yerləşdirilməsindən əldə edilmiş gəlir növbəti il üçün xərclərin maliyyələşdirilməsinə yönəldilir.

Sığorta vəsaiti aşağıdakı istiqamətlərdə istifadə olunur:

1. dövlət icbari şəxsi sığorta ödənişlərinin verilməsi;

2. sığorta ehtiyatının yaradılması;

3. Azərbaycan Respublikası Prezidentinin müvafiq aktı ilə müəyyən edilən hallarda müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsi;

4. idarəetmə xərclərinin ödənilməsi (sığorta haqları üzrə illik daxilolmaların proqnozunun 5 (beş) faizədək hissəsi);

5. qanunla müəyyən edilən digər istiqamətlər.

Hər il üçün dövlət icbari şəxsi sığorta üzrə gəlir və xərclərin bu Qaydanın 3.1-ci bəndində qeyd edilmiş istiqamətlər üzrə bölgüsü Nazirlik tərəfindən təsdiq edilir. Sığorta ehtiyatından sığorta ödənişi almaq hüququ olan şəxslərin sayında kəskin artım nəticəsində sığorta ödənişləri üzrə illik gözlənilən xərclər sığorta haqları üzrə illik gözlənilən daxilolmadan artıq olduqda, gözlənilən sığorta ödənişləri üzrə xərclər və sığorta haqları üzrə daxilolmalar arasındakı kəsirin maliyyələşdirilməsi; sığorta ehtiyatının həcmi sığorta haqlarının illik proqnoz həcminə bərabər olduqda, sığorta ehtiyatının həcminin artırılması dayandırılmaqla, onun depozitə yerləşdirilməsindən əldə edilən gəlir hesabına bu Qaydanın 3.1.3-cü yarımbəndində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi istiqamətlərdə istifadə olunur.

**M a d d ə 7. Qanunun pozulmasına görə məsuliyyət**

**Bu Qanunun pozulmasına görə vətəndaşlar və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.**

**1. Maddənin məqsədi** – Şərh edilən Qanunun pozulmasına görə vətəndaşlar və vəzifəli şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşımasının müəyyən edilməsi, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin təmin edilməsidir.

**2. Qanunun pozulması** – Qanunda nəzərdə tutulan normaların tələblərinə riayət olunmaması, qanunun normalarının tətbiqi zamanı vəzifə səlahiyyətlərindən sui-istifadə, bilə-bilə qanunun müddəalarına zidd davranış nümayiş etdirmək, Qanunun normalarının tətbiqi zamanı digər şəxslərin hüquq və azadlıqlarını pozmaq, onlara maddi və mənəvi zərər vurulmasını ehtiva edir. Qanun normasının pozulması hərəkət və hərəkətsizlikdə ifadə oluna bilər. Qanun pozuntusunun baş verməsi üçün onu pozan şəxsin əməlində təqsirlilik özünü nümayiş etdirməlidir. Təqsir qəsd və ehtiyatsızlıq formasında təzahür edə bilər.

**3. Vətəndaşlar** – Azərbaycan Respublikası Konstitusiyasının 51-ci maddəsinə əsasən Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır.

Azərbaycan Respublikasının vətəndaşlığı onun əldə edilməsi əsaslarından asılı olmayaraq hamı üçün bərabərdir.

Azərbaycan Respublikası vətəndaşlarının hüquqları, azadlıqları və vəzifələri onların mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən, məşğuliyyət növündən və xarakterindən, yaşayış yerindən, həmin yerdə yaşadığı müddətdən və başqa hallardan asılı olmayaraq bərabərdir.

Aşağıdakı şəxslər Azərbaycan Respublikasının vətəndaşları sayılırlar:

– "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanunun qüvvəyə mindiyi günədək Azərbaycan Respublikasının vətəndaşlığında olmuş şəxslər, o şərtlə ki, Azərbaycan Respublikasının vətəndaşı bu Qanunun qüvvəyə mindiyi günədək Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olanlar;

– 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının və ya başqa dövlətin vətəndaşı olmayan, lakin Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər;

– 1988-ci il yanvarın 1-dən 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının ərazisində məskunlaşmış qaçqınlar;

– "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanunun müvafiq surətdə Azərbaycan Respublikası vətəndaşlığını əldə etmiş şəxslər.

Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi, 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı, Azərbaycan Respublikası vətəndaşının pasportu Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənədlərdir.

**4. Vəzifəli şəxslər** – Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeydinə əsasən həmin Məcəllənin "Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər" maddələrində "vəzifəli şəxs" dedikdə aşağıdakı şəxslər başa düşülür:

1. hakimiyyət nümayəndələri, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada dövlət orqanlarına seçilmiş və ya təyin edilmiş, yaxud xüsusi səlahiyyət əsasında dövlət və ya yerli özünüidarə orqanlarını təmsil edən şəxslər, zabit, gizir və ya miçman olan hərbi qulluqçular, dövlət qulluqçuları (dövlət qulluğunun xüsusi növündə çalışan şəxslər daxil olmaqla), bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları;

2. dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən edilən qaydada qeydə alınmış şəxslər;

3. dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarının, o cümlədən publik hüquqi şəxslərin, həmçinin kommersiya və qeyri-kommersiya təşkilatlarının rəhbərləri və işçiləri;

4. dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, o cümlədən publik hüquqi şəxslərdə, həmçinin kommersiya və qeyri-kommersiya təşkilatlarında xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər;

5. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər;

6. xarici ölkələrin dövlət orqanlarının vəzifəli şəxsləri, xarici ölkələrin seçkili dövlət orqanlarının üzvləri, beynəlxalq təşkilatların vəzifəli şəxsləri və digər qulluqçuları, beynəlxalq parlament assambleyalarının üzvləri;

7. beynəlxalq məhkəmələrin hakimləri və digər vəzifəli şəxsləri, Azərbaycan Respublikası və ya xarici ölkələrin qanunlarına, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq

müqavilələrə əsasən fəaliyyət göstərən yerli, xarici və beynəlxalq arbitrlər, xarici iclasçılar.

Şərh edilən Qanunun pozulmasına görə məsuliyyət daşıyan vəzifəli şəxslərin dairəsini də eyni şəxslər təşkil edir.

**5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada** anlayışı onu ehtiva edir ki, vətəndaşlar və vəzifəli şəxslərin şərh edilən Qanunun normalarının tələblərini pozması yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyətə səbəb ola bilər. Bu isə o deməkdir ki, şərh olunan Qanunun normalarının pozulması halının məsuliyyətə səbəb olması üçün ilkin olaraq bu müvafiq Qanun normalarında pozuntu kimi nəzərdə tutulmalı, bundan sonra həmin pozuntuya görə məsuliyyətin reallaşdırılması da müvafiq qanunvericiliklə müəyyən ediliən qaydada həyata keçirilməlidir.

Məsələn, vəzifəli şəxsin Qanunu pozmasına görə cinayət məsuliyyətinin reallaşdırılması üçün ilkin olaraq onun törətdiyi əməl CM-nin müvafiq maddəsində cinayət kimi nəzərdə tutulmalı, bundan sonra vəzifəli şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinə uyğun qaydada həyata keçirilməlidir.

**6. Məsuliyyət**. İctimai münasibətlər sosial normalar vasitəsilə nizama salınır. Sosial normalar sistemində isə əxlaq və hüquq normaları əsas yer tutur. Həmin normaların səciyyəvi cəhəti bir tərəfdən onları yaradan subyektlərin iradəsini ifadə etmələrində, digər tərəfdən isə göstərişlərinin ünvanlandığı subyektlərin iradəsinə təsir vasitəsi olmasındadır. Ona görə də, məsuliyyət anlayışının mahiyyətinin və ilkin şərtlərinin müəyyən edilməsi üçün subyektin iradəvi hərəkət və hərəkətsizliyi obyektiv və subyektiv amillərlə əlaqədə nəzərdən keçirilməlidir. İctimai münasibətlərin subyektlərinin məsuliyyətinin ilkin şərti onların müəyyən şəraitdə

qərar qəbul etmək üçün subyektiv qabiliyyətindən ibarətdir. Yəni subyekt bir neçə davranışdan öz iradəsi ilə birini seçməklə nəticədə həmin seçdiyi davranışa və onun nəticələrinə görə məsuliyyət daşıyır.

"Hüquqi məsuliyyət" termini bir çox hallarda şəxsin üzərinə qoyulmuş vəzifələrin hazırda və gələcəkdə həyata keçirməyə görə məsuliyyəti mənasında işlədilir. Bu pozitiv məsuliyyətdir. Pozitiv məsuliyyət ümumi mənafe naminə dövlət və cəmiyyət qarşısında vətəndaşlıq borcu ilə əlaqədar olan faydalı hərəkətlərin həyata keçirilməsindən ibarətdir.

Qeyri-qanuni əmələ görə məsuliyyət, yəni hüquq pozuntusuna görə məsuliyyət retrospektiv məsuliyyət adlanır. Bu məsuliyyətə neqativ məsuliyyət də deyilir. Neqativ məsuliyyət hüquq pozuntusu ilə əlaqədardır. Hüquq pozuntusu şəxsin məsuliyyətinin ölçüsünün müəyyən edilməsi üçün faktiki əsası təşkil edir. Neqativ məsuliyyət şəxsin törətdiyi hüquq pozuntusuna görə cavab vermək vəzifəsidir, yəni məsuliyyət hüquq pozuntusu törədən şəxs üçün cavabdehlik vəzifəsidir. Bu məsuliyyət bir çox hallarda dövlət məcburedicilik funksiyasının həyata keçirilməsi ilə əlaqədar olur. Lakin bəzi hallarda, məsələn, əmlaka ziyan vurulduqda, müqavilə pozulduqda vurulmuş ziyanın ödənilməsi hökmən dövlət məcburedicilik tədbirinin tətbiqini tələb etmir. Şəxs vəzifəsini yerinə yetirməkdən imtina etdikdə dövlət məcburedici tədbirlərinin tətbiqinə zərurət yaranır. Cinayət və inzibati məsuliyyətdə isə, şəzs hüquq pozuntusuna görə təqsirləndirildiyi vaxtdan dövlət məcburedici qüvvəsi tətbiq olunur.

Hüquqi məsuliyyətin fikir və düşüncərə görə deyil, ancaq hüquqazidd əmələ görə meydana çıxması onu ehtiva edir ki, şəxs ancaq fikir və düşüncələri xarici ifadəsini tapdıqda məsuliyyətə cəlb oluna bilər. Hüquqi məsuliyyətə cəlb etmək üçün əsas kimi ancaq hüquq subyektinin əməli çıxış edə bilər.

Hüquq pozuntusu subyektinin əməlində yalnız təqsir olduqda məsuliyyətin yaranması prinsipi onu göstərir ki, subyektin təqsiri olmadıqda məsuliyyətdən söhbət gedə bilməz.

Qanunilik prinsipi onu nəzərdə tutur ki, hüquqi məsuliyyət yalnız hüquqi əsas mövcud olduqda, yəni hər hansı əməl dövlət tərəfindən hüquq pozuntusu kimi – cinayət, inzibati xəta və s. nəzərdə tutulduqda yarana bilər.

Hüquqi məsuliyyətin ədalətlilik prinsipi o deməkdir ki, məsuliyyətin ölçüsü törədilmiş əmələ müvafiq olmalıdır. Ədalətlilik, həmçinin onu göstərir ki, bir hüquq pozuntusuna görə bir dəfə cəza tətbiq oluna bilər. Həmçinin bu cəza insan ləyaqətini alçaltmamalıdır.

Hüquqi məsuliyyətin məqsədəmüvafiqlik prinsipinə əsasən hüquq pozuntusuna görə tətbiq edilən dövlət məcburedicilik tədbiri subyektin sosial keyfiyyətlərinə müvafiq olmalıdır. Bu prinsip hüquq pozuntusunun subyektinin şəxsiyyəti, onun özünün hərəkətlərinə münasibətindən asılı olaraq ona fərdi cəza tədbiri tətbiq edilməsini şərtləndirir. Cəzanın fərdiliyi onun müsbət nəticə verməsinin əsas amillərindəndir.

Cəzanın labüdlüyü prinsipi onu nəzərdə tutur ki, heç bir hüquq pozuntusu cəzasız qalmamalıdır. Bu dövlətin hüquq mühafizə fəaliyyətinin səmərəliliyinin yüksəlməsinə, hüquq qaydası və qanunçuluğun möhkəmləndirilməsinə səbəb olur.

Məsuliyyəti nəzərdə tutan hüquq normalarının hansı sahəyə məxsus olmasından asılı olaraq məsuliyyətin cinayət məsuliyyəti, inzibati məsuliyyət, mülki hüquqi məsuliyyət, intizam məsuliyyəti kimi növləri fərqləndirilir.

### 7. İntizam məsuliyyəti

İntizam məsuliyyəti, bir qayda olaraq iş yerlərində daxili intizam və ya davranış qaydalarının pozulmasına görə tətbiq edilən tənbeh tədbirləridir. İşçilər əmək müqaviləsinin şərtlərini, müəs-

sisədaxili intizam qaydalarını pozduqda qanunvericiliklə müəyyən olunmuş qaydada onları intizam məsuliyyətinə cəlb etmək məsələsi meydana çıxır.

Əmək Məcəlləsi müəyyən edir ki, işçi həmin Məcəllə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş vəzifələrini yerinə yetirmədikdə və ya hüquqlarından sui-istifadə etdikdə və yaxud əmək müqaviləsi üzrə öhdəliklərini icra etmədikdə, işəgötürən işçini intizam məsuliyyətinə, qanunvericilikdə nəzərdə tutulmuş hallarda isə digər məsuliyyətə cəlb edir.

**8. Cinayət məsuliyyəti** – şəxsin etdiyi cinayətə görə dövlət qarşısında müəyyən şəxsi və ya əmlak xarakterli cəza çəkmək vəzifəsidir. Cinayət məsuliyyəti yalnız Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi nəticəsində yaranır. Cinayət törətməkdə təqsirli olan şəxsin etdiyi cinayətə görə dövlət qarşısında cavabdehlik vəzifəsi yaranır. Cinayət əməlinin ictimai-təhlükəliliyi, qanunda həmin əmələ görə nəzərdə tutulan cəzanın hədləri, cinayət məsuliyyətini ağırlaşdıran və yüngülləşdirən hallar, əməli törədən şəxsin şəxsi keyfiyyətləri nəzərə alınmaqla məhkəmə tərəfindən cinayəti törədən şəxsə cəza tətbiq olunur.

Şərh olunan Qanunun pozulması hallarının cinayət məsuliyyətinə səbəb olması, bir qayda olaraq "Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər" fəslində nəzərdə tulan əməllərin törədilməsi ilə baş verə bilər. Məsələn, Qanunun normalarının tələblərinin pozulması vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin

hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmaqda ifadə olunarsa, CM-nin 308-ci maddəsi ilə cinayət məsuliyyəti meydana çıxa bilər.

Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə, bu əməllər xeyli və ya külli miqdarda törədilməsi şəhid ailələrinin sosial müdafiəsi üçün nəzərdə tutulan vəsaitlərlə bağlılığı olduqda CM-nin 308-1 maddəsinə nəzərdə tutulan cinayət məsuliyyətinə səbəb ola bilər.

Şərh olunan Qanunun pozulması vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda təqsirli şəxsə münasibətdə CM-nin 309-cu maddəsinin tətbiqi zərurəti meydana çıxacaqdır.

Şərh olunan Qanun pozulması rüşvət alma (passiv rüşvətxorluq), rüşvət vermə (aktiv rüşvətxorluq), vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri), vəzifə saxtakarlığı kimi cinayət əməllərində də ifadə oluna bilər.

**İnzibati məsuliyyət** – şəxsin törətdiyi inzibati xətaya görə dövlət qarşısında müəyyən şəxsi və ya əmlak xarakterli cəza çəkmək vəzifəsidir. İnzibati məsuliyyəti yalnız Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi ilə nəzərdə tutulmuş inzibai xəta tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi nəticəsində yaranır. İnzibati xəta törətməkdə təqsirli olan şəxsin etdiyi inzibati xətaya görə dövlət qarşısında cavabdehlik vəzifəsi yaranır. İnzibati xəta əməlinin ictimai-təhlükəliliyi, qanunda həmin əmələ görə nəzərdə tutulan cəzanın hədləri, inzibati məsuliyyəti ağırlaşdıran və yüngülləşdirən hallar, əməli törədən

şəxsin şəxsi keyfiyyətləri nəzərə alınmaqla inzibati xətanı törədən şəxsə cəza tətbiq olunur. İnzibati məsuliyyətin əsasında cinayət məsuliyyəti ilə müqayisədə daha az ictimai təhlükəli hüquqazidd əməl durur.

Şərh olunan Qanun kontekstində İnzibati Xətalar Məcəlləsinin 594-1 maddəsində nəzərdə tutulan inzibati xətaya görə inzibati məsuliyyəti meydana çıxa bilər. Həmin maddəyə əsasən:

594-1.1. Vətəndaşların müraciətləri haqqında qanunvericiliyin pozulmasına, yəni:

594-1.1.1. “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq verilən müraciətin qəbul edilməməsinə;

594-1.1.2. vətəndaşların müraciətlərinin aidiyyəti üzrə baxılması üçün qanunazidd hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən müraciətə baxan subyektə və ya onun vəzifəli şəxslərinə göndərilməsinə;

594-1.1.3. vətəndaşların qəbulunun “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq təşkil edilməməsinə;

594-1.1.4. dövlət orqanlarının və vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətinin və ya işinin tənqid edilməsi ilə bağlı, yaxud vətəndaşın və ya digər şəxslərin hüquq və azadlıqlarının bərpası və müdafiəsi məqsədi ilə edilən müraciətə görə vətəndaşın təqib edilməsinə görə – vəzifəli şəxslərə xəbərdarlıq edilir və ya onlar yüz manat məbləğində, hüquqi şəxslər iki yüz manat məbləğində cərimə edilir.

İnzibati Xətalar Məcəlləsinin 594-1.1.4-cü maddəsində nəzərdə tutulmuş əməllərdə cinayət tərkibinin əlamətləri olduqda, həmin əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur.

Digər bir missal kimi İnzibati Xətalar Məcəlləsinin 601-ci maddəsini göstərmək olar. Həmin maddəyə əsasən hüquq müəyyən edən sənədlərin verilməsi üçün qanunvericilikdə nəzərdə tutulmayan sənədlərin tələb edilməsinə görə vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir

**9. Mülki məsuliyyət** – əmlak məsuliyyətinin növü olub, bir şəxsin digərinin həyatına, səhhətinə və ya əmlakına ziyan vurması ilə və ya şəxsin öx vəzifələrini yerinə yetirməməsi ilə əlaqədar olaraq meydana çıxır. Şərh olunan Qanunun kontekstində onun normalarının tələbləri şəxsə əmlak ziyanının vurulması ilə nəticələndiyi hallarda mülki məsuliyyət meydana çıxa bilər.

**M a d d ə 8. Bu Qanunun tətbiqi ilə əlaqədar məsələlərin həlli qaydası**

**Bu Qanunun tətbiqi ilə əlaqədar məsələlərin həlli üçün zəruri aktlar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilir.**

**1. Maddənin məqsədi** şərh olunan Qanun Qanunun tətbiqi ilə əlaqədar məsələlərin həlli üçün zəruri aktlar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edildiyini müəyyən etməkdir.

2. Şərh olunan Qanun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən bir sıra qərarlar qəbul edilmişdir. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

2.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 saylı qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi Qaydaları"

2.2. Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli, 128 nömrəli qərarı ilə təsdiq edilmiş "İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydaları

2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin15 iyul 2009-cu il tarixli 107 nömrəli Qərarı

2.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"

2.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 137 saylı, 1 aprel 2019-cu il tarixli "Görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə Komissiyanın yaradılması haqqında" Qərarı

2.6. Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 244 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası"

2.7. Nazirlər Kabinetinin 13 yanvar 2021-ci il tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda iştirak etmiş hərbi qulluqçulara və şəhid ailələrinə psixoloji yardımla bağlı bəzi məsələlər barədə" Qərarı

2.8. Nazirlər Kabinetinin 2 oktyabr 2021-ci ildə 289 saylı "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərən dövlət orqanlarının fəaliyyətinin təşkilinə dair Əlaqələndirmə Komissiyasının yaradılması barədə" Qərarı

2.9. Nazirlər Kabineti 5 avqust 2022-ci il tarixli 281 saylı qərarı ilə "Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin aparılması Qaydası"

2.10. Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 341 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə Qaydası"

2.11. Nazirlər Kabinetinin 20 noyabr 2024-cü il 485 saylı qərarı ilə “Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası”

2.12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin12 may 2025-ci il tarixli 157 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası”

2.13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 yanvar tarixli 18 nömrəli qərarı ilə təsdiq edilmiş “Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təyin olunması və ödənilməsi” Qaydaları.

Naşir:
**TURAL AXUNDOV**

Buraxılışa məsul:
**RUSLAN ƏLƏKBƏROV**

Dizayner: ***Səbinə Məmmədova***
Üzqabığı dizayneri: ***Könül Qasımova***
Texniki redaktor: ***Sədaqət Ələkbərova***
Korrektor: ***Rəhimə Lətifova***

Çapa imzalanmışdır: 12.09.2025. Kağız formatı: 60x90 $^{1}/_{16}$
Fiziki çap vərəqi: 18,5. Sifariş: 77. Tiraj: 200.

"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-nin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ1052, Fətəli xan Xoyski küç., (121a) 149
Tel.: (+994 12) 567-81-28/29
tahsilpublishinghouse

**Vəfaddin Ələm oğlu İbayev**
**Mirhüseyn Əziz oğlu Nəbiyev**

SUVERENLİK YOLÇULARI:
ŞƏHİDLƏR –
CİYƏRLİ VƏ CƏSUR İGİDLƏR

Bakı, “Təhsil Nəşriyyat-Poliqrafiya” MMC, 2025